Minaxanım Təkəli Nuriyeva

# MƏRKƏZİ RUSİYANIN TÜRK COĞRAFİYASI

(Etimoloji çalışma)

Bakı–2018

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Kl.2-3 + 26.h(2Poc)+81.2 Typк-3
M 91

**Elmi redaktoru:** **Nizami Cəfərov**
*AMEA-nın həqiqi üzvü, professor, millət vəkili*

**Rəyçi:** **Əzizxan Tanrıverdi**
*Filologiya elmləri doktoru, professor*

Minaxanım N.Təkəli. **"Mərkəzi Rusiyanın Türk coğrafiyası"** (Etimoloji çalışma).
Bakı, "Zərdabi LTD" MMC, 2018, 280 səh.

"Mərkəzi Rusiyanın Türk coğrafiyası (Etimoloji çalışma)" bu mövzuda ilk əsər sayıla bilər. Kitaba Moskva şəhəri və ətrafından başlamaqla Mərkəzi Rusiya vilayətlərinə daxil olan yer adlarının tarixinə, habelə linqvistik analizinə həsr olunmuş lüğət məqalələri daxildir. Burada Mərkəzi Rusiya regionunda Türk kökənli coğrafi obyektlərinin: kənd, şəhər, habelə çaylar, dağ, ərazi adları öz mənşəyinə, mənasına görə təhlil edilmişdir. Lüğətin tərtibində geniş elmi, diyarşünaslıq və sorğu-məlumat ədəbiyyatından istifadə olunmuş, tarixi sənədlər gözdən keçirilmişdir. Kitab təkcə dilçilər, tarixçi və coğrafiyaşünaslar üçün deyil, habelə Türkoloji axtarışların səmərəli nəticələrini maraqla izləyən geniş oxucu kütləsi üçün də nəzərdə tutulmuşdur. "Mərkəzi Rusiyanın Türk coğrafiyası (Etimoloji çalışma)" kitabı ilk dəfə çap olunur.

ISBN 978 9952 476 54 5

© M. Təkəli, 2018
© "Zərdabi LTD" MMC, 2018



## Tarix yaddaşdırsa, hər söz də bir tarixi abidədir

Çox doğru və ədalətli bir fikir var ki, şəhərlərin, kəndlərin eləcə də küçələrin, meydanların, hətta soyadlarının tarixi heç də mühüm bir sənəddən, qədim əlyazmalardan, arxeoloji tapıntılardan az əhəmiyyətli deyil. Bütün bu göstərdiklərimizi öyrənib araşdırmaqla etnoqraflar, ədəbiyyatçılar, dilçilər, tarixçilər məşğul olur. Amma yer-yurd adlarını, bununla birlikdə soy, nəsil, uruğ-tayfa adlarını öyrənənlər bütün saydığımız elmlərə, elmi bilgilərə malik olan cəfakeş alimlərimizdir. Çünki bu, bir dil faktı olmaqla bərabər güclü tarixi, coğrafi faktlardır, dərin həqiqətləri üzə çıxarmağa qabil olan tutarlı dəlillərdir. Nə yaxşı ki, bunları öyrənənlər, sayğı göstərənlər var.

Bütün yaradıcı fəaliyyətini ümumtürk mədəni irsinin araşdırılıb öyrənilməsi və qorunması işinə həsr etmiş professor Minaxanım Nuriyeva Təkəlinin yenicə hazırlayıb çapa təqdim etdiyi "Mərkəzi Rusiyanın Türk coğrafiyası (Etimoloji çalışma)" kitabı da uzun illər çəkilən zəhmətin bəhrəsi olub çox gərəkli mövzuya həsr edilmişdir.

Etimoloji istiqamətdə hazırlanmış bu kitabdan silinməz, yaddaqalan təəssüratlar hasil olur. Bir daha əmin olursan ki, həqiqətən də Türk xalqlarının möhtəşəm bir tarixi var və əslində dünyanın ən böyük imperiyalarını türklər yaradıb, bizlər isə çox zaman bu imperiyaların tarixindən özümüzü kənar tutmuş və varis olma rolumuzu unutmuşuq. Bu da təsirsiz ötüşməyib, nəticədə bir vaxt güclü olan həqiqətlər zəifləyib, ehtimallar dərəcəsinə enib, bu silinməz izlərin ərsəyə gətirdiyi davamlı ənənələr qırılıb, unudulubdur.

Bu məsələ ilə bağlı qeyd edək ki, heç bir şübhəyə yer qoymayacaq bir məlum həqiqət var ki, müəyyən dövrlərdə, xüsusilə də ilk və orta əsrlərdən başlayaraq, türklər müxtəlif coğrafiyalarda müxtəlif dövlətlər yaradıblar. Və onu da qeyd etmək yerinə düşər ki, bu dövlətlər arasında isə əlaqələr çox zaman münaqişəli olub. Sadəlövhcəsinə də olsa düşünürsən: əgər vaxtilə o dövrdə tarix yazılsaydı... Bəli, vaxtilə o dövrdə tarix yazılsaydı və bu tarix ayrı-ayrı sülalələrin deyil, türklüyün tarixi olsaydı, bu dövlətlər arasında münaqişələr də baş verməzdi. Tarix yaddaşdır. Böyük Atatürkə istinad edilən bu məşhur kəlamı boşuna deyilməyib; Ulu Atatürk bununla demək istəyib ki, biz – Türklər yaratdığımız tarixi yazmaq istiqamətində böyük bir qabiliyyət göstərmədiyimiz üçün nəticə acı olmuş; məlum ziddiyyətlər yaranmış, qaçınılmaz parçalanmalar meydana çıxmışdır. Zaman kecdikcə bunlar da öz növbəsində türkoloji araşdırmalar sistemində boşluqlar doğurmuşdur. Haqqında danışdışdığımız "Mərkəzi Rusiyanın Türk coğrafiyası (Etimoloji çalışma)" kitabı qeyd olunan mövzuda ilk araşdırma sayıla bilər və heç şübhəsiz, belə boşluqların doldurulmasına xidmət etməyə qadir bir əsər olacaqdır.

İndiyədək milli türkologiya elminin inkişafında özünün "Rus dilində Türk sözləri", "Türkəsilli Ruslar", Rusların Türk mənşəli soyadı və təxəllüslərinin etimoloji lüğəti olan "Türk imzası" çalışmaları, milli sərhədlərdən kənarda qalmış əski Türk yer-yurd adları tarixinə həsr etdiyi "Türk kitabı" kimi araşdırmaları ilə yadda qalan müəllifin bu yeni tədqiqatında Mərkəzi Rusiya regionunda toplayib üzə çixardiği Türk kökənli coğrafi obyektlərin: kənd, şəhər, habelə çaylar, dağ, ərazi adları öz mənşəyinə, mənasına görə təhlil edilmişdir.

Yer adları – zamanın keçmişilə indisinin möhkəm canlı bağlarıdır deyirlər; bu mənada bu bağlar da öz növbəsində qeyd olunan böyük bir regionun Türk tarixi ilə bağlı həqiqətlərinə də şahidlik edir.

Kitaba Mərkəzi Rusiyanın vilayətlərinə daxil olan şəhər, qəsəbə, kənd, çay və göl adlarının tarixinə, habelə linqvistik





tədqiqinə həsr olunmuş və hədsiz sayda – Moskvanın mərkəzindən başlasaq, burada ***Basmannaya, Arbat, Bolvannaya, Baraş, Balkan, Nabat bürcü, Bersen sahili, Balçuq, Orda, Beklemiş bürcü, Tolmaçevskaya, Berendey, Kitay*** *qorod*, ***Kalpaçnaya*** və s. adların, Moskvaaltı regionlarda ***Alpatevo, Baskaçi, Kobyakovo, Konçakovo, Kunakovo, Sayqatovo, Tarkanovo, Epançino, Konakovka, Barsuki, Baybaki, Kabanka*** (çay, göl), ***Kirpiçnaya, Yakşino, Başino*** və s. kimi lüğət məqaləsi daxildir. Bu sayı mini keçən Türk adlarının Rusiyada varlığı, əlbəttə heç bir vəchlə təsadüfi sayıla bilməz. Bu adlar Rusların ta qədimdən əxz etdiyi Bulqar dövləti mədəniyyəti, ardınca Qızıl Orda epoxasının mütləqliyinin bariz nişanələri hesab olunmalıdır.

Yerindəcə qeyd etmək lazım gəlir ki, lüğətin tərtibində geniş elmi, diyarşünaslıq və sorğu-məlumat ədəbiyyatından istifadə edilmiş, tarixi sənədlər gözdən keçirilmişdir. Mərkəzi Rusiyaya daxil olan vilayətlərdə, elə Moskvanın hətta daxili adlarında müşahidə edilən geniş və zəngin türk lüğəti layı göstərir ki, Türklərin ayağı dəyən elə bir coğrafiya yoxdur ki, orada mədəniyyət oyanıb çiçəklənməsin. Bu mənada tarixi Moskva şəhər ərazilərinin Türk adları bu möhtəşəm məntəqənin salınmasından, təşkilindən tutmuş mərkəzi şəhər kimi çiçəklənməsinə qədər olan taleyində Türk imzasını sübut edir

Hər bir milləti tarix formalaşdırır; yəni millətlər tarixin inkişaf prosesində formalaşır. Bu tarix boşuna yaranmır, nə də izsiz – səssiz silinib getmir, o hər hansı bir milli ideologiya üçün əsas, dayaq nöqtəsi ola bilir. Bu da ona gətirib çıxarır ki, yəni bir millətin, bir etnosun tarixini bilmədən onun gələcəyini müəyyənləşdirmək mümkün deyil. Çünki gəldiyimiz bu uzun yol və onun təcrübələri bizə gələcəyimizi qurmaq, onun haqqında fikirləşmək, bu istiqamətdə işləri planlamaq üçün lazımdır.

Nə gizlədək, hələ də Türk xalqlarının ümumi tarixi geniş şəkildə tədqiq olunmamışdır. Və təəssüf ki, bu gün ortada imperialist düşüncə ilə yazılmış türkoloji ədəbiyyat nümunələri

çoxdur. Bu yeni işdə və onun nəticələrində məqsəd hər şeydən əvvəl bizim dünya tarixində öz yerimizi, öz mövqemizi qazanmaq və bunu göstərməkdir. Bilirik ki, tarix bu və ya digər ideologiya üçün istinad olunacaq yeganə mənbədir və biz onun üzərində həqiqi statusumuzu bərpa edər, əldə saxlayar, yüksələ bilərik. Bu mənada gözlənilən nəticələr göz önündədir: Tarixi Moskva dövləti və nəhayət müasir Rusiyanın özəyi olan mərkəzi regionları üzrə türk yer adları işləndikcə Türk soyadları da üzə çıxarılır: çünki bu yer adlarının əksəriyyəti mənsub olduqları, bağlandıqları soyadları, hətta nəsil, şəcərə adlarıdır. ***Aksakovo, Kablukovo, Yarlıkovo, Aykanovka, Alaşevo, Eqanovo, Tokmakovo, Taptıkovo, Alımovo, Çaplıgino, Çeqodaevka, Kabanovo, Almazovo,Narışkino, Baburino, Baxmetovo, Arqunovo, Xanovo, Xatun, Baklanovo, Kuçukovo, Kablukovo, Sayqatovo, Yasakovski, Barışevo, Ataevka, Esaulovo, Barkanovo, Bakşeyevo, Dedenovo, Baturki, Taranovka, Satıevka, Bolqarı, Arxarovo, Moqol, Timiryazevo, Başkirovo...*** kimi yüzlərlə tarixi şəxsiyyət adları, o cümlədən nəsil-uruğ adları maraqlı görünür; müəllif onların hər biri haqda yığcam, dolğun olmaqla qənaətləndirici məlumat verir. Öz dediyi kimi, bu baxımdan coğrafi adların araşdırılmasına hökmən bağlı olduğu soy adlarının tarixi linqvistik izahı ilə başlamaq lazım gəlir ki, məhz bu özü "mübhəm" tarix səhifələrinin açılması üçün əvəzsiz üsuldur.

Fərəh hissi ilə qeyd etmək lazımdır ki, kitab təkcə dilçilər, tarixçi və coğrafiyaşünaslar üçün deyil, habelə Türk elmi sistemi ilə maraqlanan geniş oxucu kütləsi üçün də yararlı olacaqdır.

*AMEA-nın üzvü, Millət vəkili,*
*prof. Nizami Cəfərov*





## OXUCUYA

*Türklük sizə öyrətdiklərindən daha*
*böyük, daha geniş və qədim tarixdir.*

Hazırda müstəqil Türk Respublikalarının, o cümlədən vətənim Azərbaycanın xarici əlaqələrinin genişlənməkdə olduğu indiki mərhələdə tarixi keçmişi sıx qarşılıqlı əlaqə şəraitində cərəyan etmiş Türk soylu xalqların öz arasındakı əlaqələrinin öyrənildiyi kimi – bu xalqlarının tarixən digər xalqlarla da saxladıqları və yaşatdıqları münasibətlərin araşdırılmasına və nəhayət tədqiqatçıların bu sahələrdə qüvvələrinin birləşdirilməsinə böyük ehtiyac duyulur.

Bizim bu yolda məqsədimiz özlüyündə "siyasətsiz tarix" hesab edilən mədəni tarix məsələləri üzrə araşdırmalarımızı yürütməkdir. Bunun ki, heç kimə zərəri yoxdur, bu gözlənilməz "kəşflər" ilə istəyənləri sevindirdiyimiz kimi, "istəməyənlər"i də heç nəylə rəncidə etməyəcəyimiz qənaətindəyəm. Tarixə hörmət edirəm... Tarixdə Türk və tarixi coğrafiyada Türk izi məni daim düşündürür... Həm də bəzi skeptiklərə (belə məsələlərə münasibətdə onların sayı hədsiz dərəcədə çoxalır) sözüm: birmənalı, hətta laqeyd yanaşdığınız bu tarixi məsələlər niyə bu günün coğrafiyası ilə düşünülməlidir? Tarixə, keçmişə baxış istəyi niyə birmənalı olaraq inamsız, qeyri-ciddi qarşılanmalıdır?

Şərqi Slavyan xalqlarının, o cümlədən Rusların mədəniyyəti və əxlaqi mənbəyinin formalaşması və gücləndirilməsində, nəhayət rus dövləti quruculuğu işinin doğulması və qüvvətləndirilməsi sahəsində Türk dövlətçilik təcrübələri və dərsləri, böyük mədəniyyət təsirləri son dövrlər təkzibedilməz belə

faktlarla təsdiqlənməkdədir. Artıq qəbul etmək lazımdır ki, Moskva şəhəri və ətrafı, habelə canlı danışıqda "Moskvaaltı" deyə qullanılan Moskva vilayəti və habelə Mərkəzi Rusiya regionu (konkret olaraq Kaluqa, Kursk, Belqorod, Voronej, Tambov, Lipetsk, Tula, Tver, Orlov, Ryazan, Kostroma, Smolensk, Bryansk, Vladimir, İvanov, Yaroslav vilayətləri nəzərdə tutulur) Türk adları ilə zəngindir. Mərkəzi Rusiya tarixinə - keçmişin mürgülü səhifələrində müəmmalara qarışıb qeyb olan, yaddaşlardan da silinən "tarixçələr"ə işıq saçan Türk mənşəli bu adlar – ***Başkatovo, Bibikovo, Bulatovo, Buzuluk, Balışevo, Aydarovo, Barık, Balkaşinski, Barançik, Barışovo, Mamonovka, Suvorovo, Çaplıgino, Taldıkino, Timiryazevo, Yasırka, Tokay, Talızino, Tamlık, Kazar, Beketovo, Çigirinka, Çirikovo, Kuluntaevka, Karaulovka, Saltıki, Baskaçi, Çeqodaevo, Çulpanovo, Almazovo, Arxarovo, Tuqarino, Torkunovka, Baklanovo, Şişkovo, Xatun, Tuluçeyevo, Kondırev, Begiçevo, Bulqakovo, Çelişevo, Kubanovka, Kutuzovka, Karandakovo, Başmakovo*** və s bu sayaq soy, nəsil, tirə, uruğ, habelə möhtəşəm Türk əsilli ailələri ifadə etməklə həqiqi tarixin, gözardı edilmiş tale yazısının aşkara çıxarılmasına, öyrənilməsinə, nəhayət qəbullanmasına dəstək olur.

Son illərdə – dəqiq desək, 20 əsrin son kəsiyindən başlayaraq güclənməkdə olan araşdırmalar, xüsusən, Nikolay Baskakovun tədqiqləri nəticəsində Türk xalqlarının rusların maddi və mənəvi mədəniyyətlərinin müxtəlif sahələrinə böyük və güclü təsiri barədə ictimaiyyətdə artıq əvvəlki şübhəli, qərəzli düşüncələrdən fərqli, yeni, lakin bitkin rəy əmələ gəlməkdədir. Artıq türkologiyada (və əlbəttə Rusiyanın "qeyri-rəsmi tarixi"ndə) Şərqi slavyan xalqlarının tarixində Türkün rolu parlaq şəkildə və həqiqi, təkzibolunmaz dəyərdə təqdim olunmaqdadır. N.Baskakovun, xüsusən, *"İqor alayı haqqında dastan"ın türk leksikası", "Türk mənşəli rus familiyaları", "Moskva küçələrinin türk adları"* və alimin Maks Fasmerin *"Rus dilinin etimoloji lüğəti"* üzrə rus dilindəki türk leksik alınmalarıyla bağlı silsilə məqalələri və b.k. sovet dövründə yazılmış, lakin tarixə nəfis, qayğıkeş, eyni zamanda ötkəm, vicdanlı müdaxilələri bu fikirlərin gücünə, obyektivliyinə inamı da artırmaqdadır. Bu tədqiqlər böyük bəhrəsini verdi; böyük əməyin və inamın gücünə görə xüsusi məktəb yarada bildi. Bu məktəbi həm mövzuya cəsarətli və ədalətli yanaşma metodu, kamil üslub yetişdirən Andrey Nikolayeviç Kononov, Lev Qumilyev, İqor Georgiyeviç Dobrodomov, Vladimir Arakin və digərləri yaratdı. "Onlar tarixin dərinliklərindən işıq saçan türk leksikasını gördülər"[1]. Onu köklü bir mədəniyyətin bariz əlaməti kimi qəbul etdilər. Belə bir yaradıcılıq xətti əsrlərcə mövcud olan şovinist xətti pozub zəiflətməyə qadir oldu. Beləliklə, türkologiyada bu yeni işıqlı səhifəni, nəhayət yeni mərhələni sevinclə təqdir etmək, bu istiqamətdə aparılan işlərə qoşulmaq, onu yeni şəraitdə genişləndirərək, hərtərəfli bir tədqiqata əl qoymaq lazım gəlirdi.

Moskva Rus dövləti haqqında geniş yayılmış bir deyim var: "Rusu qaşı, altından tatar görünəcək". Yaxud, Moskva möhtəşəmliyinə görə öz xanına borcludur. (Москва обязана величием своим хану (Карамзин).

Həqiqətən, türklər (tatar dedikləri) Rusiya tarixində böyük mövqe daşımışdır. Bunlar yazıçılar, alimlər, elm-mədəniyyət xadimləri, dövlət adamları, sərkərdələr, hətta çarlar deməkdir. Qızıl Orda Moskva knyazlığını dəstəkləyirdi və bununla sonda da mərkəzləşdirilmiş bir dövlətin meydana gəlməsinə səbəb oldu. Əslində isə Rusu taqətdən salan daxili çəkişmələr idi. Moskva knyazlığının Xanlığın zəiflədirilməsinə və onların

[1] Qəzənfər Kazımov. Sənət düşüncələri. Bakı. Kitab palatası, 1997. s.296

növbə ilə itaət altına alınmasına; nəticədə bütün bunlar gələcək istilalara və Qızıl Orda topraqlarında Rus imperiyası qurulmasına yol açdı. Dünya mənafelər marağı ilə idarə olunduğundan kökünü, tarixini də bu müstəvidə təqdim etmə cəhdləri zaman-zaman bulunmaqdadır. Tarixi proseslərin müəyyən mərhələləri, yeni düzənləmələr ərəfəsində bunlar gözlənilləndir...

Bütün bunlar mövzunun xüsusən günümüzdə vacibliyini, aktuallığını və yeni istiqamətlərdə həllinin zəruriliyini təsdiqləməkdədir.[2]

Yada salmaq istəyirik ki, bu məsələ təkcə sırf dilə aid məsələ kimi yox, yalnız kompleks şəkildə, etnik, dil və mədəni əlaqələr fonunda tam öyrənilə bilər.

***

## Moskvanın tarixi toponimləri

Moskvaaltı yaşayış yerlərində və eləcə də şəhərin özündə Türklərin (tatarların) varlığı həqiqətən birmənalı şəkildə qəbul olunmuşdur. Əlbəttə, bu faktı bəyan edərkən bəzi yerlərin üstünlüyü də nəzərə alınmalıdır: Moskvanın mərkəzindən – düz göbəyindən başlasaq, burada ***Basmannaya, Arbat, Bolvannaya, Baraş, Balkan, Nabat bürcü, Bersen sahili, Balçuq, Orda, Beklemiş bürcü, Tolmaçevskaya, Berendey, Kitay qorod, Kalpaçnaya*** və s. adların Moskvayla bir, hətta ondan əvvəl doğuluşu Türklərin (tatarların) buranın yerli əhalisi olması qənaətini bir daha təsdiqləyir. Türklərin (tatarların) vaxtilə sıx yaşadığı Kolomensk, Kaşira, o cümlədən cənub-şərq istiqamətləri üzrə olan ərazilərdə Türk adları üstünlük təşkil edir. Odur ki, hazırda bu ətrafda tarixi Orda yolu (Kolomensk) üzərində ***Bulatnikovo, Tatarinovo, Yam, Aleyevo, Uzunovo, Zendikovo*** kimi türk yer adları sıralanıb durmaqdadır. Bu yolu tutub Moskvadan ayrılınca gördüyümüz ***Yusupovo, Tatarskoe, Bityaqovo, Dolmatovo, Şebantsevo, Bexteevo, Şaxovo, Mansurovo, Şeboçeevo, Ekimatovo, Murzino*** və s. adlar özünün türk əsasını mühafizə etməkdədirlər. **Orda** yolunda yerləşən ***Kaşira***, yaxınlığındakı ***Xatun və Serpuxov*** 15-16-cı yüzilliklərdə tatar xanları və şahzadələri üçün əlahiddə mülklər idi. Türk mənşəli adlari Moskvanın Oka çayı ətrafı regionlarında da (***Alpatevo, Baskaçi, Kobyakovo, Konçakovo, Novo Kunakovo, Sayqatovo, Tarkanovo, Yakşino, Tutıxino*** və s. üstünlük təşkil edir. Yer adlarındakı açıq-aşkar duyulan türkcə bu regionun tədqiqatçılarının da daim nəzər-diqqətini cəlb etmiş, təbii hal kimi qeyd edilmişdir.[3]

Türk memarlığı yadigarlari və ya slav memarlığında türk təsirləri, eləcə də şəhərsalma ənənəsi: Kalançalar, başnya, kupol, maydan, arbat, bazar və s. dildə yaşayan vahidlər bu təsirlərin yaşadığını göstərməkdədir. Bunlar Rus -Türk münasibətlərinin hər bir mərhələsində qazanılan irs üzrə nəticələrimizdir...

Bunlarla bərabər vaxtilə müxtəlif sənət adamlarının yaşadıqları şəhərdaxili ərazi adları – məhəllələr, həyətlər və bu kimi çoxlu sayda söz və ifadələr bugünkü Moskvanın daxili toponimik quruluşunu təşkil edir, ümumiyyətlə, rus mədəniyyətində türk-tatar ortaqlığının inkaredilməz və pozulmaz nişanələrini daşıyır. Bu mənada tarixi Moskvada vaxtilə olmuş məhəllələr, indisə adları bu şəhərin köksündə yaşayan bir sıra mədəni-tarixi anlayışları ifadə edən adlar - ***Arbat, Ordınka, Balçuq, Taqanka, Tolmaçevskaya, Yamskaya, Basmannaya, Kalpaçnaya*** və s. ayrılıqda hər biri elə məhz Moskva deməkdir; Moskvalıların dilində-nitqində, tarixi Moskvadan bəhs edən ədəbi-bədii əsərlərdə işlənib dolaşmaqdadır.

Moskvanın daxili küçə, meydan adlarını incələməyə girişdikdə hökmən orta əsrlər şəhərlərinin struktur özəllikləri

[2] Minaxanım Təkəli. Rus dilində Türk sözləri, Bakı, Nurlar, s.12

[3] Вагнер В.В. Топонимия Московского региона. М., 2009; s.19

ilə -tanış olmaq lazım gəlir. Hər bir orta əsr şəhərində, o cümlədən qədim Moskvada mövcud olan məhəllələri (slabodalar) xüsusi diqqət yetirilməsi məsələdir. Moskva küçələrinin adları əsasən əski slaboda "məhəllə"lərdən formalaşmışdı. Slaboda rusca svaboda "azadlıq" sözünün xalq danışığında təhrif olunmuş şəklidir. Knyazlar şəhər sənətkarlarına azadlıq vermişdilər ki, onlar öz peşəsilə məşğul olsunlar. Odur ki, orta əsr sənətkarlarının yaşayıb işlədikləri ayrı-ayrı məhəllələr var idi. Burada eyni peşə adamları yaşayardı; vaxtilə türk-tatar ab-havasında nəfəs alan tarixi Moskvanın bu gün xəritəsində onlardan qəribə, mübhəm, lakin tarix təəssübkeşliyi saxlayan adlar qalmışdır. Bu mənada Moskvada bir çox caddə və döngələr öz adını vaxtilə mövcud olan məhəllələdən almışdılar. Deyək ki, Yamçı adı ilə bağlı küçələr öz adını vaxtilə bu ərazidə yamçılar (yol xidməti – poçt, nəqliyyat məmurları; arabaçılar) yaşayan slabodalardan almışlar. Məsələn, Böyük Doroqomıj Yamçı slabodası (indi bu ərazidə Böyük Doroqomıj yolu keçir); Roqoj Yamçı slabodası (indi bu ərazidə Böyük və kiçik Roqoj küçələri yerləşir); Tver Yamçı slabodası (indi 1-ci və 2-ci Yamçı küçələri), Yam çölü (Yamskaya polya) küçəsininsə sonradan adını dəyişib (1935) burada "Pravda" qəzeti redaksiyası yerləşdiyinə görə adı "Pravda" küçəsi qoyulmuşdur.[4]

Moskvanın tarixi simasını ifadə edən özünün qeyri-rus mənşəyi ilə elə ilk baxışdan diqqəti cəlb edən bu adlar istər-istəməz adamı düşündürməkdədir. Bəzi örnəkləri nəzərdən keçirək: yəni Moskvaaltı Puşkin və Kolomna rayonlarına daxil olan **Çerkizovo** kəndləri, Böyük və Kiçik Çerkizov caddələri, digər Çerkizov küçəsi, məşhur Çerkizov bazarı adları Moskvada haradandır?

[4] Горбаневский М.В. В мире имен и названий – Знания, 1983. с.39; Москва-Энциклопедия.ст.315





Bu adın tarixinə nəzər salsaq görürük ki, Çerkizov küçələrinin əhatə etdiyi ərazilər indi şəhərə qarışmış Moskvaaltında abad Çerkizovo kəndi ilə (XIV əsrdən məlumdur) əlaqədardır; məşhur boyar Çerkizlərin (əslən Ön Qafqazdan köçmə Çerkasskilərlə qarışdırmamalı) malikanələri olan kəndin ucsuz-bucaqsız əraziləri var idi.[5] **Çerkizovo** kəndi 1742-ci ildən ta şəhərə çevrilənədək Boyar Çerkiz Kulikovo işlənirdi. Kəndlər Andrey Çerkizə-Kulikovo döyüşü iştirakçısına – Dmitri Donskoyun müttəfiqi Böyük Orda şahzadəsi Çerkizə mənsub idi.[6]

Çerkizovo kəndi indi şəhərə qarışmışdır. Dmitri Donskoyun vaxtında Qızıl Ordalı xan oğlu Çerkez xaçlanarkən öz adını familiya götürmüşdü. Çerkizovlar çox zəngin idilər; onların digər kəndi Çerkizovo Kolomna altında yerləşir. Başqa bir Çerkizovo Klyazmadan 20 km. aralıdadır. Moskvanın 20 kilometrliyində şimal-qərb istiqamətində də Çerkizovo kəndi qalmaqdadır.[7]

Dmitri Donskoyun vaxtında Qızıl Ordalı xan oğlu Çerkiz xaçlanarkən özünə yayqın rus adı olan ənənəvi İvan adını götürdü. Onun oğlu Andrey İvanoviç Çerkizov Kulikovo çölündə vuruşda tatar alayına başçılıq edirdi. Mamayla döyüşdə (1380) öldürülmüşdü. Əvvəllər çox varlı olan, lakin yoxsullaşmağa üz qoymuş ailə topraqlarını satmağa başladıqda Çerkizovo kəndini öz həmyerliləri Özəkə (Ozak) satdı. Özək xaçlandı və Ozakov soyadını götürdü. O bu kənddə Çerkizov kilsəsini tikdi. İndi bu kilsənin yanındakı küçə Azakovskaya adlanır.[8] İlya və Sergey Ozakov adlı iki qardaş sarayda mühüm

[5] Подмосковье. Памятные места в истории русской культуры 14-19 веков, М, Московский рабочий, 1955, с.319
[6] Сытин П.В. Откуда произошли названия улиц Москвы, Московский Рабочий, 1959.40, 325
[7] Вагнер Б.Б. Топонимия Московского региона, М., 2009; с.19; 40, 325
[8] Подмосковье. Памятные места в истории русской культуры 14-19 веков, М, Московский рабочий, 1955, с. 543

vəzifə tutmuşdular. Onlar Çerkizov kəndini monastıra verdilər. İkinci iri Çerkizov kəndi Kolomna altında yerləşir. Digər Çerkizov Klyazmadan 20 km. aralıdadır. Bu, İvan Qroznının ana qohumu boyar Qlinskilərə (Qlinski xan Mamayın oğlu Mənsur Kiyatın övladlarının xristianlığı qəbul etdikdən sonra işlətdikləri familiya idi) mənsub idi. Çar özü bu kəndi onlara bağışlamışdı.[9] Moskvadakı **Böyük və Kiçik Çerkizov küçələri və döngələri** 14-cü əsrdən məlum olan kənddən yadigardır, daha doğrusu kənd və ərazisindəki Çerkiz meşəliyinin şəhərə qarışması ilə...

Coğrafi adlarda üstünlük Türk mənşəli soyadlarına mənsubdur; özlüyündə bariz mədəni fakt olan familiyalar malik olduğu öz tarixi, etimoloji xüsusiyyətlərini yaşayış məntəqə adlarına köçürmüşlər. Bu baxımdan coğrafi adların araşdırılmasına bağlı olduğu soy adlarının tarixi linqvistik izahı ilə başlamaq lazım gəlir. Moskva vilayətinə daxil olan bu qəbildən ***Kablukovo, Dedenovo, Baskakovo, Bulatovo, Arbekovo, Arbuzovo, Almazovo, Kolpakovo, Tarakanovo, Tarxanovka, Toktakovo, Balakirevo, Ulyanino, Erdenevo, Kantemirovo, Karabanovo, Eqanovo, Baxmetovo, Baklanovo***... adları göstərə bilərik.

Moskvanın mərkəzi hissələrində nəzərə çarpan **Aminovlarla** əlaqədar adlar da diqqət çəkir; Salnamələrdən göründüyünə görə, Aminovlar (əvvəl Amin, Aminev olaraq qeyd olunmuşlar) nəslinin qaynaqlara ilk düşən nümayəndəsi İvan Amin 14-cü əsrin əvvəllərində yaşamış, çar ailəsi tatar Qodunovlar kimi Kostroma əsilzadələrindən sayılırdılar. 1349-cu ildə böyük Moskva knyazı Simeon Qordının yanında elçi Amin məlumdur. Aminevlər soyunun nəsil başçısı Ratşidir. Bu ocaqdan Buturinlər, Puşkinlər çıxmışdır. Ratşinin 10-cu xələfi İvan "Amin" (etibarlı, dinc) soyadı daşımışdır. Aminevlər 1547-ci

[9] Подмосковье. Памятные места в истории русской культуры 14-19 веков, М, Московский рабочий, 1955, 544





ildən başlayaraq Rus xidmətinə girmişlər. Həmin ildə Kazan üzərinə hücumda iştirak etmiş, Volqa üzərində öldürülmüşdür. Onun adı indiyədək Pravoslav kilsəsində daim oxunulan inanc fədailəri sırasındadır...

İndi bu adla bağlı xatirələr **Aminevo** (Аминьево) – Moskvanın cənub-qərb istiqamətində – Naverşak çayının Setun çayına qovuşduğu tarixi ərazi adında yaşayır. Bu yerdə Aminevo mülkü XIV əsrdən məlumdur; həmin vaxtdan o, Rus torpağına daxil edilmişdir. Bu torpaqlar dediyimiz kimi, Böyük kn. Dmitri Donskoyun silahdaşı İvan Aminə məxsus idi; kənd də adını sahibkarın adından almışdı. 1960-cı ildən artıq Moskva şəhəri ərazisinə qatılmış, hazırda bu ad özünü rəsmən şosse və körpü adında (Setun çayı üzərində Aminevskiy most-körpü) saxlamaqdadır.

Günümüzdə də mövcud olmağa davam edən adların varlığı bir sıra səbəblərlə əlaqədardır; bunun birincisi: Ərazi baxımından yerin əsil sahibləri olan Türk şəxsiyyətləri və ya tayfalarıdır. Bundan sonra tatar-moğol faktoru və bunun ardınca müxtəlif xarakterli Rus-Türk münasibətləri nəticəsində ortaya çıxan adlar. Adların meydana gəlməsi bir çox hallarda ayrıca real hadisələrlə bağlıdır. Məsələn, **Böyük Balvan** (Большая Болванная) **və ya Balvanovka** adı necə yaranmışdır?

Elmi, habelə kütləvi mənbələrdən bilindiyi üzrə Kremldən azacıq aralıdakı meydanda səfirlər qəbul edilirdi. Odur ki, elçilərin, rəsmi nümayəndəliklərin qarşılandığı bu yerin şəhər daxilində böyük tarixi anlamı vardır. Tarixə nəzər salsaq görərik ki, Rus knyazları Moskvaya gələn Mərkəzi Orda hökuməti nümayəndələrini təntənəli şəkildə bu meydanda qəbul edirdilər. Bir növ etimadnamələrini təqdim etmək məqsədilə səfirlər basma və xan möhrünü, eləcə də dövlət simvolunu, üzərində xanın rəsmi olan heykəlcikləri – balvanları təqdim edər, fərmanı oxunurdu. Bu zaman elçinin də, qarşılayanların da dizləri altına samur dərisi döşəyirdilər. Fərman oxunuşu zamanı hamı da dizləri üstə

düşüb elçiləri dinləyərdilər. O tarixi yer Moskvadakı bugünkü Bolvanovkadır. Yerin mühüm əhəmiyyət daşıdığı bir də ondan məlum olur ki, rus çarı III İvan tatar idarəsindən çıxdığını nümayişkaranə şəkildə ifadə etmək məqsədilə həmin fəxri Bolvanovka meydanında 1485-ci ildə Spas Preobrajenie kilsəsini tikdirdi[10]. (Bu abidə 1930-cu ildə ateist təbliğatı sayəsində sökülən məbədlər sırasındadır).

Karamzin "Rus dövlətinin tarixi" əsərində yazırdı ki, axırıncı Bizans şahzadəsi Sofiya Paleoloq arvadı ölən rus çarı III İvana gəlin gəldikdə sarayın indiyədək mövcud olan qayda-qanunlarını rədd etdi. Böyük knyaginya tez-tez çara deyirdi: mən hələ çoxmu xanın köləsi olacağam? Karamzinin dediyinə görə şöhrətpərəst və hiyləgər Sofiya gəlin gələrkən yunan qaydalarını Rus sarayında bərqərar edəcəyinə niyyət etmiş, hətta özü ilə yunan simvol və nişanlarını nümunə üçün gətirmişdi. Sofiya Orda səfirlərinin təntənəli qəbulunu da qadağan edib ortadan götürdü. Amma ad bu gün də yaşamaqda, bəlli bir tarixi çağın xatirələrinə tanık durmaqdadır.

Moskvaaltında **Baskaki** (baskaklar) kəndinin adı buranın keşikçi məntəqəsi olması ilə əlaqədardır. Xanın səlahiyyətli nümayəndələri olan baskaklar əhalini siyahıyaalınması ilə məşğul olur, vergilər yığır, aparılan malların rüsumlarını toplayırdılar. Odur ki ticarət yolları və yarmarka məntəqələri üstündə çox zaman baskaklar məskunlaşırdılar. Yauza çayı üstündəki ticarət yolu uzaq keçmişdən məlumdur. Bu ticarət yolunun qorunması və yola nəzarətlə xan baskakları məşğul olurdu. Baskak kəndi həmin məntəqədən – keşikçi məntəqəsindən yadigardır.[11]

Tədqiqatladan əldə olan nəticələr göstərir ki, 15-ci əsrədək, yəni III İvan hakimiyyəti illərinədək Kremldə Xan (tatar)

[10] Карамзин,V т, II

[11] Подмосковье. Памятные места в истории русской культуры 14-19 веков, М, Московский рабочий, 1955, с.29





sarayı yerləşirdi. Belə ki, sənədlərdə Ordadan gələn səlahiyyətli nümayəndələrin düşdüyü **Raxmanov evi**ndən bəhs edilir. Habelə **Bersən Beklemişevin** də Kremldəki böyük torpaq mülkündən və sarayından danışılır. (Yeri gəlmişkən çox-çox sonralar 1611-12-ci ildə Polşa-Litva müdaxiləçilərinə qarşı xalq hərəkatına başçılıq edən knyaz Pojarskinin anası da Beklemişevlərdən idi) Hamının yaxşı bildiyi əhvalat isə tatarların Kremldə və Moskvanın görkəmli yerlərində yaşadıqları barədədir: xan Canı bəyin xanımı Taydulanın gözlərini sağaltdığına görə həkim mitropolit Aleksiyə xanım Kremldə torpaq sahəsi bağışlayır ki, mitropolit də orada Çud monastırını tikdirir. Monastırın xan məhəlləsində tikildiyi salnamələrdən başlayaraq bu günə qədər söylənilməkdədir.

Moğolların Rus tarixində, habelə dövlətçilik sahəsində rolu ilə bağlı faktların təhrifi, hətta danılması və s. bu kimi hallar da belə məqamda təbii qarşılanmalıdır. Nə etməli? Adətən tarixi qaliblər yazır. Moğollar və tatarlar haqqında da tarixi onun qarşısında məğlub olub geri çəkildiyi xalq yazdı. Ona görə də həmin yazılardan nəsə gözləmək ağlasığmazdır.

Moskvanın və ona bağlı bölgələrin sinəsinə yazılmış adların tarixi çeşidli səbəblərlə bağlıdır. Əlbəttə, biz memorial-xatirə adlarını qeyd etmək istəyirik. Məsələn, Kaynarçi kənd adı bura necə gəlib düşüb – bu çox maraqlıdır: Rusiyaya görünməmiş dərəcədə böyük ərazilər qazandıran 1774-cü ildə bağlanan Küçük Qaynarca sülhünü (barış imzalanan kəndin adı ilə belə adlanmışdır) Rusiya tərəfdən baş komandan feldmarşal Rumyantsev imzalamışdı. Qələbəni baş kənd Peterburqda deyil, "qədim Rus paytaxtı" Moskvada keçirən imperatriça Yekaterinanın savaş qəhrəmanlarına qiymətli hədiyyələri arasında baş komandana bağışladığı Troitskoe kəndi də var idi. Qələbəyə hədsiz sevinən Yekaterina kəndin bundan belə **Kaynarçı** adlanmasına əmr verir.[12]

[12] Долгоруков В.Г. Путеводитель по Москве и ее окрестнотям, М., 1872, с. 96

- 21718 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Kaş, tarix dilə gəlsəydi, danışsaydı... Müasir Konnıy Pereulok (Şabalovskaya metrosunun yaxınlığındadır)... burada At meydanı yerləşirdi. Bazara gətirilən at ticarəti noqay tatarlarının əlində idi; onlar Böyük Çöldən sürüb gətirdikləri atları burada satırdılar.

**Məşhur Ostankino** (Останкино) Televiziya Mərkəzi adı necə əmələ gəlmişdir? Moskvada daha bir neçə bu adda – **Ostankino** (Останкино) **mehmanxanası**, **Ostankino** (Останкино) **gölü**, **Ostankino caddələri** (2 caddə), **Ostankino küçələri** (6 küçə) (Останкино),Новоо**stankino** (Новоо**станкино**) **xiyabanı** yer adları mövcuddur.

Bu gün Ostankino Moskvanın şimalında yerləşir və bu ad keçmiş kənd və malikanə adından qalmışdır. Lakin daha əvvəl burada – ərazidə Moskva knyazlığının Atıcı (strelets) Qarovulu dururdu və buna görə yer Ostankino adlanmağa başladı; ad buradandır. Ostankino stan (Dağı**stan**, Türkməni**stan**, Gülü**stan**) "düşərgə; məskən" sözündən meydana gəlmişdir. Sənədlərdə şəxsi mülk olaraq 1558-ci ildən adı çəkilr. Çar İvan Qroznının qayınları olan balkar Çerkasskilərin mülkü idi. Onlara qədər isə türk əsilli soylardan olan Saray dəftərxanası rəisi (dyak) V.Şevkalova məxsus idi. 1743-cü ildə Çerkasskilər Şeremetyevlər ailəsilə qohum olduqda kəndi qızına cehiz vermiş, o zamandan sovet quruculuğunadək Şeremetyevlərin əlində olmuşdur. Ostankino 19-cu əsrin sonlarında şəhər ərazisinə daxil olmuş, 1939-cu ildə Şeremetyevlərin böyük bağı ərazisində XTNS açılmiş, 1945-ci ildə Baş Botanika bağı yaradılmışdır.[13]

Moskva altında Dmitrievski rayonuna bağlı **Dedenovo** qəsəbəsinin bu mənada maraqlı tarixi var: Qəsəbənin sahibi Xan

[13]Москва-Энциклопедия., 479; Сытин П.В. Откуда произошли названия улиц Москвы, 37; Подмосковье. Памятные места в истории русской культуры 14-19 веков, с. 238; Поспелов Е.М. Географические названия Московской области: Топонимический словарь., 587; Долгоруков, Путеводитель по Москве и ее окрестнотям, с.71





Tudan (Tudan kan) Qızıl Orda hakimi Toxtamış xanın qardaşı olub 1293-cü ildən başlayaraq Qızıl Ordanın Moskvada səlahiyyətli səfiri idi. O Aleksandr Nevskinin oğullarının hakimiyyət uğrunda mübarizəsində həlledici rol oynamışdı; Böyük knyaz Andrey Aleksandroviçə dəstək olmuş, Orda sərkərdəsi xan Noqayın fəal yardımı ilə böyük knyaz Andrey Qorodetski və Fedor Rostislavoviç Yaroslavskinin tərəfində vuruşmuş, onun hakimiyyətə gəlməsinə çalışmışdır. Oğlu Şevkal (Çol xan) Şelkan Düdenoviç 1327-ci ildə Tverdə Ordanın nümayəndəsi idi. Beləliklə, 1393-cü ildən Rusda fəaliyyətə başlayan nəsil XV əsrdən soyadlarını Dudenev, sonralarsa Dedenov yazdırdılar. Dedenov soyadının dədə, ata; mövla, çələbi; dərviş piri mənaları məlumdur.[14]

Ümumiyyətlə götürsək, müasir Moskva vilayətinin ərazisi iki min il əvvəldən məskunlaşdırılmışdır. Buna sübut olaraq Zaraysk düşərgəsini göstərmək olar. Bunu sözügedən ərazilərdə mil.önc. X-XII əsrlərə aid çoxlu sayda kurqanlar sübut edir. Bir də qeyd edək ki, slavların bura yerləşdikləri ilk tarixədək, yəni miladi IX-X əsrlərədək burada fin-uqor tayfaları, meşer, mordva tatarları yaşayırdı.

Maraqlıdır ki, XIV əsrin ortalarınadək şəhərin adı Moskva deyil, Kuçkovo olmuşdur. Moskva çayı sahillərini əhatə edən torpaqların hakimi boyar Kuçka (tarixçi Tatişşev onu minbaşı boyar zənn edir) idi. Küçük və ya Kuçkadan yollar Volqaya, Novqorod torpağına və Baltikyanı dövlətlərə gedirdi

Ta ki, Vladimir knyazı Yuri Dolqoruki öz knyazlığını genişləndirməyə girişdi; 1147-ci ildə hücumla gəlib Moskva çayı boyunda kəndləri, o cümlədən bu günkü Moskva şəhərinin yerindəki böyük abad qəsəbəni aldı və çayın üstündə təbii gözəl mənzərəli burunda kiçicik qala tikdi. Artıq 1331- ci ildə bu qala Kreml adlanırdı. Burada knyaz Dolqorukinin özünün zəngin

[14] Веселовский. Заметки по истории Золотой Орды, 1916

malikanəsi yerləşirdi. Bu yer qədim Kuçkovo açıqlığı idi, təxminən indiki Moskva mərkəzinin şimal hissəsi – müasir Sereten Qapıları olan əraziləri əhatə edirdi. İlk Moskvalı boyar Stepan İvanoviç Kuçkanın mülkü indiki Seretenka ərazisində idi. Salnamələrdə onun uşaqlarından geniş bəhs edilir. Hazırda Kuçka nəslinin adı Moskvanın köksündə Kuçkovo çölü (Kuçkovo pole) adında yaşamaqdadır. Son zamanlara qədər Moskvanın bütöv rayonu Seretenka-Kuçkovo pole adlanırdı[15] bu ad həm də 1117-ci ilə aid İpatov salnaməsində Kuçkovo çayı (Moskva çayı) adı çəkilir. Knyaz Dolqoruki basqın edib döyüşdə öldürdüyü boyarın ailəsini əsir etmiş, onun yetim qalmış qızını oğlu və gələcək varisi knyaz Andreyə (hakimiyyəti dövründə Andrey Boqolyubski "mömin" adlanırdı) almışdı. Şahzadə Andreyin anası da Ayapa xanın qızı idi; Dolqoruki onunla 1107-ci ildə evlənmişdi.[16] hələ Dolqorukinin vaxtında və ondan sonra da salnamələrdə şəhərin adı təkcə Kuçkovo və ya ikisi də müvazi işlənilirdi. Belə çıxır ki, Moskva Kuçkovanın sonrakı adıdır. Deməli Moskva Yuri Dolqorukinin qoyduğu əski Kuskovun yeni adıdır. Bu, xalqın "əliuzun" adı verdiyi knyaz Dolqorukinin ruhuna uyğun idi; o nəinki şəhərlərin, çayların belə adını belə dəyişirdi. Kuçkovo – şəhərin qədim adı olduğundan xalqın yaddaşında möhkəm qalmışdır. Çünki paralel adların işlənməsi uzun zaman sürmüşdü.[17]

Salnamələrdə qeyd olunan tarixi məlumatlardan aydın olur ki, Yuri Dolqorukinin nəvəsi və adaşı knyaz Yuri 1220-ci ildə Volqa-Kama Bulqariyasına səfərə çıxır, 1221-ci ildə Volqa və Oka çayının birləşdiyi yerdə bulqar tatarları qalasını ələ keçirir. Belə ki, 14-cü əsrdən başlayaraq artıq Nijni Novqorod və ya sadəcə Nijni adlanan bu qala Kazan tatarlarının üstünə

[15] А. Яновский, Юрий Долгорукий, s.126-128
[16] ЭС. т.I"А", ст.760
[17] См.Яновский. Юрий Долгорукий, Моск. Раб.1955, ст. 141





gedən Rus qüvvələri üçün dayaq məntəqəsi rolunu oynamağa başlar. Böyük knyaz 1226-30-cu illərdə irəliləyib Mordva tatarları torpağına keçir. İstilaçı knyazın xidmətləri unudulmur: 1954-cü ildə Moskvada – Tver meydanında Yuri Dolqorukiyə heykəl qoyulur...

Beləliklə, uzun müddət iki ad daşıyan şəhərin Kuçkovo adı XVI-XVII əsrlərdə tamamən itib gedir. Kuçkadan Vladimirə gedən yol Lubyanka küçəsinə çevrilir (indi Dzerjinski (Lubyanka) meydanı)

Moskva adının nə vaxtdan işlənməyə başladığı dəqiq deyil; yalnız onun adının yazılı qaynaqlarda nə zamandan işləndiyi məlumdur. Şəhərin də mövcudluğu adətən onun adına ilk dəfə rast gəlindiyi tarixdən hesablanır. Moskva yer adına ilk dəfə İpatev salnaməsində 1147-ci ilə aid qeydlərdə rast gəlinmişdir. O bizim onun haqqında bildiyimiz tarixdən də əvvəl mövcud olsa da həmin tarixi Moskvanın yaranma tarixi olaraq götürürlər.[18]

Amma Moskva Kremli ərazisində kurqanlar və tapılmış ərəb sikkələri (IX əsr) bu tarixi bir az da geriyə çəkməkdə, daha qədim bir şəhər həyatından xəbər verməkdədir. Ümumi rəyə görə onun yaşı çox-çox qədimlərə gedib dayanır. Bizi isə dillləndirən tarix knyaz Oleqin fəaliyyətləri sirasında, eləcə də Kiyev dövlətinin zəifləməsi və ayrıca müstəqil knyazlıqların meydana gəlməsi ilə nəzərlərin bu torpaqlara çevrildiyi məqamlardır.

Beləliklə, Moskva çayının adı ilə şəhər də Moskva adlanırdı. Bəs Moskva adı haradan yaranmışdı? Mübahisəlidir. Həm də qəsdən müəmmalara büründürülən bu "bilgilər" elə özü bitməyən mübahisələrə səbəb olur. Tədqiqatçılar belə hesab edir ki, bu ad da Yauza, Yaxroma və s. Moskvaaltı çaylarının adı kimi IX-X yüzilliklərdə burada yaşamağa başlayan slavyan-vyatiçlərin dilinə slavyanlardan da əvvəl burada yaşa-

[18] ЭС. т. 38. с. 928; Топонимия Москвы,с.14-15

mış, lakin öz yazısı olmayan naməlum xalqdan keçmişdir.[19] Moskva skif-sarmat epoxasından işlənən sözdür; eramızın ilk yüzilliyində onların bu ərazilərdə varlığı təsbit olunmuşdu. XX əsrdə isə müasir Moskvada eramızın I minilliyiinin başlanğıcına aid skif-sarmat məzarlığı tapıldı!

Moskvanın tarixi haqqında ciddi elmi arayışlar istənilən saydadır...

Andrey Boqolyubskinin anası qıpçaq xanı Ayapa xanın qızı idi. Qara-qıyma gözlü Rus böyük knyazı Andrey də eynilə türk görünüşlü idi. O da Moskvanın ilk xanı Kuçkanın qızına evlənmişidi. İndi Mərkəzi Rusiyada heç də az olmayacaq dərəcədə rast gəlinən türk toponimləri – Böyük knyazın özünə müttəfiq olan qıpçaq (poloves) və türkləri – qohum xanları dövlət hakimiyyətinə cəlb etməsinin sübutudur. Bu tarixi əlaqəni əks etdirən Vladimir-Suzdal knyazlığında Berendeevo slabodası (Berendeylərin adını əks etdirir); Torki, Torçina, Utlar, Urus Bino (poloves "çöllü" – Qıpçaq nəsli Urusoba etnonimindən) adları meydana çıxmışdır. Öz növbəsində Pelqusevo adı da İjorun hakimi və Aleksandr Nevskinin silahdaşı/yandaşı əsli Mordva knyazı olan Purqasın adındandır. Bunların qeyri-slavyan mənşəli olduğu göz qabağındadır. Purqas-Mordva knyazı 1228-ci ilə aid salnamədə adı çəkilir. Purqasov soyu Tulada yaşamışlar; bu soyadı rus familiyasıdır.[20]

Tarixin cilvəsi: Elmi xarakterli bilgilərə onlardan az əhəmiyyətli olmayan bədii, eləcə də memuar ədəbiyyatında da Moskva və Moskvaaltının türk koloriti hər zaman diqqətə alınıb və xüsusi olaraq qeyd olunub: Yazıçı İvan Buninin qəhrəmanı da ("Çistıy ponedelnik") belə düşünür: Öz-özümə: əcaib şəhərdir! Əslində italyan ustaların tikdiyi Vasili Blajennı və Bor

[19] Сытин П.В. Откуда произошли названия Москвы, М., Московск. раб., 1959, с.25

[20] Веселовский С.Б. Труды по источниковедению и истории России периода феодализма, Наука, 1978 с.261





üzərində Xilaskar məbədi- Kreml divarları bürclərinin qırğızsayağı iti dişləri... deyə deyindim (Strannıy qorod!-qovoril ya sebe Vasiliy Blajennıy- i Spas na Boru, italyanskie soborı- i çto-to kirqizskoe v ostriyax başen na Kremlevskix sten.)

Bəs Kazan vağzalı?! Sovet illərində-Stalin epoxasında tikilmiş Moskva Dövlət Universiteti binası. Baxın, Suyun Bikə abidəsidir ki var. Əslində memar Suyum Bikə abidəsini əbədiləşdirmişdir; qüllənin ucundakı mildə isə Kazanın simvolu olan əşdəha "zilan" (yılan, ilan) həkk edilmişdir.

Bundan başqa Moskva Kremli bürclərindən yenə biri – Borovitski bürcü tamamilə Suyum Bikə abidəsinin təkrarıdır.[21] Baxın bu, Kasimov şahzadələrinin, oğullarının və 15-ci əsrin ortalarında meydana çıxmış Kasimov xanlığı hakimlərinin sələflərinin sarayı idi. Onun Rusiya idarəsi tərkibinə keçməsi ilə Kasimov şahzadələri Moskvaya gətirildi. Onlardan bəziləri tədricən pravoslavlığa keçirildilər.

Göründüyü kimi şəhərin küçə, məhəllə, meydan adlarının öyrənilməsi bu həmin şəhərin öz tarixi barədə gərəkli və maraqlı məlumatlar verir.

Moskva adı haqqında bir çox fərziyyələr vardırsa da iki fikir üstünlük təşkil edir: Moskva adının mokşaların çayı (Mokşalar fin-uqor xalqlarından olub müasir Moskva onların tarixi ərazisində yerləşir) Slavyan versiyasına görə mosk "yapışqan", eləcə də bataqlıq, rütubət, nəm deməkdir.

Lakin bu yerlərin, habelə bura həmsərhəd böyük ərazilərin əsl Tatar-Mordva ölkəsi olduğunu nəzərə almaq lazımdır. Çünki Yuri Dolqorukinin Moskvadan sonra hücumla tatar şəhəri Çul kalanı (Daş qala) alıb adını əski rus Novqoroddan fərqləndirmək üçün Nijni-Novqorod (Aşağı Novqorod) qoyması onların sonradan gəlmələrini bir daha ortaya qoyur.

Mordvalılar arasında Moskva adlı şəxslər də olmuş... Bolotnikov üsyanında iki mordvalı sərkərdələrdən birinin adı

[21] А.Д.Черткова: Москва, ул. Мясницкая, дом 7/3.

Moskvadır. Bir nümunə gətirək: "Vorovskie listı" Bolotnikova dostiqli i privoljskix mest. Poluçiv izvestiya o razmerax dvijeniya, davno taivşie nedovolstva narodı Povoljya soçli moment podxodyaşim dlya toqo çtobı soçitatsya s russkimi i vosstali. Predvoditelyami ix – istoçniki nazıvayut dvux mordvinov: *Moskva* i Vorkadin...

Bu üsyan başçısı Çeboksar çeremisi Eşbaxta Moskov olmaya?! Axı üsyan öz ərazisincə o qədər genişlənmişdi ki, təkcə mordvalılar yox, çeremislər də iştirak edirdilər. Bunu Lübomirovun tarixi Tatar yurdu olan müasir Nijniqorod - əski Çul kala hadisələrindən bəhs edən əsərində adını çəkdiyi yayqın bir şəxs adı olan Moskva sübut edir.[22] Mordvalılar zorla xristianlaşma əleyhinə XVI əsrdən başlayaraq XVII əsrdə güclənən Bolotnikov (1606–1609) və Razin (1667–71) üsyanlarında fəal iştirak etmişdi. Öz arasında Vorkadin və Moskov, Alena Temnikovskaya və Murza Akayka Belyayev kimi xalq qəhrəmanları yetirdi[23] Məhz bu üsyanlar sonunda çar Mordva-Tatar torpaqlarını bölüb ayıraraq iri rus feodallarına verdi. Sonra başlayan Puqaçov üsyanı da Mordva-Tatar ərazilərini bürümüşdü. Şənət örnəklərində Mordva-Tatar özəllikləri özünü büruzə verməkdədir. Hazırda rus milli geyimlərində əks olunan zəngin baş geyimi və paltar elementləri – tikməli köynəklər, memari ağac üzəri oyma-doğrama naxışlar Mordva-Tatar yadigarlarıdır.

Moskvanın sinəsində Qızıl Orda hakimiyyəti yadigarları bu gün birmənalı olaraq mənfi aspektdə şərh olunsa da bu, hakimiyyət dövrü Rus dövlətçiliyinin təşkilində və inkişafındakı mütərəqqi tədbirləri kölgələməməlidir. Məsələn, "Qızıl Ordanın 5-ci hakimi Məngü Timur (o, Batı xanın nəvəsidir 1282-ci ildə ölmüşdür) Rusda əhalinin siyahıya alınmasını keçirdi.[24]

---

[22] П.Г.Любомиров. Очерки истории Нижегородского ополчения, Соцэкгиз, 1939, с. 31-3

[23] БСЭ, с.16, s.567

[24] ЭС. т.35. s.529





Moskva arxeoloqları nə deyir? Knyaz Süleşovlar çar Aleksey Mixayloviçin vaxtında böyük hörmət sahibi idilər, həm də çox zəngin idilər. Onlar əslən Kırımdan çıxmışdılar. Moskvada arxeoloji qazıntılar nəticəsində onların sarayı olan yerdə üstü ərəb yazılı Quran ayələri həkk olunmuş hərbi geyim – dizlik tapılmışdır.[25] Qeyd edək ki, Süleşovlar Simonov monastırında dəfn olmuşlar[26], Əlbəttə bunlar şəhərin daha sonrakı tarixi səhifələrdir; biz tarixilik baxımından yaxın-uzaq demədən bəzi etüdlərlə məlumatı kütləviləşdirməyə çalışdıq...

***

Moskvanın çoxəsrlik tarixində onun 3500-dən çox prospekr, küçə, sahil, keçid, döngə, şosse yolu, meydan adları olmuşdur. Araşdırmamızın səmərəliliyi naminə Sıtinin lüğətinə üstünlük verdik. Çünki Sıtin Moskvanın daxili küçə, meydan, döngə və s. adlarını yaxşı bildiyindən Sovet hakimiyyəti qurulan kimi şəhərin çoxəsrlik tarixi ilə bağlı adların ləğv edilməsi və bu yerlərə sovet partiya xadimlərinin adlarını vermək məqsədilə ilk illərindəcə yaranan komissiyaya daxil edilmişdi. Bu komissiyanın əsas işi küçə-xiyaban, döngələrin adını hesaba alıb ayrı-ayrı şəxs adı ilə bağlı dəyişmək idi. Odur ki, mənbələr içində Sıtin lüğəti öz zənginliyi, əhatəliliyi ilə seçilir.

Sovet dövründə tarixi yer adlarına qarşı kütləvi addəyişmə Moskva şəhərinin əsil tarixinə də divan tutdu. Görkəmli alim Eduard Murzayevin sözlərilə desək, "ad dəyişmənin həqiqi miqyası haqqında mühakimə yürütmək üçün elə Moskvanın adlarına nəzər salmaq kifayətdir: 4 min caddə, küçə, meydan, döngə, keçid adından 1500-ü silinib getmişdir."[27]

---

[25] Архитектурные памятники Москвы и Подмосковья, М.., 1954, ст. 90

[26] БСЭ, с.16, s.1

[27] Мурзаев Э. Географические названия – памятник событий – "Знамя", 1991, № 6 с.233)

Türk Dünyasının intibahının yenidən canlanması gözlənilir... bu canlanmaya təkan verəcək, Türkün unudulan tarix səhifələrini yenidən dirildəcək əlimin, ürəyimin yaydığı bu işıqlı zərrəciklərin o böyük amala xidmət edəcəyinə ümidlərim var.

Dünya kəşflərlə irəliləyir... Lakin "dünyada daha kəşf olunmamış iki məchul var: bunlardan biri coğrafiyada qütb məsələsi, digəri də tarixdə Türk... (Alman türkoloqu Sorel)"ümid edirəm ki, onlarla, bəlkə də yüzlərlə, minlərlə belə"məchul" zərrəciklərin həlli böyük Türk müəmmasının açılıb həll olunmasına kömək edəcəkdir.





## Mərkəzi Rusiyanın Türk coğrafiyası

**Ababurovo** (Абабурово) – Moskva vilayətində (Odintsov ray.) Kiyev yolu üzərində kənd.

**Ababurovo** (Абабурово) – Moskva vilayətində (Voskresensk ray.) kənd

Kəndin tarixi Ababurov soyadı ilə (Moskvalı Stepan Oboburov (1453) əlaqədardır. Ababurovo adlı kəndlər daha Vladimir və Kostroma vilayətlərində də vardır. Əbabir ~əbabil "çobanaldadan" quşunun ərəbcədən dilimizə keçmiş variantı daha çox klassik ədəbiyyatda işlənən "əbabil" (Quranda adı keçən Əbabil quşları – bu, onun şəxs adına (soyadına) keçməsinə səbəb olmuşdu.) bir Türk soyadına çevrilənə qədər hər halda təxəllüs, ləqəb funksiyasını daşımışdır.

*Веселовский, 225; Поспелов, 121; Türkce Sözlük, 597*

**Abakan** (Абакан) – Tver vil. kənd. Qədim türkcə aba~apa~oba~opa "ata"; Aba+kan "Ata xan". Türk onomastikasında müxtəlif səciyyədə – yer adı, antroponim kimi istifadə olunmuşdur. Voloqda vil. 3 kənd adı; Xakasiyanın paytaxtı, Yenisey və Anqara çaylarının qolları. Abakan Buryat xanı (XVII)

*ЭС 1,10; Баскаков, ТЛС, 129; Türk İ.,12*

**Abarino** (Абарино) – Moskva vilayətində (Odintsovo ray.) kənd. Abarin (Obor, Oborin); Abor~Obor~Avar (XV) soyadı: Filipp Oborin (1515) məlumdur. Avar~ abar~abaz hun tayfa ittifaqına daxil olan xalq; Don, Dunay və Xəzər boylarında məskun idilər. *Abarin, Abarinov* türk mənşəli rus soyadlarındandır. Tver, Pskov vilayətlərində kənd adları.

*Веселовский, 225; Баскаков, ТЛС, 33, 126-127; Поспелов, 121*

**Abaşevo** (Абашево) – Yaroslav (Bolşeselsk ray.) və Nijeqorod (Voznesensk ray.) vil. kənd. Abaşevlər 1615-ci ildən zadəgan silkinə daxil edilmişlər. Bu nəslin Rus hökuməti xidmətinə girməsi daha əvvəllərə aiddir. Soyadı 1499-cu ildə Rusda hərbi xidmətə girən Kazan xanlığı sərkərdələrindən olmuş Abaş Oğlandan başlayır. 1540-cı ildə Aleşa, Çlok, Başmak Abaşevlər Tver şəhəri sakinləri olaraq qeyd olunurlar. Baskakov soyadının aba "atanın qardaşı, əmi" və ya abay "ağabəy, böyük qardaş" sözlərindən düzəldiyini önə sürür. Samara, Penza, Kemerovo vil. də eyniadlı kənd var.

*Halikov, 21; Веселовский, с.9; Баскаков,216*

**Abdulovo** 1-ci və 2-ci (Абдулово1-ое и 2-ое) Abdulovo Moskva vilayətində (Stupin ray. daxildir) qəsəbə.

Sənədlərdə kəndlərin adı 1627-ci ildə çəkilir. Abdul>Əbdül türk adı (mənşəcə ərəb) əbd "qul, bəndə" -ül mənsubiyyət şəkilçisi (müq. et: Əbdülhəsən, Əbdülbaqi). Soy adı həmin sözdən yaranmışdır. 1360-cı illərdəki Qızıl Orda hökmdarı Avbdullah adı ilə də bağlı ola bilər. Kaşira əsilzadəsi Abdullatip məlumdur (1502). Rus familiyası olaraq ilk dəfə 1627-ci ildə qeyd olunmuşdur. Abdulov (Avdulov) familiyasının Şərqə mənsub olması özünü ailənin gerbində (iki hilal rəsm edilmiş) də göstərir. Tatarıstan və Başqırdıstanda Abdulovo çoxlu sayda yaşayış məntəqəsi adıdır.

*Баскаков, 225; Halıkov, 21; Поспелов, 122*

**Açkasovo** (Ачкасово) – Moskva vilayətində (Klin ray. daxildir) kənd

**Açkasovo** (Ачкасово) – Moskva vilayətində (Voskresensk ray.) kənd. 1577-ci ildə Oçkasovo-Karamışevo kimi adı çəkilir.Tarixi sənədlərdə Açkasov və ya Oçkasov (1440), bu nəsildən boyar Karamışev (1480) qeyd olunur. Böyük kn. Vasili Dmitriyeviçin dəftərxana rəisi (dyak) Açkasov Timofey





məlumdur (1423). Kursk, Lipetsk, Tula, Yaroslav vilayətlərində kənd adları.

*Веселовский, 17, 236; Баскаков, 120-121; Поспелов, 134; Ведина, 118*

**Adaşevo** (Адашево) – Mərkəzi Rusiyada: Tula (Venev r.) və Nijeqorod (Bolşeboldino r.) vil. kənd. Adaş 1382-ci ildə Rus dövlətində Toxtamıçın elçisi olmuşdur. XVI əsrdən zadəgan adını almış bu ailənin əsli Kazanlı əsilzadə Adaşdan gəlir. 1510-cu ildə Kostromada yaşayan Qriqori Adaş məlumdur. Veselovski soyadının məhz ondan başladığını göstərir. IV İvanın vaxtında isə bu soydan görkəmli dövlət adamları çıxmış, lakin sonunda çarın qəzəbinə tuş olmuşlar. Adaş "adaş, arkadaş" və ya "eyni ad daşıyan şəxslər" deməkdir.

*Веселовский, 9; Halikov, 21-22.*

**Axmatovo** (Ахматово) – Moskva vilayətində (Naro-Fominsk ray. daxildir) kənd; Axmat adı ilə əlaqədardır (1554) Şəcərə kitabında 1582-də qeyd olunmuşdur. Yaroslav qəzasında knyaz Axmet Troyekurov məlumdur (1537) Türklərə məxsus adlardan olan Axmat rus dilində Axmad~ Axmat~Axmet~ Axmed (əsli ərəbcədən "*tərifiənmiş, vəsf edilmiş*") şəklində işlənmiş. Ryazan, Tambov, Tver, Ulyanovsk vilayətlərinə bağlı kəndlər.

*Веселовский, 17; Баскаков, 176; Поспелов, 134*

**Axtır** (Ахтыр) – Müasir adı Axtırka kəndi; Moskva altında məşhur Abramtsevodan 2-3 km. aralıqda yerləşir. Bu kənd knyaz Trubetskoyların mülkü idi. Axtır <Aktura türk dillərində "ağ qala" mənasına müvafiq gəlir. Ak~ax "*ağ, bəyaz*", tura "*qala, tikili,* möhkəmləndirilmiş yaşayış məntəqəsi, "*qala*"

mənası göstərilir. Kırımda, Ukraynada qala (Sum vilayəti) və çay adı, Oryolda kənd, Kubanda şəhər adı olaraq yaşayır.

*СЭС, 94; Подмосковье, 260; Поспелов, 121; 134; ТК, 25*

**Akat**ovo. (Акатово) – Moskva vilayətində (Klin, Stupin,Yeqoryevsk, Kolomna. Ruzsk rayonunda) beş kənd

**Akat**ovsk (Акатовск) – Balaşixada məzarlıq adı Moskvaatındakı bu kəndlərin – Akatovo (Акатово) adı bəzi xəritələrdə Akatevo yazılır. XV əsin əvvəllərində İvan Kalitanın silahdaşı boyar Valuy Akatinin adı ilə bağlıdır. Boyar Akatinin bu yerlərdə kifayət qədər böyük torpaq mülkiyyəti vardı. Moskva vilayətindən başqa Akatovların Smolensk, Kaluqa, Tver, Pskov ərazilərində də mülkləri olmuşdur. Bunu oradakı eyniadlı kəndlər göstərir. Soyadı əsasında duran Akat ləqəbi "*quş, qırmızı uzun ayaqlı quş*" olmuşdur. Akat həm də 5000 il əvvəl məlum olan Türk ulusu (ak+at "Ağ at") adıdır. Kaluqa, Smolensk, Kostroma, Voronej vilayətlərində kənd adı.

*Подмосковье, 369; Веселовский, 10; 197; Поспелов, 123; Atalay, 35*

**Akiş**ovo (Акишово) – Moskva altında (Dmitrovsk ray.) kənd

**Akiş**ovo (Акишово) – Moskva vilayətində (Podolsk və Naro-Fominsk ray.) kənd.

Akşi~Aqiş adı ilə əlaqədardır. Soyları Kazandan çıxmadır; Agiş Aleksey Kalitevskidəndir. 1550-də Pskovda yaşadığı məlumdur. 1630-cu illərdə Qryaznoy Agiş Türkiyədə və Kırımda elçidir. Yüksək dövlət işlərində çalışmış, 1648-ci ildə sarayda dəftərxana rəisi (dyak) olaraq adı çəkilir. 1667-ci ildə Agiş Fedor İngiltərə və Hollandiyada ulağdır (dip. kuryer) Ak kuş ağ quş "*ağ qartal*" lebed, qu quşu; Qıpçaq şəxs adı. Akişovo– Voloqda, Kaluqa, Tver vilayətlərində kənd adı.

*Веселовский, 11; Баскаков, ТЛС, 71,75,76, 81; Поспелов, 123; Halıkov, 23*





**Aksa**evskoe göl (Аксаевское озеро) – Moskvaaltında (Odintsov ray. daxildir) göl; Moskva-Mojaysk yolunun şərq səmtində yerləşir.

Ak "*ağ, bəyaz*", *say*"*çay, su*"> Ağsu, əlavə mənada ağ su "*içməli, təmiz, saf su*"; anlamca əksinə: içməyə yararsız, təhlükəli "*qara su*" qarşılığında rast gəlinir. Bu adda Türk aləminin müxtəlif yerlərində çay və yer adlarına, o cümlədən Mordva, Mari El torpaqlarında da rast gəlinir.

*БСЭ, т. 3, с.125; ТК, 22-24, 119, 243*

**Aksak**ov (ул. Аксакова) – Moskvada küçə. Aksakov adı şəhərin küçə adları siyahısına 1924-cü ildə "Qolubinoy Padi" ərazisində əlavə olundu.

**Aksak**ovo (Аксаково) – Moskva vilayətində (Odintsov və Şaxovski rayonuna daxildir) kənd. 1627-ci ildə Zaqryajskilərin mülkü kimi Qeydiyyat Dəftərində adı çəkilir. 1646-cı ildən Saburovların mülkiyyətinə keçir; hazırda Odintsov qəsəbəsinə birləşmişdir.

**Aksak**ovo (Аксаково) – Moskva altında Meşer çökəkliyində (Mıtışi ray.) kənd.

Zveniqorod yaxınlığında (Odintsov ray.) yerləşən **Aksakovo** (Аксаково) 1558-ci ilə aid mənbələrdə adı kənd olaraq çəkilir.

XV əsrdə Aksakovo kəndləri Aksak Velyaminova məxsus olmuşdur. Aksakovlar 14-cü əsdən Litvada yaşamış Türk ailələrindəndirlər. Familiyaya çevrilən adın kökündə aksak "*ağsaq*" (feil əsası "*ağsamaq*", *ayağını çəkmək*) türk sözü durur. Ailə gerbində ox sancılmış ürək nəqş edilmişdir. Familiyanın nəsil başçısı Qızıl Ordalı Aksak Velyaminovdur; 15-ci əsrdə yaşamış və bu kəndlər ona məxsus olmuşdur. Tula, Orenburq vilayətlərində, habelə Başqırdıstanda, Bolqarıstanda Aksakovo yaşayış məskəni adlarına rast gəlirik.

*Веселовский, 11; Баскаков, 141-142; Поспелов, 124; Halıkov, 23; Подмосковье, 371; TƏR, 157-163*

**Akulovo** (Акулово) – Moskva vilayətində (Odintsov, Dmitriyev, Podolsk, Klin, Sergiev Posad ray.) kənd.

**Akulovo** (Акулово) – Moskvaaltı kənd; Moskvadan 3 km. məsafədə Mojaysk yolu üzərində (Volokolam ray.) yerləşir.

Akulovo adına Rusiyanın bir çox yerlərində rast gəlinir – təkcə Moskva vilayətində həmin adda 15 kənd vardır. Bunlarla yanaşı Vladimir, Kaluqa, Kostroma, Ryazan, eləcə də Altay ölkəsi, Novqorod, Pskov, Kalininqrad və s. Akulovo kəndləri var.

Akulovo ilk vaxtlarda Kuçum xanın övladlarının mülkü idi; Rus qaynaqlarında Kazandan çıxma boyar olaraq 1552 və 1568-ci illərdə qeyd edilmişdir. Akıl~okul rus xalq danışığındakı "*ağıllı, zirək; lovğa, dəcəl, fırıldaqçı*"; okulniçat "*dələduzluq etmək*" mənasında yüzlərlə türk sözlərindəndir: Soyadının rus dilindəki türk sözündən yarandığı şübhəsizdir.

*Веселовский, 230; Даль, 3.72; Halıkov, 80*

**Aqarino** (Агарино) – Moskva vilayətində (Serpuxov və Stupin ray. daxildir) kəndlər. 1578-ci ilə aid sənədlərdə görünür. Aqarin soyadı ilə (1526-cı ildə rast gəlinir) əlaqədardır. Aqar (Həcər-İbrahim peyğəmbərin arvadı, İsmayılın anası – müsəlmanlar nəslinin ondan başlaması rəvayət edilir) adı ilə əlaqədardır; Aqaryane "türk, müsəlman" anlamındadır.

*Поспелов, 122; Türk İ., 14*

**Aqlamazovo** (Агламазово) – Ryazanda (Sasovski və Spasski ray. daxildir) iki kənd. Aqlamazovlar Ryazanda iri torpaq sahibləri idi, Satış Aqlamazov qeyd olunmuşdur (1579). Öz adını sahibinin soyadından alan Aqlamazovo kəndi onların ata yurdu olmuşdur. Aqlamazov soyadı *qorxmaz, karamaz* (baxmayan) almaz – "*almayan; alınmayan*" adları modelində yaranmış familiyadır: ağlamaz yəni ürəyi möhkəm, mərd, sərt bir adam.

*Веселовский, 17; Баскаков, 44, 182*





**Alabışevo** (плат.Алабышево) platforması. Moskva – Peterburq dəmiryolu xəttində stansiya adı.

**Alabışevo** (Алабышево) – Moskva altında Meşer çökəkliyində kənd.

**Alabışevo** (Алабышево) – Moskva vilayətində Solneçnoqorsk ray. kənd 1579-cu ilə aid sənədlərdə adı çəkilir

**Alabışev (skaya)** caddəsi (Алабышевский проспект) – Moskvaaltında Zelenoqrad inzibati dairəsinə aid küçə; 2006-cı ildə təsis edilmişdir.

Ad Moskvaaltı tarixi Alabışevo kəndin adı ilə bağlıdır; kəndin adına Moskva quberniyasının tarixi xəritəsində rast gəlinir. Məntəqə öz adını XV əsrdə yaşamış və 1428-ci ildə bu kəndin sahibi Yaroslav knyazı Moskva saray xadimi Fyodr Alabışın adından almışdır. Sənədlərdə isə ilk dəfə 1578-ci ildə çəkilir. Moskva ilə bərabər Pskov vilayətində də Alabışevo kəndi vardır.

Alabışev soy adı türk nəsil adı olan Alabaş (Ağbaş, Qızılbaş, Əyriçalınan, Sarıbaş örnəyində) sözü olan ala baş "*ağılsız baş*" sözündən yaranmışdır. Knyaz Alabışevin Moskva altındakı kəndi (bu kəndin adına sənədlərdə ilk dəfə 1578-ci ildə rast gəlinir) və Moskva-Peterburq dəmiryolu stansiyası və kəndin kilsəsi *Alabışev* adını saxlamaqdadır.

*Баскаков, 257-258; Веселовский, 11;*
*Halıkov, 23;*
*Поспелов, 124; Агеева, 206*

**Alabino** (Алабино) – Moskva vilayətində (Naro-Fominsk ray. aiddir) kənd.

**Alabino** (ст. Алабино) – Moskva-Kiyev dəmiryolu üzərində stansiya; Moskvadan 47 km. aralıq məsafədə yerləşir.

Məntəqənin adı çox ehtimal ki, Ali bey adından yaranmışdır. (əsli ərəbcə ali "*yüksək*" dördüncü xəlifə Alinin adı və bəy "əsilzadə, nəcib, varlı") – in şəkilçisi qoşulmaqla. 16-17-cı

əsrlərdə Ryazanda yaşamışlar; orada Alabino kəndi onların adınadır. Alabinlər Rus dövlətinə xidmət etmiş, XVI əsrdən Moskva dövlətində müəyyən sayda rast gəlinmişdir.

*Веселовский, 11; Баскаков, 181-182; Halıkov, 23.*

**Alaçkovo** (Алачково) – Moskva vilayətində (Çexov ray. daxildir) kənd və hərbi şəhərcik.

**Alaçkovo** (Алачково) – Moskva vilayətində (Stupin ray.) kənd. 1575-ci ildən adı çəkilir.Türklər arasında şəxs (Alaç/Alaş Mamay xanın atası) və soyadı olaraq məlumdur. Alaçev və ya Alaçkovlar Moskvada zadəgan olaraq 1640-da qeyd olunmuşlar. 1550-ci illərdən Kazandan çıxmışlar. Soyadı kökündə alaça~alaşa "*qarişiq, ala-bula; maraqli, mürəkəb*" türk sözü durur.

*Halıkov, 23; Ведина, 58; RTS, 82,111*

**Aladin**ovo (Аладиново) – Moskvaaltı (Dmitriyev, Serpuxov və Kaşira ray. daxildir) kənd və qəsəbə adları

Kaşirli mülkədar Aladinlərə məxsus olmuşdur; Aladin (Oladya) Böyük kn. podyaçisi (dəftərdarı) (1470); Oladya (Aladin) Şişmaryev XV əsrin sonlarında böyük kn. tiyunu və s. dövlət işlərində çalışmışdır. Aladinovo – Bryansk, Ryazan, Tver, Smolensk vilayətlərində kəndlər.

*Веселовский, 230; Поспелов, 126*

**Alam**ovskaya (Аламовская ул.) – Moskvada, İzmaylovo səmtində mərkəzi küçə və keçid adı.

Alamovka və ya Аламово (Аламовская слобода) slaboda (müstəqil məhəllələr) olaraq XIV əsrin başlarında meydana gəlmişdi. Dmitri Donskoy zamanı İzmaylovkaya yaxın kənd idi. Soyadının kökündə alam "*bayraq*" sözündəndir. Alam *balaca bayraq, döş nişanı, paltarda bəzək*. Alamovskaya küçə adında saxlanılır.

*Радлов, I. 368; Фасмер, I. 68; Подмосковье, 160*





**Alaş**evo (Алашево) – Аламовская (Ramen ray.) kənd; Kaşiradan çıxma boyarlar ailəsi olan Alaşevlərin mülkü olmuşdur. Soyadları alaşa "*at cinsi*" sözündəndir. 16-cı əsrin ortalarından xristianlaşmış zadəganlardandır. Moskva altında torpaqları olmuşdur. Alaşevo adı – Mordoviyada, Arxangelsk vil. və Tatarıstanda yaşayış məntəqələri adında yaşayır.

*Веселовский, 18; Halıkov, 24; Ведина, 58*

**Alçan**ka~**Elçen**ka//**Olşan**ka çayı. (река Альчанка) – Plesenka çayı hövzəsindədir. mənbələrdə Alçanka, daha əvvəllər isə Elçanka işlənmiş, Alşanka~Olşanka şəklinə düşmüşdür.

Elçan~Elçin rus dilindəki türk mənşəli rus familiyaları sırasında vardır. Elçaninovların nəsil atası İdil boyu türklərindən olan Alendrok Polşadan Böyük kn. Vasili Vasilyeviçə müttəfiq olaraq yaxınlaşmışdır. 1476-cı ildə Moskva ətrafında iri torpaqla mükafatlandırılmışdı. Alendrok Baskakova görə türk sözü *alındırık alınlık* "döyüş maskası, rübənd" sözündəndir. Soyadı da eyni qaydada Türk sözü *elçi* ilə əlaqədardır. Oryol, Brest, Vitebsk, Minsk vilayətlərində kənd.

*Радлов, I. 362, 363; Срезн., I.15;*
*Даль, I.130; Фасмер, I.68; Halıkov, 47*

**Aley**evo (Алеево) – Moskva altında (Stupin ray. aid) 2 kənd vardır. 1578-ci ilə aid sənədlərdə hər iki kənd Aleevo adı ilə qeyd olunur. Aley adı ilə əlaqədardır. 1580 və 1590-cı ildə Meşerada, daha sonralar Aleyevlər Kasimovda qeyd olunmuşlar. Aleyev soyadı əsasən Meşera və Kasimovdan çıxma tatarlarda çox rast gəlinir. Aleyevo kəndləri Mari El, Penza, Kostroma, Ryazan vilayətlərində də vardır.

*Веселовский, 12; Баскаков, 158;*
*Поспелов, 126; Halıkov, 24; Ведина, 5*

**Alımovka** (Алымовка) – Paxra çayı üstündə (Naro Fom. ray.daxildir) Moskva vilayətində kənd.

**Alımovo** (пр. Алымово) caddə və küçəsi məşhur Alımovo kəndi ilə bağlidir; İndi o kəndin adı Moskvada şəhər daxilindəki (1880) Alımovo caddəsi və yolağ, küçə, keçid adlarında yaşayır. Kənd zadəgan nəsli olan Alımovlar ailəsinə (Moskva saray xadimi – süfrəçi İsmayıl Alımov) məxsus olub, kəndin adı dövlət sənədlərində 16-cı əsrdən görünür. Amma kəndin 14-cü əsrdən mövcudluğu məlumdur.

Alim (əsli ərəbcə: "bilikli, savadlı") sözündəndir. Bununla yanaşı, rus dili dialektlərində, məsələn, Ryazan, Vladimir vilayəti şivələrində "avam, sadəlövh, oğlan, cahil" mənasında da yayılmışdır. 1500-cü illərin başlanğıcında bu soyadına rast gəlinsə də Alımov 1623-cü ildən etibarən zadəgan familiyasıdır. Soyları XVI yüzilliyin ilk yarısında Ryazan və Aleksin ətrafındakı topraqların sahibi Alımov İvan Oblyazdandır (Oblyaz da türk əsilli adlardandır). Vaxtilə Moskva altında Alımov kəndi bu ailəyə mənsub olmuş, onların soyadıyla da adlanmışdı. (İndi həmin kənd Moskvaya qarışmış, Alımov caddə və küçə adında yaşamaqdadır.) Alımovo kəndi başqa regionda da – Smolensk, Tula, Bryansk vil. (Karaçev ray.) və Tatarıstanda vardır.

*Баскаков, 127; Веселовский, 13;*
*Сытин, 59; Подмосковье, 543;*
*Halikov, 24; Даль, 1.13; Шипова, 31;*
*Поспелов, 129; Ведина, 62*

**Alino** (Алино) – Moskva vilayətində, Kaşir yolunda Oka çayı sahilində qəsəbə; "*yüksək, ali, ləyaqətli*" mənalı Ali, rus adaptasiyasında Aley müsəlman-türk adındandandır.

*Веселовский, 12*
*Bax: Aleyevo məqaləsinə*





**Alma-Ata** (Алма-Атинская ул.) – Moskvada küçə; şəhərin cənub qismində yerləşir. 1985-ci ildə Qazaxıstanın o zamanlardakı paytaxtı Alma-Ata (Almatı) şəhərinin şərəfinə adlandırılmışdır.

**Almazovo** (Алмазово) – Moskva vilayətində (Şelkovsk və S. Posad ray.) kəndlər.

1653-cü ildən isə kəndin sahibi Voloqdalı tacir çar müşaviri və çar möhürdarı olan Erofey İvanoviç Almaz olmuşdur (1638-ci ildə xaçlanmış); kənd də, onun tikdirdiyi, indiyədək qalan kilsə də sahibinin adı ilə Almazovo adlanırdı. 1707-ci ildə isə kəndin sahibi onun oğlu Semyon Erofeyeviç Almazov idi. Hazırda kənddə Almazovların əzəmətli sarayı qalmaqdadır.

Ruslarda Almaz türk soyadı məşhur dövlət xadimi Yerefey İvanoviç Amazdan başlayır. Soyadı 1 – *qorxmaz, karamaz* (baxmayan) adları modelində: "*almayan; alınmayan*"; 2 – almas daşı, "brilliant" mənalı sözdən yaranmışdır. İlk vaxtlar Alemazov şəklində işlənmməsi isə soyadının 1-ci məna ilə bağlılığını ortaya qoyur. Almazovların ailə gerbində almas daşı, yuxarı hissəsində isə bilavasitə ailənin türk bağlarını göstərən ox və qılınc həkk olunmuşdur. Türk tarixində Bulqar xanı Almaz məlumdur; Almaz adlı Macar kralı da olmuşdur. Orlov, Ryazan, Tula, Saratov vilayətlərində eyniadlı kəndlər vardır.

*Баскаков, 44, 182; Веселовский, 12;*
*Поспелов, 128; Halıkov, 24; Atalay,19*

**Altayskiy** (Алтайский пр.) – Moskvanın şərq qismində Qolyanovo səmtindədir; caddə Altay ölkəsi coğrafi adı şərəfinə qoyulmuşdur (1968). Altay < al tayğa "meşələrlə örtülü yüksək dağ" və ya Al tav~tau "*yüksək dağ*" deməkdir.

*Баскаков, ТНМУ, 27; Фасмер, 1,72*

**Altuxovo** (Алтухово) – Moskva vilayətində (Podolsk ray.) kənd.

**Altux**ovo (Алтухово) – Moskva vilayətində (Zaraysk ray.) 2 kənd.

Kəndin adına 16-cı əsrə aid yazılı qaynaqlarda rast gəlinir. Nəsil başçısının Rusda xidmətə başlaması və 1371-ci ildə xristianlaşdırıldığı məlumdur. 1596-cı ildə Kiril Altuxov Tulada qeyd olunur; Altuxov soyadına sonra Vyazmada, Volxovda rast gəlinir. Soyadının əsasında Altuk~Altuq (al+tuğ/tuq) "*qızıl, al bayraq*" adı durur. Hazırda Kaluqa, Bryansk, Tula, Ryazan, Samara, Smolensk, Nijeqorod vilayətlərində kənd adı.

*Веселовский, 13; Поспелов, 128; Halıkov, 25*

**Altın**ovo (Алтыново) – Moskva vilayətində (Ruzsk ray.) kənd. Məntəqə adı Altınov familiyasından əmələ gəlmişdir. Altın~altun~altan türk-tatar dilində qızıl deməkdir və Qızıl Orda xanlarının "Altın xan"şəklində işlətdiyi rütbə, titul adıdır. Altınovların adını daşıyan bu ailəyə məxsus başqa kənd də (Altınovo) Ryazan və Yaroslav vilayətində olmuşdur.

*Радлов, 1. 405-407; Поспелов, 128; Atalay, 19*

**Alyab**ov (ул. Алябьева) – Moskvada küçə; Bəstəkar Al.Al. Ayabovun (1787-1851) xatirəsinə adlanmış (1926)

Alyabov Ali bey adından (Alabin) yaranmışdır, Baskakov bununla yanaşı tatar və başqırdlarda alaba (əsli ər. alufə "*maaş, mükafat*") sözü ilə də əlaqədar ehtimalını irəli sürür. Ailə gerbindəki üç ox və dəyənək bu ailənin Şərqi əslini göstərir. Veselovskidə: Olya bey (Ülya bek) adından yaranmaqla Olyabey soyadına keçməsi, daha sonralar Alyabevlər adlanması göstərilir. Soyadı Mixail Olyabey Yemelyanovdan (1500) başlanır. Smolensk, Kursk, Oryol və habelə Orenburq vilayətlərinə bağlı eyniadlı kəndlər var.

*Веселовский, 231; Баскаков, 182; ТНМУ, 22; МЭ, 105; Т. Москвы, 27*





**Alyaux**ovo (Аляухово) – Moskva vilayətində (Odintsov ray.) kənd; yerli mülkədarın adı ilə adlanmışdır. Belə ki, məntəqə 1592-ci ilə aid sənədlərdə boyar Olyauxovların (Aleykovların) kəndi olaraq göstərilmişdir. Soyadı əvvəlcə Alyauk (1504), daha əvvəllər – 14-cü əsrdə isə Zveniqorodda və Vyazmada Aleykovlar olaraq məlumdur. Soyadının hər iki şəklində alay sözü əsasında düzəldiyi ehtimal edilir.

*Halikov, 25; Веселовский, 11-12.*

**Aman**ovo (Аманово) – Ryazan vilayətinə bağlı yer adı. Aman "imdad, rəhm eylə, aman ver", həm də nida kimi "kömək edin, ay haray" istifadə olunur. Rus atalar sözündə də bu mənadadır: Kto kriçit aman, kto kriçit atlan! Kənd bu ləqəbdən doğan soyadını daşıyan şəxsə mənsub olmuşdur. Amanov, Yamanov Türk əsilli rus soyadı (1539) Kostroma, Nijeqorod vil. kənd.

*Радлов, 1. 643; Даль, 1.14; Веселовский, 13, 381; Фасмер, 1.68; Шипова, 33*

**Amin**evo (Аминьево) – Moskvanın cənub-qərb istiqamətində Naverşak çayı Setun çayına qovuşduğu yer; tarixi ərazi. Bu yerdə Aminevo rus salnamələrindən göründüyünə görə, XIV əsrdən məlumdur; həmin vaxtdan o, Rus torpağına daxil edilmişdir. Bu torpaqlar Dmitri Donskoyun silahdaşı İvan Aminə məxsus idi; kənd də adını sahibkarın adından almışdı. 1960-cı ildən artıq Moskva şəhəri ərazisinə qatılmış, hazırda bu ad özünü rəsmən şose və körpü adında (Setun çayı üzərində Aminevskiy most- körpü 1965-ci ildə tikilmişdir) saxlamaqdadır.

**Amin**evckoe (Аминьевское шоссе) – şosenin adı sənədlərdə XV əsrdən çəkilir; kəndin adı ilə əlaqədardır.

**Amin**ev körpüsü (Аминьевский мост) – Setun çayı üstündən salınan körpü şosenin adıyla bir meydana çıxmışdır.

Ad əvvəl Amin, Aminev şəklində işlənmişdir. 1349-cu ildə böyük Moskva knyazı Simeon Qordının yanında elçi Amin məlumdur. Aminevlər soyunun nəsil başçısı Ratşidir. Bu ocaqdan Buturinlər, Puşkinlər çıxmışdır. Ratşinin 10-cu xələfi İvan "Amin" (*etibarlı, dinc*) soyadı daşımışdır. Aminevlər 1547-ci ildən başlayaraq Rus xidmətinə girmişlər. Çelyabinsk, Kostroma vilayətlərində və Başqırdıstanda da Aminevo kəndləri vardır.

*Веселовский, 13, 231; Баскаков, 31, 52; Halikov, 25; МЭ, 105; Поспелов, 573*

**Amirovo** (Амирово) – Moskva vilayətində (Ramen, Kolomenskoe ray.) kəndlər.

**Amirovo** (Амирово) – Moskvaaltında (Şelkovski ray.) tarixi kənd; Böyük knyaz III Vasili İvanoviçin müşaviri Vasili Amirovun kəndi; Ramenka çayı üstündə yerləşirdı. Hazırda Moskvaaltı Şelkova şəhərinə birləşmişdir (1959); indi həmin ərazini əhatə edən küçənin adında yaşayır. Soyadı əmir "*sərkərdə, hakim*" titulundan yaranmışdır. XVI əsrin başlanğıcından rus zadəganlarıdırlar. İlk dəfə onlardan 1529-1530-cu illərdə bəhs edilir. 1622-1676-cı illərdə Amirovların Danimarkada, Hollandiyada, Livonyada rus elçisi olduğu məlum olur. Kazan tatarlarında bu soyadının çox yayqın olması səbəbilə Amirov rus sülaləsinin Kazandan çıxdıqlarını söyləmək olar.

*Веселовский, 13; Баскаков, 257; Halikov, 25; Поспелов, 130*

**Anadır** küçəsi (ул. Анадырь) – Moskvanın şimal-şərq qismində Çukot Muxtar vilayətinin şərəfinə adlandırılmışdır (1964); Çukotlular özləri Anadırı Kaqırqın (giriş, qapı, ağız- Anadır limanına açılan dar keçiddə yerləşdiyinə görə) adlandırırlar.

**Anqara caddəsi** (Ангарский пр.) Moskvanın şimal hissəsində İrkut vilayətində Anqarsk şəhərinin adına adlanmışdır (1964)





**Aniçkovo** (Аничково) – Moskva vilayətində (Şelkovo ray.) kənd. Aniçkovlar Qızıl Ordadan 14-cü yüzillikdə qopub ayrılan türk nəslidir. Bloxa və Qleb Aniçkovlar 1494-cü ildə Novqorodda qeyd olunur. Türkçədəki enis~ənis, eniç "*dost, həmdəm*" sözü ilə bağlıdır. Peterburqda məşhur Aniçkov sarayı və Neva üzərində körpü bu türkəsilli soyun adını yaşadır. Kostroma vilayətində də Aniçkovo kəndi vardır.

*Веселовский, 14; Halikov, 26.*

**Appakov** keçidi (Аппаковский проезд) – Moskvanın mərkəzində "Yakimanka" tarixi ərazidə yerləşir. Appakov nəsli Kırım-Kazan mirzəsi Appakın adıyla bağlıdır. Appak 1519-cu ildə rus çarına müttəfiq olaraq xidmətə keçmişdir. Apaq xan Çingiz xanın nəvələrindən və Turan xanlarındandır. Appak türk dillərində rəng bildirən söz olub ağ, bəyaz, ağappaq deməkdir. Təsadüfi deyil ki, Tatarıstanda, Orenburq vilayətinə aid olan yaşayış məntəqələri Appakovo adlanır. Appakovo kəndi Smolenskdə də vardır.

**Appakov** (Аппаковское депо) Tramvay deposu. Mari, Tatarıstan ölkələrində və Ulyanovsk vil. eyniadlı kənd.

*Halikov, 26; Atalay, 9; МЭ, 109; Ведина, 93*

**Aparal** çayı (река Апарал) – Rus dili tələffüzündə Aparal adı Aprel (4-cü ayın adı) şəklinə düşməklə məna dolaşıqlığına səbəb olmuşdur.

**Aparal** (Апарал) Naro-Fominsk ray. ) indi: Aprelovka stansiyası Aparal çayının adı ilə bağlıdır. Əvvəl çayın sahilində Demidovların (sonra yazıçı Zlatovratskinin) malikanəsi olmuşdu. 1899-cu ildə Moskva-Kiyev xəttində dəmiryolu stansiyası işə düşmüş və Aprelovka adlanmışdı. 1935-ci ildə stansiya qəsəbəyə çevrilmişdir.

Çox ehtimal ki, kəndin və çayın adı Apar~Abar və ya Apar~Opar xalqı adından törəmişdir. 15-ci əsrdən sənədlərdə

rast gəlinən soyadı sonda Aprelov (?) şəklinə düşmüşdür. Aparki Tula vil. kənd.

*Веселовский, 14; Баскаков, ТЛС, 13,31,33,126; Поспелов, 132*

**Aparinki** (Апаринки) – Moskva vilayətində (Lenin ray. daxildir) kənd; Kaşir yolunda yerləşir.1651-ci ilə aid sənədlərdə rast gəlinir.

**Aparixa** (Апариха) – Moskva vilayətində (Ramensk ray. daxildir) kənd; 1676-cı ildə rast gəlinir. Kəndlərin adına ilk dəfə 1495-ci ildə təsadüf edildiyi söylənilir. Aparixa yaşayış məntəqə adına Nijeqorod vilayətində də rast gəlinir. Apar+ixa (Apar~Abar~Avar xalq adı; -ixa Varvarixa, Plyuşixa, Barvixa qəlibində yer adı)

*Поспелов, 131,132*

*Bax: Aparal məqaləsinə*

**Apraksino** (Апраксино) – Moskva vilayətində (Kolomen ray. daxildir) kənd; Apraksinlər soyadına 1371-ci ildə rast gəlinir. Apraksinlər türkəsilli rus ailəsidir. Ryazan knyazına müttəfiq Solık Emirin nəvəsi Andrey Apraksadan gəlirlər. Apraksinlər imperator Pyotr vaxtı şöhrətlərinin zirvəsinə çatmışlar. Apraks ləqəbinin türk dillərində "*yavaş, səssiz; lovğa*" mənaları vardır. Eyniadlı yaşayış məntəqəsi Kostroma və Mordoviyada, Tver, Pskov, Penza, Lipetsk, Nijeqorod vil. vardır.

**Apraksin sarayı** (дворец Апраксина) (1766-69) memarlıq abidəsi. Saray Moskvanın mərkəzi hissəsindədir.

*Баскаков, 94-95; Halıkov, 26; МЭ, 109*

**Arbat** (Арбатская слобада) – Moskva çayı sahilində sloboda – məhəllə; XIV əsrdən mövcud olmuşdur. XVI əsrdə burada çar kalımaqa (*iri səfər arabası növü*) həyəti yerləşirdi; odur ki, araba-at sözü ilə bağlayanlar da vardır. Radlov qazaxcada





saxlanan arabat "*təsərrüfat tikililəri*" mənasını önə çəkir, əsli ərəbcədən rabat "*şəhərkənarı*" sözü ilə əlaqədardır. XVIII əsrdə slabodalar ortadan qalxdıqdan sonra ərazidən keçən Arbat küçələrı, Arbatskaya metrosu, Arbat meydanı ondan xatirədir.

**Arbat caddəsi** (Арбатский пр.) – Moskvanın mərkəzində tarixi yer, Kremldən qərbə doğru yerləşır; Arbat Qapıları meydanından Smolensk meydanınadək uzanır. Küçənin adı tarixi qaynaqlarda ilk dəfə 1475-ci ildə çəkilir. Son illərdə ərazi qoruq elan edildi.

**I Arbat və II Arbat küçələri** (I и II Арбатская) – Moskvanın mərkəzində- "Arbat" tarixi ərazisində, Arbat və Novı Arbat küçələrini birləşdirir.

**Arbatlı** (ул. Арбатец) Moskvanın cənub-qərb hissəsində Moskva çayı sol sahilində keçmiş mitropolit slabodası. İndi Arbatets adlanan adı həmin ərazidəki küçə və 2 dalan (1-ci və 2-ci) adında saxlanmışdır.

**Arbat** (Арбат) metrosu– Moskva-Fili istiqamətində metro stansiya; Əski Arbatda yerləşir.

**Arbat Qapıları meydanı** (пл.Арбатские ворота) – 18-ci əsrə kimi Moskvanın mərkəzində Arbat Qapıları hələ dururdu. O götürüldükdən sonra əmələ gələn meydan Arbat meydanı adlanmağa başladı. Burada indi Qoqolun abidəsi olan yerdə Arbat teatrı yerləşirdi, 1812-ci ildə Moskva yanğını zamanı məhv olmuşdur.

Krivo**арбат** (Кривоарбатский переулок) Əyri Arbat küçəsi – Moskvanın mərkəzində küçə.

Arbat 14-15-ci əsrlərdə Moskvada ərazi adı kimi meydana gəldi. 15-16-cı əsrlərdə burada sənətkarlar və streletslər yaşayırdı. Arbat sözünü Radlov "*təsərrüfat tikililəri*" mənası ilə bağlayır. Əsli ərəbcə rabat, cəm forması arbad olan sözün "şəhərkənarı" mənası geniş yayılmış, Moskva kimi bir çox şəhərlərin toponimik fondunda rast gəlinir. İlk vaxtlar Arbat məhəllələrində qədim Rusda "*besermen,*

*basurman*" adlandırdıqları Xivə, Xarəzm və Buxaradan çıxma əhali yaşayırdı.

*Радлов, 1.1367; Фасмер, 1.83; Вагнер, 40; Баскаков, ТНМУ, 27; МЭ, 110-111; Т. Москвы, 142-146*

**Arbek**ovo (Арбеково) – Moskvaaltı (Mojaysk ray) kənd. Soyadının əsasında ar~er+bek"bəy" (*qoçu, igid, cəsur*) kəlməsi durur.

**Arbek**ovo stansiya; Moskva-Mojaysk dəmiryolunda stansiya. Bundan başqa Arbekovo yaşayış məntəqələri, meşə qoruğu Penzada da vardır.

*Веселовский, 14.*

**Arbuz**ovo (Арбузово) – Moskva vilayətində (Dmitriyev ray) iki kənd və dəmiryolu stansiyası adı vardır. Boyar Arbuzovlar (öncə: Arbuz) Nijni Novqorod və Arzamasdan çıxma mülkədar idilər; Moskvaya yerləşmişlər (XV əsr). III İvanın edam etdirdiyi dövlət adamı Arbuzov da vardır. Arbuzovo yaşayış məntəqə adları Mərkəzi Rusiyanın coğrafiyasında (Vladimir, Kursk (2), Orlov, Tver (2), Kostroma, Nijeqorod), Smolensk(Qarbuzovo) tez-tez rast gəlinir.

*Радлов, 2.213; Веселовский, 15; Поспелов, 132; Ведина, 96*

**Arxar**ovo (Архарово) – Yaroslav vil. (Rıbinsk r.) bağlı kənd. Rusiya tarixində Arxarovlardan ən çox Moskvanın general-qubernatoru Arxarov məşhurdur; zadəgandırlar (1627). Nəsilləri Kazan xanlığından çıxan Arxarov XVII əsrdə Karavul Rudin oğlundan və onun oğlu Saltandan gəlir. 1556-cı ildə xristianlığa gətirilir və Kaşira civarında torpaq ərazilərinə malik olmuşlar. Soyadı Türk dillərində "dağ keçisi, vəhşi qoç" mənasındakı arxar, arqar, arqalı sözündən və -ov rus dili şəkilçisindən düzəldilmişdir. Arxarovların tam Şərq ənənəsində olan ailə gerbinin bərabər bölünmüş hissələrindən birində ay-para, digər qismində ucu yuxarıya olmaqla siyirmə qılınc tutmuş əl təsvir edilmişdir. Orlovda eyniadlı kənd.





*Веселовский, 16; Баскаков, 128; Halikov, 27.*

**Arxan**ovo (Арханово) – Moskva vilayətində (Sergiyev Posad və Dmitriyev ray.) kənd

Moskvaaltı Arxanovo kəndləri arkan ~arxan< ar, ər+xan adından törəmiş olmalı. Lakin soyadının kökündə arxan~arkan "örkən" sözünün dayanması ehtimalı da güclüdür. Arkan türk dillərində ip, kəmənd mənasında işlənir; lakin sözün tarixi-leksikoloji təhlilində onun əski çağlarda hərb termini olaraq işləndiyi ortaya çıxır. Ağır və möhkəm zirehli döyüşçünü yalnız arkanla yıxıb atdan salmaq mümükün idi. Türkmənşəli rus soyadları içərisində Arkanov soyadı da var.

*Радлов, 1. 288; Баскаков, 255; Фасмер, 1.86; Шипова, 37*

**Arqun**ovo (Аргуново) – Moskvaaltında 3 kənd; Ramenski, Voskresenski, Zaraysk ray. daxildir. Sənədlərdə XV əsrdən məlumdur.

**Arqun**ovskaya (Аргуновский пр.) – caddə Moskvanın Ostankino ərazisində yerləşir.

Arqun – Türk nəsil və tarixi şəxsiyyət (Abaqay xanın oğlu, 4-cü İlxani padşahıdır) adıdır. Arqun İvan Qroznı əyanlarından olmuşdu. Arqunovlar 1577- ci ildə Kolomnada, ardınca Ryazanda, Pereyaslavda mülk sahibi idilər. Rusiya coğrafiyasında (Vladimir, Voloqda, Kaluqa, Tula vil.) Arqunovo məntəqələri vardır.

*Веселовский, 15; Т. Москвы,76, 122; Atalay, 10; Поспелов, 132*

**Armazovo** (Армазово) – Desna çayı üstündə kənd (Podolsk ray.) Armazovo Almaz şəxs adı ilə əlaqədardır. Sənədlərdə 1628-ci ildən adı çəkilir.

*Поспелов, 132; Лелевкин, 12*
*Bax: Almazovo məq.*

**Armyakovo** (Армяково) – Odintsov rayonuna daxil olan bu kəndin adı Armyak soyadı (ləqəbi) Armyak üst kəndli geyimi; kişi ev geyimi ilə bağlıdır. 1498-ci ildə Armyak Çaduyev məlumdur. Türk mənşəli rus familiyaları içərisində Armyakov soyadı da var.

*Фасмер, 1.88; Поспелов, 133; RTS, 110, 147*

**Arsenal** qülləsi (Арсенальная башня) – Moskva Kreml hasarları üzərindəki bürc; 1493-95-ci ildə tikilmiş. Bu adla iki bürc vardır: Orta Arsenal bürcü və Küncvarı (Uqlovaya) bürcü. Arsenal əsli ərəb dilindən olmaqla türk mühitindən rus dilinə keçmiş sözlərdəndir. Bu bürc Kremlin 20 bürcündən ən möhtəşəmidir; Qızıl Meydana baxır.

**Arsenal** meydanı (Арсенальная пл.)1701-1737-ci illərdə burada Arsenal binasının tikilməsilə əlaqədardır. **Arsenal** (Арсенал) Kremldə tarixi bina; burada qədim silah və əsləhə, hərbi qənimətlər qorunur.

**Arsenal** əsli ərəbcə (dar-əs-sina) gəmi tərsanə emalatxanası, sonra isə silah anbarı, cəbbəxana; rus dilinə türk dilləri vasitəsilə yayılmışdır. Avropaya yayıldıqca söz başındakı "d" səsi tələffüzdən düşmüş, *arzana* şəklini almışdır.

*Сытин, 62; МЭ, 111, 112*

**Arsenev** küçəsi (Арсеньев переулок) – Küçə XVIII əsrdə evin sahibinin adıyla adlanmışdır. Arsenevlər ruslarda türk əsilli ailələrdəndir; XVI əsrdən zadəgandirlar. Nəsilləri Dmitri





Donskoyun tərəfdarı Arslan mirzənin xtistianlaşdıqdan sonra Arsen Lev Prokopi adı alan oğlundan başlayır. Kostroma bölgəsində yerləri olmuşdur. Arsenyevlərin gerbində *çarpaz yataqan, ox və at nalı, hilal* simvolları ailənin türk-tatar mənşəyinə işarə edir. Arsenyev məntəqə adlarına Mərkəzi Rusiya çoğrafiyasında (Ryazan, Tver, Tula, Orlov vil.) rast gəlinir.

*Баскаков, 150; Halıkov, 27; Сытин, 62;*
*TƏR, 317-321; Ведина, 103*

**Arşin parkı** (Аршиновский парк) – Moskvanın Saritsino səmtində Bakı və Bexterov küçələri arasında salınmışdır. Bağın adının Arşinov soyadı ilə bağlılığı şübhə yeri qoymur. Arşın türk uzunluq ölçüsü 14-cü əsrdən rus dilində işlənilir.

*Радлов, 1. 333-334; Дм., 522; Фасмер, 1. 92*

**Artek** caddəsi (Артековская улица) – Kırımdakı Artek < türkcə artuq~artiq "*əla, ən yaxşı*" mənası daşıyan yaşayış məntəqəsi adındandır. Artuq Buğa Çingiz xanın oğullarındandır. Qardaşı Xubilay Qaan hakimiyyətində yaşamış sərkərdə (1212-də öl.). Artıkov (Artakov) Süleş Novqorodda Atıcı alayı komandanı olaraq qeyd edilmişdir (1573)

*Веселовский,16; Баскаков, ТЛС, 147;*
*ТНМУ, 28; Halıkov, 27; Atalay, 21*

**Artıbaşevo** (Артыбашево) – Ryazan vilayətində (Miloslavski ray.) kənd. Artıbaşevlər 16-cı əsrin əvvəllərində Moskvaya gəlmiş, sarayda xidmətə başlamışlar. Öz soyadlarını dağ zirvə adından almışlar. Yaroslav vil. kənd

*Веселовский, 15; Баскаков,21*

**Asakovo** (Асаково) – Moskvaaltı yaylaq kəndi idi. 1558-ci ilə dair sənədlərdə rast gəlinir. Şəxs adı olaraq 1078-ci ildə qeyd olunmuş. Əsli Asak<as~us "ağıl, şüur, idrak" və

ak>aduk "*ağıllı, gümrah, diqqətcil*". Hazırda Odintsov rayonuna daxildir.

*Баскаков, ТЛС, 76, 81; Поспелов, 133*

**Astarxan hamamları** (Астраханские бани) – Moskvada tarixi abidə; Astarxansevin (sahibinin) adı ilə adlanmışdır.

**Astarxan küçəsi** (Астраханский пер.) – Moskvanın mərkəzində küçə. 1815-ci ildə buradakı evin sahibi əsilzadə Astarxantsevin adı ilə adlanmışdır. Familiyanın əsasında duran Astarxan qədim Xəzər şəhəri; XVI əsrədək Astarxan xanlığının mərkəzi. Xəzər xaqanı adı (764) <as "türk xalq adı"+ tarxan "titul". Astarxan1556-ci ildə istila edilərək Rus idarəsinə keçirilmişdir.

*Баскаков, ТЛС, 43; ТНМУ, 28; Сытин, 63; ТК, 20-22*

**Astanino** (Астанино) – Moskvaaltında (Yeqorevsk ray.) kənd; 1577-ci ilə aid sənədlərdə rast görünür. Astanovo adlı digər bir kəndə də rast gəlinir (1790). 19-cu əsrin əvvəllərindən zadəgan Durovlara məxsus olmuşdur.

*Поспелов, 133, 134*

**Ata**evka (Атаевка) – Orlovda kənd. Ata böyüklərə, nəsil başçılarına hörmətlə müraciət şəkli . Saratov vil. kənd.

*Радлов, 1. 449; Даль, 1. 27; Фасмер, 1. 95*

**Ataman** küçəsi (Атаманский пер.) – Küçə 1812-ci il qəhrəmanı Don Kazak qoşunu atamanı Platovun şərəfinə adlanmışdır. Saratov, Rostov, Volqoqradda və Voronejdə Atamanovka kəndləri.

Ataman- hərbi rütbə; əsasən kazak qoşununda tətbiq edilirdi. Rus dilində kazak icma başçısı, balıqçılıq arteli rəisi,





qaçaq-quldur başçısı. Rus dilində 13-cü əsrdə qeydə alınmışdır. Türk sözü ata "*böyük, ulu, nəsil başçisi;* yenə həmin mənada *-man* şəkilçi" Əski qazax xanlarına verilən titul.

*Фасмер, 1. 95; Шипова, 41; Даль, 1. 27; Atalay, 8-9; Сытин, 63*

**Aşit**kovo (Ашитково) – Moskvaaltında (Voskresensk ray.) kənd; Aşitov~ Oşitov adı ilə əlaqədardır. Qriqori Aşitkov məlumdur (1672). Aşitkovların nəsil başçısı Nikifor Fedorov Aşit oğlu taxt-taca xidmətinə görə torpaqla mükafatlandırılmışdı. Soyadının etimoloji əsasında Türk sözü aşıtqı "*aşıt, acıtmaq, mayalamaq*" və qı // ki söz düzəltmə şəkilçisidir. Kostroma, Smolensk və Pskov vilayətlərində kənd.

*Баскаков, 199; Поспелов, 135*

**Aşukino** (Ашукино) – Moskvaaltında Meşer çökəkliyində kənd; Puşkin ray. daxildir.

**Aşuk**inskaya dəmiryolu st. (Ашукинская железнодорожная ст.) Moskvadan 48 km. məsafədə dəmiryolu stansiyası.

Rus dilindəki türk mənşəli Aşukin soyadı ilə bağlıdır. Aşukin aşuk~aşık "*aşiq, vurğun, sevgili*" sözündəndir. Ryazan vilayətinə bağlı Aşukovo kəndi də var.

*Радлов, 1. 598, 593; Дм., 18; Фасмер, 1.98; Поспелов, 135*

**Ata**evka (Атаевка) – Moskvaaltında (Klin r.) kənd. Ruslarda Atay adına 16-cı əsrdə rast gəlinir. Saray mirzəsi Atayev (Otyayev) məlumdur (1547) *Atay-"ata, baba, qoca";* Atabek, Atajuk, Atajukin Türk mənşəli soyadlarıdır.

*Веселовский, 16; Баскаков. 96-97; Поспелов, 134*

**Atarbek** caddəsi (пр. Атарбека) – Moskvanın şərq hissəsində yerləşir. Şimali Qafqazda sovet quruculuğu xadimi

şərəfinə qoyulmuşdur (1961). Tərkibi türk sözü atar at+ar "hücumçu, öncül"+bek sözlərindən ibarətdir.

**Aykanovka** (Айкановка) – Ryazan vil. (Saraevski ray. daxildir) kənd. Aykanov Türk kökənli Rus soyadlarındandır. Krasnoyarskda kənd və çay adı. Aykan ay"qəmər, hilal", kan "xan" Türk şəxs adları Aybulat, Aydəmir, Aybikə, Ayxanım modelində yaradılmış ad.

*TƏR, 74; Türk İ., 17*

**Ayvazovski** (ул. Айвазовского) – Küçə Moskvanın cənub-qərb səmtində, Yasenovo ərazisindədir; 1978-də marinist rəssam İ.K. Ayvazovskinin (1817-1900) xatirəsinə adlandırılmışdır. Onun türk olan ulu babasının uşaqkən Azak kalasından ruslara əsir düşməsi və xaçlanması söylənilir. Rəssamın atası Kaytan isə daşıdığı öz Ayvaz soyadını Ayvazovski yazdırır. Soyadının kökündə Ayvaz~Eyvaz *xidmətçi, süfrəçi, "saray ağası"* (dvoretski) türk sözü dayanır.[28]

*TK, 267-268*

**Azak** caddəsi (Азаковская ул.) – XIV-XV əsrlərdə bu ərazidə mövcud olmuş Azak kəndinin adındandır; kənd və əraziləri Azak (Ozak) adlı (Özək) əsilzadəyə mənsub idi. Hazırda Moskvanın Sokolniki inzibati rayonuna aiddir. İndiki Azakovskaya küçəsi keçmiş kəndin ərazilərini əhatə edir.

*Сытин, 35, 57; Подмосковье, 319; Halıkov, 80*

**Azov** caddəsi (Азовская улица) – Küçə 1966-cı ildə Azov dənizi adı ilə adlandırılıb.

Azov, əsli Azak 18-ci əsrədək Osmanlı dövləti torpaqlarına daxil idi, I Pyotrun yürüşündən sonra Rusiyaya daxil edilir.

---

[28] Каратыгин П. Иван Константинович Айвазовский и его художественная XVII-летняя деятельность.— «Русская старина», 1878, т. 21, № 4. С.18.





Azak, Assak adı qədim *Az* və ya *As* xalqı bağlıdır. Qıpçaq və bulqarlarda Azak şəxs adı; Qıpçaq xanı Azak məlumdur.

*ЭС, 1 т., 234; İslam Ansik., 4., 300; TK, 40-43*

**Babaev caddəsi** (Бабаевский пр. ) – Küçə Moskvada Əsli Şəkidən olan sovet quruculuğu qəhrəmanlarından Pyotr Akim oğlu Babayevin (1883-1920) şərəfinə qoyulmuşdur.

**Babayev** qənnadı kontseniri (Бабаевская фабрика) – Əski Abrikosov qənnadı firmasının yeni adı Pyotr Akimoviç Babayevin şərəfinə dəyişdirilmişdir (1922). Sokolniki tarixi ərazisində küçə (1925)

**Babayevo** (Бабаево) – Moskvaaltında (Mojaysk, Stupin, Ruzsk ray.) kənd; 1577-ci ildə rast gəlinir.

Kəndlərin (küçənin) adı Babay, Babayko (1562) və Babayev (1622) soyadları ilə əlaqədardır. Soyadının əsasında türk dillərinə məxsus "baba, babay" *dədə, ata, qoca, ağsaqqal* sözü dayanır. Babay türk sözü həm də Volqa boyu və Ural ətrafı rusların danışığında işlədilir. Rus folklor personajı olan bəd ruh adı olan Babay məlumdur; böyük kisəsi olan qoca, o bu kisəyə sözəbaxmayan uşaqları yığırdı. 15-16-cı əsrlərə aid tarixi sənədlərdə bu sözdən yaranan Babayev (babay+ev"rus dili şəkilçisi") familiyasına rast gəlinir.

*Веселовский, 18; Баскаков, 243; Поспелов, 135; МЭ, 121; Ведина, 121*

**Babaxino** (Бабахино) – Moskva vilayətində (Taldom ray.) kənd. Babaxino kəndi Ryazan vilayətində də vardır.

**Babınino** (Бабынино) – Moskva vilayətində kənd (Mojaysk ray.) Əvvəlcə Babanin; kənd Babanin soyadı ilə bağlıdır (1615) Babanin, Babkin, Baba, Babarıka, Babaxin kimi rus familiyaları türk kəlməsi baba "*ata, dədə; böyük, ağsaqqal*" mənası ilə bağlıdır. Babınino kəndi Kaluqa və Kirov vilayətlərində də vardır.

**Babiç**ev caddəsi (пр.Бабичева) – Moskvada küçə. Ad Türk əsilli Babiçev soyadı ilə bağlıdır. Öz növbəsində soyadı bay biçə (oğul, uşaq) yəni "*bəy oğlu, bəyzadə*" və ya baybiçə (*bay+ bikə, biçə, bikəç*) xanım, bəyim sözündən - baybeççə və ya baybiçə sözündən və -ev rus dili şəkilçisindən əmələ gəlmişdir. Mərkəzi Rusiya coğrafiyasında (Voloqoda, Luqansk, Kaluqa, Kirov vil.) Babiçevo adlı yaşayış məntəqələri var.

*Веселовский, 18; Баскаков, 242-243; ТНМУ, 22*

**Babk**ino (Бабкино) Moskva vilayətində (Dmitriyev ray.) Demidovlar ailəsindən doğan boyar Babkinlərlə bağlıdır (XV) Babkinlər Barıkovlarla eyni nəsildən hesab olunur. Mərkəzi Rusiyada - Kaluqa, Kostroma, Smolensk, Tula, Tver, Kirov vilayətlərində kənd.

*Веселовский, 18; Баскаков, 33, 243; Поспелов, 135; Ведина, 121*

**Baboş**ino (Бабошино) – Moskva vilayətində (S. Posad ray.) kənd. Əvvəllər XV əsrin başlanğıcınadək Aleksey Babaşa məxsus Şatrovsk kəndi (Şatr<çadır sözündən) olub; sonradan sahibinin adı ilə adlanmışdır. Tver, Tula ərazilərində yaşayış məntəqələri.

*Веселовский, 41-42; Поспелов, 154*

**Babur**ino (Бабурино) – Moskvaaltında (Ozersk ray.) kənd Babura "*pərvanə*" mənasından doğan ləqəb əsasında yaranmış Baburov familiyasından (1592); Ryazanlı mülkədar nəsli Baburinlərlə əlaqədardır (XVI) Baburin yer adlarına Rusiyanın digər yerlərində (Vladimir, Yaroslav vil.) rast gəlinir.

*Веселовский, 18; Вагнер, 50; Поспелов, 135; Ведина,122*





**Baçur**ino (Бачурино) – Moskva vilayətində (Voskresensk ray.) kənd. Baçura (1545), Qrida Baçurin (1495) məlumdur. Formalaşdığı Bayçurin soyadı Bay+çura (bay-*zəngin, sayğın*; çura titul: *igid oğlu, silahdaş, bahadır*) iki sözdən yaranmışdır. Bayçura soyadı rus dilinə adaptasiyası zamanı Baçurin~Biçurin, dialektlərdə isə xarakterik b>m – səsuyğunluğu ilə Miçurin şəklini almışdır. Başqırdıstanın yer adları sırasında Baçurin məntəqə adları da vardır.

*Веселовский, 30; Баскаков, 229; Поспелов, 141; Лелёв.,16*

**Badee**vo (Бадеево) indi Çexov (1954) qəsəbəsi adının əsasında badya (*böyük dol, ləyən*) sözündən yaranan Badeev soyadı durur. Kənd haqqında ilk məlumat 1401-ci ilə aiddir. Hazırda qədim Badeevo şəhərdə küçə adları kimi yaşamaqdadır.

*Веселовский, 19; Вагнер, 146; Поспелов, 550; Ведина,128*

**Baxçivandji** (ст. Бахчеванчи) – Moskvaaltında Şelkovskiy ray. dəmiryolu st. Baxça+van+çı "*bağban*"sözündən düzələn soyadı

*Радлов, 4. 1464; Шипова, 41; Поспелов, 141*

**Baxmet**ev caddəsi (пр. Бахметьева) – Moskvanın mərkəzində küçə; məşhur soy olan Baxmetovların adı ilə bağlıdır. Baxmetov soyadı öz ailə şəcərəsində də qeyd olunduğu kimi XV əsrin birinci yarısında Vasili Temniyə yaxınlaşan şahzadə Kasim, Yaqub və Oslam Baxmetdən başlayır. Baxmet adı mürəkkəb türkcə bay "*zəngin, varlı*" + (A)hmet (<ərəb. Ahmad "seçgin") > Bayahmet ~ Ba (y)hmet ibarətdir. Ryazan, Tula, Voloqda, Peterburq, Orlov, Smolensk, Tver, Ryazan yaşayış məntəqələri arasında Baxmetevo~ Baxmatovo adlarına da sıxı şəkildə rast gəlinir.

*Веселовский, 29; Баскаков, 100; Сытин, 218*

**Baxruş**in keçidi (проезд Бахрушина) – Baxruşinlərin burada evi yerləşirdi.

**Baxruş**in (böyük və kiçik) caddələri (**пр. Бахрушина**). Baxruşinlərin evi və xalq üçün tikdirdikləri ev, təsis etdikləri muzey bu küçələrdə yerləşdiyindən belə adlanmışdır.

**Baxruş**in xəstəxanası (Бахрушиных больница) Sənayeçi Baxruşinlərin maddi vəsaiti hesabına tikilmiş; 1898-ci ildən fəaliyyət göstərir

**Baxruş**in Teatrı (Бахрушинский театр) – İndi Qorki adına Moskva Bədaye teatrı. Əsasını böyük mesenat Aleksey Baxruşin qoymuşdur.

**Baxruş**in teatr muzeyi (музей Театра Бахрушина) – Mesenat-tacir Aleksey Baxruşinin (1865-1929) kolleksiyası əsasında 1890-cı illərdə əsası qoyulmuşdur: Baxruşinlərin keçmiş sarayında yerləşir.

**Baxruş**in (Бахрушин) Baxruşinlər Qasımov tatarları arasından çıxmışdır. 16-cı əsrdən xristianlığı qəbul etmişlər. Moskva dövlətiylə həmsərhəd olan Saray (indi Zaraysk) şəhərinə yerləşmişlər. Dəri ticarətilə yüksələn tacir Baxruşinlər 1821-ci ildə Moskvaya köçmüşlər; buranın zəngin, seçilən ailə nüfuzu qazanmış, mədəni-maarif adamı kimi şöhrət tapmışlar.

*МЭ, 131; TƏR, 96-99; Сытин, 176*

**Baxt**eevo (Бахтеево) – Moskvaaltında (Ramensk ray.) Kəndin adı "Qeydiyyat Kitabı"nda ilk dəfə 1646-cı ildə çəkilir. Baxtey (*baxt* "*səadət*") adı ilə əlaqəlidir; Qriqori Baxteyev (1621) məlumdur. Baxtinka (Oryol vil. kənd)

*Веселовский, 28; Баскаков, 107; Поспелов, 141; Ведина, 148*

**Bakan**ovo (Баканово) – Tver, Pskov, Yaroslav və Kurqan vil. kənd. Türk mənşəli Rus soyadının əsasında Türk dillərindəki tünd qırmızı rəng adı dayanır (XVI).

*Радлов, 4. 1433; Веселовский, 21; Даль, 1.39; Фасмер, 1.109.*





**Bake**evo (Бакеево) – Moskva vilayətində (Solneçnoq. ray.) kənd və qəsəbə. Hər iki kənd Bakey adı ilə bağlıdır; Tverli boyar Bakey məlumdur (1474) həmin zamandan da Moskvaya yerləşmiş, saraya yaxın ailə olmuşdur. Bakeev soy adı götürmüşlər. Başqırdıstanda kənd.

*Веселовский, 21; Баскаков, 42, 176; Поспелов, 136*

**Bakı** caddəsi (Бакинский пр.) – Moskvada Bakı küçəsi (1965) Azərbaycanın paytaxtı Bakı adı ilə əlaqədardır. Bakı sözünün mənşəyi ilə bağlı müxtəlif mülahizələr olsa da bakı "*təpə, təpəlik yer*" mənas ilə bağlılığı inandırıcıdır. Qafqaz bulvarı ilə Kaspi caddəsi arasında yerləşir.

*ДТС, 51;Баскаков, ТНМУ, 28*

**Baklan**ovo (Бакланово) – Moskva vilayətində (Podolsk ray.) kənd Maça çayı sahilində yerləşir. Smolensk vil. eyniadlı iki kənd.

**Baklan**ovo (Бакланово) – Moskva altında (Solneçnoqor və Klin ray.), bir də Smolenskdə iki kənd. Baklanovların soyadı əsasına türk sözü baklan "*böyük quş*" (böyük başlı quş; məc."*yekəbaş, bolvan*" sözü dayanır. Məs., müasir qazax və qaraqalpaq dillərində baqlan, bağlan,"*baqlan qaz*"; "*bağlan quzu*"; qırğız dilində bağlan "*böyük və kök*" deməkdir. Soyadı olaraq 15-ci əsr sonlarında Baklan Buturindən başlayır. Semyon Baklanov 1565-ci ildə Kazanda qeydə alınmışdır. 2. Yekaterina dövründə Moskva Sikkə Sarayında (pul və medal kəsilən) fəaliyyət göstərmiş.

*Веселовский, 22; Баскаков, 121; Шипова, 52; Поспелов, 136; Halıkov, 30; Ведина, 140*

**Bakş**eyevo (Бакшеево) – Moskva vilayətində (Şatura ray.) kənd. Sözün əsasında bakşı "*katib, münşi, mirzə*" sözü

durur. Mülkədar Mixail Bakşa (1437); torpaq sahibi Vasyuk Bakşa (1504) məlumdur. Xaçlanmış tatar nəsli Bakşıyevlər soyadı bakçı~bakşı "*müəllim, bilici, qopuzçu, müğınni; ara həkimi*" sözündəndir. Mərkəzi Rusiya regionunda - Voloqda, İvanov, Kostroma, Bryansk, Yaroslav, Nijeqorod, Smolensk, Tver yaşayış məntəqələri arasında Bakşeevo adlarına da sıxı şəkildə rast gəlinir.

*Радлов, 4. 1445, 1446; Веселовский, 22; Баскаков, 31; МЭ, 124; Даль, 1. 40; Поспелов, 137; Halıkov, 30*

**Bakşe**ixa Moskva vilayətində (Taldom ray.) kənd

*Bax: Bakşeevo məqaləsinə*

**Bakul**ino (Бакулино) – Moskva vilayətində (Mojaysk ray.) kənd. Bakula adındandır; kəndli Bakula (1495), tüfəngçi İvaşko Bakulin (1667) məlumdur. Bakula – *zarafat, laqqırtı, gəvəzəlik*; bakulit - balakat, "*söhbət etmək, gəvəzələmək*" sözündən yaranan soyadı. Voloqda vil. eyniadlı kənd.

*Веселовский, 22; Баскаков, 34; Поспелов, 137*

**Bakul**ov caddəsi (Бакулов) – Moskvanın cənub-qərb səmtində, Teplıy Stan ərazisində yerləşir; küçə akad. A.N. Bakulovun (1890-1967) xatirəsinə qoyulmuşdur (1980). Бакулова улица) soyadının əsasında türk dillərində baxıl (paxıl)<ərəb. "*xəsis, qısqanc, paxıl*" (>Baxılov, Bakulev) 1495-ci ildə ilk dəfə qeyd olunmuşdur. Mərkəzi Rusiyada (Kirov vil.) bir neçə Bakulovo kəndləri var.

*Баскаков, 34; МЭ, 123*

**Balaban**ovo (Балабаново) – Kaluqada (Borovski ray. daxildir) kənd

**Balaban**ovo (Балабаново) – Moskvaaltı (Noqinsk və Puşkin ray.) kənd.





**Balaban**ovo (Балабаново) – Moskvaaltı (Volokolam ray.) kənd. Vergi Dəftərində 1532-ci ildə rast gəlinir. Moskva Böyük knyazının dyakı (dəftərxana rəisi) Baloban Kuvşinov məlumdur.

Nəsil 1585-ci ildə Arzamasda qeydə alınmış Balabanov Postnik İvanoviçdən başlar. Familiya balaban, balobon 1. Böyük qartal; 2. Oğuz türklərində soy adı; 3. Dayça, qulun; 3. "*Səfeh, gic, dəmdəməki*" mənalı türk sözündən yaranmış ləqəbdən törəmişdir. Kaluqa, Yaroslav vilayətlərində kənd adı.

*Веселовский, 22; Баскаков, 8; Поспелов, 137; Atalay, 41*

**Balaklava** prospekti (Балаклавский проспект) – Prospekt Moskvanın Cənub və Cənub-qərb dairəsində Varşava şosesindən Sevastopol xiyabanınadək uzanır. Balaklava Kırımda şəhər – hazırda böyüyən Sevastopol şəhərinə birləşmiş və Balaklava buxtasının adı. Ad balaklava türkcə "şapka-maska" döyüşçü baş geyimi sözü ilə əlaqədar ola bilər. Şəhərin relyev xüsusiyyətləri də bu ehtimalı gücləndirir. Baskakov zəngin balıq ehtiyatlı Balaklavanın körfəz keyfiyyətini əsas tutaraq bunu balık və lava "*ovlamaq*" sözlərilə əlaqələndirərək balığın çox olduğu, çox təmin olunduğu, ovlandığı yer mənsında izah edir.

*Баскаков, ТНМУ, 29*

**Balakir**evo (Балакирево) – Moskvaaltı kənd (Voskresensk ray.) kənd. Məntəqə haqqında ilk məlumat XVI əsrə aiddir; rus zadəgan ailəsi Balakirevlə bağlıdır..

**Balakir**ev küçəsi (ул. Балакирева) – Moskvanın mərkəzində tarixi Basman və Yeni Pereveden caddələri arasında yerləşir. Öz adını burada yerləşmiş Balakirev fabriki adından almışdır. Türk dillərində balakir "*dolça, sərnic, südqabı*"- rus dilinə keçmiş sözlərdəndir. Türkəsilli Balakirov soyadı ruslarda 16-cı əsrdən işlənilir. Balakirovlar əski zadəgan nəslidirlər.

Hələ XIV əsrdə Mamay xanın Litvaya köşən oğlu Mansur Kiyatın başının dəstəsində hərbi komandan olaraq adı keçir. XVI-XVII əsrlərdə İvan Balakir öz torpaqları ilə Kaşirada, Kolomnada, Arzamasda qeyd edilmişdir. 1579-cu ildə Pronya Balakirev IV İvanın xidmətindədir. Daha sonralar bu nəsildən rus çarı I Pyotrun dostu və XIX əsrdə yaşamış məşhur bəstəkar çıxmışdır. Vladimir, Tver (3), Yaroslav (4), Tula, Tambov, Smolensk vil. kənd.

*Веселовский, 22; Даль, 1. 41; Halıkov, 30; TƏR, 242-246; МЭ, 124; Ведина, 142*

**Balaquşa küçəsi** (ул. Балагуша) – Moskvada küçə; yerin adı ilə əlaqədar adlanmışdır(1922); 18-19-cu əsrlərdə burada Balaquşa Dövlət meşəsi var idi. 19-cu əsrin axırlarında meşəli ərazi şahmat şəklində xanalara bölünərək ev tikənlərə satılmışdır. *Balaq, balax~bulaq* türk tayfa adı; bulqarlarda kişi adı, sabirlərdə tarixi şəxsiyyət xan adı. Smolensk vil. bağlı eyniadlı kənd.

*Баскаков, ТЛС, 44; Сытин, 74; МЭ, 141*

**Balandino** (Баландино) – Vladimir vil. kənd; Qoroxovets r. daxildir. Qeyri-kilsə adı olan "balanda" dan törəmişdir. Ural dağları arxasındakı əhali balandat "bulandırmaq" dedikdə palçıqa girmək, suyu bulandırmağı nəzərdə tuturlar. Sənədlərdə ilk dəfə 1492-ci ildə Böyük knyaz sarayında hakim olaraq rast gəlinmişdir.

*Веселовский, 23*

**Balaşixa** (Балашиха) – Moskvaaltında kənd (Mıtışi ray). Balaş adından formalaşmışdır. Saratov vilayətində də Balaş şəhəri vardır.

**Balaşixa** (Балашиха) – Tarixi ərazi. Əvvəl burada Moskvanın əsas un dəyirmanı olan Balaş dəyirmanı, sonralar qraf Razumovski və Dolqorukilərin sarayı yerləşirdi (Sovet hak. illərində sarayda yetimxana açılmışdı)





Balaş ayama kimi ruslar arasında 14-cü əsrdən qeydə alınmışdır. Baskakov bala "*uşaq, övlad*" – ş şəkilçisinin isə sözə əzizləmə çaları verdiyini soyləyir. Tver (2), Saratov, Permdə və Belorusyada yer adı.

*Веселовский, 23, 43; Баскаков, 110-111; Вагнер, 50; Поспелов, 137*

**Balçik** (Балчик)- Oryol vil. kənd; Pokrovski ray. aiddir

**Balçuq** prospekti (пр. Балчуг) – Moskva çayının sağ sahilində Kremldən azca aralı (Moskva çayı körpüsü ilə Kremllə birləşir) tarixi Balçuq ərazisində yerləşir. Keçmişdə sulu, çayın daşqınlarından həmişə palçıqlı olan ərazi Balçuq adlandırılmışdır. XIV əsrdən məlumdur; Moskvanın ən qədim küçələrindən sayılır. O zamanlar otlaq kimi istifadə olunurmuş. 16-17-ci yüzillikdə burada Çar bağları salınmışdır; belə ki, qış fəslində hava şəhərin digər yerlərinə nisbətən isti olarmış. Hazırda Balçuq caddəsi onunla bağlıdır. Balçuq adı indiyədək Moskva ərazisi adlarında yaşamaqdadır. Türk dillərində *balçıq, balçek, balçex, palçıq* şəkillərində işlənir.

**Balçuq** mehmanxanası (гостиница Балчуг). 1900-cü illərdə bu ərazidə tikilmiş mehmanxana indi Balçuq adı daşıyır.

**Balçuq** adası (о. Балчуг) – Moskva çayında ada; XVI yüzillikdən Balçuq və ya Tatar, Orda adası adlanır.

*МЭ, 126; Сытин, 67; Т. Москвы, 28; Баскаков, ТНМУ, 27; Долгоруков, 83*

**Balıkino** (Балыкино) – Smolenskdə iki qəsəbə adı. Balık "bel hissəsindən duzlanıb, hisə verilmiş qırmızı balıq"Kəndin adı Türk əsili Balıkin soyadındandır.

*Радлов, 4. 1496; Даль, 1. 44; Фасмер, 1.119*

Böyük **Balkan** (ул. Большого Балканского) – Moskvanın mərkəzində caddə; Astarxan və Kalança küçələrinin arasında yerləşir.

**Balkan** gölməçəsi (Балканский пруд) – Moskvada Qroxolski rayonunda müasir Sadovoe koltso yerində 17-ci əsrdə mövcud olmuş və 1880-ci ildə qurudulmuş gölməçə adı. İndi Böyük Balkan və Malıy Balkan küçə adlarında saxlanılır. Türkcə balqan "*meşəliklə örtülmüş vahə; böyük, yüksək dağ silsiləsi ətəklərində meşəlik yer; çəmənlik, bataqlıq*". Xəzər dənizinin şərq sahillərində Balkan dağ silsiləsi.

*Фасмер, 1.116; Сытин, 67; Т. Москвы, 56-57; МЭ, 126; Баскаков, ТНМУ, 28*

**Baluşevo** (Балушево) – Ryazanda (Kasimov ray. daxildir) kənd. Balışev, Baluşev Türk əsilli Rus soyadlarındandır. Kəndin sahibi Baluşev – balış "qızıl pul" soyadındandır. Rus familiyaları: Balış, Balışev bu sözün məhz bu mənasıyla (balış-əsli balınc sözü ilə deyil) əlaqədardır.

Moğol-tatar imperiyasında balış pul vahidi idi. Çində də XIV əsrdə haqq-hesab "balış"la aparılırdı. Balış, Balış bay türkmən və qazaxlarda kişi adı kimi istifadə edilir.

**Barabanovo** (Барабаново) – Moskva vilayətində (Kaşira ray.) kənd. 1578-79-cu ildə ilk dəfə Qeydiyyat Kitabında rast gəlinir.

**Baraban** (Барабанный пер.) – Moskvanın şərqində yolağ XVIII əsrdə həmin yerdə Semyonov alayı Baraban bölüyü yaşayırdı. Ad ondan bir xatirədir.

Barabannıy baraban+nıy – Baraban böyük silindr şəkilli zərb musiqi aləti, türk dillərində baraban, daraban; Rus dilinə keçmiş türk hərb sözlərindəndir. Türkəsilli soylardan biri. Voloqda, Kostroma, Pskov, Krasnoyar kənd və çay (Çulım hövzəsində) adı., habelə Kırım vilayətlərində kənd və göl.

*Веселовский, 24; Поспелов, 138; Радлов, 4.1478; Фасмер, 1.122, 123; Сытин, 68*





**Barak**ovo (Бараково) – Ryazanda kənd (Putyatin ray.) Barak ~paraq "müvəqqəti tikili" – Türk Barakov soyadı Kolomna və Voloqdada qeydə alınıb(1596) kəndin adı soyadı ilə bağlıdır.

*Веселовский, 24; RTS, 285*

**Barançik** (Баранчик) – Oryolda kənd;Doljan ray. daxildir. Baran və -çik kiçiltmə, əzizləmə şəkilçisi iştirakı ilə.

**Baran**ovo (Бараново) – Moskva vilayəti Mojaysk ray. 3 kənd vardır.

**Baran**ovo (Бараново) – Moskva vilayətində (Вскpesensk və Ruzsk ray.) kənd

Soyadının əsasını 1430-cu ildə Kırımdan Mockva Rusuna gəlmiş Murza Jdan Baran qoymuşdur, böyük knyaz Vasili Temnı onu sarayına dəvət etmiş, Mirza Jdan xaçlanaraq Daniil Baranov adını almış, Temnının əyanlarından olmuşdu. Sonralar onun oğlu Afanasi Daniloviç Baranov Kazan üzərinə yürüşlərdə iştirak etmiş, buna görə də çar tərəfindən çoxlu torpaqlarla mükafatlandırılmışdı. 1699-cu ildə qraf Baranovlardan 9-nun adı topraq və mülk sahibi olaraq qeyd edilmişdir. Gerblərində ortada qaçan at, kənarında balta ilə silahlanmış türk rəsm edilmişdir. Rusiyanın demək olar ki, bütün coğrafiyasında bu adda şəhər və kəndə rast gəlmək mümkündür.

*Веселовский, 24; Баскаков, 149-150; Поспелов, 138; Halıkov, 31; Ведина, 143*

**Baran**ovskoe (Барановское) – Moskva vilayətində (Voskresenski ray. daxildir) kənd

**Barant**cevo (Баранцево) – Moskva vilayətində (Solnçneqorskoe və Çexov ray.) kəndlər.

Yeni xaçlanmış Barantsevlərin soyadına ilk dəfə 1521-ci ildə rast gəlinir; topraq sahibi mülkədar kimi isə 1622-dən çəkilir. Bir çoxlarının da düşündüyü kimi baran, burada "*qoyun,*

*quzu*" mənasında deyil, baran "*varan, gələn*"; məcazi çalarlarında "*gəlir, var- dövlət*" anlamını ifadə edir.

*Веселовский, 24; Баскаков, 149-150; Halıkov, 31; Поспелов, 138*

**Baraş**evo (Барашево) – Ryazan vil. (Sasovski ray. daxildir) kənd

**Baraş**evskaya caddəsi (ул. Барашевская) üç küçə vardır 17-ci əsrədək burada Baraşev slabodası yerləşirdi. 1410-cu ildən məlumdur. Tarixi Moskvada Baraşevskaya slabodasında (Pokrov Qapıları arxasında) saray sənətkarları – baraşlar "fərraşlar" yaşayırdı. Qədim Rusda sarayın yataq ləvazimatını hazirlar; baraşilər (ruslar onları belə adlandırırdı) knyaz çadırları və yataq dəstləri ilə onları hərbi səfərlərə, ova və s. müşayət edərdi. Baraşi əsli ərəb sözü olan *fərraş* sözündən olub 1. knyazın çadır təminatına baxan xidmətçi; 2. çadır düzəldən "*sənətkar, yataq ustası*" ev mükəlləfiyyatları hazırlayan sənətkar[29]. Mordova və Ryazanda eyni adlı yaşayış məntqələri vardır.

*МЭ, 127; Даль, 1. 14; Сытин, 68; Горбаневский, 35*

**Baraş**kov (ул. Барашкова) – Moskvanın mərkəzi qismində kücə. Küçənin adı buradakı ev sahibinin soyadından götülmüşdür.

XV yüzillikdə Rusiyaya Baraş ilə oğulları Adaş, Nedaş, Ketlece köçüb gəldi. XVI əsrdən zadəganlığa keçirildikləri məlumdur. Soyadı baraş,"fərraş" sarayın yataq dairəsinin ağası sözündən düzəlmişdir. Baraşlar knyazı səfərlərdə, hərbi yürüşlərdə də müşayət edir, onun təsərrüfatına nəzarət edirdi. Rus dilində baraş (baran "*qoyun*" sözünün kiçiltmə-əzizləmə şəkli)

[29] Словарь русского языка XI-XVII вв,с.73.





ləqəbi həm də qıvrımsaçlı adam haqqında işlənirdi. Mordoviya, Tver, Ulyanov, Ryazan vil. Baraşovo kəndləri var.

*Веселовский, 24; Баскаков, 30, 37; Halikov, 31; МЭ, 127; Сытин, 266*

**Barduk.** Qara Barduk gölü (Бардуковское озеро (черное). Moskva vilayətində (Şatur ray.) göl.

**Barduk** Ağ Barduk gölü (Бардуковское озеро (белое) gölü. Moskva vilayətində (Şatur ray.) göl.

**Barduk**ovo (Бардуково) – Moskvanın şərqində (Taldom ray.) kənd. Qara Barduk gölü kənarında yerləşir. Bardukov və Bardıgin soyadı daşıyanların Moskvaaltında torpaqları olduğu məlumdur. Yaroslav, Smolensk vil. eyniadlı kənd.

*Поспелов, 139*

**Barı**bino (Барыбино) – Moskvaaltında (Ruzsk ray.) kənd; yaylaq qəsəbəsi olmuş, 1577-ci ildə məlum idi. Soyadı Tulada (1519), Kaşirada (1578), Moskva qəzasında (1585) qeyd edilmişdir. Qəsəbə Domodedovo şəhərinə qatılmışdır (2004); hazırda şəhərin mikrorayonudur. Barıbino qəsəbə və dəmiryolu stansiyası adını ondan almışdır (1900).

Barıbino soyadı kökündə tatarlar arasında çox yayqın olan Bari adı durur; "*bütün varlıqları yaradan*" mənasında əsmayihüsnadan sayılır.

*Веселовский, 25; Поспелов, 140*

**Barık**ov küçəsi (Барыковский per.) – Moskvanın mərkəzində küçə; Xamovniki və Pereçistenke arasında yerləşir. Burada yüksək dövlət müşaviri Barıkovun açdığı və ona görə adı ilə adlandığı Barıkov ibadətxanası yerləşirdi.

**Barık**ovo (Барыково) Moskvaaltı kənd (Serebryano-Prudskiy ray. aiddir)

Qıpçaq xanı Barak məlumdur. Barak sözü uzun tüklü it, köpək mənası da vardır. Ehtimal ki, soyadının əsasında qədim

türk sözü olan baruk "*arıq, incə*" sözü dayanır; Barak //paraq adlı xüsusi ov cinsi köpək də var. Barıkovlar soyadının ilk nümayəndəsi Vasili Barıkdır (1566); Vladimirdə (Kolçugino ray.), Orlovda və Tulada (Boqorodits ray.) Barıkino, Barıkovka, Barıkovo kəndi vardır.

*Баскаков, 243, 213-14; Поспелов, 140; Halıkov, 31; Сытин, 69; Ведина, 145*

**Barış**evo (Барышево) – Moskva vilayətində (Orexovo-Zuevo və Serpuxov ray.) və Ryazanda kənd

**Barışi** (Барыши) – Moskva vilayətində kənd; Mojaysk rayonuna daxildir. Kəndin adı tarixini 1495-dən götürən Barışev soyadındandır. Tatarıstan, Ukrayna ölkələrində; Rusiyada Novosibirsk, Nijeqorod, Ulyanovsk, Smolensk və Peterburqa bağlı eyni adlı kəndlərə rast gəlinir. Rus antroponimləri tarixində Tüfəngçi Barış (1682) və kəndli Mixail Barışev (1495) məlumdur.

**Barış**ixa (река Барышиха) – Moskvanın şimal-qərbində çay. 2,7 km. Moskva ərazisilə axır. Sahildə eyniadlı kənd yerləşir. Rus familiyaları içərisində barış "*mənfəət, mənafe, gəlir, qazanc*" mənası ilə bağlı Barışev soyadı da vardır.
Barışixa çayı adı Barışev familiyasından gəlir; yuxarı axarlarında Uvarov yarğanı (ovraq) adlanır. Hər iki ad Türk əsilli barış "*xeyir, mənfəət; sülh*" soyadları əsasında meydana çıxmışdır.

**Barış**ixa küçəsi (ул. Барышиха) – Moskvada eyniadlı çayın sahili boyu uzanan küçə. Barış çayının adı ilə əlaqədar adlanmışdır (1995))

*Веселовский, 26; 139; Долгоруков, 83; Баскаков, 139; Фасмер, 1.129; Шипова, 63; Ведина,146*

**Barışnik**ovun evi (Дом Барышникова) – Moskvanın mərkəzində memarlıq abidəsi; 1797-1802-ci illərdə tikilmişdir. İndi Sanitar Maarifi İnstitutu yerləşir. Soyadı 16-cı əsrdə





meydana çıxmış, Saratov və Ryazan quberniyalarında Şəcərə Kitabında zadəgan olaraq qeyd olunmuşlar. Tatar Barışnikovların əsilləri Ryazan torpaqlarındandır. Familiyanın əsasında barış sözündən formalaşan barışnik "*alverçi, dəllal*" sözü durur. Bu soyadı ilə bağlı Barışnikovo yaşayış məntəqələri (Omsk, Penza, Kursk, Lipetsk vil.) vardır.

*МЭ, 127-128; Веселовский, 26; Баскаков, 139; Ведина,146*

**Barkan**ovo (Барканово) – Moskva vilayətində (S. Posad ray.) kənd. Barkan və Barkanov soyadı ilə əlaqədardır. Börü kan, Barı kan adından yaranmış soyadına mənsub kənd. Barxan – *çöldə, səhrada qum təpəsi, barğan, parxan* sözüylə də əlaqəli ola bilər.

*Баскаков, 243-244; Даль, I. 51; Дм, 19; Фасмер, 1. 129; Поспелов, 139*

**Barsuki** (Барсуки) – Moskva vilayətində Eqoryevsk ray. bağlı kənd; 1577-ci ildən məlumdur.

**Barsuki** (Барсуки) – Moskva vilayətində (Mojaysk və Luxovitski ray. ) iki kənd

**Barsuk** – Rus mənbələrində Barsuk soyadı XV əsrdən, Barsukov isə 1565-ci ildən məlumdur. Kostroma, Kazan, Arzamas, Meşeradan çıxma Barsukovlar vardır. Rus dilində yırtıcı heyvan adı; Türk dillərində heyvan adı olan *barsuk~porsuk* adından yaranmışdır. Mərkəzi Rusiyada Barsuk adı ilə bağlı yaşayış məskənləri (Lipetsk, Tula, Tver, Smolensk, Voloqda, Ryazan vil.) və Altay, Novosibirsk, Başqırdıstanda, Tatarıstanda vardır.

*Радлов, 4. 1668; Веселовский, 25; Даль, 1. 51; Фасмер, 1. 128; Поспелов, 140; Баскаков, 42, 200; Halıkov, 31*

**Bartenevo** (Бартеново) – Moskva vilayətində (Mojaysk ray.) kənd

**Bartenev** (ул. Бартенева) – Moskvada caddə adı; şəhərin cənub-qərb istiqamətində yerləşir.

Selcuk və Boldır Bartenevlər məlumdur (XV). III İoannın fərmanında (1503) Bartenevlərin Dmitrov və Ruzsk qəzalarındakı Ovsyannikovo, Şirinovo, İvanovşino kəndlərinin adı keçir. Bartenevlər Çingizilər ailəsindəndir, nəsil başçıları Kırımdan – Şirin nəslindən çıxmışlar. Rusiyada Smolensk vilayətinə aid daha bir Bartenevo kəndi vardır.

*Веселовский, 47; Баскаков, 125; Агеева, 81*

**Baskaçi** (Баскачи) – Moskva vilayətində kənd (Kaşir ray. daxildir); baskak sözündən. Yaroslav vilayətində Baskaçı adlı 3 kənd məlumdur.

**Baskaki** kəndi (Баскаки) Klyazma çayı üstündə yerləşən gömrükdə rüsum üzərində nəzarətçi xan baskakları (o cümlədən, 1260-80-ci illər böyük baskak Amır xan) burada otururdular. Kənd o dövrdən yadigardır.

**Baskakovo** (Баскаково) – Moskvaaltı kənd Novo Ryazan şossesi üstündə, Moskvadan 41 km. məsafədə yerləşir.

**Baskak** gölü (о. Баскак) – Moskvaaltında (Kolomnada) göl

Baskak türk dillərində ərazinin hərbi hakimi deməkdir. Baskakov soyadı isə öz mənşəyini XIII yüzilliyin ikinci yarısında Vladimirdə canişin olan tatar baskakı Amraqandan (Amir xan) götürür. Baskakovlar boyar adina layiq görülərək artiq 1598-ci ildə Moskva dövlətinin müxtəlif qəzalarında qeydə alınmışlar (bax: Albıç, Buday, Kudaş, Tutan və s.). Baskakovlar Rus dövlətində daim hərbi işlərdə hünər göstərmişlər. Rusiyanın xəritəsində (Yaroslav (3), Vladimir (2), Smolensk (kənd və çay) Tver (2), Tula, Kostroma, İvanov, Perm və s.) çoxlu sayda Baskak adlı kəndlərə rast gəlinir.





*Веселовский, 27; Радлов, 4.1533; Фасмер, 1.131; Баскаков, 245; Вагнер, 20; Подмосковье, 29; Поспелов, 140; Halıkov, 32*

**Basman** (yeni) (ул. Новая Басманная) – Moskvanın mərkəzində yerləşir. Küçə Basmannı tarixi ərazisinin və Krasneselo ərazilərinin arasından keçir. Ad 18-ci əsrdə meydana çıxmışdır.

**Basman** əski (ул. Старая Басманная) – Bugünkü Staraya Basmannaya (1922-1992-ci ildə Marks küçəsi) tarixi Basman slabodasının ərazisindən keçir.

**I Basman** küçəsi (ул. Первая Басманная) – Moskvanın mərkəzində Krasnoselsk və Basmannaya tarixi əraziləri arasında yerləşir; Yeni Basmannaya küçəsinə birləşir.

**Basman** dalanı (Басманный тупик) – Moskvanın mərkəzində Yeni və Əski Basmannaya caddələrini birləşdirir (1870) XVIII əsrədək mövcud olmuş Basman slabodası ilə əlaqədardır.

**Basman**naya (Басманная) – Caddə və küçələrinin əhatə etdiyi ərazilərdə Basmannaya slabodası yerləşirdi; burada metal üzərində basmanniki "möhürçü" lər yaşayırdı. Basmannik adətən xüsusi növ "basman" çörəyi bişirən ustalara və ya ikona ustalarına (basma üsuli ilə hazırlanan ikona çərçivələri) deyirdilər. Basman "möhür" adı ilə bağlı hazırda *Yeni Basman küçəsi, Basman keçidi və dalan, Basman xəstəxanası, Basman metro stansiyası, məşhur Köhnə Basman küçəsi və Basman nəşriyyatı* adlarında yaşamaqdadır. Bunlar tarixi Moskvada Basmannaya slabodası (məhəllələri) adlarından bir xatirədir.

Rusiyada (Krasnoyar, Smolensk, Kostroma) bundan başqa yenə də bu adda kəndlər günümüzədək gəlib çıxa bilmişlər[30].

*Веселовский, 27; Даль, 1. 52; Баскаков 31; МЭ, 128, 295; 145; Фасмер, 1.131; Сытин, 69*

---

[30] СРЯ XI-XVII вв.,с.77.

**Bastanovo** (Бастаново) – Ryazan vil. kənd; Sasovski r. daxilindədir. Kəndin adının bağlı olduğu soyadı barədə demək mümkün ki, 1499-cu ildə Adaş və Bustman Bastanovlar, 1565-ci ildə Yanakılıç, Tetmeş, Tutman Bastanovlar zikr edilir, Tetmeş 1571-ci ildə mühafizə alayında, Tutman da 1575-ci ildə Litvanyada diplomatik kuryer "ulağ" olmuşdur. Burada qeyd olunan adlar və soyadının özü türk mənşəlidir. "Bastan" sözünə gəldikdə qeyd olunmalıdır ki, o "qədim, əski" mənasını daşıyır.

*Веселовский, 27; Halikov, 32.*

**Başenka** (Башенка) – Moskvaaltında (Sergiev Posad ray.) kənd. Rus dilindəki "baş" türk sözü ilə bağlı xeyli sayda mövcud olan sözlərdən biridir; başenka "*bürc, qüllə; zirvə, təpə, örtük, ucluq*" mənalı başnya sözünün kiçiltmə şəkilçisi ilə "başenka" şəklində istifadəsilə bağlıdır. Başenka adlı kənd Tulada, Başevo kəndi Tverdə vardır.

*Даль, 1. 56; Фасмер, 1.139; Шипова,71*

**Yeni Başilovka və Əski Başilovka** (Новая Башиловка, Старая Башиловка) – Moskvanın şimal səmtində küçə. Əvvəl Başilovskaya alleya "Başilov xiyabanı"; ayrı-ayrı rayonlarda iki küçə; hər iki küçə Başilovun torpaqlarımda salındığından (19-cu əsrin əvvəllərində) belə adlanmışdır. Xarkov vilayətinə bağlı Başilovka kəndi vardır.

*Сытин, 71, 285*

**Başino** (Башино) – Moskvaaltı kənd; Stupino ray. daxildir. Kaşir yolunda, Oka çayı üzərində kiçik yaylaq kəndi.

**Başkatovo** (Башкатово) – Oryol vil.kənd; Pokrovski ray. aiddir.

**Başkino** (Башкино) – Moskva vilayətində (Naro-Fominsk ray.) kənd. Başka ləqəbi ilə əlaqədardır; Başkin soyadı rus





cəmiyyətində 1519-cu ildən (Pereyaslavl) rast gəlinir. 1547-ci ildə yaşamış Matvey Başkin olmuş."Matvey və Fedor Başkin qardaşları İvan Qroznının saray əyanları sırasında idilər".[31]

Vladimir, Voronej, Tver, Tula, Smolensk vilayətlərində də eyniadlı kəndlər vardır.

**Başkirovo** (Башкирово) –Oryol vil. kənd; Şablıkin ray. aiddir. Başqırd xalqı adından.

**Başlayevo** (Башлаева) – Moskva vilayətində (Sergiev Posad ray.) kənd. Şübhəsiz, Başlı "*ağıllı, fərasətli; başlı*" ləqəbi əsasında düzəlmiş familiya kəndin adına çevrilmişdir. Bu sözün iştirakı ilə yaranan *Başev, Başin, Başkin, Başkovcki, Başinskiy* və *Başenin* kimi rus familiyası da vardır. Bu adda Tula vilayətində, habelə Bolqarıstanda da 2 kənd vardır.

*Веселовский, 30; Поспелов, 142; Halıkov, 32*

**Başmakovo** (Башмаково) – Tver vil. (Kalinin ray.) kənd. Türk mənşəli Rus soyadı Başmakov (başmak "dabansız alçaq ayaqqabı"Türk dillərində başmak, paşmak, baspak) öz ulu babaları olan Başmak Velyaminovdan başlamışdır (1447) Başmakovo və Başmakovka kəndləri Kaluqa, Penza, Kostroma, Orlov və Pskovda, Udmurtiyada kəndlər.

*Радлов, 4. 1561; Веселовский, 30;*
*Даль, 1. 56; Фасмер, 1.139*

Köhnə **Başnya** (рест.Старая Башня) – Moskva Kremlində restoran adı

*Başnya Bax: Başenka məqaləsinə*

**Bataşovun evi** (дом Баташова) – 18-ci əsr memarliq abidəsi– indi Neyro Bərpaetmə Tibb mərkəsi yerləşir. Soyadları

[31] Р.Г.Скрынников. Иван Грозный. изд. Наука, М.,1983. с. 52

15-ci əsrin başlanğıcından məlum olan Bataşovlar 1662-ci ildən zadəganlığa keçirilmişlər. Kostroma civarında torpaqları olmuşdur. Tulada boyük fabrik-zavod sahibləri Bataşevlər həmin nəsildəndir. Soyadı türk dillərindəki bota, pota "dəvə balası" (Azərbaycan dili dialektlərində pota "*ayı balası*", *potağ "camış balası*") və bu dillərdə kiçiltmə-əzizləmə çalarları əmələ gətirən -uş, -ş şəkilçisi vasitəsilə düzəlmişdir.

*Веселовский, 9-10, 27; Баскаков, 180,214; МЭ, 129; Halıkov, 32-33; TƏR, 307-311*

**Batayki** (Батайки) – Moskvaaltında (Stupin ray.) eyni adlı çay üstündə kənd; 1578-dən məlumdur. 1677-ci ildə artıq ondan abad kənd olaraq bəhs edilir. Kənddə buranın Batı xanın düşərgə yeri olması barədə əfsanələr vardır.

*Баскаков, 117, 142; TK, 55-56*

**Batayskaya** caddə (ул. Батайская) – Moskvanın cənub-şərq səmtində, Peçatnik ərazisində caddə (1967)

**Batayskiy** keçid (Батайский проезд) – Moskvanın cənub-şərqində, Marino ərazisində keçid adı (1967). Caddə və keçid Rostov-Don vil. Bataysk (xan Batı~Bata adından) eyni adlı Batiy Su çayın üzərindəki şəhərinin şərəfinə adlanmışdır (1967).[32]

*TK, 55-56*

**Batı**bino (Батыбино) – Moskva vilayətində (Podolsk ray.) kənd

Batıbino türk-monqol mənşəli Batu~Batıy adından formalaşdığı aydın görünür. Kolıçev Batuy məlumdur.

[32] Шестернина Н.С. Топонимическое путешествие. От Красной площади до Марьина, с.19





Böyük **Batıkov gölü** (Батьковское озеро) – Moskva vilayətində (S.Posad ray.) göl.

Bax: Batıbino məqaləsinə

*Веселовский, 28, 151; Баскаков, 99, 123; TK, 55-56*

**Batraki** (Батраки) – Moskva vilayətində kənd; Yeqorevsk ray. daxildir. Batrak adı ilə əlaqədar olmuş; Moskvalı zadəgan Andrey Batrak Velyaminov (1545); Uqrim Batrakov 1519; onun oğlu saray dəftərxana rəisi (dyak) Fedor Batrakov məlumdur. Türk sözü batrak "*muzdur, günəmuzd işçi*" bu mənada rus dili şivələrində batır sözü də işlənilir. Türk dillərində "*igid, cəsur*" anlamını daşıyan batır – Ruslarda gəmi yüklərini boşaldan və yükqaldıran iş icraçıları batır adlanır.

*Веселовский, 28; Баскаков, 31; Даль, 1.54; Поспелов, 141*

**Baturovo** (Батурово) – Moskvaaltı kənd; Volokolamsk ray. daxildir. Batura adı 1498-ci ildə qeyd edilmişdir. Baturov və Baturinlərin böyükləri Böyük Ordalı Batur murzadır. O böyük knyaz Fyodr Olqoviç Ryazanskinin himayəsini qəbul etmiş, xaçlanmış, özü, sonra da oğlu boyar titulu almışlar. Tula vil. Batur kəndi (Arsenyev ray.)

**Baturki** (Батурки) Ryazan vil. kənd; Novoderevenski rayonuna aiddir. Ryazan vilayətində daha iki Baturino kəndi vardır.

*Веселовский, 28; Баскаков, 13; Поспелов, 141; Halıkov, 33*

**Baybaki** (Байбаки) – Moskva vilayətində kənd; Şelkovski ray. daxildir. Uça çayı üzərində kənd (sənədlərdə 1490-cı ildə ilk dəfə qeyd olunur) öz adını sahibinin soyadından aldığı məlum olur. (1529-cu ildə Okul Baybakov məlumdur<okul~akıl)

Soyadının əsasında duran baybak (türk dillərində heyvan adı) sözünün məcazi mənası "*qayğısız, tənbəl*"; okul~akıl "*ağıllı, zirək*" deməkdir. Baybakovlar XVII yüzillikdən zadəgandırlar. 1646-cı ildə İvan Baybakov Hollandiyaya elçi olaraq göndərilmişdir.

*Радлов, 4.1430; Веселовский, 20; Даль, 1.38; Фасмер, 1.107; Поспелов, 136; Halıkov, 33*

**Bayçurovo** (Байчурово) – Voronej vil. kənd; Povorinskiy ray. Soyadının əsas Bayçura – bay "*zəngin, adlı-sanlı*"; çura~çora "*bahadır oğlu, yeniyetmə xanzadə, naib*". Digər variantı: Baçurin~Biçurin (fonetik variantı Miçurin) familiyası ilə bağlıdır. Kənd Baçurovların mülkü idi(1685).

*Веселовский, 197; Поспелов, 362; Баскаков, ТНМУ, 25; Halıkov, 74-75*

**Baydenki** (Байденки) – Moskvaaltı (Serpuxov ray.) kənd; Bayda (1545) və Bayduk (1556) adı ilə əlaqədardır

*Поспелов, 136*

**Baydukov küçəsi** (ул. Байдукова) – Moskvada küçə. Baydukov (əsli Baydak "*bayrak*") soyadından əmələ gəlmişdir. Moskvanın şimal səmtində yerləşir.

**Baydiki** (Байдики) – Moskvaaltında (Yasnoqorsk ray.) kənd.

**Baydiki** (Байдики) – Moskvaaltında (Zaxarovsk ray.) kənd

**Baydikovo** (Байдиково) – Moskva vilayətində (Stupin ray. ) kənd. 1637-ci ildə kəndlərin adı **Baydak**ovskoe şəklində çəkilir. Bayduk kəndləri çar Mixail Fyodoroviçin fərmanlarında Baydak şəklində işlədilmişdir. Baydak "*bayrak*" rus dili dialektlərində həm də "*şuluq, dəlisov*" (adam) deməkdir. Ola bilsin soyadı bu ləqəbdən yaranmışdır. Veselovski 1552-ci ildə Kazan





altında öldürülən Kaşiralı Baydikovun adını çəkir. Baydikovlar XVI-XVII əsrlərdə Kaşira və Ryazanda yaşayırdılar. Bayduk rus canlı dilində bir də "*dəyənək, əsa, qoltuqağacı*" deməkdir. Ayrıca qeyd edək ki, Baydik~Bayduk (ov) və baydak ləqəbindən "байдачить" baydakda (qayıqda) işləmək sözü əmələ gəlmişdir. Ukrayna xalq ağızlarından ədəbi dilinə keçmiş bayda "*qayğısız, əhli-kef* (adam)" biti baydiki "*bekar gəzmək*" mənasında istifadə olunur; <bay "*zəngin*" törəndiyi də söylənilir. Kiyevdə restoran adı da bu məna əsasında qoyulmuşdur.

*Веселовский, 20; Баскаков, ТЛС, 67, 68; МЭ, 123; Поспелов, 136; Т. Москвы, 46; Ведина,138*

**Baydino** (Байдино) – Moskva vilayətində kənd; Kaşira və Tula vil. bu adda 4 kənd və Baydenka çayı mövcuddur. Rusiyada (Tulada, Orlov, Perm vil.), habelə Belorusyada (Vitebsk vil.) Baydino kəndi vardır. Rus dilindəki Türk sözləri içərisində baydan (maydan~meydan) "*ərazi, açıqlıq; toplanış yeri, dava meydanı*" sözündən törəmişdir.

*Фасмер, 2. 559; Даль, 1. 38; Шипова, 49*

**Baykal** caddəsi (ул. Байкальская) – Moskvada küçə; Biryusinka və Xabarov küçələri arasında, Qolyanovo ərazisindədir. Şərqi Sibirdə Baykal gölü adından (1968). Baykal Türk dillərində Bəy göl; bay sözünün həm "*müqəddəs, yasaq*, "*tilsimli*" mənalarını diqqətə almaq lazımdır. Altay dillərində bay söz "*yasaq söz*", bay kayın "*tilsimli qayın ağacı*" deməkdir.

*Радлов, 4.1480; Баскаков, ТНМУ, 28*

**Bayrak** Vısokiy (Высокий Байрак) – Voronejdə kənd; Podqorensk ray. Bayrak – Türk dillərində "dağ yamacı, təpə; bayır", monqolcada büyərək "qum təpəsi, yüksəklik" Rus dilində bayrak və ya buerak(sonuncu variantın monqolcadan alınması şübhəsizdir) şəklində qullanılır.

*Радлов, 4.1424, 1432; Дм., 44; Шипова, 90*

**Bazar**ovo (Базарово) – Moskvaaltı kənd; Dmitriev ray. ərazisindədir.

**Bazar**ovo (Базарово) – Moskvaaltı kənd; Kaşir ray. daxildir. Kəndin adına ilk dəfə 1568-də Qeydiyyat Kitabında rast gəlinir. Bazar adı, sonralar Bazarov soyadı ilə əlaqədardır; Bazar Çirikov (1495), Pskov qalabəyi Volox Bazarov (1534); Temir Bazarov məlumdur (1568).

**Bazar**skaya caddə (ул. Базарская) – Tarixən burada bazar yerləşdiyinə görə belə adlanmışdır.

**Bazar**ovskoe (Базаровское) – Moskvaaltı kənd (Kaşir ray.). Bazar "*yarmarka; alış-veriş yeri*". Bazarovların 15-ci əsrin sonundan mülkədar kimi adları çəkilir. Bazar yer adı Türk dünyası ölkələrində və o cümlədən Rusiyanın coğrafiyasında çox yayğın yer adlarındandır.

*Веселовский, 19; Шипова, 47; Баскаков, 30; Поспелов, 136; Halıkov, 33; Ведина, 132*

**Bazı**kino (Базыкино) – Moskva vilayətində (Sergiyev Posad ray.) kənd

**Baz**ovaya caddəsi (Базовая ул.) – Vnukovo səmtində caddə (1956); II Dünya müharibəsində burada Hava qüvvələri bazası yerləşirdi. 1980-ci ildə Vnukovonun tərkibində Moskva şəhəri ərazisinə daxil edildi.

**Baz**ovskaya caddəsi (ул.Базовская) – Bu ərazidə Moskva Yol Nəqliyyatı Bazası yerləşdiyindən salınan küçə Baza küçəsi adlanmışdır (1960); Moskvanın Qərbi Dequnino ərazisindən keçir.

Baz, bazok - evin mal-heyvan üçün xüsusi həyəti; ərzaq saxlanan yer. Müasir baza "*əsas, təməl, ehtiyat hissə*" sözü bu mənalardan doğmuşdur. Rusların Bazey, Bazin, Bazıkin soyadları onunla əlaqədardır.

*Радлов, 4.1541; Веселовский, 20; Фасмер, 1.105; Ведина, 135*





**Begiçev caddəsi** (ул. Бегичева) – Moskvanın şimalında Altuf rayonunda yerləşir.

**Begiçevo** (Бегичево) – Moskvaaltı (Çexov ray.) kənd. Begiç adı ilə əlaqədardır. Murza Beğiçin 1378-ci ildə Ryazan torpaqları üstündə Böyük kn. Dmitri Donskoya qarşı Voje çayı üstündə vuruşu məlumdur.

Rus zadəganları nəsli olan Begiçevlər soyadı 1445-ci ildə Ruslara əsir düşən Begiçdən (Bigiç) başlamışdır. 1587-ci ildə bu soydan Alferi Davudoviç Begiçevə Kaşira civarında topraqlar verilməsi məlumdur. XVI-XVII əsrlərdə Kolomna, Ryazan və Arzamas ətrafında Arab Begiçevin torpaqlarının varlığı qeyd olunur. Begiç türk dillərində "*bəyzadə, bəy oğlu*" deməkdir. Ryazana və Tulaya da bağlı Begiçev kəndləri vardır.

*Веселовский, 30; Поспелов, 142; Halıkov, 34*

**Бехтеево** (Bexteevo) – Moskva vilayətində (Domodedovo ray.) kənd. XV-XVII əsrlərdə Baxtey adlı şəxslə bağlıdır; 15-ci əsrdə torpaq sahibləri kimi mülkədar Bexteyevlər məlumdur. Smolensk, Orlov vilayətinə bağlı eyniadlı kənd vardır.

*Веселовский, 38; Баскаков, 180-181; Поспелов, 152*

**Bekas**ovo stansiyası (Бекасово) – Moskvaaltında Odintsov stansiyasının cənub-şərqində yerləşir.

**Bekas**ovo (Бекасово) Moskva vilayətində kənd (Naro-Fominsk ray.) Qeydiyat Kitabına əsasən 15-ci əsrdə kənd Bekasovlara mənsub idi. Krasnoyar ölkəsində və Kaluqada yer adı. Bekas türk dillərində quş, ov quşu (*turac, dürrac*)

*Поспелов, 142; RTS,105*

**Beket**ovka çayı (река Бекетовка) – Eyniadlı gölməçədən axır.

**Beket** gölməçəsi (пруд Бекет) – Moskvanın cənubunda, Çura çayı üstündədir. Burada vaxtilə olmuş Beket yaylağı adındandır.

**Beket**ovo (Бекетово) – Moskva vilayətində kənd (Stupin ray. daxildir) Beket adı ilə bağlıdır; Mokey Beketov (1555).

**Beket**ovskaya (Бекетовская) – Moskva vilayətində kənd; Zuevo ray. daxildir. 14-15-ci əsrlərə aid sənədlərdə adi çəkilir. Mülkədar Beket Velyaminov (15-ci əsr); 1517-ci ildən boyar nəsli Beketovlar məlumdur.

Beketev soyadinin kökündəki beket qədim türklərdə "*saray məmuru*" rütbəsi olmuşdur. Soyadı həmin sözlə bağlıdır. Hələ XX əsrədək Türkistanın xan saraylarında beket "*xan oğlanlarının tərbiyəçisi, lələsi*" vəzifəsi saxlanılırdı. Beketovlar 1621-ci ildən zadəgan silkinə aid edilmişdir. Mərkəzi Rusiyanın coğrafiyasında (Tver, Orlov, Kursk, Voloqda vil.), habelə Başqırdıstanda eyniadlı yaşayış məntəqələri vardır.

*Веселовский, 34; Баскаков, 161-162;*
*Поспелов, 143; Halkov, 34; Ведина, 150*

**Beklemişev** bürcü (Беклемишевская башня) – Kreml divarları bürcü; 1487-1488-ci illərdə tikilmiş, Moskva çayı tərəfdən qalanın müdafiəsi funksiyasını icra edirdi. Bürc boyar Bersen Beklemişevin (14-cü əsr) Kremldəki sarayına çox yaxın olduğu və torpağının hüdudunda tikildiyi üçün belə adlanmaqdadır. Moskva çayına ən yaxını Beklemişev bürcüdür. Məlumdur ki, boyar Beklemişev hədsiz "dikbaşlığına görə" (çar III İvan Moskvanın qarovulunu P.N.Bersen-Beklemişevə həvalə etmişdi) hökumətin qəzəbinə tuş olur və edam edilir; Beklemişev sarayı və bürcü 16-cı əsrdən həbsxana kimi istifadə olunmuşdur.

**Beklemiş**ev (ст. Беклемишево) – Dəmir yolu stansiyası

**Beklemiş**evo (Беклемишево) – Moskva vilayətində kənd (Dmitriyev ray.) Boyar Beklemişevlərlə bağlıdır; kənd sənədlərdə Boyar Beklemişevlərin mülkü olaraq qeyd olunur (1598). Beklemişevlər Şirin sülaləsindəndir. Soyadının əsasında beklemiş<bekleme "*gece qarovulu postu*", beklençi "*qarovul nəfəri*"sözü durur. Bu soy xristianlığı qəbul edən tatar bəyi Beklemişdən





başlayır.[33] Rusiyanın bir çox yerlərində (Yaroslav, Tver, Ulyanov vil., Zabaykalye) yaşayış məntəqəsi.

*Радлов, 4.1579; Веселовский, 34;*
*Баскаков, 154, 161; МЭ, с.132; Шип., 75;*
*Поспелов, 143; Halıkov, 35*

**Beklen**ovka (Бекленовка) - Ryazanda kənd. Böyük ehtimalla kənddə qarovul məntəqəsi yerləşdiyi üçün belə adlanmış.

*Bax: Beklemişevo məq.*

**Berende**evo çarlığı (зап. Сказок Берендеево Царство) – Moskvaaltı qoruq; Serpuxov ərazisindədir. Qoruqun adı Berendey, Berendeyevlər soyadındandır. 1433-cü ildə qeyd olunub. Soyadı Berendeylər Türk tayfa adından (berindi "*sədaqətli*") yaranmışdır. Berendeylər oğuz tayfalarından biri, nəsil, tayfa adı olaraq 1097-ci ildə "Povesti vremennıx let"də adı çəkilir. Bugünkü Cənubi Rus torpaqlarında Türk qəbiləsi 1146-cı ildən Qara klobukların tərkibində olmuşdur. 13-cü əsrin başlanğıcından Berendeylərin böyük bir qismi Bolqarıstana, Macarıstana getmiş, qalanlar Qızıl Orda əhalisinə qarışmışdı. Bir sıra yer adları və soy adları olaraq yaşamaqdadır. Moskvaaltı kəndlərlə bərabər Yaroslav, Kostroma, Voloqda vil. ərazilərində eyniadlı kəndlər və Berendeyev bataqlığı (Yaroslav) adı da vardır.

*Веселовский, 36, 56; Баскаков,*
*ТЛС, 63; Баск., I. 17*

**Beren**dino (Берендино) – Moskva vilayətində (Voskresensk ray.) kənd və qəsəbə.

**Beren**dino dəmiryolu st. (Жел.ст. Берендино) – Voskresensk ray. dəmir yolu; 1940-cı ildə açılmışdır.

[33] Горбаневский, М.В. В мире имен и названий – Знания 1983 , 185

**Beren** adı ilə əlaqədardır; Beren Vasilyeviç Polev (16-cı əsrin əvvəllərində) və Jdan Berendin məlumdur (1582). Beren "*güclü, qüvvətli, tanınmış; məxmər*" mənalarına malikdir.

*Веселовский, 36; Баскаков, 149; Поспелов, 140*

**Berkino** (Беркино) – Moskvaaltı kənd; Volokolamsk ray. daxildir. Bu ada 1784-cü il Torpaq Xəritəsində rast gəlinir. 14-cü əsrdə Bərkə~Berke adı ilə əlaqədardır. İvanovo vilayətində də eyniadlı kənd vardır.

**Berkino** (Беркино) – Moskvaaltı kənd; Voskresensk ray. daxildir) Türk dillərinin ortaq sözü olan bərk~bərik "*möhkəm, bərk*" (sözün kökü bərk"*güc, qüvvət*") Bərkə şəxs adı buradandır. Rus familiyaları içərisində Batının oğlu (Cucinin nəvəsi) Bərkənin törəmələri olan soylar da vardır, məs., Çirikovlar. Tulada 2 Berkovoe kəndi.

*Баскаков, 19, 117; Поспелов, 150*

**Berkunovo** (Беркуново) – Moskva vilayətində (Şaxovski ray. daxildir) kənd

Berkun, burkun Rus xalq şivələrində "*ot, bitki adı; yem bitkisi adı*". Ehtimal ki, kənd adının kökündə duran soyadı Burkun ləqəbindən yaranmışdır.

*RTS, 23*

**Bersenevka** (Берсеневка) – Moskva vilayətində kənd (Solneçnoqorsk ray. daxildir) Vaxtilə bu adda bir neçə kənd olmuşdur. Mordovada eyniadlı kənd var.

**Bersenev** sahili (Берсеневская набережная) – Bersenev limanı. Moskvanın mərkəzi hissəsində, Yakimanka yerləşir. Tarixi Moskvada Bersen ərazi adından formalaşmışdır. İndi buradakı Bersen kilsəsi və küçə adları da Bersenlə bağlıdır. Vaxtilə burada Bersenevlərə məxsus Bersenovka kəndi var idi.





Bu nəslin əsli-kökü bulqarlaşmış burtaslardandır. Böyük kn. III Vasilinin (1493-1530) dumnı dyak (Boyar Duması sədri) İvan Nikitiç Bersen Beklemişev; 15-ci əsrin sonu Bersen Beqletsov Şişmarev. Ondrey Bersenev 1550-ci ildən məlumdur

Bersen~mersin (rus dilində bersenka), tatarca "*yaban gülü*" (ruslarda "*itburnu*")

*МЭ, 135-136; Halıkov, 36; Поспелов, 150; Веселовский, 37; Сытин, 73; Долгоруков, 83*

**Bibikovo** (Бибиково) – Moskvaaltı kənd; Taldom ray. daxildir. 15-ci əsrin əvvələrində Tverli mülkədar Fedor Mikuliç Bibik ailəsi, Bibikovlar soyadı ondan başlayır – Tver torpaqlarının sahibinin Bibikovlar olduğu məlumdur. Bibik Fyodrun babasının Göy Ordadan ayrılıb öz müttəfiqi Tver knyazına xidmətə gəlməsi məlumdur. Soyadının əsasında duran bibik, bəbək "*körpə*" və ya bibek "*göz giləsi*", əziz, sevimli mənaları daşıyır. Mərkəzi Rusiya coğrafiyasında (Tver, Tula, Tambov, Penza, Orlov, Yaroslavl, Kursk, Lipetsk) və Amur, Novqorod vil. geniş şəkildə yayılmışdır.

*Веселовский, 38; Баскаков 115,116; Поспелов, 151; Halıkov, 36*

**Bibirevka** çayı (река Бибиревка) – Moskvada Yauza çayı hövzəsində, Çermyanka çayının sağ qolu

**Bibirevo** (Бибирево) – Moskvada metro stansiyası (1992).

**Bibirevo** (Бибирово) – Moskva vilayətində inzibati rayon.

**Bibirevo** (Бибирово) caddəsi– Bibirevo şimal-şərq inzibati dairəsində yerləşir. Keçmiş Bibirevo kəndinə görə belə adlanır.

**Bibirevo** (Бибирово) – Moskvanın şimalında Bibirevka çayı sahilində kənd olmuş, Qriqori Bibirə məxsus idi, onun soyadından düzəlmişdir. 16-cı əsrdən məlumdur; 1764-cü ilədək Voznesenski monastırının mülkü olmuş, 1960-cı ildən şəhər ərazisinə qatıldıqdan sonra öz adını metro stansiyası (1992),

küçə (1978) və inzibati rayon adında saxlamışdır. Bibirin, Bibirev soyadları 1612-ci ildən məlumdur.

*Веселовский, 38; МЭ, 136; Поспелов, 574*

**Bir**evo (Бирево) – Moskva altında (Solneçnoqorsk və Klin ray.) kənd

**Bir** (Birkin rus familiyası) adı ilə əlaqədardır; xaçlanmış tatarlar – Arap və İstoma Birevlər (1556) Kaşirada rast gəlinir. 17-ci əsrin 2-ci yarısında Kaşira və Kolomnada qeyd olunmuşdur. Tula vil. eyniadlı kənd.

*Веселовский, 39; Поспелов, 152; Лелёвкин, 12*

**Birlyuki** (Брлюки) – Əvvəl Biryuki; məntəqə adı olmuş (Moskva vilayətində Şelkovski ray. daxildir), monastr adında mühafizə edilmişdir. Biryuk *börü, qurd, canavar; tənha, adamayovuşmaz*. Biryuk və Biryukov türk mənşəli rus familiyaları bu sözdəndir.

*Веселовский, 39; Баскаков, 234-35; Шипова, 81*

**Biryuk**ov (Бирюков) – İvanov vil. Teykovski ray. daxildir. Kəndin adının bağlı olduğu soyadının izahında biryuk – börü "*qurd, yalquzaq canavar*"; məcazi mənada isə "*tənha, adamayovuşmaz* (adam)" deməkdir. Rus soyadlari olaraq Biryuk və Biryukov şəkillərində işlədilir. Voronejdə eyniadlı kənd.

*Веселовский, 39; Баскаков, 234-238*

**Biryulevo** (Бирюлево) – Moskva ərazilərinə qatılmış (1960) iki kənd adı indi eyniadlı caddələri oluşdurmuşdur. Ərazidə Biryulevo kino-teatrı da vardır.

**Biryulevo** (Бирюлево) – Dəmiryolu stansiyası (1900) Paveletski vağzalı ilə əlaqələnir.

**Biryulevo** (Бирюлево) – Moskva vilayətində (Naro-Fom. ray) kənd; əvvəl Birilevo.





**Biryulevo** adı "*birelgen*", "*verilmiş pay*" mənası ilə əlaqədardır. Kəndin ilk sahibi Birilev olmuş, qəsəbə də Birilev adlanırdı. Birilevlərin adı ilk dəfə 1509-cu ildə Moskvada rast gəlinməklə 16-cı əsrin ortalarında boyar Birilev oğulları qeyd edilmişdir. Birilevlər Polşa müdaxiləçilərinə qarşı (1605-1611) dayanmış görünürlər. Tataristanda da eyniadlı kənd. Soyadını türk sözü "*bir ev*" və mənsubiyyət şəkilçisi " -li" olmaqla bir evli, bir evə sahib şəxs anlamına gəldiyini deyənlər də var.

*Баскаков, ТНМУ, 23*

**Biryus**inka (Бирюсинка). Moskvada caddə, 1965-ci ilədək keçid, həmin tarixdən caddə. Ankaranın qolu Biryusinka çayına görə adlandırılmışdır. İrtış, Baykal küçələri ilə eyni ərazidən keçir.

Adın əsasında fars-türk sözü birüzə~pirüzə~firüzə şəklində işlənən Türk sözü pürüz və -ov rus dili familiya şəkilçisi dayanır

*Баскаков, ТНМУ, 22-23; Дм., 556; МЭ,140*

**Biser**ovo (Бисерово) – Moskva altında (Ramensk ray.) kənd; adına 1421-ci ildə rast gəlinir.

**Biser**ovo (Бисерово) Moskva altında (Noqinsk ray.) Biserovo gölü ətrafında kənd; 15-ci əsrdə onun sahibi Biser olmuşdur (1425)

**Biser**ovo gölü (озеро Бисерово) Moskvadan şərqə tərəfdədir (Noginsk ray. ərazisində) Biserov türk əsilli (ərəb əsilli) rus soyadlarındandır (XVI əsr). Yaroslav, Kirov vil. də eyniadlı yaşayış məntəqəsi var.

Biser Türk sözü (əsli ərəbcə büsrə) *şüşə muncuq, muncuq, saxta inci*; "*muncuq kimi yazı xətti*" deməkdir.

15-ci əsrə aid sənədlərdə buranın sahibi Biser qeyd olunur.

Amına biser sözü rus yazılı sənədlərində daha erkən – XI əsrdə qeydə alınmışdır.

*Веселовский, 39; Срезн., 1. 89; Фасмер, 1.168; Поспелов, 152; Шипова, 81; Вагнер, 53*

**Bityaqovo** (Битягово) – Moskva vilayətində kənd; Domodedovo ray. daxildir. Rojaya çayı sahilində Kaşir şosesindən az aralı kənd. Moskvaaltının qədim kəndlərdən biridir; ilk dəfə İvan Kalita fərmanında adı çəkilir (1339) Burada er.ö. XII-XII əsrlərə məxsus 15-ə yaxın Bityaqov kurqanları yerləşir. Smolensk vil. bağlı eyniadlı kənd var. Bityak, bityuk möhkəm, sağlam yük atı; məcazi mənada *sağlam, güclü* (adam). Çağatay dilində bitü "*dəvə*"; özbək dilində *bitəy*. Voronejdə bir neçə kənd adı.

*Радлов, 4. 1778, 1774; Фасмер, 1. 169; Даль, 1. 50; Шипова, 82*

**Boborıkino** (Боборыкино) – Moskva vilayətində (Domodedovo, Podolsk, Lotoş. ray.) kənd. Türk mənşəli rus familiyası Babarıkin əsasında türkcə (rus dilində işlənən) babarıka "*iri başlı balıq*" ləqəbindəndir. Bu adda Kurqan və Penza vilayətində kənd adları sırasında rast gəlinir. Babarov, Bobarıkov, Babarıkinlər (15-ci əsr) geniş yayılmışdır. Babaruk (1605), Babarıkin (1667) familiyalarına da rast gəlinir. Saur Babarikov, Saltan Tuça Babarıkov məlumdur (16-cı əsr).

*Веселовский, 41; Баскаков 38; Поспелов, 154*

**Bobrovo** (Боброво) – Moskva vilayətində (Dmitriyev və Lenin ray.) 2 kənd. Əsilzadə Bobrov nəsli böyük knyaz III İoannın fərraşı Dmitri Bobr ilə başlayır (15 əsr). Mərkəzi Rusiyanın coğrafiyasında çox geniş yayılmışdır: Tver, Tambov, Smolensk, Pskov, Kaluqa, Kirov, Nijeqorod və s. vil.





Bobr "*bəbir*" yırtıcı adından ləqəb və familiya formalaşmışdır.

*Веселовский, 42; Баскаков, 38*

**Boqatır**skaya (ул. Богатырская) – Moskvada, şərq hissəsində bu adda 3 küçə mövcuddur.

**Boqatır** (река Богатырь) Moskvada çay və körpü (1912) adı Mokvanın şimal-qərbində yerləşir

**Boqatır** fabriki (фабрика Богатырь) – Moskvada ayaqqabılar, çəkmələr istehsal edən məşhur fabrik kompleksi və Moskvaaltında (Zelenoqrad) qənnadı fabriki

Boqatır~Bağatur qədim türk dillərində ad və yüksək titul. Türk dillərindəki kimi rus dilində də "*igid, qəhrəman, pəhləvan; bahadır*" mənası daşıyan söz qədim alınmalardandır. Türk əsilli rus Boqatırevlər XVI əsrdən məlumdur.

*Радлов, 4.1449; 4. 1466; Баскаков, ТЛС, 40; МЭ, 142; ДТС, 77; Веселовский, 42; Фасмер, 1. 183*

**Boldaevka** (Болдаевка) – Moskva vilayətində (Ozersk ray.) kənd

*Bax: Boldino*

**Boldır**evo (Болдырево) – Moskva vilayətində (Mıtışi ray.) kənd

**Boldır**ev caddəsi (ул. Болдырева) – Moskva vilayətində Korolyov qəsəbəsində küçə adı.

**Boldır**ixa (Болдыриха) – Moskva vilayətində Klin ray. kənd; Boldır adı ilə əlaqədardır; Yakuş Boldır (1495); Raxmanin Boldırev (1610) məlumdur.

Boldır+evo soyadı monqol (o cümlədən kalmık) dilindəki baldır (baldız) və ya rus xalq danışığındakı boldır "qatışıq, metis, hibrid" türk sözündən düzəldilmişdir. Veselovski V.l. Dala əsaslanaraq rus danışıq dilində evin dam örtüyündə çubuqlardan hörülmüş boru şəkilli tikinti materialı adı olaraq qeyd edir.

Boldır Payusov Böyük kn. III İoannın dyakı (dəftərxana rəisi) (1504), Boldırevlər 1565-ci ildə Kazanda dövlət işlərindədir. Astarxan, Orenburq, Tver, Tümen, Yaroslav, Voronej vil. yaşayış məntəqəsi.

*Веселовский, 44; Баскаков, 250; Вагнер, 53; Поспелов, 158; Ведина, 161*

**Boldino~Baldino** (Болдино~ Балдино) – Moskva vilayətində (Solneçnoqorsk ray.) kənd. Kənd Türk əsilli adlı-sanlı Tarakanov-Korkodinovların, nəhayət Tatişevlərin mülkü olur. Rus dilində bolda~balda geniş dairələri əhatə edir; məlum olduğu üzrə söz "səfeh, axmaq adam" mənasında işlənir. Balda (bolda) adından və -in və -ov şəkilçisindən istifadə edilməklə Baldin, Baldov, Boldin, Boldov soyadları, o cümlədən, Balda (1564), boyar Baldin (1679 ) məlumdur – yaranmışdır. Kiçiltmə şəkilçisini əlavəsilə Baldenkov, Boldenkov və s. familiyaları meydana gəlir. Nijeqorod, Smolensk, Vladimir vil. yaşayış məntəqəsi.

*Веселовский, 24; Поспелов, 158; Halıkov, 38*

**Bolıç**evo (Болычево) – Moskva vilayətinə bağlı (Volokolam ray. ) kənd. Bolıç adından əmələ gələn soyadından yaranmışdır; Semen Bulıçev (1430), Smirnoy Bolışev (1596) məlumdur. Az-az rast gəlinsə də qadın adı olması sözün qeyd etdiyimiz mənası ilə bağlıdır. Monqol-tatar imperiyasında balış pul vahidi idi. Balış türkmən və qazaxlarda kişi adı kimi istifadə edilir. Çində hələ XIV əsrdə haqq-hesab "balış"la aparılırdı. Rus familiyaları: Balış, Balışev bu sözün məhz bu mənasıyla (balış-əsli balınc sözü ilə deyil) əlaqədardır. Bolıç~bolış~balış *qızıl pul*. Müvafiq olaraq bolış~bolışçı "*canişin, nümayəndə*" Xəzərlərdə vəzifə adı; *köməkçi*. Smolensk və Tulaya bağlı Bolıçevo kəndi var.

*Баскаков, ТЛС,40,77; Поспелов, 159; Atalay,49*





**Bolkaşino** (Болкашино) – Moskva vilayətində (Solneçnoqorsk. ray.) kənd. Böyük knyaz İvan Vasilinin 1504-cü ilə aid fərmanında Belkoşino rast gəlinir. Bolkaş~Balkaş (1470) adı ilə əlaqədardır; XV əsrdən Murza, Leva və Roman Balkaşinlər məlumdur. Zadəgan Balkaşinlər (əsli: Balakşinlər), sərkərdə Balkaşin (1550)məlumdur

*Веселовский, 23, 44; Поспелов, 158*

**Bolobn**ovo (Болобново) – Moskva vilayətində (Ozersk ray.) kənd. Balaban adının təhrifi ilə əlaqədardır. 1495-ci ildə Kuzma Balaban məlumdur.

*Поспелов, 158*

*Bax: Balabanovo məqaləsinə*

**Bolt**ino (Болтино) – Moskva vilayətində (Mıtışi ray.) kənd; 1572-ci ildə IV İvan fərmanında Boltina şəklində rast gəlinir.

**Bolt**ino (Болтино) – Moskva vilayətinə bağlı (Odinsov ray.) Moskva və Nara çaylarının qovuşduğu yerdədir. 1558-ci ildə QK-da qeyd olunmuş. Boltin soyadı Türk sözü bolta "balta" adından; bolta~balta və rus dili şəkilçisi -in vasitəsilə düzəldilmişdir. Baskakovun qeydlərinə görə Böyük Ordadan qopub Rusa gələn və xristianlığı qəbul edib (1331), Georgi adını alan murza Kutlu Buğanın Balta adlı (sonra:Mixaylo Yuryeviç) oğlundan gələn nəsil öz soyadlarını Boltin yazdırdılar: Bolta Taneev iri torpaq sahibləri (XV), Bolta Melik (15-16-cı əsr), voevoda Semyon Matveyeviç Boltin (1490). Boltino adlı yaşayış məntəqəsi Mordoviyada və Tver, Voloqda, Penza, İvanov, Nijeqorod vil. vardır.

*Веселовский, 24,45; Баскаков, 154-155; Поспелов, 158*

**Bolvan**kovo (Болвановка) – Moskva vilayətində (Zaraysk ray.) kənd. 1629-cu il Qeydiyyat Kitabında rast gəlinir; bolvan adı ilə əlaqədardır. Balvan Skrıpitsin məlumdur (1580)

Bolşaya **Bolvan**ovka (Большая Болвановка). Moskvada tarixi ərazi. Şəhər daxilindəki bu yerin böyük tarixi anlamı vardır. Belə ki, burada Mərkəzi Orda hökuməti nümayəndələri elçilər, rəsmi nümayəndəliklər dayanır, Rus knyazları onları təntənəli şəkildə bu meydanda qəbul edirdilər. Bir növ etimadnamələrini təqdim etmək məqsədilə səfirlər basma və xan möhrünü, eləcə də xan simvolunu, üzərində xanın rəsmi olan heykəlcikləri- balvanları təqdim edər, xan fərmanını oxuyardılar.

Nikola **Bolvan**ovski (Никола Болванский) və Yuxarı **Bolvan**ovka (Верхная Болвановка) küçələri – Moskvanın mərkəzi hissəsində yerləşir.

Bolvan sözü rus ədəbi dilində işlənən əski türk kəlmələrindəndir. İlk mənası "heykəl, müqəvva, nişan, obraz" olan bolvan kəlməsi daha sonralar geniş semantik evolyusiyaya uğramaqla memarlıqda (qəlib, qurğu), dərziçilik (ölçülü fiqur), hərbi məşqlərdə (*müqəvva, hədəf*) bir sıra terminoloji mənalar kəsb etmişdir. Bu situasiyalardan başqa bolvan əlavə çalarında "*gic, axmaq, abdal*" kimi məcazi mənalarıyla da istifadə edilmişdir. Rus soyadı kimi əvvəl Bolvan (XV), sonralar Bolvanov şəklində işlənib.

*Веселовский, 44,204; Баскаков, 34;*
*Поспелов, 154; Шипова, 84;*
*Карамзин Vт.2 гл.; Долгоруков, 83*

**Borduki** (Бордуки) – Moskva vilayətinə bağlı (Şatura ray.) kənd. Barduk adı ilə əlaqədardır.

*Поспелов, 165; Halıkov, 38-39*
*Bax: Barduk məqaləsinə*

**Bor**ovitskaya (Боровицкая) – Meydan və Kremlin ala qapısı adı. **Bor+ovitskaya** bor "iynəyarpaq meşə" sözündən düzəlmişdir.

*Поспелов, 165;*
*Halıkov, 38-39*





**Borşevo** (Боршево) – Moskva vilayətinə bağlı (Klin ray.) iki kənd: Böyük və kiçik Borşevo

**Borşevo** (Боршево) – Moskvaaltı kənd (Ramensk ray.) tarixi sənədlərdə Barşevo keçir. Barşa adından yaranmışdır; Foma Barşev (1562) məlumdur. Mərkəzi Rusiya regionunda (Smolensk, Voronej, Bryansk, Tambov, Voloqda, Tver, İvanov vil.) və Pskovda yaşayış məntəqə adı.

*Поспелов, 168; Дм., 526; Баскаков, 134*

**Botaq**ovo (Ботагово) – Moskva vilayətinə bağlı kənd (Orexovo-Zuev ray. daxildir). Botak (çağatayca *botaka, botka un və balıqdan hazırlanan aş, yemək*; məcazi mənada *yumşaq; mərhəmətli*, monqolca budağan~budan) adından formalaşmışdır. 1638-ci ildə Semen Botakov məlumdur.

*Веселовский,72; Фасмер, 1.229;*
*Шипова, 90; Поспелов, 168*

**Boyar**kino (Бояркино) – Moskva vilayətinə bağlı (Ramensk ray.) kənd; Boyarkinlər soyuna məxsus olmuşdur. Boyarkin Boyarintsev, Boyarinets, Boyarçukov, Boyarski türk əsilli rus soyadlarıdır (1646).

**Boyar**kino (Бояркино) – Moskva vilayətinə bağlı (Ozersk ray.) kəndi Moskva Quberniyası Qeydiyyat Dəftərində ilk dəfə 1578-ci ildə adı çəkilir.

Mülk çar Qroznının qaynı knyaz Çerkasskiyə məxsus olduğuna görə belə adlanmışdı. 18-ci əsrin ortalarında Çerkasskilərdən qızlarına cehiz olaraq qohumları Şeremetyevlərə keçir.

**Boyar küçəsi** (Боярский переулок) – Moskvanın mərkəzində Basman ərazisi ilə Qızıl Darvaza meydanı arasında yerləşir. Omsk, Ulyanov, Smolensk vil. yaşayış məntəqəsi.

Polu**boyar**inovo (Полубояриново) – Moskva altında (Kolomna ray.) kənd

**Boyar**kino (Бояркино) – Boyar "*boyarin, bolyarin, barin*" qədim ruslarda (X əsr) yüksək titul; türkcə bay "*varlı, adlı-sanlı*"+ar "*kişi, hörmətli şəxs*" sözündən yaranmışdır.

*Веселовский, 48; Фасмер, 1.204; Шипова, 87-89; МЭ, 392; Сытин, 37; Баскаков, ТЛС, 105, 154, 156, 162; Поспелов, 168*

**Böyük Çerkiz** caddəsi (ул.Большая Черкизовская) – Moskvanın mərkəzində caddə. Çerkizov küçələrinin əhatə etdiyi ərazilər 1742-ci ildən ta şəhərə çevrilənədək Boyar Çerkiz Kulikovo işlənirdi. Kənd 14-cü əsrdən məlumdur və Andrey Çerkizə – Kulikovo döyüşü iştirakçısına məxsus idi.

*Баскаков, 41, 36; Поспелов, 547; Подмосковье,390; Вагнер, 19; Сытин, 40,325; МЭ, 656*

**Böyük Kalit**nikov caddəsi (пр. Большая Калитниковская) – Moskvanın mərkəzində, Taqanka ərazisində caddə. Kalitenka çayı və ərazisi (1688), Kalitnik qəbristanlığı (1771) adı ilə bağlıdır. Tarixən Kalitniklər (*çantaçı, heybəçilər*) slabodası yerində salınmışdır.

**Böyük Kalit**nikovskiy keçid (Калитниковский проезд) – Moskvanın mərkəzində dalan-küçə. Ərazisində eyniadlı qəbristanlıq olmuşdur (1771)

*Радлов, 2.258; Веселовский 132, 172; Срезн., 1. 1183; Фасмер, 2. 168; Сытин, 212; Halıkov, 55*
*Bax: Kalita məqaləsinə*

**Böyük Oçak**ovka caddəsi (ул. Большая Очакова) – Moskvanın qərb səmtində caddə; Oçakov qəsəbəsinin şəhərə birləşməsilə ləğvi zamanı (1967) meydana çıxmışdır

*Подмосковье, 383; МЭ, 482; Т. Москвы, 164; Поспелов, 587*





**Böyük Ordın**ka (пр. Болшая Ордынка) – Moskvanın mərkəzi və ən qədim caddələrindən biri, Serpuxov meydanınadək uzanır.

Orda~ordu müasir Rus torpaqlarına daxil olan Qızıl Orda adından Orda türk tayfalar ittifaqı. Ilk mənası xan iqamətgahı bulunan yer. Türk dilində *saray, sultan çadırı, xan qərargahı, müasir türk dilində qoşun, ordu.*

**Böyük** və Kiçik **Ordın**ka küçəsi (ул. Большая и Малая Ордынка) – Hər iki küçə Moskvanın mərkəzində Zamoskvareçye ilə Böyük Ordınka caddəsi arasında yerləşir.

*Радлов, 1.1072, 1073; Баскаков, 232; Подмосковье, 32*

**Böyük Palaş**ovskaya (ул. Болшая Палашовская) Vaxtilə Moskvada Bronnaya slabodası mövcud idi. Slaboda müasir böyük və kiçik Bronnaya küçələri və Nikit qapıları olan əraziləri əhatə edirdi. Burada silah-sursat, əsasən müdafiə əsləhəsi (bronya) istehsal edilirdi. XVI əsrin 60-cı illərindən İvan Qroznı burada soyuq silah ustalarını yerləşdirir. Tezliklə bura silah istehsalı mərkəzinə çevrilir. 18-ci əsrdən slaboda ləğv olunur və küçələr əhalinin keçmiş məşğuliyyəti ilə əlaqədar Bronnaya (böyük və kiçik), habelə Palaşovsk adını saxlayır. Palaş türkcə "*iki tiyəli enli qılınc*" deməkdir; qılınc ustaları bu məhəllələrdə yaşamışlar. Hazırda küçə və bazar adında saxlanılır.

*Радлов, 4. 570,1162, 1164; МЭ, 154; Сытин, 333; Фасмер, 3. 191; Шипова, 256*

**Böyük Piroqov** (пр. Большого Пирогова ) – caddəsi. Moskvanın mərkəzində – Xamovnikidə küçə. Hərbi-səhra cərrahiyyəsinin əsasını qoyan Piroqovun xatirəsinə adlanmışdır (1924)

Soyadının əsasında duran piroq "*içi doldurulmuş yayılmış xəmirdən hazırlanan yemək*" adı durur. Piroq~börək, pürək qədim rus dilindəki türkizmlərdəndir (1193).

*Радлов, 4.1333, 4.1334; Срезн., 2, 933; Даль, 3,112; Фасмер, 3, 265; RTS,114,256*

Böyük **Tatar** caddəsi (ул. Большая Татарская) – Moskvanın mərkəzində, Yakimankada caddə. Öz adını 17-ci əsrədək burada mövcud olmuş Tatar slabodası adından almışdır. Tatar küçəsi sənədlərdə ilk olaraq 1682-ci ildə görünür.

Böyük **Tatar** küçəsi (ул. Большая Татарская) – Moskvanın mərkəzində Zamoskvareçyedə caddə; Ozerkov sahili ilə Baxruşin caddəsi arasında yerləşir

*Веселовский, 313; Баскаков, 122; Halıkov, 96; МЭ, 595*

**Böyük Tolmaçev** küçəsi (Большой Толмачевский пер.) – Moskvanın mərkəzində-Yakimankada yerləşir; Böyük Ordınkadan Eski Monet küçəsinədək uzanır

*Bax: Tolmaçev məqaləsinə*

**Böyük Tula** küçəsi (Большая Тульская ул.). Vaxtilə Moskvadan Tulaya gedən yol şəhərdaxili caddəyə çevrildikdən sonra bu adı almışdır (18-ci əsr)

*TK, 283-284*
*Bax:Tula məq.*

**Braj**nikovo (Бражниково) – Moskva altında (Volokl. ray.) kənd; 1477-ci ildən sonra Brajnik soyadına malik sahibinin adı ilə Brajnikovo adlanır. 1571 və 1595-ci ildə Brajnik, 1553-cü ildə Brajnikov soyadı qeydə alınmışdır. 1614-cü ildə Moskvalı Afanasi Brajnikov podyaçı (dəftərdar) qeydə alınmışdı. Rus soyadları içərisində Brajnitsın rast gəlinir. Soyadının əsasında braqa "pivə", brajnik "*pivəçi*" sözü durur. Türk





dillərindən, bilavasitə çuvaş dilindəki peuraqa/buraqa "*sıxılmış*" sözündəndir.

*Веселовский, 49; Баскаков, 32; Шипова, 88; Поспелов, 168*

**Bren**ovo (Бреново) – Moskvaaltında kənd (S.Posad ray.) ilk dəfə 1545-də və çar Aleksey Mixayloviçin əmrlərində rast gəlinir. Bren, çox ehtimal ki, Beren adı ilə əlaqədardır; 1511-ci ildə Berenev soyadı Kostromada rast gəlinən zadəgan soyadıdır. Jdan Berenev (17) məlumdur. Brenovo Tver vil. yaşayış məntəqəsi.

*Веселовский, 49; Поспелов, 169*

**Buday**ka, **Buçay**ka (Будайка, Бучайка). Moskvada çay, caddə və keçid adları Budayka (Yauzanın sol qolu) ilə əlaqədardır; Budayka küçələri Moskvanın şimal səmtində yerləşir.

**Budaevo** (Будаево) Ryazan vil. kənd. Kostroma, Ryazan, Tver, Smolensk vil. kənd. Çeboksar (Çuvaşıstan) altında kənd.

Rus xalq ağızlarındakı buday "*fəhlə, işçi*" sözündən düzəlmişdir. Buday (1544), Buday Küçükov (1510), Buday Baskakov (1564) şəxs adı, sonra soyadı

*Веселовский, 51; Поспелов, 171; МЭ, 155*

**Buxar**evo (Бухарево) – Moskvaaltı (Mojaysk ray.) kənd.

**Buxar**evo (Бухарево) – Moskva altında (Solneçnoqorsk ray.) kənd. 15-ci əsrdə yaşamış Buxar adı ilə bağlıdır; Timofey Buxar (1504), Buxara Xvostov minbaşı (1550), Buxarin Saveleviç (1600), mühafizəçi Mixail Buxarov (1626) məlumdur. Buxara rus ağızlarında meşədə biçin sahəsi; paxla növü.

*Веселовский, 51; Баскаков, 175-176; Поспелов, 174; Halıkov, 39*

**Bukar**evo (Букарево) – Moskvaaltında kənd (İstra ray.) Tver, İvanov, Orlov vilayətində də Bukarevo kəndi var.

*Bax: Buxarev məqaləsinə*

**Buqae**vka (Бугаевка) – Voronej vil.kənd; Kantemir ray. bağlıdır. Kəndin adının əsasında dayanan Buqayev soyadı buğa~buka "öküz"; qədim Türklərdə böyüklük titulu. Buqay Rus dilində hələ monqoloqədərki alınma Türk sözlərindən hesab edilir.

*Веселовский, 51; Даль, 1. 135; Фасмер, 1.228; Поспелов, 171; Шипова, 89*

**Buqa**ylovo (Бугайлово) – Moskva altında (Mojaysk ray.) kənd. Buqaylov soyadından əmələ gəlmişdir (1564). Buqay, Buqaev (1498) soyadları buğa "*öküz*", bataqlıq quşu, taran aləti; gen, enli üst geyimi – ruscadakı əski (hələ monqolaqədərki) türk alınmalarındandır.

*Bax: Buqaevka məq.*

Qolıy **Buqor** (Голый Бугор) – Moskvaaltında (Luxovitski ray.) kənd; buqor "*dik, çətin keçid, yamac*". Oka çayının hündür sahilində qərar tutmuşdur, qolıy "*çıplaq, ağacsız*"

*Баскаков,ТЛС,127; Вагнер, 65*

**Bulak**ovo (Булаково) – Moskvaaltında (Şelkovsk ray.) kənd; 1573-cü ildə adı çəkilir. Onun adı Qızıl Orda xanı Bulak Temirdən gəlir. Qeyd: Çuvaşistanda və Kazan altında Bulak kəndləri vardır. Yaroslav vil. və Çuvaşıstanda yağayış məntəqəsi.

*Веселовский, 1974, 34; Т. Москвы, 30*

**Bulan**ino (Буланино) – Moskvaaltında (Ruzsk ray.) kənd. David Bulanin məlumdur (1596). Bulanov soyadı isə 1564-cü ildən məlumdur. Bulan, Bulqan qədim türklərdə (xəzərlərdə) ad; altay, çuvaş dillərində pulan "*maral*", qırğız dilində bulan "*ceyran*", tatarlarda at cinsi. Bulan, Bulanov, Bulanin Rus dilindəki Türk əsilli familiyalardandır.





**Bulan**ova caddəsi (ул. Буланова) – Moskvada II Dünya müharibəsi iştirakçısı Yekaterina Bulanova adına caddə.

*Даль, 1. 140; Баскаков, 222; Фасмер,.238; Поспелов, 172*

**Bulat**nikovskoye (Булатниковское) – Moskva altında (Voskresensk ray.) kənd. 15-ci əsrdə saray kəndi kimi məlumdur. 18-ci əsrdən Kantemirə məxsus olmuşdur.

**Bulat**nikovo stansiyası (ст. Булатникова) - Moskva-Bryulovo qəsəbəsində.

**I və II Bulat**nikovskaya küçəsi (I и II Булатниковская) – Moskvanın cənubunda Biryulovo rayonunu əhatə edir.

Küçələr tarixən Moskvaaltı Bulatnikovo (Булатниково) kəndinin ərazilərində salınmışdır. Bulatnikov soyadı ilə əlaqədardır (1630) Çar süfrəçisi Bulatnikov Lavrenti Qriqoryeviç (1630) məlumdur.

Bulatnikov < polad~bulat və -nik rus dili sənət, peşə bildirən şəkilçidən "*usta, dəmirçi*" ibarətdir.

*Веселовский, 53; Поспелов, 173; Баскаков, ТНМУ, 23*

**Bulat**ovo (Булатово) – Moskva altında (Podolsk və Domodedovo ray.) iki kənd

Soyadı türk dillərində bolat, bulat "polad" (məc. mənada: *sağlam, möhkəm*) sözündən –ovo şəkilçisi artırılmaqla düzəlmişdir. **Bulat** polad, bulat; Bulat, Bulatov, Bulatnikov, knyaz Bulatnıy türk mənşəli rus familiyalarıdır. Bulatovo kəndi Bulat adı ilə-Bulat Oqubalov (1495); onbaşı Lev Bulatov (1436) məlumdur.

1741-ci ildə dvoryanlığa keçirilmişlər. XVI-XVII əsrlərdə Kaşira və Ryazanda torpaqları olmuşdur. Rusiyada Bulatovo yaşayış məntəqələri: Altay, Arxangelsk, Kaluqa, Voloqda,

Kostroma, Krasnoyar, Omsk, Krasnoyarsk, Yaroslav, Tver, Perm, Çelyabinsk vil.

*Радлов, 4. 1275; 2126; Веселовский, 53; Баскаков,139; Halikov, 39; Шипова, 92; Поспелов, 172*

**Bulıgino** (Булыгино) – Moskva vilayətində (Ruzsk ray.) kənd. Bulıqa (15-ci əsr) adından yaranmış; İvan Bulıqa Puşkin məlumdur. Kənd Bulıqanın oğlu David Bulıginə mənsub olmuşdur. Buliginlər geniş yayılmış soyadıdır. Bulıqa “daş”, “dəyənək”; azərb. dilində bəlgə “*zopa, dəyənək*”, türkcədə balğa uzunsaplı dəyənək, çomaq; xalq dilində “*gic, bolvan*”. Rusiya ərazisində – Kaluqa, Kostroma, Pskov, Ryazan, Saratov, Tambov, Tver vil. kənd adları var.

*Веселовский, 54; Даль, 1. 141; 164-165; Поспелов, 172*

**Bulqak**ovo (Булгаково) – Moskva vilayətində (Ramensk, Çexov, Nogin, Luxovitsk ray.) kənd. 1595-97 – ci ilə aid Vergi Dəftərində rast gəlinir.

**Bulqak** adından yaranmış – Ryazanlı xan boyar Bulqak (15 əsr) məlumdur. Ondan törəmə Matvey Bulqak III İvan və IV Vasilinin voevodası – o, 1501-də Axmat xanın uşaqlarının ulusunu daşıdı. Onun 6 oğlu Bulqakov soyadı daşıdı və İvan Qroznı hökumətinə qulluq edirdi. Bulqakov soyadı 1515-ci ildə rast gəlinir. Soyadının əsasında türk sözü bulqa “*qarışdırmaq, bulamaq, əsdirmək, bulandırmaq*” feili durur. Rusiyada: Volqoqrad, İvanov, Tambov, Ryazan, Smolensk, Orlov, Orenburq vil. və Mordova ölkəsi eyniadlı yaşayış məntəqələri.

*Веселовский, 53; Баскаков, 50; Поспелов, 173; Halıkov, 39; Ведина, 175*

**Bunçixa** (Бунчиха) – Moskva vilayətində kənd; Podolsk ray. daxildir.





**Bunçixa** (Бунчиха) – Moskva vilayətində çay; Kaşirka çayının sol qolu. Kəndin və çayın adı Türk dillərində buncuq~buncux, moincık, muncak “ *nişan; bayraq*”, “hakimiyyət simvolu”sözündəndir.

*Радлов, 4. 1813, 2190; Баскаков, ТЛС, 168; Фасмер, 1. 242; Шипова, 93-94*

**Bunyak**ovo (Буняково) – Moskva altında (Domodedovo ray. daxildir) və Smolenskdə kənd

Bunyakov (əvvəl Bunakov) Türk mənşəli rus familiyasıdır; bunak~bonak (boynu ak; bonyak) türkcə çox geniş yayılmış it adlarındandır. Bonak Poloves (Qıpçaq) xanı. Rus salnamələrində adı ilk dəfə 1096-cı ildə, axırıncı dəfə isə 1167-ci ildə xatırlanır. Rus dövlətində çalışan Bunak, Bunakovlar 16-cı əsrdən rus soyadlarıdır. Tula vil. kənd.

*Даль, 1. 141; Веселовский, 54; Баскаков, 33, 63; Поспелов, 173*

**Bunin** xiyabanı və **Bunin** xiyabanı metrosu (Бунинская аллея и Бунинская метро) Rus yazıçısı İvan Buninin şərəfinə adlanmışdır (1996)

**Bunin**o (Бунино) – Moskvaaltında kənd (Ruzsk ray.) Türkcə bunya “təkəbbürlü” adı illə bağlıdır (1498); Bunin (1579) məlumdur.

*Веселовский, 260; Баскаков, 33; Halıkov, 40; Поспелов, 173; TƏR, 22-28*

**Bunkovo. Böyük Bunkovo** (Большое Буньково) – Moskva vilayətində (Noro-F. və Stupin ray.) kənd.

XVI əsrdə QK-da rastlanır. Bunkovlar (Bunakovlar, Buninlər) Ryazandan çıxma tatarlardandır. Vasili Temninin yaxını olmuş dövlət adamı idi. sonrakı nəsil Bunkov soyadı götürmüşlər dyak (dəftərdar) vəzifəsini icra etmişdir.

*Поспелов, 173*

*Bax: Bunin məq.*

**Bunyatino** (Бунятино) – Moskva vilayətində (Dmitrievski ray.) kənd. Buniyatka çayının üstündə eyniadlı kənd.

**Bunyatka çayı** (река Бунятка) – Yaxroma çayının sol qolu Kəndin adı 16-cı əsrdən Bunyatka çayının üzərində kənd adı kimi çəkilir. Eyniadlı kənd Tver vil. də vardır. Kəndin adının bağlı olduğu türk (əsli:ərəb) soyadının Bünyad "təməl, özül" mənası məlumdur.

**Burmakino** (Бурмакино) – Moskvaaltında kənd (Mojaysk ray.) Burmak adından əmələ gəlmiş; İqnati Burmak (XV) məlumdur. Kaluqa, İvanovo, Tümen, Kirov, Krasnoyar, Pskov, Cmolensk, Nijeqorod, Tver, Yaroslav vilayətlərinə bağlı yaşayış məntəqələri.

*Веселовский, 55; Поспелов, 173*

**Buruxanovo** (Брюханово) – Moskva altında (Şaxovsk ray.) kənd

Kəndin adı Bürüxan (1608) adı və Bürüxanov soyadındandır (1636). Soyadı börü "qurd"+xan sözündən yaranmış, bəzi mülahizələrə görə *bürüxan* Şərqi Türk xalqlarında "*tapınaq, büt, sənəm, pir*" adıdır. Bu heykəllər müqəddəs obrazların adı id; misdən, gümüşdən tökülürdü. Bürüxan Perm şəhərinin daha qədim adıdır (yerli əhali Kazan tatarlarının etnik qolu sayılan Kunqur tatarlarıdır. Tver və Kemerovo vil. kənd.

*Веселовский, 56; Поспелов, 171; TK,74-75*

**Buşarino** (Бушарино). Əvvəlki adı Başirino. Moskva vil. Setun çayı üstündə kənd (Odintsov ray.) Tatarlar arasında yayqın olan Başir, Beşir adından törəndiyi məlumdur.

**Butakovo** (Бутаково) – Moskvaaltında kənd (Volokolam ray.) Butak "budaq, qol, şax" adı ilə əlaqəlidir; Vasili Butak (1455), Butak (1556), İvaşko Butakov (1498) məlumdur. Zadəgan familiyasıdır. Çox güman ki, kənd mülkədar Butaka mənsub olmuşdur.





**Butakov** körfəzi (залив Бутакова) Ximki su anbarında körfəz adıdır. Yaxınlıqdakı Butakovo kəndi ilə əlaqədardır. Rusiyada Omsk, Yaroslav, Nijeqorod, İrkutsk vil. kənd adları.

*Веселовский, 57; Баскаков, 254; Поспелов, 174*

**Butırka** (Бутурка) əvvələr 17-18-ci əsrlərədək burada Butır slabodası – kəndi yerləşirdi. Uzun illər Butır əsas şəhərdən geniş çöl vasitəsilə ayrılırdı. 1742-47-ci illərdə şəhərlə birləşmişdir. 1667-ci ildə isə burada Butır alayının yerləşməsilə bu zaman hərbi slaboda və xutor da Butır adlanırdı. XVII əsrdə Butır türməsi (Butırka) açılır. İndi Moskvada Butır küçə, meydan və həbsxana adlarında saxlanılır.

Rusiyanın hər guşəsində məşhur Butur, Butorinlər~Buturinlərin mülkü olmuşdur. Əsilzadə Butora Kositski (1498), knyaz Fedor Butora məlumdur. XV əsrdə Butorinin soyadına rast gəlinir. Smolensk vil. eyni adlı kənd.

*Веселовский, 57, 58; МЭ, 160; Сытин, 103; Долгоруков,83*

**Butovka** çayı (река Бутовка) Smolensk və Moskva vilayətində çay

**Butovskaya** caddəsi (ул. Бутовская) – Keçmiş Butovka kəndi; Moskvanın cənubunda yerləşir, sonradan şəhərə qarışmışdır. Yazılı qaynaqlarda adın qeydinə ilk dəfə XVII əsrdə rast gəlinir. Butov kəndi kazak atamanının soyadı ilə bağlıdır. Romanovların ilk çarı Mixail Romanovun hakimiyyətə gətirilməsində (1613) göstərdiyi xidmətlər müqabilində kazak Butova bağışlanmışdır. Kənd və çay adının əsasında duran familiyanın Türk sözü bit "yarımqanad qansoran parazit, ziyanverici həşərat > taxtabiti, buğdabiti, toyuqbiti; *acgöz, həris* vəs. anlamı ilə bağlayırlar. Rus dili şivələrində bu mənaları ilə istifadə olunur.

*Даль, 1. 138; МЭ, 160*

**Buturlino** (Бутурлино) – Moskva vilayətində (Cerpuxov ray.) kənd. 15-ci əsrə aid sənədlərdə boyar Buturlinə məxsus olduğu məlumdur. Buturlin soy adı əvvəl Buturla kimi işlənmişdi. Belə ki, Buturlinlərin ulu babası boyar İvan Buturla olmuşdur (15-ci əsr). Rus danışıq dilində buturla "*gəvəzə, hərcayi, boşboğaz*" deməkdir. Bu soydan Buturlin Baklan, Sayqa Buturlin dövlət adamları (16-cı əsr) çıxmışdır.

Nijeqorod, Penza, Kaluqa, Tula, Voronej vil. kənd. Moskvada Butırka türməsi.

*Веселовский, 57; Баскаков,52-54; Поспелов, 174; Halıkov,40*

**Buzak**ovo (Бузаково) – Moskvaaltında kənd (Kaşira ray.) QK-da kəndin adı 1578-ci ildə rast gəlinir, Buzak adındandır. Kazan səfiri Buzyuk məlumdur(1683). Baskakov həm fonetik, həm də semantik baxımdan Türk feili buzmak (*pozmaq, dağıtmaq*, *məhv etmək, uçurmaq, sökmək*) sözü ilə əlaqələndirir. Rusiyada eyniadlı kəndlər: (Vladimir, Voloqda vil.)

*Поспелов, 172; Фасмер, 1.233; Баскаков,17-18*

**Buzlan**ovo (Бузланово) – Moskvaaltında (Krasnoqor ray.) kənd. Rus dilindəki *базанить, базулит, базынить* (böyürmək), baz//boz (lamak) bozla// bozda (maq) fonetik variantına Azərbaycan və Türkiyə türkcəsində ikinci mənasında rast gəlirik: a) dəvənin, başqa heyvanların b) insanın dillə ağlaması. Rus dili şivələrindəki türk sözlərindən: базан, (*крикун, краснобай, хвастун*); базанить "*орать*"

*Радлов, 1.1686; Веселовский, 20; Даль, 1.137*

**Buzuk**ovo (Бузуково) – Moskvaaltında kənd (Kolomna ray.) Ukraynada kənd adı.

*Bax: Buzakovo*





**Çagin** küçəsi (Чагинский переулок) və **Çagin caddəsi** (Чагинская ул.)– Moskvada cənub-şərq səmtində, Lüblino ərazisində küçələr.

Çaqin Türkəsilli rus familiyalarındandır; türkcədən (çağataycadan) əski alınmalar sırasındadır; çaqa "*körpə, bala; əsir*" sözündəndir. Çaqin İstoma və Çaqinlər ailəsi 15-ci əsrdə Kaşində qeydə alınmışlar. 1600-cü illərdən Dövlətdən verilən böyük topraq mülklərə sahib olmuşlar. Onların Çagino kəndi 1960-cı illərdən şəhərə qarışmış və küçə adlarında yaşamaqdadır. Çagino – Ryazan, Tver, Voloqda, Yaroslav, habelə Omsk, Tomsk vil. kənd.

*Веселовский, 346; Баскаков, 177-178; Halıkov, 41; Ведина, 931*

**Çan**ovo (Чаново) – Moskvaaltında (İstra ray.) kənd. Çan *böyük ölçüdə qab; teşt, qulplu iri qazan, tiyan.* Çanak "kiçik çən, ağacdan hazırlanmış qab", "*tabaq*" da bu sözdəndir. Böyük ehtimal ki, kənd adının əsasında duran Çanov familiyası ləqəbdən formalaşmışdır. Çanovo – Tver və Novosibirsk vil. kənd.

*Радлов, 3. 1855; Веселовский, 346; Фасмер, 4. 272; Шипова, 375*

**Çapay**ev parkı, küçə və caddələri (Чапаево парк, улица, переулок) Moskvanın Şimal səmtində Sokol və Xoroşev rayonları sərhədində yerləşir. Rusiyada Vətəndaş müharibəsi qəhrəmanı Çapayevin şərəfinə adlanmışdır (1930)

**Çapae**vka (Чапаевка) – Moskva altında (Odintsov ray.) kənd və dəmiryolu stansiyası

Familiyanın tərkibi türk feili çap "*zərbə ilə vurub kəsmək; at çapmaq*" və -ay icraçını göstərən şəkilçi >çapay "*çapan, kəsən*"şəklindədir.

*Поспелов, 544; Веселовский, 347; Баскаков, ТНМУ, 27; ТК, 69-70; Ведина, 935*

**Çapçik**ovo (Чапчиково) – Moskva altında yaylaq yeri və qəsəbə; 1936-cı ildə qəsəbə köçürülmüş, indi yerində Uça çayı Su anbarı salınmışdır. Yerin adı Veselovskinin "Onomastikon"unda buranın keçmiş sahibi bostançı Çapçık (Çap /maq/ *əymək, kəsmək, bölmək* və -cık şəkilçisi), sonralar isə Çapçıkovların adı ilə qeyd olunmuşdur (1638).

*Веселовский, 346.*

**Çaplıg**in küçəsi (ул. Чаплыгина) – Moskvanın mərkəzində Basman tarixi ərazisində yerləşir. 18-ci əsdən mövcuddur.

**Çaplıg**in caddəsi (ул.Чаплыгина) – Tarixi Çapligin kəndinin ərazisində salındığından(1942) küçəyə onun adı verilmişdir.

**Çaplıg**ino (Чаплыгино) – Moskva altında kənd; Voskresensk ray. daxildir.

Çaplıgino və Çaplıginsk qəsəbəsi adı çaplı ~çepli~çepni böyük oğuz tayfa adındandır. Ryazan mülkədarı Çaplıgin (1616) məlumdur. Çaplıgino, Çaplinka Tver, Tula, Lipetsk, Orlov və Kurskda kənd adları.

*Поспелов, 544; МЭ, 656; Никонов, 34; ТК, 69-70*

**Çarık**ovo (Чарыково) – Ryazan vil. kənd; Sarayevsk ray. daxildir. Rus dövlətində xidmətə başlayan bu soy haqqında ilk qeydlər XVəsrə aiddir. Soyadının əsasında duran Türk sözü çarıq - çaruk, çarki rus dili xalq şivələrində "məst, yumşaq ayaqqabı" mənasında rastlanılır. Familiya həmin sözlə rus dili familiya düzəldən -ov şəkilçinin birləşməsindən yaranmışdır.

*Радлов, 3. 1863; Даль, 4.582; Баскаков, 183-184; Фасмер, 4. 316; Шипова, 377*

**Çaşnik**ovo (Чашниково) – Moskva altında Studenes və Alba çayı üzərindəki kəndlər. Bu kəndlər 14-cü əsrdə





Novqorodlu boyar Çaşnikovların mülkü idi.1585-ci ildə boyar Yuryevin, ondan sonra knyaz Tokmakovun mülkü olmuşdur. 1688-ci ildən Narışkinlərin idarəsinə keçir. İndi Çaşnikovların Moskvaaltı mülkünün yadigarlarını 3 kənd saxlamaqdadır.

Çaşnik 13-18-ci əsrlərdə Rus sarayında knyazın şərab-içki görəvi daşıyan vəzifə adı[34] – "*kasaçı, piyaləçi*" idi (çaşa <kasa; -nik "piyaləçi, saqi") Bu addan formalaşan Türk əsilli Rus soyadı daşıyan Çaşnikovların adına kənd Voloqda vilayətində də vardır. Çaşkovo Tver vil. kənd.

*Подмосковье, 390; Баскаков,ТЛЗР, 1,с.14, RTS, 83*

**Çayan**ov **küçəsi** (ул. Чаянова) – Moskvanın mərkəzində,Tverskoyda küçə. Kənd təsərrüfatı iqtisadiyyatı elmi məktəbinin banisi Aleksandr Çayanovun (çayan "*zəhərli həşərat*") adı ilə adlanmışdır (1992). Yaroslav vil. kənd adı.

**Çebıt**evo (Чебытево) – Moskva vilayətində (Ramensk ray.) kənd. Veselovski kəndinin adının mənşəyi haqqında söz demənin mümkünsüzlüyü səbəbindən Çelobityevo (çelobit "məktub, fərman") kimi oxumağa məcbur olmuşdur. Çebot tatar sözü çabata"*ayaqqabı, məst, başmaq*" sözündəndir. Rus dilinə keçən bu kəlmədən çebotar "çəkməçi, başmaqçı" düzəlmiş, bu söz də rus soyadı olan Çebotarev ləqəb-familiyasının yaradılmasına əsas olmuşdur. Türk əsilzadəsi Çebotay Kançeevdən (15) Çebotaevlər soyu meydana gəldi.

*Веселовский, 347; Даль, 4. 585-586; Баскаков, 39*

**Çeblok**ovo (Чеблоково) – Moskva altında (Voloklam ray.) kənd.

---

[34] Боголепов П. Верховская Н., Сосницкая М. Тропа к Пушкину, М., изд. ДЛ, 1967 с.524.

**Çeblok**ovo (Чеблоково) – Moskva altında (Naro-Fom. ray.) kənd.

Çeblak~yablak M. Kaşqaridə "möhkəm, bərk" deyə izah edilir. Yablak, yavlak və Yavuz adının kökündəki yava, "sərt, qorxulu, yaman" mənası qəddar, cahil anlamında şəxsiyyətin gücünü göstərməkdədir. Qədim türklərdə titullar sırasında rastlanan yabğu "nazir"; Sibir xanı Marın oğlu Ebalak~Abalak "Yabalak" məlumdur.

Yavlak (bu gün Yevlax); Kırım və Ukraynada, Tula vil. (Rusiya), Müasir Başqırdıstan, Tatarıstan və Sibirin coğrafiyasında ***Yabalak, Yabalokovo, Yabulukovo, Abalak*** məntəqə adlarına təsadüf olunur. Bayquş növü olan *yapalaq* adının da həmin məna ilə bağlılığı ehtimal olunur.

*Веселовский, 106; B. Atalay, 127*

**Çeboksar**skaya küçəsi (ул. Чебоксарская) – Xatirə adlarındandır (1985); Çeboksar (çuvaşca Şupaşkar)Çuvaş Respublikasının paytaxtı adına qoyulmuşdur.

**Çebun**ovo (Чебуново) – Moskva altında (Mojaysk ray.) kənd. Çebunov kənd adının Ruslardakı türkcədən keçmə çoban~çaban, çopan~şopan sözünün tələffüz zamanı dəyişilmiş formasıdır.

**Çeçera** (река Чечера) – Moskvanın mərkəzində çay (Yauza çayının sağ qolu)

**Çeçera** (река Чечера) – Moskvanın şərqində çay (Peçora çayının sol qolu)

**Çeçera** (река Чечера) – Moskvanın cənub-qərbində çay (Sıqanka çayının sağ qolu)

**Çiçera~Çeçora** çayı (Река Чичера~ Чечора) – Moskva vilayətində çay, Ramenski çayına qovuşur.

**Çeçerı** (Чечеры) – Ryazan vil. bağlı (Sasovski ray. aiddir) kənd.

**Çeçer**ski keçidi (Чечерский проезд) – Moskvanın cənub-qərb istiqamətində Çeçera çayı boyunca uzanır; adı da buradandır.





**Çeçora** çay (река Чечора) – Moskva vilayətində çay; Okanın qolu

Türk sözü çiçer,çiçera rus məhəlli dilində "*sulu qar*", "*şıdırğı yağış*", çiskin, qarla yağışın birlikdə yağması mənasını ifadə edir. Türk dillərində çisələmək (yağış), çiskin "*şeh, yağmur*" Azərbaycan türkcəsində çiskin (çən-duman) sözü vardır. Söz rus dilindəki türk sözlərindəndir – XVI əsrdən işlənməkdədir.

*Веселовский, 355; Даль, 4. 609; Поспелов, 546; Шипова, 396; Т. Москвы, 52*

**Çekan**ovo (Чеканово) – Tver vil. kənd. Eyni zamanda Novqorod, Altay vil. kənd adı. Kənd çekan Türk sözündən yaranan Çekanov soyadını ifadə edir. Çekan Türk sözü "ucu şuş çəkic, balta" (Rus dilinə XII əsrdən keçmişdir); "çaxmaq, çakmak, çakan" kəlməsindən əmələ gəlmişdir

*Фасмер, 4.324; RTS, 122*

**Çek**levo (Чеклево) – Moskva altında (Volokolam ray.) kənd. Çek, Çex, Çix Qafqaz xalqı adından.

**Çekmen**ovo (Чекменово) – Moskva altında (Ramensk ray. daxildir) kənd. Ad əski zamanlardan bugünkü Mərkəzi Rus ərazilərinin sakini Qara klobuklardakı şəxsiyyət adlarından olan xan Çekmanla (1169) əlaqədardır. Adın tərkibində çaqma (şimşək, ildırım çaxması) və ya çökmə "*çökmə, diz qatlama; məğlub olma*" mənasından çökmən "çökməyən, tabe olmayan" olması da şübhəsizdir.

*Радлов, 3.1956, 1995,1996; Даль, 4. 587; Баскаков, ТЛС, 67, 69-70; Фасмер, 1. 325,326*

**Çeqoda**evo (Чегодаево) – Moskva altında (Podolsk ray.) kənd; Çeqoday adı ilə əlaqədardır; Çeqoday Matveev (15-ci əsr), Mordas Çeqodaeviç (1509) məlumdur. Kənd mülkədar Çeqoday Vasili Matveyevə məxsus olmuşdur.

Çeqoday (Çaqaday~Çağatay) adından Çeqodaev soyadı meydana gəlmiş soyadının kökündə çaqat<çaqatay "*igid, doğrucul, səmimi*" adam adı durur. Şəxs adı soyadına və həm də öz növbəsində tayfa adına çevrilmişdir. Çeqodaevo – Orlov, Tula vil., Başqırdıstanda kənd.

*Веселовский, 344, 348; Баскаков, 223, 224; Поспелов, 546; Halıkov, 41; Ведина, 928*

**Çelyab**inskaya (ул.Челябинская) – Moskvanın şərqində küçə. Rusiyanın vilayət mərkəzi Çelyabinsk (rusların idarəsinə 1557-ci ildən girmişdir) adınadır(1975). 1787-ci ilədək Çelyaba~ Çelebi "*ağa, cənab, mürşid*" öz adı ilə yaşamış, sonra russayağı Çelyabinsk olmuşdur.

*ЭС,т.76, 493; ТК, 76-77*

**Çembar** (Чембарь) – Ryazan vil. bağlı (Sasovski ray. daxildir) kənd.

Çəmbər Türk sözü geyim; enli şalvar. Türk dillərində: çanbar, çınbar, şanbar, şanpar, çalbar, şalvar.

*Радлов, 3.2074, Даль, 4. 589; Фасмер, 4.331*

**Çepel**ovo (Чепелово) – Moskva altında (Çexov ray. dax.) kənd. Çepel adı ilə bağlıdır; Çepel Selivaçev (1564); Mikifor Çepelev (1495). Çepel "*dəmir bel, dəhrə*"; Azərbaycan ağızlarında çəpəl kobud söz, ləqəb.

*Веселовский, 350; Поспелов, 547*

**Çerkas**ovo (Yeni və Köhnə) (Черкасово (Новый и Старый) – Moskva altında kəndlər; Şatura ray. daxildir.

18-ci əsrdən Çerkasovo olaraq işlənilir. İvan Maksimoviç Çerkasov (1594); Çerkas Tuqarinov (1600). Çerkas "*çərkəz*" 20-ci əsrə qədər Şimali Qafqaz və Cənubi Ukrayna əhalisinin ümumiləşdirici adı.

*Веселовский, 351; Баскаков, 136-137; Поспелов, 496*





**Çerkas**skie (ул. Большая Черкасская) – Böyük və Kiçik Çerkasski olmaqla iki küçə; Moskva qubernatoru knyaz P.B. Çerkasskinin mülklərinə görə adlanmışdır. Çar İvan (Qroznı) Aşağı Kuban boyunun hakimi Aydar (İdar) oğlu Temiryukun qızı ilə evləndikdə (1561) saraya yerləşən ailə üzvləri Rus dövlətində yüksək mövqelər tutmuş və Çerkasski soyadı qəbul etmişlər.

*Баскаков, 80-82, 136; МЭ, 392, 656; Сытин, 325*

**Çerkas dağı** (Черкасова гора) – indi Pestovo. General Ermolova məxsus olmuşdur; Qafqaz canişinlivi vəzifəsinin istefadan sonra burada yaşamışdır. Hazırda pansionat və yaylaq evləri salınmışdır. Ermolovun əhalinin "Məhəmmədi qəbristanlığı" adı verdiyi xariqə parkdakı Qafqazdan apardığı abidələr (çoxu daş Oğuz heykəlləri) itib getmişdir.

*Подмосковье, 255; TƏR, 286-291*

**Çerkiz**ovo (Черкизово) – Moskva vilayətində (Puşkin və Kolomna ray.) iki kənd.

**III Çerkiz**ovskiy küçəsi (3-ий Черкизовский переул.) – Moskvanin şərqində tarixi Çerkizovo ərazisində salınmışdır.

**Çerkiz**ov bazarı (Черкизовский базар) – Moskvanın şərqində böyük bazar.

**Çerkiz**ovskoe gölü (Черкизовское озеро) – Moskvanın şərqində göl. 14-cü əsrdən QK-da qeyd olunmuşdur. **Çerkizovo** (Черкизово) – Moskva vilayətində Puşkin ray. kənd.

**Çerkiz**ovo (Черкизово) – Moskva vilayətində kənd. Kolomna ray. daxildir.

Bu kəndlər Dmitri Donskoyun müttəfiqi Böyük Orda şahzadəsi Çerkizə (Çerkez) mənsub idi. xaçlanarkən öz adını soyadı götürdü(14-cü əsr). Böyük torpaqlara malik idi. İndi Puşkin ray. bağlı kənd Çerkizovlardan sonra İvan Qroznının

gəlininə mənsub idi (öldürdüyü oğlu İoannın arvadına), 200 ildən sonra isə Pyotrun dayısı–çar qaynı Lev Narışkinə keçir.

*Баскаков, 41, 36; Поспелов, 547; Подмосковье, 390; Вагнер, 19; МЭ, 656 ; Сытин, 40, 325*

**Çertan**ovka çayı (река Чертановка) – Digər adı Çerkasovski; Moskva çayının qolu. Bu ərazilərin sahibi olan Murza Çertanın torpaqlarından axan eyniadlı çay

**Çertan**ov (Чертаново) – Moskvanın cənubunda yer adı; bu adda köhnə kənd var idi. 1960-cı ildən şəhərə birləşmiş. Dəmiyolu stansiyasında və Çertanov caddəsi, 3 keçid adında saxlanılmışdır.

**Çertan**ovo (Чертаново) – Moskva altında (Voloklam ray.) kənd. 15-ci əsrdən adı çəkilir. Yaroslavlda adı qeyd olunan İvan Fyodoroviç Çertanov (1563) da məlumdur. Çertanov <çertan~çortan. Tatarca çurtan~çortan "*durna balığı*"deməkdir. Çertan, Çortan Qıpçaqlarda boy adı.

*Веселовский, 353; Баскаков, ТНМУ, 27; МЭ, 657; Т. Москвы, 77; Поспелов, 550*

**Çesmen**ka (Чесменка) – Ryazan vilayətinə bağlı (Mixaylovski ray. daxildir) kənd

**Çesmen**ka (платф. Чесменка) – Kursk vağzalında platforma. Vronejdə kənd adı.

**Çesmen**skaya (ул. Чесменская) – Moskvanın mərkəzində Taqankada caddə. Böyük və Orta Kalitnikov kücələri arasında yerləşir. Rus və Türk flotu arasında Çesma dəniz döyüşü (1770) xatirəsinə adlanmışdır.

**Çesmen**skoye (Чесменское) – Moskvaaltında (Volokolamsk ray.) kənd; qraf Aleksey Orlov-Çesmenskinin Çeşmə





dəniz döyüşü (1770-ci il, 26 iyun) xatirəsinə götürdüyü adla bağlıdır. XVIII əsrin sonlarında onun oğlu Moskva altında yaylaq yerləri alır və saldırdığı kəndə öz soyadını-Çesmenski adını verir. 1960-cı illərdə yaylaq yeri böyüyən Moskva ərazilərinə daxil edilərək orada formalaşan küçə adlarında qalmaqdadır.[35]

*Баскаков, ТНМУ, 29; Сытин, 326*

**Çiçerin** caddəsi (ул.Чичерина) – Moskvanın şimal-şərq səmtində yerləşir. Türk mənşəli rus soyadı ilə bağlıdır.

Familiya türkcə çeçer "*bəlağətli danışan*" və ya rus dilinə keçən türk sözünün çiçer~çiçera şəkli "*soyuq, kəskin payız küləyi; çiskin*" sözündən meydana gəlmişdir. XİN xalq komissarı Çiçerin Qeorqi Vasilyeviçin şərəfinə adlanmışdır

*Баскаков, ТНМУ ç. 27; МЭ, 459*

**Çiçkovo** (Чичково) – Moskva altında (Naro-Fom. ray.) kənd. Çiçkov soyadıyla bağlıdır; familiyanın törədiyi çiçak~çiçko "*təpəsi şiş olan metal dəbilqə*"; at tükü və ya ləleklə bəzədilmiş dəbilqə "*dəbilqə*"; məcazi mənada "*nüfuzlu, seçkin adam*" demək idi. Qədim Rusda çiçak (Çiçaqov soyadı da buradandır); Türk dillərindəki şişak (türk), şişik (özb.), şişug (cağ.), şişik (kom.) sözündəndir. Çiçkovo – Bryansk və İrkutsk vil. kənd adı.

*Радлов, 4. 1084; Веселовский, 355; Шипова, 421*

**Çigir**inka (Чигиринка) – Tula vil. kənd Çernski rayonuna daxildir. Çigirin adı qədim və güclü türk qövmü olan cigillərlə bağlı ola bilər. Türkmən oğuzları Amudəryadan Çinə qədərki ərazidə yaşayan Şərq türklərini *çigillər* adlandırırdılar.

---

[35] Nuriyeva M. Türk yer adlarından ibarət rus şəxsiyyətlərinin titulları"Hərbi bilik", Bakı, 2000, № 1, s. 108

Azərbaycanda çay (Sumqayıt çayının qolu); Şamaxı ərazisində çay adı; Xəzər dənizində ada; eyniadlı palçıq vulkanı[36] Orlovda, Rostov və Amur vilayətində, habelə Mogilyovda (Belorusuya) kənd. Ukraynada *Çigirin* şəhəri bu adla bağlıdır.

*İslam Ansik., 3. 384-385; TK,82-83*

**Çiqas**ovo (Чигасово) – Moskva altında (Odintsov ray.) kənd; Çiqas adı ilə əlaqədardır. Moskvada iqumen Çiqas (1483) olmuşdur. Yauza çayı üstündə Spas məbədini tikdirmişdi. Ryazan vil. kənd.

*Веселовский, 354; Поспелов, 551*

**Çilik**ino (Чиликино) – Moskva altında (Ozerski ray.) kənd. Türk dillərində çilik, rus dilinə keçməklə çiliqa, çilijnik "*çubuq, şiv, qələmçə, çilik; çiliklik*" mənalarında işlənir. Kənd həmin mənanı daşıyan ləqəbdən düzələn soyadına mənsub olmuşdur.

*Радлов, 3. 2136; 4. 361; Фасмер, 4. 361, 604;*

**Çirik**ovo (Чириково) – Moskva vilayətində (Podolsk ray.) 2 kənd; Çirik adından törəmişdir. Yaroslav zadəganı Semen Çirikov (1511) məlumdur.

Hər iki kənd Çirikovlara mənsub olmuşdur. Çirikovlar nəsli Qızıl Orda xanı Bərkənin qardaşı oğlundan başlayır (13-cü əsr). Çirik~çerik "*əskər, könüllü döyüşçü; xalq milisi; çəri*" sözündəndir. Dmitri Donskoyun müttəfiqi olaraq o xristianlığı qəbul etmiş, Petr Çirikov adını götürmüşdür. Mamaya qarşı idi. Çirikovo Rusiyada coğrafi obyekt adı: Ulyanovsk (3 kənd),Tula (2 kənd) Saratov vil. Kostroma, Vladimir, Tver (4 kənd).

*Веселовский, 355; Баскаков, 117-118; Halikov, 43; ЭС. 38 т. с.858*

[36] Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I c., Bakı, Şərq-Qərb, 2007.





**Çirk**ovo (Чирково) – Moskva altında (Stupin ray.) kənd

**Çirk**ovo (Чирково) – Moskva altında (Sergiev P. ray.) kənd; 1485-ci ildə Pskovda dövlət məmuru Qriqori Nikitiç Çirkov; 1575-ci ildə podyaçi Qriqori Çirkov məlumdur.

Çirkovo Rusiyada coğrafi obyekt adı: Penza, Voloqda (2), Ryazan, Ulyanovsk, Yaroslav, Novqorod, Perm, Peterburq vil.

**Çirkin**o (Чиркино) – Moskva altında kənd (Stupin ray. aiddir) 1577-ci ildən məlumdur. Çirka Fedor Surmin (1490), Mitka Çirkin (1477) məlumdur.

Bu nəsildən Çirkinlər meydana çıxdı. Soyadının əsasında qədim türkcə çiri "*cəsur, igid*" və bu sözdən yaranan çerik "*qoşun, ordu*" sözü durur. Smolenskdə (Rusiya) və Qazaxistanda (Sayram ray.) coğrafi obyekt.

*Веселовский, 355; Баскаков, 117-118; Поспелов, 551-552; Halıkov, 43; TK,83-84*

**Çobot**ovski xiyabanı (Чоботовская аллея) – Qeyd:11 Çobotov xiyabanı vardır. Moskvanın qərb qismində Novo Peredelkino ərazisindədir.

**Çobot**ov caddəsi (Чоботовская улица) – Küçə Novo Peredelkino ərazisindədir.

**Çobot**ov keçidi (Чоботовский проезд) – Küçə və caddələr Moskvanın tərkibinə 1984-cü ildə daxil olan Çobotovo qəsəbəsi adını saxlayır. Çobotovo – Voloqda, Smolensk vilayətlərində kənd.

Çobot əsli çebot; Çebot soyadı (Çobot) İvan Vasilyev Çulkovdan (15 əsr) başlayır. 15-16-cı əsrlərdə Ryazan ətrafında məskunlaşdırılan Çebotay Konçayevdəndir. Soyadının əsasındakı çebotar sözü çabata "*başmaq, həsir çüvək*" Türk kəlməsindəndir; bu sözdən rus lüğəvi vahidi çebotar "*çəkməçi*" yaranmışdır.

*Баскаков, 199; Halikov, 42; RTS, 53*

**Çonqar** bulvarı (Чонгарский бульвар) – Varşava şosesindən Azov küçəsinədək olan ərazi 1965-ci ildə Çonqar (Kırımda) yarımadası şərəfinə adlandırılmışdır. Qışda buz üzərində konki oyunu keçirilən istirahət yeri olaraq istifadə olunur. Çonqar noqay türklərində boy adıdır və türkcə *çunqur~çunğur* "*çuxu; çökək yer*" mənasını verir.

*МЭ, 157; Баскаков, ТНМУ,28*

**Çubar**ovo (Чубарово) – Moskvaaltı kənd; Voloklam ray. daxildir.

**Çubar**ovo (Чубарово) – Moskva altı kənd; Çexov ray. daxildir. Stıdinka çayı üzərində yerləşir.

Türk əsilli rus Çubarovlar nəsli Çubar Aleksandroviç Qolovkindən (1570) başlayır. 1476-cı ildə Moskva böyük knyazlığında səlahiyyətli nümayəndə olmuşdur. Soyadının əsasında Türk sözü çubar "*xallı, çopur*" sözü durur. *Çubarovo* Mərkəzi Rusiyada: Ryazan, Kaluqa, Bryansk, Smolensk, Yaroslav vil. və Permdə coğrafi obyekt adıdır.

*Радлов, 3. 2185; Веселовский, 356; Баскаков, 122; Halikov, 43; Шип., 397; Ведина, 958*

**Çuqun** (Чугун) – Moskvada Balçuq və Kadaşov bölgələrini birləşdirən köprünün adıdır. Rus dilindəki çuqun türk dillərindən alınma sözdür. Rus xalq danışığında *çuqun* və *çuqunka* dəmiryolu, körpü anlamında istifadə olunur. Çuqunovka Voronej, Bryansk, Tambov, Xarkovda kənd.

*МЭ, 659; Фасмер, 4.377*

**Çulki** (Чулки) – Moskvaaltı (Zaraysk ray.) kənd. 1950-ci ildə Sokolovo kəndi ilə birləşdikdən sonra Çulki-Sokolovo adlanır. Murza Çulok Arkasov (1500), Fedor Çulkov məlumdur (1552)

**Çulk**ovo (Чулково) – Moskva altında (Ramen ray. ərazisində) qədim kənd. Moskva çayının sağ sahilindəki bu kənd





600 ildən bəri ilk sahibi olan boyar Çulok Osteevin (1495) adı ilə bağlı Çulkov adını daşıyır. Ata-babalarının adı Toxtamışla mübarizədə çəkilir(1382). Soyadının əsasında türk sözü çulok "yumşaq çəkmə<çulğav tatarca "çulğamaq, bürümək"; əlavə mənada "qorumaq, mühafizə etmək" mənalı sözü durur. Nijeqorod, Vladimir, Ryazan, Voronej və Peterburq vil. kənd.

*Веселовский, 234, 356; Баскаков, 42, 206; Вагнер, 147; Поспелов, 552;*

**Çulpan**ovo (Чулпаново) – Moskva vilayətində (Domodedovo ray.) kənd. Çorban~Çurban~Çulpan ilk mənada "*dan ulduzu*". Xəzərlərdə tez-tez rast gəlinən (Çorban, Çorpan Tarxan) şəxs adlarındandır; Tarıstanda coğrafi obyekt adı.

*Баскаков, ТЛС,48*

**Çumiç**ovo (Чумичово) – Moskva vilayətində kənd (Klin ray. daxildir) Çumiçov soy adı 1477-ci ildə qeydə alınıb. Kəndin adı Çum, çumiç, cumiçka "çömçə; uzun saplı qaşıq" məişət əşyası; ölçü qabı "*çum zoloto*"; *çumiç, çumiçka* məcazi mənada *pintı, adamayovuşmaz* ləqəbindən doğan soyadına məxsus olmuşdur.

*Веселовский, 356; Срезн., 3.1552; Даль, 4.614; Фасмер, 4. 381; Шипова, 401*

**Çuprik**ovo (Чуприково) – Moskva vilayətində (Luxovitski ray.) kənd

**Çupryak**ovo (Чупряково) – Moskva vilayətində (Odintsov ray.) kənd. Çupra (çuprok; çupryak sözündən) soyadı 1496 və1564-də rast gəlinir. Kənd adının yarandığı familiya Çub~çup "kəkil, tel"; bayraqda və silah-əsləhə üstündə "qotaz"; məcazi mənada "sevimli, istəkli" sözündən və sözdüzəldici şəkilçidən meydana gəlmişdir.

*Веселовский, 357; Даль, 4. 615; Баскаков, 42, 228*

**Çura** çayı (рeка Чура) – Moskva çayının sağ qolu. Moskva altında təpələrdən öz mənbəyini götürür. Beket gölməçəsi yaradır. Qədim müsəlman qəbristanlığı və Danilov məzarlıqı arası ilə axıb kollektora alınır. Çura Voloqdada, Nijeqorodda, Kirov, Arxangelskdə və Udmurtiyada çay və kənd adları. Çox ehtimal ki, qədim türkcə *çura* əsilzadə titulu ilə bağlı meydana gəlmiş. ***Çura dərəsi*** çayın kənarında yerləşir.

**Çur**ovka (Чуровка) – Moskvanın cənub-qərbində kənd olmuş, indi şəhərə qarışmışdır.

Rusların Çura, Çurov, Çurilo, Çurilko kimi soyadları Türklərdə çura (çura~çora; çoro~şoro~şura) "*bahadır oğlu, xanzadə, naib, bahadırın silahdaşları*" tituldur; İvan Çur (15 əsr). Akçurin, Karaçurin, Biçurin, Miçurin soyadlarında iştirak edir.

*Веселовский, 357; Баскаков, 229; Halıkov, 44; Ведина, 56*

**Daşk**ov küçəsi (ул.Дашкова) – Moskvanın mərkəzində – Xamovnikidə küçə. Mülk sahibinin adı ilə bağlı meydana çıxmışdır (1840)

**Daşk**ovo (Дашково) – Moskva altında kənd (Şaxovski ray. daxildir)

Kənd knyaz Daşkovların mülkü olmuşdur(15). Bu soyadı daşıyanlar Böyük Ordadan ayrılıb Böyük kn. Vasili İvanoviçə yaxınlaşan şanlı Mirza Daşekdən başlayır. Daşık türkcə daşuq~taşuq "həddini aşan, ipə-sapa yatmaz, daşqın" deməkdir. Daşkovo Rusiyada (Tver, Pskov, Orlov, İvanov vil.) coğrafi obyekt adı.

*Веселовский,93; Баскаков, 50-51; Halıkov,45*

**Davıd**kovskaya (*река* Давыдковская) – Moskva ərazisində çay. Setun çayının sol qolu; adı kəndlə əlaqədardır.

**Davıd**kovo (Давыдково) – Setun çayı sol sahilində keçmiş kənd; 1623-cü ildə adı qeyd olunmuşdur. İndi Moskvanın qərb səmtində küçə (1960); Fili-Davıdkovo ərazilərindən keçir.





**Davıd**ovskoe (Давыдковское) – Moskva vilayətində (Or.Zuevo ray.) kənd

Davıdkovo Moskvanın qərbində Setun çayının üstündə tarixi yer. Davıdovlar nəsli 14-cü əsrin sonu, 15-ci əsrin əvvəllərində Qızıl Ordadan ayrılan Minçak Kosaeviçdən başlanır. O xaçlanıb Simeon adını götürdü və yeni doğulan oğlu Davidun adından özünə soy adı götürdü. Davıdkovo -Tula vilayətində kənd.

*Баскаков, 96-98; Halıkov, 45; МЭ, 229; Подмосковье, 383*

**Deden**ovo (Деденово) – Moskva vilayətində (Dmitrievski ray.) qəsəbə. Xan Tudan (Tudakan) 1294-cü ildə Qızıl Ordanın Moskvada səlahiyyətli səfiri idi. 1330-cu ildə Rusda fəaliyyətə başlayan nəsil 15-ci əsrdən Dudenev, sonralarsa Dedenov yazdırdılar. Dedenov soyadının *dədə, ata; mövla, çələbi; dərviş piri* mənaları məlumdur.

*Веселовский, 93-94; Баскаков, 108; Halıkov,45*

**Denej**kino (Денежкино) – Moskva altında (İstra ray.) kənd. Denejka adı ilə - Olyoşa Denejkin (1498) bağlıdır.

**Denej**nikovo (Денежкино) – Moskva vilayətində (Ramen ray. daxildir) kənd. 1577-ci ildə QK-da Denejnik, 1503-cü ildə Denejnikov soyadları qeyd olunmuşdur. Soyadı əsasında Türk mənşəli *deneq, denqi, denejka* sözü durur. Moskva vilayəti ilə bərabər Sverdlov vil. kənd adı.

**Denej**niy küçəsi (Денежный пер.) – Moskvada küçə. İndi Xamovniki və Arbat ərazilərindən keçir. Küçə 17-ci əsrdə mövcud olan Dövlətdə monet "sikkə" zərb edən sənətkarların yaşadıqları məhəllələrə görə adlanmışdı.

*Веселовский, 94; Поспелов, 228; Сытин 174; Т. Москвы, 29*

**Derbene**vskaya sahili (Дербеневская набережная) – 19-cu əsrdə Derben sahil küçəsi adı ilə əlaqədar adlanmışdır.

**Derbene**vskaya (ул. Дербеневская) – Moskvada caddə. Derben ərazisində salınmışdır; 14-cü əsrdən adı məlumdur.

Çox güman ki, eyniadlı caddə, sahil və küçə adları dalan, dar küçə, keçid mənasındakı dərbən~dərbənd sözündəndir. Derbenevka adına sahə adı olaraq 14-cü əsrdə yazılı qaynaqlarda qeydə alınmışdır. 1580-ci ildə Menşik Derbenev dyak (saray dəftərxnası müdiri); Derbenev Bay-toy İvanoviç məlumdur (1616)

*Веселовский, 94; Т. Москвы, 29; МЭ, 237*

**Div**ovo (Дивово) – Moskva vilayətində (S.Posad ray.) kənd və stansiya adı; Div adı ilə bağlıdır <Div~dev - türk xalqları nağıllarında nəhəng varlıq; mifoloji obraz; təpəgöz. "İqor alayı haqqında dastan"da işlənən türk sözlərindəndir. Türk əsilli rus soyadlarındandır. Bures Divov (1465) məlumdur. Divovo adında Ryazanda iki kənd vardır.

*Радлов, 3. 1778, 1692; Веселовский, 96; Баскаков, ТСЛ, 105, 139, 146; Шипова, 120*

**Dudak**ovo (Дудаково) – Tver vil. kənd. Türk dillərində doydaq, doğdak, toğdak, dudak. Rus dilində drofa, şivə ağızlarında dudak. Kəndin adı Türk mənşəli rus soyadı Dudakov familiyalı şəxslə bağlıdır.

*Радлов, 3. 1793; Даль, 1. 500; Фасмер, 1.150*

**Dudino** (Дудино) – Moskva vilayətində (Krasnoqor və Serebryaniy prud ray.) kənd. Türk əsilli Duda (15-ci əsr) ailəsi sonralar Dudin adlanıb. Duda, Dudin soyadı qamışdan və ya ağac budağından hazırlanan musiqi aləti olan "dudka" tütək sözündəndir. Türk dillərində *düdük, tutuk, tutək, tutik, tütük* şəkillərindədir. Mərkəzi Rusiyada – Voloqda, İvanov, Kaluqa, Kirov, Kostroma, Perm, Smolensk, Tver, habelə Pskov, Arxangelsk vil. kənd.

*Радлов, 3. 1811, 1572, 1574, Веселовский, 103; Даль, 1. 499; Фасмер, 1. 550; Шипова, 128*





**Dudk**ino (Дудкино) – Moskva vilayətində (Novomoskovskiy ray.) kənd; Kiyev şosesi istiqamətində yerləşir. Dudka Fedor Dmitriyeviç Zaytsev 15-ci əsrin başlarında yaşamışdır. Dudka, Dudıkin rus soyadlarının əsasında Türk dillərində *dudka, tütək, tütük, tütək* qarğıdan hazırlanmış xalq musiqi aləti adı durur. Rus dilində türkcədən keçmiş *duda, dudka* (ədəbi və məhəlli dildə) işlənir.+kin rus dili mənsubiyyət şəkilçisi (soyadı düzəldir) +o məntəqə adları düzəldir. Vladimir, Voloqda, İvanov, Kostrama, Nijeqorod, Pskov, Rostov, Ryazan, Tver, Smolensk, Tula vilayətlərində kənd.

*Bax: Dudino məqaləsinə*

**Duras**ovo (Дурасово) – Moskva vilayətində kənd; Klin ray. daxildir. Kənd sahibinin adıyla yaranmışdır. Soyadı əvvəl Duras, Kirinbey Duras, Şandan Duras (1545) kimi istifadə olunmuşdur. Ruslan Durasov (1556) məlumdur. Vladimir, Voloqda, Tula, Kostrama, Yaroslav vil. kənd.

*Веселовский, 104, 140; Поспелов, 239*

**Duşen**ovo (Душеново) – Şelkovski ray. kənd. 1377-ci ildən məlumdur; 1574-cü ildə Duşenoe işlənirdi. M.Baev kəndin adının tatar sözü döşəmə~duşeme "*döşəmə yol*" sözü ilə bağlılığını göstərək kəndin bataqlıqlarla əhatələndiyini və bura gələn yolun möhkəm ağac gövdələrindən döşəndiyini qeyd edirdi.[37]

**Ediqe**evo və ya **Qide**evo (Едигеево, Гидеево) – Moskva vilayətində kənd. Qızıl Orda xanı Edigeyin (1352-1419) Noqay

[37] Баев М.С. Вторичное открытие села Гребнева, Москва, 2002, s. 38

ordasının banisi (15-ci əsrin başlanğıcında) – o knyaz Yusupovların və Urusovların ulu babasıdır. Çar xidmətinə girmiş; Moskvaaltında böyük torpaq sahibi idi. Kənd onun adıyla Edigeevo adlanmiş, hazırda Gideevo şəklinə düşmüşdür. İvan Yakovleviç Edigeev (1554); Avraam və Roman Postnik Edigeev (1565) məlumdur. Vladimir vil. bu adda kənd var.

*Веселовский, 107; Halıkov, 46; TƏR, 215*

**Ekimatovo** (Екиматово) – Moskvaaltı kənd (Stupin ray.); böyük knyaz İvan Vasilyeviçin fərmanında (1486) Hekimatov keçir.

*Поспелов, 243*

**Eqan**ovo (Еганово) – Moskvaaltında kənd (Ramensk və Stupin ray.) Paxra çayının Moskva çayına qovuşduğu yerdədir.

**Eqan**ovo (Еганово) – Dəmiryolu qovşağında Stupino kəndi ərazisində stansiya.

**Eqan**ov nohuru (пруд Еганова) – Eqanovo kəndi ərazisindədir.

1577-ci ildə QK-da Yaqanovo, 1862-ci ildən sonra Eqanovo göstərilir. Eqanov Danilo Tatarov 1596-cı ildə qeydə alınmış; Yeqanov, Yaqanov Türk əsilli rus familiyalarıdır. Yegan~İğan Xarəzmşahlarda saray titulu olmuşdur. Voloqda, Orenburq vilayətlərində kənd adı.

*Поспелов, 172; Atalay, 30, 126*

**Elag**ino (Елагино) – Moskva vilayətində (Naro-Fom. ray.) 2 kənd. Elağa adındandır (1491). Bu addan Elagin soyadı yaranmış, Elagin Falalay (15), Saltanak Elagin 1547-ci ildə qeyd olunmuşdur. Tulada qəsəbə.

*Веселовский, 107; Поспелов, 243; Ведина, 288*





**Elan**skaya (Еланская) Moskvanın mərkəzində – Xamovnikidə caddə; elan, alan~yalan "*meşədə tala, örüş, açıqlıq sahə*"; general Elanski Nikolay Nikolayeviçin şərəfinə adlanmışdır (1965) Rostov vil. bağlı eyni adlı stanitsa vardır.

*Радлов, 3. 157; Фасмер, 2.13; МЭ, 255*

**Elçan**inovo (Елчаниново) – Yaroslav vil. (Qavrilo-Yamski r.) kənd. Kəndin adının bağlı olduğu Elçaninovların nəsil başçıları olan Alendrok Polşadan gəlib böyük knyaz Vasili Vasiliyeviçə yaxınlaşır. Onun oğulları 1476-cı ildə çar tərəfindən torpaqla mükafatlandırılır. Alendrok adını Baskakov türkcə alın və dırık "alınlık, maska" sözüylə bağlı izah edir, soyadının türkcə olub elçi sözündən yarandığını qeyd edir. Alendrok Polşada xidmət edən türklərdən idi; soyadını da görünür ki, peşəsi ilə bağlı qazanmışdı.

*Баскаков, 151,152; Halıkov, 47*

**Eldige**evo//**Eld**ino (Елдигеево. Елдино) – Moskva vilayətində (Солнечногорск рау.) kənd. Bu kənd XV əsrdə xaçlanmış El Tekin və ya İl Tekin titulu daşıyan bir əsilzadə tatara mənsub olmuşdur.[38] Veselovski "Toponimlərin tarixə xidməti" məqaləsində göstərirdi ki, kəndin Adı Eldigino, daha doğrusu, Eldegino kimi deyilməlidir. "Eldigin Vyazi çayının üstündə Troitsadan 15 verst aralı yerləşir" deyə yazır. Sonralar "Onomastikon"da isə kəndin adı Eldegino adlanır. Fikrimizcə: El Tekin// İl Tekin adları ilə bağlıdır.

**Eldig**ino (Ельдигино) – Moskva vilayətində (Puşkin ray.) kənd. 1525-ci il fərmanında Şadra Eldeginə məxsus kənd

[38] Веселовский. Топонимия на службе у истории" Ист. Зап., 1945, т. 17, (с.24-52),с.22

olaraq göstərilir. Rus salnamələrində Eldega Batı xanın süfrəçisi kimi göstərilir. 15-16-cı yüzillikdə Eldegin soyadı ilə qeyd olunmuşlar.

*Веселовский, 107, 180; Поспелов, 244; Atalay, 55*

**Emança** (Еманча) – Voronej (əski: Kazar) diyarında kəndləri və çay adı; Don hövzəsinə daxildir. Çayın adı Yamança onun coşqun, aşıb-daşan xarakter əlamətiylə bağlıdır. Rus dilinin ekzotik leksikasında ***yaman*** *"bəd, pis, təhlükəli, müqəssir"* (Rus atalar sözü: "ni yakşi, ni yaman") sözü xüsusi yer tutur.

*Радлов, 3. 301; Даль, 4. 677; Фасмер, 4.556; RTS,96*

**Emino** (Емино) – Moskva vilayətində (Şatura ray. daxildir) kənd. 1637-ci ildən adı çəkilir; Emin adı ilə əlaqədardır. Novqorod minbaşısı Semen Emin (1219) məlumdur. Emin<əmin "*etibarlı, sadiq, dinc, xatircəm, əmanət saxlayan*"; *təhlükəsiz* (yer)

*Поспелов, 244; ƏFL, 185*

**Epançino** (Епанчино) Tula vilayəti, Kamenski rayonda kənd. *Epança, Epaneçka, Epançin* Türk əsilli rus familiyasıdır (XV). Soyadının əsasında üst geyimi epança, yapança "üst qış geyimi" nəzərə gəlir. Tambov, Lipetsk və Tümendə, Omskda kənd.

*Срезн., 1. 828; Даль, 1. 499; Фасмер, 2. 20*

**Erden**evo (Ерденево) – Moskva vilayətində (Ruzsk ray.) kənd. Erden və Erdenevlərlə bağlıdır (16-cı əsr) er~ər "*qəhrəman*, ər"<ərdəm, ərdəmli "*mərd, igid kimsə*". Voloqda, Kaluqa, Ryazan, Yaroslav vil. hər birində bir neçə kəndin adı. Moskvaaltı Ostankinoya qatılmış əski bir kənd adı. Ardanovo Smolensdə kənd.

*Поспелов, 244; Баскаков, ТСЛ, 136*





**Erik**ovo (Ериково) – Moskva vilayətində kənd; Dmitrievsk ray. daxildir. Rus dilində erik "arx" (arık), *xəndək, qanov; yarık, topraqda çat*. Çayların kənarında sucaq yer.

*Радлов, 3. 516; Фасмер, 2.24; Даль, 1.521; 4. 680*

**Er**ino (Ерино) – Moskva vilayətində (Podolsk ray. daxildir) kənd.

**Er**ino qəsəbəsi (пос. Ерино) – Podolsk ray. daxildir. Soyadı XV əsrin başlanğıcında qeydiyyata alınmışdır. Əsli er~ər "*bahadır, batır*". Qıpçaq xanları adının əvvəlində işlənən titul. Tverdə və Ryazanda kənd.

*Bax: Erdenovo məqaləsinə*

**Erişovo** (Еришово) – Moskva altında kənd; Mojaysk ray. daxildir. Eriş adı (er+iş əzizləmə -kiçiltmə şəkilçisi)ilə bağlıdır; Erışev familiyasından düzəlmiş. Əsli er~ər "*bahadır, batır*". Qıpçaq xanları adının əvvəlində işlənən titul: Er Şora (10-11-ci əsr)

*Веселовский, 110; Баскаков, 38; ТЛС, 148; Поспелов, 244*

**Erk**ovo (Ерково) Moskva altında kənd; Erke "*şahzadə*" titulu adı ilə bağlıdır, mənası "*azad,sərbəst, xoşbəxt adam*" deməkdir.

*Веселовский, 109; Поспелов, 244; Türk I.,75*

**Ermol**ovo (Ермолово) – Moskva vilayətidə (Çexov ray. daxildir) kənd. Ermolovların ulu babası Arslan Murza Ermola 1506- cı ildə Qızıl Ordadan Rusa gəlmiş, 1611-ci ildə Arslanın törəməsi Trostim İvanoviç Yermolov Moskva boyarı tituluna layiq görülmüşdü. Ermolov soyadı öz əsasında er~ər+molla və ya ermol~erbol və -ov şəkilçisi saxlamışdır. Voloqda (3),

Yaroslav (3), İvanov, Kaluqa (2), Lipetsk, Pskov (3), Ryazan (2) vilayətlərində hər birində bir neçə kənd.

*Веселовский, 328, 445; Баскаков, 174-175; Halıkov, 47; TƏR, 227-232*

**Esaul**ovo (Есаулово) – Moskvaaltı kənd (Taldom ray. daxildir). Kəndin adı Esaulov soyadından düzəlmişdir. Esaul~yasavul "*qanun keşikçisi*" əmrləri icra etdirən, nəfər, kazak qoşununda hərbi çin (yasa "*qanun*"+vul; müq. et: qara "*baxmaq, nəzarət etmək*"+vul). Krasnoyar və Tümen vil. kənd adı.

*Радлов, 3, 215;Баскаков, 252-253; Шипова, 135*

**Esip**ovo (Есипово) – Moskva altında (Serebryano-Prudskiy və Solneçnoqor. ray.) kəndlər.

Esipov və ya İsupovların ulu babaları Ordadan olub Dmitri Donskoyla müttəfiq olmuşdur. İsupovlar da Arslan murzanın nəvələri olduğundan Arsenyev və Jdanovlara qohum sayılır. Lakin bu soyadı daşıyan digər Türk əsilli İsupovlar da vardır. İsupov soyadı Yusif~Yosip~Yosifdən düzəlmişdir. Esipovo – Vladimir, Voloqda (3), Voronej, İvanov, Kaluqa, Kostroma (2), Pskov (2), Novqorod, Tula (2), Yaroslav (4) vil. hər birində bir neçə kənd.

*Веселовский, 129; Баскаков,107, 114, 187; Halikov, 53*

**Eski Balaklava** (Ст.Балаклавский пр.) – Moskvada prospekt; şəhərin cənub səmtində yerləşir. 1988-ciilədək Köhnə Balaklava şosesi adlanırdı. Əski Balaklava Varşava şosesindən başlayır.[39]

**Eski Basman**naya (ул. Старая Басманная) – Moskvanın mərkəzində yerləşir

[39] Агеева Р.А. и др. Имена московских улиц Москвы, Московский Рабочий, с.354





**Eski Kaçalov** caddəsi (ул. Ст.Качалова) – Moskvanın mərkəzində yerləşir.

**Eski Kaşira** (Старая Кашира) – Moskvaaltı kənd; Stupin ray.daxildir

Bax: Kaşira məqaləsinə

**Eski Tolmaç** (ул. Старая Толмачевская) – Moskvada caddə. Moskva çayı sahilində Böyük Tatar küçəsindən başlayır; 14-cü əsdən məlumdur.[40]

**Fərqanə** (ул. Ферганская) küçə akad. Skryabin və Fərqanə keçidi arasında yerləşir. Ryazan və Volqoqrad caddələrinə paraleldir. Fərqanə Mərkəzi Asiyada – Özbəkistanla Qırğızıstan arasında Fərqanə vadisi adından (1968)

**Fryaz**evo (Фрязино) – Moskvaaltı kənd (Noginsk ray. daxildir) və Dəmir yolu stansiyası (1879)

**Fryaz**ino kəndləri (Фрязино) – Mıtışi ray. 1573-cü ildən rəsmi qaynaqlarda rast gəlinir.

Moskvadan 30 km. aralidakı bir məsafədə yerləşən və Bronnitsa yolu üzərindəki Fryazino kəndinin və digər kəndin adı rus dilində işlənən Türk sözü feryazeya – fərəcə sözündəndir; 1584-cü ilə aid sənədlərdə Fryazinonun toxuculuq manufakturaları ilə məşhur olduğu göstərilir. Bu adla bağlı Moskva altında daha iki kənd – Şerenka çayı üstündə Fryanovo və Moskvaya daha yaxın olan Frenovo vardır.Vaxtilə bu kəndlərdə üst geyimi istehsalı və ticarəti ilə məşğul olan tatarlar yaşayırdılar. Hər üç kəndin adı – Fryazino, Frenovo, Fryanovo rus dilindəki türk sözü feryaz (əsli fərəcə,"*ferace*") adının get-gedə təhrif olunaraq dəyişən variantıdır.[41]

*Подмосковье, 387; Поспелов, 532; Т. Москвы, 32.*

**Gireevo** (Гиреево) Moskva altında kənd olmuş, 16-cı əsrdən məlumdur. Giray~girey titul; yüksək xan, hakim rütbəsi.

[40] Агеева Р.А. и др. Имена московских улиц Москвы, Московский Рабочий, с.354

[41] Древняя одежда народов Восточной Европы, М., 1986, с.75,78.

Ad, kəndin vaxtilə Böyük Orda xanədanı üzvlərinə məxsus olduğunu göstərməkdədir. Kırım xanları girey~geray ünvanı daşıyırdılar. Kənd 1960- cı illərdən Moskva şəhər ərazilərinə daxil edilmişdir. Kaluqa vil. kənd.

*Веселовский, 78; Поспелов, 244; Баскаков, 245; Halıkov, 48*

Novo-**Gireev şossesi** (Ново-Гиреев) – Moskvadan eyniadlı qəsəbəyə gedən yol.

Novo-**Gireevo** (Ново-Гиреево) qəsəbəsi– Moskva altında kənd. Əvvəllər Gireevo adlanırdı.

Novo– **Gireevo** dəmiryolu stansiyası (Ново-Гиреево) – Gireevo kəndi yaxınlığında 19-cu əsrdə meydana gəlmişdir.

*Bax: Gireevo məq.*

**Xabar**ov (ул.Хабарова) küçəsi (1989) – Moskvada onun şərq səmtində Qalyanov ərazisində yerləşir Xabarov şəhəri və diyarı 17-ci əsrdə bu yerləri istila etmiş kazak Erofey Xabarovun xatirəsinə qoyulmuşdur.

**Xabarovka** (Хабаровка) – Mərkəzi Rusiya ərazilərində, Orlov vil. kənd; Mtsensk ray. daxildir.

Rus dilində xəbər "xabar" sözü xoş bilgi, uğurlu məlumat səciyyəsində istifadə edilir. Bunlarla bərabər müjdə, muştuluq hədiyyəsi, bəxşiş mənaları da qazanmışdır.

*Радлов, 2. 1693; Фасмер, 4.214; RTS, 73 Ведина, 883*

**Xamov**niki (Хамовническая ул.) – Küçə Moskvanın mərkəzində, Frunze və Novodeviçi sahil küçələri arasında yerləşir.

**Xamov**niçeskie kazarması (Xamovnik qışlası) – Xamovniki məhəlləsində yerləşdiyindən belə adlanır.

17-ci əsrdə böyük tarixi məhəllə. Moskvanın cənub-qərb hissəsində yerləşən Xamovnaya Slabodası adından; burada





toxucular yaşayırdı, slabodanın (məhəllənin) adı onların hazırladığı xamovnoe "ağ parça" (xamovnoe) adından götürülmüşdü. Moskvanın toxuculuq mərkəzi idi. Xamovniki xaman hamayın~hümayün "ağ pambıq parça" sözü ilə əlaqədardır.

*МЭ, 635; Т. Москвы, 34; МЭ, 635-636; Долгоруков, 84*

**Xan**evo (Ханево) – Mojaysk, Volokolam ray. aid 2 kənd. 18-ci əsrə aid yerölçmə sənədlərində qeyd edilmişdir; Xanev, Xanya (1539), Xankin soyadları müşahidə olunur. Soyadının əsasında bir çox Şərq ölkələri hakimi, monax titulu, hökmdar mənasında işlənən xan sözü durur. Ukraynada Kiyev yaxınlığında qədim **Kan**ev şəhəri. Pskov, Ryazan, Tula vil. **Xan**ino kəndi "xan" titulu ilə bağlıdır.

*Радлов, 4. 1494, 2.1662; Веселовский, 336; Шипова, 53, 361; Поспелов, 534; Ведина, 887*

**Xapil**ovskiy (Хапиловский пруд) irmağ və gölü; Xapilov kəndi; əvvəl Xapilov (Hapilov ~Habilov) adlanırdı. 18-ci əsrdə burada Preobrajensk kilsəsi tikilməklə kəndin adı da dəyişdirilmişdir. İndi ərazidə Xapilov küçəsi adında saxlanılmışdır. Xapilov – Smolensk, Tula vil. kənd

*Сытин, 210*

**Xatın** (Хатунь) – Lopasna çayı üstündə qədim Xatın kəndi (XI əsrdən məlumdur) Ryazan knyazlığının hüdudunda yerləşən sonuncu kənd idi. XIV əsrdən isə artıq Moskva dövlətinə qatılmışdır.

**Xatun** (Хатунь) – Moskvaya daxil olan Kolomna ray. kənd. Xatunovların kəndi. Xatunski Stepan Andreyeviçə məxsus idi (XVI).

**Xatun** (Хатунь) – Moskva vilayətində (Stupin ray.) kənd Rusiya coğrafiyasında Xatun, Xatın (Xotin) yer adlarına rast

gəlinir. Türk dillərində *xatun* (xadın) *xanım, banu, bəyim, bikə* kimi qadına verilən şərəfli ad. Xatun (Katun) hazırda Türk əsilli rus familiyası: Katuna, Katunya, Katunin. 15-ci əsrdə yazılı qaynaqlarda qeydə alınmışdı. Smolenskdə Xatun kəndi; Tula vilayətində Xatunka adlı 2 kənd vardır. Ukaynada şəhər.

*Веселовский, 136, 342; Подмосковье, 35; Поспелов, 535; ТК, 115-116*

**Xivə** (ул. Хива) – Moskvada caddə və küçə. 18-ci əsrədək buradakı böyük məhəllələrə Xivədən gələn tacirlər və diplomatik heyətlər düşürdülər.

*Сытин, 115; Баскаков, ТНМУ, 29*

**Xludov** irmaq və gölü (ручей, озеро Хлудово) – Moskvanın şərqində yerləşir. Şübhəsiz, familiya ilə əlaqədardır. Xalid, xalidə>xüld "*əbədi, daimi*"sözündən. Penza dəmiryolunda stansiya, Yaroslav vil. kənd.

**Xomut**ovka çayı (рeка Хомутовка ) – Moskva vil. çay; Lusyanka çayına axır, Mojaysk ray.ərazisindən axır. Smolensk və Saxalin vil. eyniadlı çay.

**Xomut**ovo (Хомутово) – Balaşixada məhəllələr; mikrorayon

**Xomut**ovo (Хомутово) – Moskva vilayətində Stupinsk ray. kənd; 1336-cı ilə dair İvan Kalita fərmanı üzrə Makov Stan nahiyəsinə daxil idi. Xomutov İvan Feodoroviçin (1522-də ölm.) mülk torpaqları idi.

**Xomut**ov **yolu** (Хомутовская дорога) – Moskvanın şimal-şərq istiqamətində əlaqələndirici tarixi yol. İvan Kalita (1336) və Dmitri Donskoy (1382) fərmanlarında bu yol qeyd olunur.

**Xomut**ovskiy (Хомутовский переулок) – Böyük Xomutovski küçəsi öz adını Xomutovka çayı adından almışdır.

Xomutov soyadının əsasında duran xamut qədim rus dilində işlənən Türk (*kamıt, komət*, *xamut*) sözlərindəndir. Voloqda,





İvanov, Kostroma, Nijeqorod, Orlov, Pskov, Yaroslav, Tver, Voronej vil. kənd.

*Радлов 2, 661, 669; Веселовский, 341; Шипова, 265-266; Т. Москвы, 50; Сытин, 159; Вагнер, 115*

**Xoruqv**ino (Хоругвино) – Moskva altında kənd (Solneçnoqor ray.) Kəndin adının əsasında xoruqv "bayraq" sözü duran Xoruqviy soyadından yaranmışdır. Xoruqv Rus dilindəki qədim türkizmlərdəndir; "İqor alayı haqqında dastan"da işlənən Türk sözlərindəndir.

*Баскаков, ТЛС, 105, 163; Фасмер, 4. 268; 269*

**Xotun**ets(Хотунецкий) – Orlov vilayətində şəhər.

Bax: Xatun məqaləsinə.

**İbrahimov** caddəsi (ул. Ибрагимова) – Sovet partiya və təsərrüfat rəhbəri İbrahimov Şahmərdanın şərəfinə adlanmışdır (1957)Türk-ərəb şəxs adından törəyən İbrahimov soyadındandır.

*Баскаков, ТНМУ, 24; МЭ, 279*

**İçka** (Ичка) çayı– Moskva altında, onun şimal-şərqində çay; Yauza çayının sol qolu. İçka – adın ika, ik adından təhrif edilməklə yarandığı söylənilir. Bu adda çaylara Ural, Qərbi Sibir və başqa yerlərdə rast gəlinir.

*Вагнер, 157; МЭ, 285-286; Ведина, 382*

**İkşa** caddəsi (ул. Икша) – Moskva vilayətində qəsəbə (1939); Dmitrov rayonuna daxildiir. İkşa çayı üzərində yerləşdiyindən çayın adı ilə adlanmışdır. İkşa dəmiryolu stansiyasının adı da yaxınlıqdakı qəsəbənin adındandır. Kama çayının qolu İk çayı da var (Tatarıstan və Başqırdıstan ərazilərindən

axır). Qədim türk dillərində ik~iq "ax~ak; axan su" anlamındadır. Tobol çayının da bir qolu (Kurgan vil.) İk çayı adlanır.

**İkşa** çayı (Река Икша) – Moskva vilayətində çay; Volquşa çayının qolu.

*Вагнер, 157*

**İqar** küçəsi (ул. Игара) – Moskvanın şimal qismində, Kolsk küçəsi ilə Kölgəli (Tenistiy küçələri arasındadır.) Sibirin İqar şəhərinin (Krasnoyar vil. Turuxan ray.) və İqar çayının (Yenisey çayının qolu) xatirəsinə qoyulmuşdur (1964).

**İlim**skaya (Илимская ул.) – caddə Moskvanın şimal səmtində yerləşir. 1965-ci ildə Sibirdə Anqaranın qollarından olan İlim çayı xatirəsinə adlandırılmışdır (1965)

**İlmes** gölü (Илмес озеро) – Moskva vilayəti, Şatura ray. ərazisində göl. İlmes, yılmaz "*heç bir şeydən geri durlmayan, qorxub çəkinməyən, usanıb yorulmayan* (kimsə); *nəhəng, güclü*" deməkdir.

**İlyas**ovo (Ильясово) Moskvaaltı (Luxovitski ray.) kənd; əsasında İlyas adı dayanır.

**İpatovka küçə** (Ипатовка) – Moskvanın mərkəzində tarixi Kitay qorod ərazilərindədir. XX əsrin əvvəllərində şəhərə daxil edilən İpatovka kəndinin adıyla adlanmış. Baskakov Ərəb alimi Məsudiyə və Bizans salnaməçisi Baqryanorodıya istinadən İpay~İpat səkkiz Peçeneq tayfaları xaqanlarından biri olaraq göstərir. İpatov Türk əsilli rus familiyalarındandır.

*Баскаков,ТЛС, 49, 56; Т. Москвы, 70*

**İrkut**skaya (ул. Иркутская ) – Moskvada küçə; 1968-ci ildə İrkut çay və şəhər adı xatirəsinə qoyulmuşdur. Şəhərin şərqində– Qolyanovo ərazisindədir; Amur küçəsindən başlanğıcını götürür.

**İrtış** 1-ci və 2-ci keçid (1-ый Иртышский и 2-ой Иртышский проезд) – Moskvada küçələr. **İrtış** – Qazaxıstanda çay;





öz mənbəyini Monqol Altayı dağlarından götürür və bu ərazilərdə Kara İrtış adlanır. İrtış Türk dillərində artış, ertiş, irtış "*yetmək, çatmaq, axmaq*" sözündəndir. 1965-ci ildən küçə adı olaraq qoyulmuşdur

*БСЭ т.10. с.449-450*

**İzmayl** meydanı (Измаиловская площадь) – 1948) Moskvanın şərqində İzmaylovo rayonu ərazisində meydan. Keçmiş İzmaylovo kəndi adıyla adlanmışdır (1930). Kəndin ərazisində salınmış - **İzmayılov şosesi (Измаиловское шоссе), İzmayıl təpəsi (Измаиловский вал) İzmayl metrostansiyası (Измаиловское метро); İzmayıl** xiyabanı. Moskvanın şərqində prospekt; **İzmaylov küçələri1 1-4** (Измаиловский переулок1-4); **İzmaylov heyvanxanası** (Измаиловский зверинец) **İzmaylovo kəndi** (деревня Измаилово) yaxınlığında çar Alekseyin saxladığı nadir heyvanların mühafizə edildiyi zoopark.

**İzmaylov** bulvarı (Измаиловский бульвар) meşə-park; Moskvanın şərqində bulvar

**İzmaylovka** çayı (река Измаиловка) Moskvanın şimal-şərq istiqamətində Xapilovka çayının qolu.

**İzmaylovo** (Измаилово) – Moskvaaltı (Dmitrovsk və Lenin ray.) qəsəbələri

Boyar İzmaylovların adı Moskvanın gözəl guşələrindən olan İzmaylovo tarixi ərazi adında saxlanılır. Bu səfalı və varlı kənd (kənd İzmaylovo adı ilə ilk dəfə 1389-cu ilə aid sənədlərdə rastlanır).

Soyad Türk əsilli rus familiyalarındandır. İzmail<Ismayıl adı türk xalqlarında, eləcə də islam dinə etiqad edən bütün xalqlar arasında geniş yayılmışdır. İsmayıl (*Allah eşidəndir*)+ov rus dili şəkilçisindən yaranmışdır.

*Веселовский, 127; Баскаков, 93; Сытин, 36, 93;*
*Т. Москвы, 125-127; Поспелов, 579;*
*Halıkov, 54; Долгоруков, 51*

**İzumrudn**aya (Изумрудная ул.) – caddə Moskvanın şimal-şərq qismində yerləşir; öz adını yaşıllıqlarının çoxluğuna görə almışdır (1964)

**İzumrudn**ıy (Изумрудный проезд) –Moskvanın Mıtışi ərazisində keçid-küçə; adı səfalı olduğuna görə verilmişdir.

**İzumrud** (əslən ərəbcədən) parlaq yaşıl rəngli qiymətli daş zümrüt. Rus dilində həm izumrudnıy, həm də familiya kimi – İzumrudov istifadə olunur.

*Радлов, 4. 924; Фасмер, 2.123, 124; Шипова, 141*

**İzyum**skaya (Изюмская ул.) – Moskvada küçə; izyum< türkcə:üzüm; Rus dilində qurudulmuş üzüm mənasında geniş istifadə olunur.[42]

İzyum caddəsi Moskvanın cənub bölgəsində yerləşir. Küçə Ukraynanın İzyum şəhəri adına adlandırılmışdır.

*Радлов, 3. 621; Даль, 2.39; Фасмер, 2.123, 124; Шипова, 141*

**İvaş**evo (Ивашево) – Moskva vilayətində kənd; Noginski rayonuna daxildir.

**İvaş**evo (Ивашево) – Moskvaaltı Dmitrievsk rayonuna daxildir. İvaşev Afanasi 1569, İvaşev Urvana 1578-84-də Moskvada qeydə alınmışdır.

**İvaş**kovo (Ивашково) – Kənd Moskvaaltı Şaxovski rayonuna daxildir. 1521-ci ildə sənədlərdə adı keçir. Knyaz Şaxovskilərin torpağında yerləşirdi. 17-ci əsrdən Tarbeyev qardaşlarının mülkü idi. İvaş~İbaş>İbrahim adının qısaldılmış şəkli; tatar mənşəlidir. Ryazan, Tver, Perm, Bryanck, İvanov, Pskov, Smolensk vilayətlərində də İvaşovo, İvaşkovo yaşayış məntəqəsi var.

*Веселовский, 126*

[42] Жарымбетов А. Тюркизмы в русских названиях фруктовых деревьев и кустарников – Советская тюркология, 1974, с.39





**Jdan**ovo (Жданово) – Moskva vilayətində (Volokolamsk ray. kənd. Jdan türk (tatar) adından formalaşmışdır.

**Jdan**ovskaya (Ждановская) – Moskva vilayətində (Ramensk ray.) kənd. İlk əvvəl Jdanskaya olmuş. Jdanovlar soyunun ulu babası Oslan Murza Qızıl Ordadan çıxıb Böyük kn. Dmitri Donskoya qoşulmuş və torpaq mülkləri ilə mükafatlandırılmışdı. Jdan >vicdan "*əxlaqi meyar, vəcd, sevgi*" deməkdir. Jdan ünvanı Türk-fars *vicdan* – "*dindar, məhbub*" sözü ilə bağlıdır. Soyadı 15-17-ci əsrlərdə Rusiyada geniş yayılmışdı. Bryansk, Kaluqa, Kirov, Kostroma, Nijeqorod, Orlov, Penza, Pskov, Ryazan, Smolensk, Tver, Tula, Yaroslav vil. və Peterburq, Saratov, Rostov, Orenburq, Kurqan, Altay, Perm ölkəsində kənd.

*Веселовский, 111; Баскаков, 149, 150; Halıkov, 54*

**Jeqal**ovo (Жегалово) – Moskva vilayətində (Şelkovsk ray) kənd; 1559-cu ildən Karamışevlərin, 1586-cı ildən isə Türk əsilli rus soyadı Jeqalov familiyası ilə bağlıdır. Türk dillərində (tatar, çuvaş, başqurd) jequla~jeqal "*gicirtikan*", habelə rus dialekt ağızlarında *araqarışdıran, dalaşqan, cığal* mənasını bildirməklə rus məhəlli dilində də ad və ləqəb kimi istifadə olunmaqdadır; Jequl, Jiqul Volqa çayı sahilində (Samara vilayəti ərazisində) dağ adı.

*Веселовский, 111; КГЭ, 2,24*
*Бахтин, 63; Поспелов, 247; RTS, 38, 289*

**Jequl**ı (Жегули) – Moskvaaltında (Serebryano-Prudskiy ray.) kənd. Jiqul dağlarına görə qoyulmuşdur. Kalininqrad, Pskov, Samara, Tümen vilayətində kənd.

Bax "Jeqalovo" məqaləsinə.

*Топонимия Москвы, 58.*

**Jemçuq xiyabanı** (Аллея Жемчуговой) – Moskvanın şərqində kücə. Xiyaban Şeremetyevlərin Kuskovo malikanəsinə qədər uzanır.

Rus dilində jemçuq "*inci*"; qiymətli sədəf əşya, bəzək məmulatı, əski türkcədə yencü, yincu. Qədim rus dilində işlənmiş türk sözlərindəndir. Çox güman ki, qədim Volqa bulqarlarında (müasir çuvaşlar) dilindəki jinjü rus dilindəki jemçuq üçün mənbə olmuşdur.

*Радлов, 3. 334; 514; Баскаков, ТЛС, 105,163,171; Фасмер, 2.46; Шипова, 137*

**Jiqalovo** (Жигалово) – Moskvaaltında (Solneçnoqor r.) kənd. Jiqalo adından; Jiqalov soyadı qeydə alınmışdır (1606). Smolensk, İrkutsk vil. kənd

*Веселовский, 114; Поспелов, 247*
*Bax: Jeqalovo məq.*

**Jiqan**ovo (Жиганово) – Moskvaaltında (Ruzsk ray.) kənd. Jiqan adından (1545); jiqan~ciqan türk dillərində lüt, kasıb adam. Rus dili dialektlərində jiqan "*oğru, avara, dələduz, sırtıq adam*" deməkdir.[43] Perm ölkəsində kənd, Komi diyarında göl adı.

*Веселовский, 114; Поспелов, 257; RTS, 38,43; Ведина, 317*

**Jiqul**evskaya (Жигулевская ул.) – Moskvanın cənub-şərqində, Kuzminka qismindədir. Caddə öz adını Volqa üzərindəki Jiquli dağlarından almışdır (1964)

*Баскаков, ТНМУ,28; Т. Москвы, 58*
*Bax: Jeqalovo məqaləsinə*

**Kaban**ka (река Кабанка) – Moskvanın mərkəzində çay; Precnaya çayının sol qolu.

[43] **Türk sözlərinin rus dilində mövqeyi: Xalq şivələrində türkcədən keçmiş sözlər-** Pedaqoji Universitetin Xəbərləri (Humanitar və Təbiət elmləri ser.), Bakı, 2011, №1; s. 171





**Kaban**ovo (Кабаново) Moskva vilayətində kəndlər; Orexovo-Zuyevo və Noginsk rayonuna daxildir.

**Kaban**ovo (ст. Кабанова) stansiyası – Moskva dəmir yol qovşağında stansiya

**Kaban**ovskoe qora "dağ" (Кабановская гора) – Moskva altında dağ; Orexovo-Zuyevo rayonu ərazisindədir.

**Kaban**ovskoe (Кабановское озеро) – Moskva altında göl. Orexovo-Zuyevo rayonu ərazisindədir.

Kaban adı ilə əlaqədardır. Türk dillərində olduğu kimi daxil olduğu rus dilində də kaban sözü bir sıra mənalarda işlənilir: 1- vəhşi donuz; qaban; 2- ot tayası; qotman; 3- nəyinsə iri, nəhəng hissəsi; böyük çəkiyə və kütləyə malik hissə. Urus Apanın oğlu Koban (1190)<qopan caqatayca "*böyük, yüksək, müzəffər, sağlam*" Mənşəcə qaba~xaba sözü ilə əlaqədardır. Kaban İvan (1627), Kabanov (1695) məlumdur. İvanov, Kemerovo, Kostroma, Ryazan, Orlov, Yaroslav, Tver, Kirov və Kaliningrad, Novosibirsk, Çelyabinsk vilayətlərində, Mordoviya, Udmurtiya, Çuvaşıstan ölkələrində kənd. Kazanda göl, Çelyabinskdə, Krasnodarda çay, Stavropol vil. dağ adı.

*Веселовский, 129; Баскаков, ТЛС,76,85; Шипова, 146; Поспелов, 270*

**Kabluçki** (Каблучки) – Moskva vilayətində Oka çayı yaxınlığında qəsəbə; Ozersk ray. daxildir

**Kabluk**ovo (Каблуково) – Moskva vilayətində kənd (Şelkovsk ray.); saray adamı Toporkov Fyodor Klobukun mülkü olmuşdur (1460). Boyar Kablukovların (Baskakova görə soyadı kab+luk, yəni kab sözündən yaranmışdır) Rus hökmdarından torpaqla mükafatlandırılmaları barədə rəsmi qeydlər var. Vladimir, İvanov, Tver (2), Yaroslav (3), Smolensk (2), Nijeqorod vilayətlərində kənd.

*Веселовский, 130, 320; Поспелов, 270; Баскаков, 109,110; Halıkov,55*

**Kaçalin** (ул. Качалина) – Moskvada küçə; XIX əsrdən məlumdur; Moskvanın mərkəzində -Taqankada yerləşir, buradakı ev sahibinin adı ilə adlanmışdır.

**Kaçalov küçəsi** (ул. Качалова) – Moskvada küçə; Kaçalov soyadı ilə bağlıdır. Küçə rus sovet aktyoru Vasili İvanoviç Kaçalovun (1875-1948) şərəfinə qoyulmuşdur. Moskvada Pskovun səlahiyyətli nümayəndəsi Xariton Kaçalov (1478), Orşa altında əsir alınan (1514) Nikita Yakovlev Kaçal məlumdur.

Staro **Kaçal**ovskaya (ул. Ст. Качаловская ул.) caddə. Əski Kaçalov kəndi ərazisinin Moskvaya birləşməsindən sonra yaranmış şəhər küçəsi (1986).

Kaçalov soyadı türk sözü "keçəl~ kaçal"dan və rus dili – in,-ov şəkilçilərinin iştirakı ilə yaranmışdır. *Kaçalkin və Kaçalov, Kaçalo, Kaçalin, Kaçalinskiy* soyadları da həmin əsasda düzəldilmişdir. Rusiyada zadəgan nəsli. Rus xalq ağızlarında kaçal "keçəl, daz (adam)" mənalarında mövcuddur. Məcazi mənasınca kaçala "*əyyaş, əhli-keyf*" deməkdir.

*Веселовский, 137; Баскаков, 109-110; ЭС, XIV s. 807; Сытин,146; Поспелов, 580; Ведина, 406*

**Kadaş**evo (Кадашево) – Ryazan və Ulyanov vilayətində, Mordoviya, Mari Eldə kənd

**Kadaş**evskaya (ул. Кадашевская) sahil küçəsi; bulvar (Кадашевская набережная) – bu küçələr Moskvanın mərkəzində – Yakimankada yerləşir

**Kadaş**evskie (Кадашевские 1,2,3 переулок) Kadaşev küçələri; döngəsi

**Kadaş**ev kilsəsi (Кадашевская церковь) – Moskvada Kadaşev məhəllələrində məbəd (1695)

**Kadaş**evo saray slabodası olmuş; 1504-cü ildə ilk dəfə adı çəkilir. Saraya məhrabalar, süfrələr, yaylıqlar, parçalar və s. toxuculuq məmulatları hazırlayırdılar. 18-ci əsrin başlanğıcından öz əhəmiyyətini itirir və şəhərə qarışır.





Soyadı kadaş~kodaş "*dost, yar, kardaş*" sözündən və ya koldaş "*yardımçı, məsləkdaş*" sözlərindən yarana bilər. Rus familiyaları içərisində Kadış (1545), Teleş Kadışev (1533) görünməklə Kadışevlər Tulada (1587), Arzamasda (1613) qeydə alınmış.

*Радлов, 2.315; Веселовский, 130; Даль, 2.130; МЭ, 287; Фасмер, 2. 275; Долгоруков, 83; Горбаневский, 35*

**Kadır**ov küçəsi (ул. Кадырова) – Moskvanın cənub-qərb hissəsində küçə; Çeçen respublikası prezidenti Axmat Kadırovun şərəfinə qoyulmuşdur (2004). Soyadı öz tarixi və etimolojisi etibarı ilə sufiliyin Kadiriyyə təriqətinin adı ilə bağlıdır.

**Kalança** dalanı (Каланчевский туп.) – Moskvanın mərkəzində kiçik küçə; Kalança caddəsindən başlayır.

**Kalança** yolu (Каланчевская дорога) – Moskvanın mərkəzində yerləşən mühüm magistral yol.

**Kalança** meydanı küçəsi (ул. Каланчевская пл.) – Kalança meydanı kimi caddə özü də Kalança açıqlığının yerində salınmış. Kalança keçidi - şəhərdaxili Krasnoselsk rayonunda Kalança küçəsindən başlanır

**Kalança** meydanı (Каланчевская пл.) – XIX əsrin ortalarında Kalança çölü (*kalança "qalaça"*) açıqlığı deyilən ərazidə meydana gəldiyinə görə belə adlanmışdır. Tarixən bu ərazidə yay ayları hərbi məşqlər – artilleriya təlimi işləri, qışda isə meşə ağacları ticarəti keçirilirdi. Bu çöldə 17-ci əsrdən çarların üzərində hündür qüllə "*kalança*" (qalaça) olan yolüstü sarayı yerləşirdi. Odur ki, açıqlıq da, sonrakı meydan da öz adını həmin addan almış.

**Kalança** (Каланча) Moskvada Kalança ticarət evi; Marinoda restoran-Əyləncə Mərkəzi

*Радлов, 2.224,232; МЭ, 289; Фасмер, 2.165; Баскаков,ТНМУ,28; Долгоруков, 83; Сытин, 142,154*

**Kalaç**evo (Калачево) – Moskvaaltı kənd (Domodedovo ray.) Kənd Kolaçev Mixail soyadındandır; 1485-ci ildə qeyd olunmuşdur. Soyadının əsasında kalaç~kolaç ~qalaç "*ağ çörək*" xüsusi formalarda bişirilən bayram çörəyi dayanır.

**Kalaş**nıy (Калашный пер.) – Moskvanın mərkəzi küçəsi; əhalinin peşə və məşğuliyyəti əks olunan toponimdir. Tarixi Kalaçnıy "*Çörəkçilər*" məhəlləsi; 16-17-ci əsrlərdə çar sarayı çörəkçiləri bu slabodada yaşamışlar. Məhəllənin adı indiki Kalaç (nıy) küçə adında qalmışdır. Kalaç "*çörək, naxışlı bayram çörəyi*" sözündəndir. Kalaçevo – Pskov, Kemerovo, Voloqda, Omsk, Çelyabinsk vil. kənd.

*Срезн.,1, 1249; Сытин, 142; МЭ, 289;*
*Даль, 2.76; Шипова, 153; Т. Москвы, 33;*
*МЭ, 289; Поспелов, 273*

**Kalçuqa** (Калчуга) – Moskvaaltı kənd; (Odintsov ray.)Medvedenka çayının Moskva çayına töküldüyü yerdə hündür sahildə yerləşir. Vladimir vilayətindəki Kolçuqino kəndinin adı da şübhəsiz, həmin türk sözü ilə bağlıdır. Sibirdə Leninsk-Kuznetsk (1922) şəhərinin də ilk adı Kolçuq - kolçuqa "*bazubənd, qolçaq*">qol+cuk olmuşdur. Moskvanın mərkəzində restoran adı.

*Баскаков,ТЛС, 75, 85, 151;*
*Поспелов, 274; ТК, 174-176*

**Kalibr**ovskaya (ул. Калибровская) – Moskvada küçə. Öz adını hərbi zavodun adından almışdır. Əsli kalibra; ərəbcədən türk dillərinə keçmiş kalib "*qəlib*" sözündən Qodovikov küçəsində yerləşir

*Т. Москвы, 27; МЭ, 289*

**Kalitino** (Калитино) Moskvaaltı kənd; Noginsk rayonuna daxildir. Voloqda, Pskov, Yaroslav, Peterburq vil. hər birində bir neçə Kalitino kəndi var.





**Kalit**nikovskoe (Калитниковская площадь) meydan, küçə, keçid, nohur adlarıdır. Moskvanın mərkəzində – Taqanka ərazisində yerləşir.

**Kalit**nikovskoe (Калитниковское кладбища) – Məzarlıq. XVIII əsrdə Moskvanın cənub-şərqində çuma epidemiyası zamanı salınmışdır. Qəbristanlıq öz adını buranın əvvəli Kalitniki yer adından götürmüşdür. Bu ərazilər Böyük kn. İvan Kalitanın mülkü olduğundan onun adını daşıyırdı.

**Kalitin və Kalitnikov** soy adı kalita~kalta sözündən əmələ gəlmişdir. Kalita adı ilk dəfə Kalitanın oğlu Savva İvanova verilmişdi. Kalita soyadı türkcə kalita~kalta "kisə, torba, çanta, bel qayışından asılı torba, pul kisəsi", eləcə də kalitnik "*kalita, dəri çantası ustası*" sözündəndir; kalitnik "*dəri çanta ustası*" (kalita+nik) düzələn soy adı ilə bağlı meydana gəlmişdir. Polyak dilinə də keçmiş, kaletar "*kisə, kəmər*" deməkdir. Bu türk sözü əvvəlcə dəri çanta bağlanan qurşaq mənasını daşıyan etnoqrafik sözdür, rus dilində 1389-cu il fərmanında rast gəlinir.. Moskva böyük knyazı İvan Daniloviç rüşbətxorluğuna görə Kalita ləqəbi daşıyırdı. Rus dilində bununla yanaşı ad, ləqəb və soyadı olaraq işlənmiş (14-cü əsr) Knyaz İvan Kalita (1340-cı ildə ölmüş); Kalita Qridya (1545); Kurdyum Kalitin (1541) məlumdur. Kalita, Kalitin, Kalitnikov Türk mənşəli rus familiyalarıdır.

*Радлов, 2.258; Даль, 2.78; Срезн., 1. 1183;*
*Баскаков, 237; Halıkov, 55; Фасмер, 2.168;*
*МЭ, 291; Поспелов, 579; Веселовский, 132, 172;*
*Сытин, 143, 212*

**Kalqan**ovka (Калгановка) - Orlov vilayətində kənd; Verxovski ray. daxildir.

**Kalqan**ovskaya (Калгановская ул.) slaboda 15 - 17-ci əsrin əvvəllərində meydana gəldi. İzmayılovka kəndi ətrafında salınmış dərman bitkiləri yetişdirilən slaboda adlarındandır (indi Moskvaya daxil olmuş) Kalqan familiyası 1627-ci ildə qeyd

olunmuş. Soyadının əsasında Türk sözü kalqan~kolqan "*məlhəm, dərman bitkisi; kalğan*"; məcazi anlamda "*ağilsiz, səfeh*" sözü durur[44]. Kalqan, Kolqan Türk əsilli rus familiyalarındandır (16 əsr)

*Веселовский, 131; Шипова, 154; Фасмер, 2.163; Подмосковье,160*

**Kalpaçnıy küçəsi** (Колпачный переулок) – Moskvanın mərkəzində tarixi Basman ərazisində küçə. Pokrovkadan Xoxlovkayadək uzanır. Köhnə Moskvada XVII əsrədək yaşamış Kalpaçnaya slabodası var idi; burada baş geyimləri – kalpak və ya kolpak tikən ustalar (*kolpaçniklər*), papaqçılar yaşayardı. İndiki Kolpaçnaya pereulok adı da buradandır.

*Радлов, 2.268, 269; Даль, 2.143; Сытин, 152; Т. Москвы, 37*

**Kalujskoe** (Калужское) – Moskva vilayətində kənd; Mojaysk ray. daxildir. İvan Kaluqa (1621); Minya Kalugin (1606) məlumdur.

**Kaluqa meydanı** (Калужская площадь) – Moskvanın bir neçə küçələrini birləşdirir. 1592-93-cü ildə Kaluqa Qapıları arxasında salınmışdı; 1922-ci ildən Oktyabr meydanı.

Böyük **Kaluqa** küçəsi (ул. Большая Калужская) – 14-cü əsrdə Moskvadan Kaluqaya yol buradan keçirdi. 19-cu əsrdən isə Kaluqa caddə və küçələri meydana gəlir. Lakin 1957-ci ildən Böyük Kaluqa yolu Lenin prospekti adlanmış.

**Kaluqino** (Калугино) – Moskva vilayətində kənd; Serpuxov ray. daxildir. Kaluqa İvan Kaluqa 1621; Minya Kalugin (1606) məlumdur. Kostroma, Tambov, Omsk, Pskov vilayətində və Çuvaşıstanda kənd.

---

[44] Сагитова А.Г. Тюркизмы в названиях предметов домашнего обихода – Автореф. Канд. Фил. Наук. Казан 1992, с.11





**Kaluqa** (ст. Калуга) – Moskvada metro stansiya adı

**Kaluqa Qapıları** (Калужская застава) Moskvanın giriş-çıxış qarovulxanası olmuşdur (1592); 1640-cı ildə taxta qapılar daş qapılarla əvəz olunmuşdu. Qarovulxana ləğv edildikdən sonra meydana qarışmışdı.

Kaluqa türk-monqol mənşəli olub xalqa, kalqa, kalqan, kaluqan, kaluqa "darvaza, sərhəd qapısı" deməkdir. Çox güman ki, burada keçmiş tatar sərhəd postu yerləşirmiş. Kaluqa sözünü müəyyən mənada qala mənasını verən kaluqa "qala qapısı" mənası ilə bağlayırlar. Kaluqa sözü türk-monqol mənşəlidir; xalqa~kalqa~kalqan~kaluqan~kaluqa "darvaza, alaqapı", "*giriş-çıxış qapısı*" (zastava) deməkdir. Görünür, bu yerdə keçmişdə tatar zastavası "*giriş-çıxış qapısı*" yerləşirdi.[45]

Bununla yanaşı kalqa, kaluqa əski türkcə vəliəhd, monqol-tatarlarda titul, şahın (xanın) böyük oğluna verilən "*kalqa*" titulu ilə bağlı da ola bilməsi ehtimalını da nəzərə almaq lazımdır. Şübhəsiz, vəliəhdin, yəni Kalqa Sultanın öz iqamətgahı, malikanəsi, daha doğrusu, özü hakimiyyətdə olandan əvvəl ona hələ şahzadə ikən məxsus olan saraya, mülk şəhərinə də verilə bilərdi.

*Веселовский,132; Сытин,с.114; Поспелов, 274; МЭ, 291*

**Kalyan**ino (Калянино) – Moskva vilayətində (Stupin və Luxovitsk ray. daxildir) kənd.

*Поспелов, 274*

**Kamış**anovskiy (Камышановский) – Voronej vilayətində kənd. Əsasında kamış "bataqlıq və ya sucaq yerlərdə bitən " Türk sözü durur. Orlovda kənd(Kamışi)

*Радлов, 2. 489;2.671; Даль, 2.83; Фасмер, 2. 176;Шипова, 158*

---

[45] Мельхеев М.Н. Географические имена, М. Учпедгиз, 1961, с.41

**Kanatçik**ov caddəsi (ул. Канатчиковская) – Moskvanın Cənub səmtində Donskoy rayonu ərazilərindədir. Öz adını Kanatçikov stansiyası adından almışdır (1990)

**Kanatçik**ov yaylağı (Канатчикова дача) – Moskvanın cənubunda ərazi; Vaxtilə Beketovun mülkü olan bu poetik ərazidə çəmənlik, park, göl, qış bağı yerləşirdi. 19-cu əsrin ortalarında tacir Kanatçikovun bağışladığı yaylaq malikanəsində açılmış psixiatrik xəstəxana; xalq arasında "Канатчикова дача" (*Kanatçikov yaylağı*) adlanmaqdadır. İndi 1 saylı psixiatrik xəstəxana yerləşir. Türk mənşəli rus familiyası "*qanad, kiçik qanad*" ailənin yeni doğulan üzvünə Budaq, Növzat, Növbar, Faiz, Zaid, Aidə qəbilindən verilən addan törəmişdir: kanat+çik+ov

**Kanatçik**ov stansiyası (ст. Канатчикова) Yaylağın yaxınlığında Moskva dəmiryolu dayanacağı vardır. **Kanatçikov keçidi** (Канатчикова проезд).

*МЭ, 293*

**Kana**yevo (Канаево) – Moskva vilayətində kənd; Şaxovski ray. daxildir. Kan~qan<türk. xan<çin. <kuan "*xan, hakim*" və yaşayış məntəqəsi adlarına əlavə edilən – evo şəkilçisi.

*Баскаков, 250-251; Поспелов, 273*

**Kanev Bor** (Канев Бор) – Moskva altında kənd (Kolomna ray. dax.) İvan Kalitanın fərmanında adı çəkilr. Kəndin sahibi Kabardadan çıxmış knyaz Çerkaski olmuşdur

Kan kan~xan; bor "*şam meşəliyi*" Kanev (Xanev) "*xan kəndi*" deməkdir; Kiyev yaxınlığında Kanev şəhəri də həmin anlamdadır.

*Поспелов, 294; ТК, 110-111*

**Kantemir** caddələri (ул. Новая Кантемировская и ул. Старая Кантемировская) – Moskvada Əski və Yeni Kantemir küçələri. Tarixən Moskva altında olmuş Kantemirovka – 1712-ci ildə





I Pyotrun Kantemirə bağışladığı kəndin ərazisində əmələ gələn iki küçənin adı.

**Kantemir** (ст. метро Кантемир) Metro stansiyası. **Kantemirovo** (Кантемирово) Moskvaaltı kənd; Ruzskiy ray.

Türk mənşəli Kantemir və Qantimur rus familiyalarının əsası eynidir: Xan Temir~ Xan Timir>Kantemir. Kan <qan "*hakim; xan*" və temur~timur <temir "*dəmir*" və rus dili şəkilçisinin əlavəsi ilə Kantemirov. Moldav hakimi Xan Temir qədim türk-tatar sülaləsindən çıxmışdı; 1540-cı ildə xristianlığı qəbul etmişdi. Rusiyaya köçən onun nəvəsi Kantemir Dmitri idi. Kantemirovka 1712-ci ildən Dmitri Kantemirin mülkü idi. Voronejdə şəhər.

*Баскаков, 250-251; ТНМУ, 24;*
*TƏR, 56-60*

**Kapan** (Капань) – Moskva vilayətində (Ruzsk və Odintsov ray.) **2** kənd; eyniadlı çayın üstündə yerləşir. 16-cı əsrdən adı çəkilir. Orlov vil. kənd. Kapankin soyadı da vardır (XV ).

**Kapan** (река Капань) Moskva vilayətində çay. Ruzsk, Mojaysk, Odintsov rayonu ərazilərindən axır.

Türk dillərində (Çağatay) *ağır, samballı, çəkili; möhtəşəm, güclü; ölçü, hesablama aləti*. Adətən taxıl ölçməkdən ötrü istifadə edilmiş. Azərbaycanin tarixi Zəngəzur vilayətində Qapan (Qafan) şəhəri adı.

*Радлов, 2.407, 408; Веселовский, 153;*
*Даль, 2.86; Фасмер, 2. 183*

**Kapot** keçidi (Первый Капотнинский проезд и Второй Капотнинский проезд ) 1-2-ci keçidlər. Moskva şəhərinin cənub-şərq qismində keçid, küçə.

**Kapot** kvartalı 1-5 (Первый- пятый Капотнинский квартал) 1-5-й kvartal Moskvanın cənub- şərq səmtində yerləşən Kapotnya inzibati ərazisindədirlər. Öz adını Kapot (nya) kəndindən almışlar

Moskvaaltı kənd olan Kapotnya adı İvan Kalita fərmanında 1336-cı ildə adı çəkilir. 1960-cı ildən Moskvaya birləşdirilir və 7 küçə, xiyaban, keçid və rayon adında özünü mühafizə etməkdədir.

**Kapot** - qədim geyim adı olub əski türk dilində "*əsgər paltosu, şinel*" mənasını daşımış, məhz bu mənasında bir çox dünya dillərinə keçmişdir. Onun qadın üst geyimi kimi işlənməsi daha sonrakı dövrə aiddir. Kapot (kapat/kabat) sözünün ilk hecasında kap~kab hissəciyi onun geyim, örtük funksiysını icra etməsilə bağlı idi. 1527 və 1678-ci ildə ad, soyadı olaraq qeyd olunmuşdur.

*Веселовский, 129; Поспелов, 579; RTS, 9, 68, 83*

**Karaban**ovo (Карабаново) – Moskva vilayətində kənd; Noginsk ray. daxildir. Smolensk vil. eyniadlı kənd.

**Karaban**ovo (ст. Карабаново) – Noginsk ray. stansiya

*Karabanov* karaban "çörək növü" və ya karban "*karapuz, kök*" mənası ilə əlaqələndirirlər. Lakin fikrimizcə, bu, karaban "*mühafizəçi, güdükçü*" sözü ilə əlaqədardır. Karvan<karaban da həmin mənanı ifadə edir. Karabanovlar Bulqakovlardandır; XVI əsrdə İvan Bulqak Karabanov voevoda (sərkar) idi. Vladimir əyalətində şəhər. Smolenskdə kənd.

*Радлов, 2.165,187, 1107; Фасмер, 2. 190; Шипова, 163; Сытин, 145*

**Karabar**ovo (Карабарово) – Moskva vilayətində kənd (Noginsk ray.); Karabar adından doğmuşdur. 1540-cı ilə aid sənədlərdə Danila Karaborov məlum olmaqla hazırda şəklini dəyişmişdir. Əsli Karabaroqlı~karaborklı (<Qıpçaq və Oğuz tayfası Qara börkli "*qara şapkalı*") nəslin tamğasına və ya geyiminə görə müəyyənləşən etnonimindəndir.

*Баскаков, ТСЛ, 72,73, 76, 129; Даль, 2. 89; Шипова, 162; Поспелов, 278*





**Karabuz**ino (Карабузино) – Moskva vilayətində (Volokolam ray.) kənd. Kara Buza adından Karabuzin soyadı formalaşmışdır. Karabuzin Vasili Böyük knyazın səfiri (1459). 15-17-ci əsrlərdə Karabuzinlər Kaşində torpaq sahibi idi. Kaşində Varvara Karabuzin məbədini tikdirmişdir. Tver vil. kənd.

*Веселовский, 133; Поспелов, 276*

**Karaçan** (Карачан) – Voronej vil. üç kənd; Qribonovcrb və Novoxoper ray. aiddir. Karaç yüksək rütbəli məmur, dövlət adamı ; karacan "dövlət adamları" deməkdir. Uyğur dilində nazir, bakan vəzifəsinə karaçı~karajı demişlər. Orlov vil. də eyniadlı kənd

*Радлов, 2.162; Фасмер, 2. 194; Шипова, 168*

**Karaçar**ovo (Карачарово) – Moskva vilayətində (Volokolam ray.) kənd. Moskvalı zadəgan Çudin Karaçarov məlumdur (1528). Kəndin adı yazılı qaynaqlarda 1571-ci ildə çəkilir. 19-cu əsrin ikinci yarısından bağ yerləri idi. Smolenskdə Karaçarovo kəndi.

**1-3 Karaçar**ov (ул. Карачарова) – Moskvada cənub-şərq hissəsində 3 küçə (1950)

**Karaçarov** (Карачаровский проезд) keçidi. Moskvada-cənub-şərq istiqamətində 2 küçə keçidi; keçmiş Karaçarovo kəndinin adını saxlayır.

**Karaçar**ov çayı (Река Карачарова) - Moskva vilayətində çay; Nişenka çayının sol qolu

**Karaçar**ov stansiyası (ст. Карачарова) Moskva - Nijni Novqorod xəttində 2 stansiya. Ad keçmiş Karaçarovo kəndi ilə əlaqədar verilmişdir.

**Karaçar**ov **şossesi** (Карачаровское шоссе) (1960) Ryazan prospektinin davamı. 14-cü əsrdən Ryazana gedən yol; bu yolun üstündə Karaçarov kəndi yerləşirdi. 16-cı əsrdən adı çəkilir; İndi bu yolun üstündə Karaçarov mexaniki zavodu yerləşir.

**Karaçar**ovo (Карачарово) – Moskvanın şərqində tarixi Karaçarovo kəndi ərazisində təşkil olunan küçələr, Karaçarov şossesi, keçidləri 1930 – cu ildə Karaçarovo kəndi ərazilərinin bir qisminin Moskvaaltı şəhər olan Perovaoya, ərazilərin digər qismininsə 1950-ci ildə birbaşa Moskva şəhəri tərkibinə qatılması ilə əlaqədar meydana gəldi. Beləliklə, bu küçələr xəritələrdən silinmiş böyük bir kəndin ərazilərindən bir yadigardır.

Tiyun Karaçar məlumdur (1470), onun nəvəsi azyaşlı İvan Qroznı yanında dyak (dəftərxana rəisi) olmuşdur.

Soyadı qara və car~yar (*yarğan*)sözlərindən – Kızıl yar və Kara yar modelinə uyğun olmaqla coğrafi obyekti – relyef biçimini ifadə edir. Beləliklə, demək mümkündür ki, Karaçarov soyadının əsasında coğrafi ad durur. Karaçarovo – Mərkəzi Rusiyada: Vladimir, Tver, Yaroslav, Smolensk(2) vil. kənd.

*Веселовский, 134; Баскаков, 180;*
*Поспелов, 277, 580; Сытин, 144; МЭ, 249, 498,550*

**Karaçevo** (Карачево) – Bryansk vil. bağlı qədim şəhər. İlk tarixi qeydlər 1147-ci ilə aiddir. 1502-ci ildə Moskva Rus dövləti idarəsinə girmişdir. Hazirda şəhər ərazisində qədim şəhərin qalıqları saxlanılır.

Karaç - Rus salnamələrində adı çəkilən Kara Klobuk xanının adı.

Smolensk vil. 2 kənd. Pskovda göl, Kaluqa(2), Ryazan (2),Tulada(2) kəndlə yanaşı Orenburq və Çuvaşıstanda eyniadlı yaşayış məntəqəsi. Kırımda bu adda 6 kənd olmuşdur.

**Karaçino** (Карачино) – Moskva vilayətində kənd; İstra ray. Kənd sahibinin soyadı olan Karaçi Türk dillərində *karaçi, karaji, karaç* (karaça) nazir, yüksək dövlər adamı *karaç "baxan"*titulu. Rus familiyaları içində Karaç (XV əsr), Karaçev (XV), Karaçey (XVI) qeyd olunmuşdur.

*Радлов, 2.162; Веселовский, 134-135; Срезн.,1. 1197;*
*Баскаков, 168; Фасмер, 2. 194; Поспелов, 277; ТК,150-152*





**Karaçun**ovo (Карачуново) – Moskvaaltı kənd; (Taldom ray.) Karaçun adı ilə əlaqədardır; karaçun Sibir türklərində "*qoruyucu mifik obraz; hami, qaraçuxa*". Moskva vilayəti ilə bərabər Kostroma və Yaroslavda kənd.

*Срезн.,1.1208; Веселовский, 135*

**Karakaş**evo (Каракашево) – Moskva vilayətində kənd. (Voskresensk ray.) Sıqanka çayı üstündə yerləşir. Ad Karakaş tayfa adı və ya bu nəsili ifadə edən soyadından törəmişdir. Karakaşlar (Qaraqaşlar) türk xalqlarından (noqay türkləri) sayılır[46]; Sayan dağlarından şimala doğru yaşamaqdadır (əski İrkutsk quberniyası, Nijneudinsk qəzası). Azərbaycanda, Tatarıstanda, Kırımda, Astarxana bağlı yer adları sırasında rast gəlinir.

*Фасмер, 2. 190; Поспелов, 276, 382;*
*ТК, 87-88*

**Karamış**evo (Карамышево) – Moskva vilayətində kənd. Dmitrievsk ray. daxildir.

**Karamış**evo (Карамышево) – Moskvanın qərbində, Moskva çayının sol sahilində ərazi və buradakı kəndin adı olmuş; 1940-cı illərdən şəhər hüdudlarına daxil edilmişdir. İndi öz adını sahil (Karamışevskiy naberejnaya), keçid (Karamışskiy proezd) və hidrouzel (1937) adında saxlayır. Boyar Karamışevlərin mülkü idi.

**Karamışev caddəsi** – (ул. Карамышева ) – Moskvanın şimal-qərb hissəsində yerləşir.

**Karamışev sahili** – (Карамышевская набережная) – Moskva çayının sol sahil küçəsi

**Karamış keçidi**– (Карамышевский проезд) – Moskvanın şimal-qərb hissəsində yerləşir.

[46] Арсланов Л.Ш. К вопросу о каракашском языке, - Советская тюркология, 1977, №4 с.73

Küçə, bulvar, keçid Moskvanın Qərb səmtində yerləşirlər və Moskvaaltı qədim Karamışevo kəndinin adını mühafizə edirlər.

*Karamışev* soyadı karamış (qorunmuş; gözətlənmiş) mühafizə edilən, himayə edilən (sözün kökü kara "bax, qoru") mənasındakı sözdəndir. 1410-cu ildən rus familiyası kimi qeydə alınmışdır; knyaz Mixail Karamış Kurbski (1493), knyaz Karamış Semeneviç Şelepşanski, Aleksandr Karamışev Bejetskdə dövlət canişini (1470) N. Novqorodda boyar Semen Karamışev (1470) qeyd olunur. Mərkəzi Rusiyada – Voronej, Kaluqa, Tver, Tula, Lipetsk, Ryazan, Yaroslav, habelə Pskov, Kalininqrad, Krasnoyar vil., Çuvaşıstan, Tatarıstan, Altay ölkələrində kənd. Karamış çayı və şəhəri (Saratov vil.), Tomsk vil ərazi adları.

*Баскаков, 120-121; Веселовский, 134; Halikov, 57; Поспелов, 579; ЭС, 14. с.447; МЭ, 294; 554; Ведина, 394*

**Karamzin** keçidi (проезд Карамзина) – Moskvanın Yasenovo səmtində yerləşir; tarixçi Karamzin adınadır (1978). Türkəsilli rus soyadı Karamzin (hərfən böyük şahzadə, karamza) Kostromadan çıxma tatarlardan olan Kara Murza adından meydana gəlmişdir. Karamzin Vasilçin Karpoviç (1534), N. Novqorodlu Fedor Karamzin (1600) qeyd edilmiş.

*Веселовский, 134; Баскаков, 41,178; TƏR, 140-144; Ведина, 393*

**Karanda**kovo (Карандаково) – Orlov vil. (Mtsenski ray.) kənd.

**Karandeev**ka (Карандеевка) Ryazan vil. (Mixaylovski ray.) kənd. Kəndin sahibinin soyadı sələfləri Kiçi bey Karandeev 1401-ci ildə Böyük Ordadan Rusa gəldi. Onun varisləri Rus dövlətinə xidmət edirdilər. Karandey oğlu Kiçi bey adındakı hər





iki komponent türkcədir: kiçi~kiçik "balaca", Karandey isə çox ehtimal ki, qarnı böyük olan anlamında və ya karandey "korundu" müdafiə olundu mənasında da işlənə bilərdi.

*Веселовский, 134; Баскаков, 148-149; Halikov 58*

**Karas**evka (Карасевка) – Ryazana bağlı (Mixaylovski ray. daxildir) kənd.

**Karas**evka (Карасевка) –Oryol vil. bağlı (Krasnozorsk ray. daxildir) kənd.

**Karas**evo böyük (Большое Карасово) – Moskva vilayətində (Kolomna ray.) kənd.

**Karas**evo kiçik (Малое Карасово) – Moskva vilayətində (Kolomna ray.) kənd.

**Karas** gölü (Карасево озеро) – Moskvaaltı göl (Şatura ray.). Göldə tutulan karas balığına görə (müq. et: Şuçye, Linevo, Osetrinoe gölləri vardır) adlandığını deyirlər. Lakin Karas Evsyukovun mülkü olduğundan (1498) sahibinin adı ilə adlanması daha inandırıcıdır.

Bu ad Türk dilində 2 qaynaqdan gəlir; 1- karakas; 2- karp fəsiləsindən balıq adı. Türk dillərində karası, karasu, karasıman "*qara balıq*" Rus soyadı olaraq N.Novqorodlu Karas Manixin Evsyukov (XVI), Karas Tarusmanov (XVII) qeydə alınmışdır. Bryansk, Oryol, Kaluqa vilayətində kənd.

*Радлов, 2.163; Веселовский, 134; Фасмер, 2.193; Баскаков, ТЛС, 67, 68; Шипова, 167; Вагнер, 78; Посп.,162*

**Karataev**o (Каратаево) – Tula vil. (Çernski ray.) kənd. Karatay soyadından əmələ gəlmiş (1617). Kara və tay "day, dayça" sözlərinin iştirakı ilə yaranmış. İrkutsk, Odessa,

Kaluqada kənd. Lakin ola bilsin ki, soy adı Karatay tatarları etnonimindən düzəldilmişdir.

*Веселовский, 134; Фасмер, 2.194; Баскаков, 231; Шипова, 167*

**Karatıgino** (Каратыгино) – Moskva vilayətində kənd və göl (Podolsk ray.) Novqorodlu Karatıgin (1545), Şuylu Stepan Karatıgin məlumdur (1579). Karatıgin adından (kara "*böyük, güclü*"; tekin "*xan oğlu, şahzadə*" rütbə adından) düzəlmişdir. Tekin "*prins, şahzadə*"; sözü hələ "İqor alayı haqqında Dastan"da rastlanan türk sözlərindəndir. Tekin ünvanı Ak Hun paraları üzərində (630-658) görünməkdə olduğu kimi, Uyğurların mənşə əfsanəsində "Or - Tekin" bir Türk ünvanı olaraq keçməkdə və 924-926-cı illərdə Turfan Uyqur Xaqanının ünvanı olaraq görünməkdə, Turk Bulqar kitabələrində "*xanın qardaşı və ya oğlu*" anlamını daşımaqdadır.[47] Yaroslav və Voloqda vil. kənd.

*Веселовский, 134; Баскаков, 41; Поспелов, 300*

**Karaulovka**(Карауловка) – Oryol vilayətində (Pokrovski ray.) kənd.

**Karaul**ovo (Караулово) – Moskva vilayətində (Stupinsk ray.) kənd; Karaulovlara məxsus olmuşdur. Onlar xaçlandıqdan sonra Simeon adını almış (1480), familiyalarını ulu babaları Yamqurça Karauldan götürmüşlər. Qızıl Ordadan çıxıb Rusa gəldikdən sonra oğlu İvan Karaulovun (1596 öl.) Rusda 1524-cü ildə canişin vəzifəsində işləməsi qeyd olunur. Kaşirada Karaul Rudin 1556), 1541-ci ildə Saltıc, Sarıç Karaulovlar, 1525-ci ildə Vyatkada dövlət canişini İvan Karaulov məlumdur. Familiya

[47] Abdulkadir Dönük. Eski türk devletlerinde idari-askeri ünvan ve terimler. İstanbul, 1988, s.48.





qaravul "*keşik, karaul, bəkçi*" sözündən yaranmışdır. Kaluqa, Nijeqorod, Ryazan vil. kənd.

*Радлов, 2. 146,165; ЭС 14. с. 464; Срезн., 1. 1196; Веселовский, 134; Баскаков, 153-154; Шипова, 167-168*

**Karavae**vo (Караваево) – Moskva vilayətində 4 kənd; Dmitrievsk ,Domodedovo, Klin, Noginsk ray. daxildir.

**Karavae**vo (Караваево) – Orlov vilayətində kənd; Kromski ray. daxildir.

**Karavaev** soyadı (1458) əsasında Türk sözü karavay "*çörək*" və ya doydaq cinsindən quş adı durur. Türk dillərində *karabay; baklan, qara doydaq* quşu növlərindəndir. Rus dilində *karavay* və ya *karavayka* şəklində işlənilir. Kostroma, Vladimir, Peterburq, Orlov, Novqorod, Nijeqorod, Smolensk, Tver, Yaroslav vilayətində əsasında Türk soyadı Karavayev duran kənd və şəhər adıddır.

*Даль, 2. 89; Шипова, 162; Поспелов, 276; RTS, 83*

**Karavan**nı dalanı (Караванный тупик) – Moskvanın mərkəzində Böyük Yakimankada 19-cu əsrin sonunda meydana çıxmışdır.

Karavan əsli karaban kara "baxma, qoruma" +ban; hərfən "*gözətçi, bəkçi*". Moskva ilə bərabər Peterburqda da Karavannaya küçəsi vardır.

*Радлов, 2.165,187, 1107; Фасмер, 2. 190; Шипова, 163; Сытин, 145*

**Karayaş**nik (Караяшник) – Voronej vil. iki kənd (Olxovat ski ray.) Karyaşnik<kara "rəng" + yaş~yuş "su, sulu, nəm; islanmış" və -nik rus sözdüzəldici şəkilçisi Kəndin adı əsasında kara "*böyük sucaq yer*" mənalı söz durur.

*Баскаков, 93,94; Фасмер, 4. 572; Шипова, 443.*

**Karayevo** (Кареево) – Moskva vilayətində (Luxovitski ray.) kənd. Kareevo<kara "rəng" – soyadı əsasında kara "*böyük, əzəmətli, qorxunc*" mənalı söz durur. Türk mənşəli rus soyadları sırasında Kariy, Kareev, Kareqo vardır. Bryansk, Kaluqa, Ryazan vilayətlərində kənd.

*Радлов, 2. 132; Веселовский, 135; Баскаков, 178, 25; Шипова, 169*

**Karbışev** bulvarı. (бул.Карбышева) soyadının əsasında karbış "*çöl siçani*" ("xomyak") türk sözü durur. Xalq ağızlarında balacaboy, gödək adam da belə adlanır. Karbışev (əsli: Karabışev (1545) əsilzadə familiyasıdır: Karbışev Semyon çar İvan Qroznının saray adamı olmuş (1573); Karbışev Aleksey Semyoneviç saray çadırçısı(1627). Küçə sovet dövrü general Karbışevin xatirəsinə adlanmışdır (1962)

*Веселовский, 133, 135; Даль, 2.91; Фасмер, 2.195; МЭ, 294; Т. Москвы, 76; Ведина, 397; Шипова, 168*

**Karqaşinovo** (Каргашиново) – Moskvaaltı kənd; Serxupov ray. daxildir. Qeydiyyat Kitabında kənd barədə 1557-ci ilə ilə dair qeydlər var. Ad Fedor Karqa (1638); Andrey Karqaşin (1597) adları ilə əlaqədardır.

**Karqaşinovka** (Каргашиновка) – Moskva vilayətində (Çexov ray.) kənd (1573); Karqaç (1564), Karqaşin (1597), Karqaşka (1613), Karqa (1638) familiyaları Moskvada qeydə alınmışdır. Karqaşino – Tula, İvanov, Nijeqorod, Tver, Ryazan vil. və Mordoviyada kənd.

*Веселовский, 135; Поспелов, 298*

*BAX: Karakaşovo məqaləsinə*

**Karmanitskiy** (Карманицкий пер.) – Küçə Moskvanın mərkəzində – Arbatda yerləşir. 1760-cı ilədək bu qədim adı ilə





işlənmiş. Sonralar burada məşhur ev sahibinin adı ilə Tolstov pereulok (1760-1922) adlanmış. Sonra isə təkrarən əski adı bərpa olunmuşdur.

Karman əvvəl ayrıca istifadə olunan "çanta, kiçik torba" > kar/qar "*əl, kar, qarış*" tikən sənətkarların karman ustalarının yaşadığı məhəllədən xatirədir.

**Karmanovo** (Карманово) – Moskva vilayətində kənd; Zaraysk ray. daxildir.

**Karmanovo** (Карманово) – Moskva vilayətində (Taldom ray.) kənd.

Yaroslavlı Karman Savlukov Borkov (1568), Tulada 1590-cı ildə qeyd olunan Osip Karman Meşkovsın məlumdur; karman türk sözü (kar~qar əl sözündən) kisəcik, cüzdan, çanta; sonralarsa paltara tikilən kisəcik, zeb "*cib*"; çamadan və ya portfeldə ayrıca göz" mənasını bildirir və rus dilində familiya düzəldən+itskiy və -ov şəkilçisinin iştirakı ilə yaranmışdır. Başqırdlar arasında Karmanov çox yayqın familiyadır; Başqort Karman 1704-1711 üsyan rəhbəri). Mərkəzi Rusda (Kaluqa, Kostroma, Novqorod, Tula, Tver, Smolensk, Kursk) eyni adda 11 kənd vardır.

*Даль, 2. 93; Радлов, 2.213, 217; Веселовский, 135; Фасмер, 2. 201 Поспелов, 277; Сытин, 145*

**Karmaşovka** (Кармашовка) – Moskva vilayətində (Çexov ray.) kənd. Türk sözü karmaş (rus ağızlarında "*qarışıqlıq, hərcmərclik*" mənasında) ləqəbə, o da öz növbəsində soy adına çevrilmişdir. Dilimizdə də qar (kar) əlin iştirakı olan feillər sırasındadır: qarma qarış etmək, qarışdırmaq, qarmalamaq, qarpışmaq, qarama vurmaq və s.

*Радлов, 2. 578; Даль, 2.223; Баскаков, 40*

**Kartamazovo** (Картамазово) – Moskvaaltında Vnukovo hava limanına bağlı park-otel və eyniadlı metro stansiyası, habelə "Kartamazovo" restoranı var.

**Kartamaz**ovo (Картамазово) – Moskvaaltında (Voskresensk ray.) şəhərin cənub-qərbində kənd. Rus xidmətinə girən Kartamazov familiyası 15-ci əsrdən məlumdur.

Kartamazov familiyası rus yazılı qaynaqlarında 16-cı əsrin sonu, 17-ci əsrin əvvəllərində kəndi Yakov Kartmaz mülkü olaraq qeydə alınmışdır. Soyadı Almazov, Korkmazov, Aqlamazov qəlibində hazırlanmış türk familiyasıdır; ehtimal ki, mənaca "qarımaz, qartımaz, qocalmaz" mənalarını bildirir. Vladimir, Nijeqorod vil. kənd.

*Веселовский, 135; Баскаков, 208-209; Поспелов, 278*

**Kartaşov** küçəsi (ул. Карташова) – Moskvada küçə. Türk kökənli familiyanın (Kardaşov, Kartaşov, Kortaşov (XVI əsr) əsasında qardaş~qarundaş mürəkkəb sözü dayanır. Kartaşovo – Bryansk, Omsk, Tver, Rostov, Tula, Tümen, Belqorod, Lipetsk vil. kənd.

*Веселовский, 136; Баскаков, ТНМУ,24*

**Kasimov** (ул. Касимова) – Moskvanın Biryulovo səmtində küçə; 1965-ci ildə qədim Ryazan şəhəri olan Kasimovun şərəfinə qoyulmuşdur. Qızıl Ordanın möhtəşəm şəhərlərindən olmuş, Kasim xanlığının mərkəzi, ilk adı Xan Kermen, 1452-ci ildən şəhərin hakimi Qasım xanın adı ilə adlanmışdır. İndi Ryazan vilayətində şəhər. Kasimov<kasım (ərəb) "*bölən*", *dərd ortağı*+ov rus dili şəkilçisidir.

*Баскаков, 8, 100; ТНМУ,28; ТЭС, 80, 268; ТК, 201-202*

**Kaspi** caddəsi (Каспийская ул.) 1960-cı ildə Kaspi (Xəzər) dənizi şərəfinə Moskvanın əvvəl adı Cənub və Şimal prospektləri olan küçələrinə verilmişdir.





**Kastanay** caddəsi (Кастанайская ул.) – 1977-ci ildə Qazaxıstanın Kustanay şəhərinin xatirəsinə adlandırılmışdır.

**Kaşilovo** (Кашилово) – Moskva vilayətində (Volokolam ray.) kənd.

**Kaşilovo~ Koşilovo** koş, koşara "*küz, ağıl, tövlə; mal yatağı*" sözüylə bağlı ola bilər.

*Баскаков, ТЛС, 157-158;ТК, 161-162*

**Kaşino** (Кашино) – Moskva vilayətində (Volokolam ray.) kənd. Kaşin soyadı öz başlanğıcını Kaşa Vasilyeviç Oqarkov (1536), knyaz Vasili Vladimiroviç Kaşa Obolenskidən (15-ci əsr) və İqnat Kaşa Bilibindən (1634) götürür. Tula, Tver, Nijeqorod, Voloqda, Kaluqa, İvanov, Kostroma, Arxangelsk, Novqorod, Perm, Pskov, Yaroslav, Smolensk, Sverdlovsk vil. kənd.

*Веселовский, 137; Поспелов, 278*

**Kaşira** (Старая Кашира) – Moskva vilayətində (Stupin ray. daxildir) Kaşirka çayının Oka çayına qovuşduğu yerdə kənd. 1356-cı ilə dair sənədlərdə Tatar kəndi olaraq qeyd olunur.

**Kaşir** gömrük postu (т.п. Кашира) – Moskva vil. Domodedovo şəh. ünvanında

**Kaşir şossesi** (Каширское шоссе) – Kaşiraya gedən yol; Moskvalılar Kaşirka deyirlər. 19-cu əsrdə tarixi yol əsasında çəkilmişdir.

**Kaşir keçidi** (Каширский проезд) – Kaşir adı ilə bağlıdır. Moskvada Saburovo səmtindədir; Staro Kaşir şossesindən başlayır.

**Kaşir metrosu** (метро Каширское) – Metrostansiya; Kaşira yoluna çıxır. Kaşir adı ilə bağlıdır.

**Kaşirin** (Каширин) – Ryazan vil. bağlı (Mixaylovski ray. daxildir) kənd

**Kaşirka** çayı (Река Каширка) Oka çayının sol qolu; tarixən Kaşira çay adı Koşira, Koşırka (16-cı əsr) rast gəlinir;

uz.72 km. Kaşir adı ilə bağlıdır. Domodedovo, Stupinski rayonu ərazilərindən axır.

**Kaşira** (Кашира) Tarixən Kaşira; Moskva knyazlığının sərhədi sayılırdı; şəhər Oka çayı sahilndə yerləşirdi. 1356-cı ilə aid sənədlərdə Koşıra şəklində keçir. III İvanın vaxtında Kaşiranı Kazan şahzadəsi Məhəmməd Əmin idarə edirdi. 1571-ci ilə aid sənədlərdə hələ tatarların idarəsində olduğu göstərilir. Yalnız 1708-ci ildə Kaşira şəhəri Moskva quberniyasına qatılır.

Cənubi rus danışığında işlənən Türk dillərindən keçən koşira (mənası mal-qara ağılı, küz, tövlə (müqayisə et: koşara) sözüylə bağlı ola bilər. Şəhər ilk vaxtlar *Koşira* şəklində işlənilirdi.[48] Nikonov bu mənada Volın vilayətindəki Kamen Kaşirskiy şəhərinin adının da həmin mənbədən olması şübhə doğurmyacağını qeyd edir. "Kaşira (Koşira) türk sözü koşara "*ağıl, küz*" (heyvanlar üşün) cənubi rus danışığında koşira şəklində rast gəlinir. Voronejdə kənd.

*Подмосковье, 36, 209; МЭ, 295; ТЭС, 39; Поспелов, 278, 279, 392,494; Türk İ., 101; Сытин, 146*

**Kaştan**ov keçidi (Каштанова проезд) – Moskvada şəhərdaxili keçid adı.

**Kaştan**ov xiyabanı (Каштанова аллея) – Moskvada (Zelenoqrad ray.) prospekt. XVII əsrdə salınmış; şabalıd ağaclarına görə adlanmış. Kaştan "*şabalıd*" Azərb. türkcəsində kəstanə (saclar) "*şabalıdı rəngli" (saç)*

**Katış** (Катыш) – Orlov vil. kənd; Soskovski ray. aiddir.

**Katış** (река Катыш) Moskva vilayətində çay; İstra çayı hövzəsindədir. Klin, Solneçnoqor ray. ərazilərindən axır.

*Вагнер, 157*

*Bax: Katukov məq.*

[48] Мурзаев Э. М. Тюркские географические названия. М.: Восточная литература. 1996. ст. 27





**Katın meşəsi** (Катынский лес) - Cmolenskdə meşə; stansiya və Katın adlı 2 kənd; Dneprin (Uzu çayı) üzərində yerləşir.

*Bax: Xatun məq.*

**Katuk**ov küç. (ул. маршала Катукова) – Moskvanın şimal-qərb hissəsində xatirə küçə (1979)

Türk dillərində katuk~katık süddən çalınmış ağartı; qatı, bərkimiş maddə; tündməcaz, sərt adam. Yekaterinburqda Patruşixa çayı daha əvvəl Kaltık~Katık adlanmış. Voronejdə kənd: *Katukovka, Katukovskaya* (Novo-Usman və Panin ray.)

*Радлов, 2. 283; Даль, 2. 98; Фасмер, 2. 211; Шипова, 172*

**Katun**ino (Катунино) – Moskva vilayətində kənd; Voskresensk ray. daxildir.

**Katun**ino (Катунино) – Moskva vilayətində kənd; Serqiev Posad ray. daxilindədir.

Katunya Kişkin (1597); Fedor Katunin (XV) məlumdur. İvan Qroznının edam etdirdiyi Katuna da vardır. Xatun~katun~katın "kadın" – Xəzərlərdə şanlı adamın, hökmdarın arvadının titulu. Monqolca xanım, qadın, həyat yoldaşı; türkcədə əsilzadə qadın; Sibir türklərində qadın, evli qadın. Qədim Rusda katuna (1496). Mərkəzi Rusiyada – Voloqda, Kostroma, Smolensk, Nijeqorod, Yaroslavda və Orenburq, Arxangelsk vil. kənd.

*Радлов, 2. 292; Веселовский, 136; Баскаков, ТСЛ, 42; Фасмер, 2. 211; ДТС, 436; Поспелов, 278*

**Kaynarcı** (Кайнарчы) – Balaşixada kənd. 1571-ci ildən yazılı qaynaqlarda görünür. İlk sahibləri Saburovlar olmuşdur. 1768-1774 illərin Rus-Türk müharibəsində sərfəli Küçük Qaynarca sülhü bağlandıqda qələbəni "qədim Rus paytaxtı"

Moskvada keçirən və qələbəyə hədsiz sevinən imperatriça Yekaterina baş komandan feldmarşal Pyotr Rumyantsevin Troitskoe kəndinin adının da bundan belə Kaynarçı adlanmasına əmr verir.[49] Kəndə məxsus yaylaq yerinİ isə Kaqul adlandırırlar.

*Поспелов, 518*

**Kaytan** (Кайтан) – Ryazana bağlı (Uxolovski ray. aiddir) kənd. Rus dilindəki məişət əşyası adları kaytan, kayma, koyma, tesma işlənilir.

*Фасмер, 2. 162; RTS, 40*

**Kazak küçələri** 1, 2-ci. (1-2 Казачий переулок) – Moskvanın mərkəzində Yakimankada yerləşirlər. 17-19-cu əsrlərdə kazak slabodası yerləşən əraziləri əhatə etdiyindən belə adlanmışdır. 1629-cu ilə aid sənədlərdə Moskvada xidmət etməyə dəvət edilmiş Don kazaklarının burada yerləşdirilməsi göstərilir.

**Kazakov küçəsi** (ул. Казакова) – Moskvanın mərkəzində tarixi Basman ərazisindədir. Memar Matvey Kazakovun 200 illiyi ilə əlaqədar adlandırılmışdır (1939). Kazak Rus dövlət fərmanlarında 1395-ci ildə, boyar soyadı olaraq isə XV əsin əvvəllərində qeydə alınmışdır. Türk dillərində "*azad, sərbəst, macəraçı, avara*" mənaları kəsb etmişdir.

**Kazak**ovka ( Казаковка) – Orlov vil. kənd;Pokrovski ray. aiddir.

Kazakovka kəndləri Voloqda, İvanov, Kirov, Kostroma, Lipetsk, Nijeqorod, Smolensk, Tver, Yaroslav vilayətlərində, habelə Pskov, Perm, Arxangelsk, Udmurtiya, Mari Eldə vardır.

*Радлов, 2. 364; Веселовский, 130; Баскаков, ТНМУ, 24; Фасмер, 2. 157; Долгоруков, 83*

[49] Долгоруков В.Г. Путеводитель по Москве и ее окрестнотям, М., 1872, с. 96





**Kazan küçəsi** (Казанский переулок) – Moskvanın mərkəzində - Yakimankada yerləşir; 18-ci əsrdən Kazan ikonası saxlanan kilsəyə görə belə işlənir. 1-ci, 2-ci Kazan keçidləri də eyni adla əlaqədardır.

**Kazan vağzalı** (Казанский вокзал) – Moskvanı Türküstan ölkələri və Ural, Sibir, Volqaboyu diyarlarla bağlayır. Orta Asiya ölkələrinin istila edilməsi ilə 1862-ci ildə tikilən vağzal Kazanda Suyum Bikə abidəsini xatırladırdı. önündə Kalança meydanı yerləşmişdir. 1894-cü ildən Kazan vağzalı adlanır. Bu zamana kimi Ryazan vağzalı idi.

*Веселовский, 130; Фасмер, 2. 159; МЭ, 288*

**Kazan** kəndi (Казанское село) – Moskvaaltı (Pavlovo-Posad ray.) kənd. Tümen, Tula, Tver, Tambov, Tümen, Orlov vil. kənd.

**Kazan**ovo (Казаново) Moskvaaltı (Pavlovo-Posad ray.) kənd.

Kazanov ruslar arasında Tatar əsilli geniş yayılmış soyadı. Kazanov Vasili Semenoviç (XV) qeyd olunub. Bryansk, Kaluqa, Smolensk vil. kənd

*Радлов, 2. 367; Веселовский, 130; Баскаков, ТНМУ, 28; Сытин, 141*

**Kazar** (Казар) – Orlov vil. kənd; Verxovski ray.daxildir.

**Kazar** (Казар) qədim şəhər qalıqları üzərində kənd (Ryazan vil.); Rus salnamələrində adı çəkilir; Türk mənşəli Rus soyadı. **Kazar** ~ **Xazar**, **Kas**pi, Ka**fkas**, **Kaz**ak söz kökündə kas, kaz kəlməsinin varlığı bu isimlərin Kas/Kaz xalq adıyla bağlılığını ortaya qoyur.[50]

*Веселовский, 130; Баскаков, 256; TK, 97-99*

[50] Dəmircizadə Ə. 50 Söz, Bakı, Gənclik yayınları, 1968, s. 29-35

**Kazar**inovo (Казариново) – Kazarin soyadı 14-cü əsrdən məlumdur; Kazarin David Aleksandroviç; Kazarin Qoloxvostikov (15-ci y.), Kazarin Yuryeviç Dubrovskiy İvan Qroznı edam etdirmiş saray adamı və s. Soyadı Şərqi Avropada yaşayan Türk etnosu Kazar əsasında düzəldilmişdir. Nijeqorod, Smolensk, Voloqda, Kaluqa, Kostroma, Pskov, Tula vil. kənd. Kazar Voronej şəhərinin ilk adı.

*Веселовский, 130; Баскаков, 256;*
*ТК, 166-168; Ведина, 387*

**Kazeev** (Казеев) – Moskvada vaxtilə kənd və tarlalar yerləşmiş tarixi ərazi; 17-ci əsrdən başlayaraq Moskvada Kazeev adına rast gəlinir. İndi həmin yerdə Şimal bulvarı salınmışdır. Bir də Moskvada küçə adında yaşamaqdadır.

Tatarıstanda çoxlu sayda Kazeev adlı yaşayış məntəqələrinə rast gəlinməkdədir ki, kökündə kazı "əsgər, döyüşçü" sözü dayanır. Lipetsk vilayətində kənd.

Böyük **Kazennıy** (Казенный пер.) küçəsi. Rus dilindəki kazna, kazennıy "*xəzinə (*hazna) *dövlər xəzinəsi*" sözündəndir; rus yazılı qaynaqlarda (1388) qeydə alınmışdır.

Kiçik **Kazennıy** küçəsi (Казенный Малый переулок)

*Радлов, 2. 378, 385; Срезн., 2. 1176;*
*Фасмер, 2. 160; Шипова, 150*

**Kaznaçaev**ka (Казначаевка) –Orlov vil. kənd.Pokrovski ray.aiddir.

**Kaznaçeev**o (Казначеево) – Ryazan vil. kənd. Kaznaçey rus dilindəki Türk sözlərindəndir; *xəzinəçi, xəzinə sahibi* deməkdir. Qədim rus dilində kaznaçey şəklində mövcud olmuşdur. Familiya ilk dəfə Ryazanda qeydə alınıb (XVI)

*Радлов, 2.385,2, 1691; Даль, 2.74;*
*Веселовский, 131;*
*Шипова, 150*





**Kekiş**evo (Кекишево) – Moskva vilayətində(Dmitrov. ray.) kənd; Kekiş, Kekişev (1558) soyadındandır. Türk dillərindəki kekelemek kekec (adam ) sözünün əsasında yaranan soyadından düzəlmişdir.

*Радлов, 2. 1059; Даль, 2.104;*
*Фасмер, 2. 222; Поспелов, 280*

**Keldış meydanı** (пл.Келдыш) – Meydan Moskvanın cənubqərb ərazisində – Həmkarlar və Obruçev küçələrinin kəsişdiyi yerdə salınmış; akad. Keldışın şərəfinə qoyulmuşdur (1978). Keldış Türk əsilli rus soyadlarındandır: Türk xalqlarında kişi adı Keldı ~Geldi adətən sevinclə qarşılanan oğlan uşaqlarına qoyulur və son morfem də eynən bala+ş kimi əzizləmə məqamındadır. Litva tatarlarında hətta keldiş~kildiş "*elçi, nümayəndə*" (məs., *gəlin evinə göndərilən sözçü*) mənası saxlanmışdır.

*Баскаков, 110-111*

**Kendur gölü** (оз. Кендур) – Şatur çayının şimalında göl. Kindır~ kendır "*konoplya*" bitki və bu xammaldan hörülmüş ip, kəndir Türk sözü və ondan yaranmış hidronim.

*Радлов, 2.1348,10,81; Баскаков, 39;*
*Фасмер, 2. 222; Шипова,178*

**Kerşun**ixa çayı. (река Кершуниха) – indi Çeremuşka çayı adlanır. Kotlovka çayının sol qolu. Quş adı – rus dilindəki türkizmlərdən olan *korşun yırtıcı quş adı.* Ləqəbdən yaranan soyadı olaraq 1596-cı ildə qeydə alınmışdır.

*Веселовский, 158*

**Kırım** sahili (Крымская набережная) –Moskvanın mərkəzində – Yakimankada, Moskva çayının sağ sahilində yerləşir; piyada gəzinti yeri.

**Kırım** səddi caddəsi (ул. Крымский вал) – Moskvanın mərkəzində Yakimankada Kaluqa meydanı ilə Kırım körpüsü arasında yerləşir. 17-18-ci əsrlərdə ayrıca məhələlər; Moskvaya gələn xan və xanlığın heyəti böyük bağı olan Kırım xanı səfirliyində qalırdı. Kırım bağları bərpa edildikdən sonra ona Qorki adına Mərkəzi park adı verildi (1928).

**Kırım** meydanı (Крымская площадь) Moskvanın mərkəzində Xamovnikidə meydan; Kırım səddinin sökülməsi (1928) nəticəsində əmələ gəldi.

**Kırım** (Крымский мост) – Körpü Kırım səddi ilə Moskva çayının sol sahilinin birləşməsilə meydana çıxdı.

**Kırımskoe** (Крымское) – Moskva vilayətində (Odintsov ray.) kənd. 17-ci əsrədək sənədlərdə *Пустошь Крымское Дворище* deyə görünmüş, sonra kəndə çevrilmişdir. Kırımla bağlı bu adlar şəhər kənarında və Moskva çayı ötəsində Kırımlı tatarların ayrıca yaşadıqları illərdən xatirə qalmışdır.

*Вагнер, 40, 88; Баскаков, ТНМУ, 28*

**Kiçik Balkan küçələri** (Малая Балканская ул.) burada 1886-cı ildə Balkan dərəsindəki göl qurudulmuş və torpaqla doldurulduqdan sonra salınan bağça Balkanskiy skver adlandı. Balkan küçə adları buradan yaranmışdı.

*Фасмер, 1. 116; Сытин, 67; Т. Москвы, 56-57; МЭ, 126; Баскаков, ТНМУ, 28*

**Kiçik Çerkizov caddəsi** (Малая Черкизовская ул.) – Moskvanın mərkəzində Preobrejenski səmtində Çerkizov tarixi ərazisində yerləşir.

*Bax: Böyük Çerkizovo məqaləsinə*

**Kiçik Kalit**nikov caddəsi. (Малая Калитниковская пр.) – Moskvanın mərkəzində, Taqanka səmtində yerləşir.





**Kiçik Kalit**nikov keçidi (Калитниковский проезд) – Moskvanın mərkəzində-Taqanka ərazisində caddə və keçid. Kalitenka çayı və ərazisi (1688), Kalitnik qəbristanlığı (1771) adı ilə bağlıdır. Tarixən Kalitniklər (*çantaçı, heybəçilər*) slabodası yerində salınmışdır.

*Радлов, 2. 258; Веселовский, 132, 172; Срезн., 1, 1183; Halıkov, 55; Фасмер, 2.168; Сытин, 212*

**Kiçik Kaluqa** küçəsi (Малая Калужская ул. ) – Moskvanın cənub səmtində Don bölgəsi ərazilərindədir.

**Kiçik Oçak**ovka (ул. Малая Очаковка) Moskvanın qərb səmtində küçə

*Bax: Oçakov məqaləsinə*

**Kiçik Ordınka** küçəsi (ул. Малая Ордынка) – Moskvanın mərkəzində Zamoskvareçye ilə Böyük Ordınka caddəsi arasında yerləşir.

*Радлов, 1.1072, 1073; Баскаков, 232; Подмосковье, 32; Сытин, 22, 93, 225*

**Kiçik Palaş**ov (ул. Малая Палашовская). Vaxtilə Moskvada Bronnaya slabodası mövcud idi. Slaboda müasir böyük və kiçik Bronnaya küçələri və Nikit qapıları olan əraziləri əhatə edirdi. Burada silah-sursat, əsasən müdafiə əsləhəsi (*bronya*) istehsal edilirdi. 16-cı əsrin 60-cı illərindən İvan Qroznı burada soyuq silah ustalarını yerləşdirir. İndi palaş "qılınc" küçə adında saxlanılır.

*Bax: Böyük Palaşov məqaləsinə*

**Kiçik Piroq**ov (ул. Малая Пироговская) – Küçə Xamovnikidə salınmışdır (1924).

**Kiçik Tatar** küçəsi. Малая Татарская. 19-cu əsrdə meydana gəlmiş; Böyük Tatar küçəsindən ayrıldığına görə belə adlanır.

**Kiçik Tolmaç**ev küçəsi (ул. Малая Толмачевская) – Moskvanın mərkəzində – Yakimanka ərazisində Kadaşov sahili küçəsi ilə Böyük Tolmaçev küçəsi arasında yerləşir.

*Bax: Böyük Tolmaçev məqaləsinə*

**Kiçik Tula** küçəsi **(ул.** Малая Тульская) – Moskvanın cənub qismində yerləşir.

*Bax: Tula məqaləsinə*

**Kiçik Yuşun**skaya (ул. Малая Юшинская пер.) – küçə Azov caddəsindən başlayıb Odessa küçəsinədək davam edir. Kırımdakı Yuşun kəndinin xatirəsinə qoyulmuşdur (1965).

**Kindek**ovo (Кундеково) – Moskva vilayətində kənd (Dmitr. ray. daxildir); Kindyak adı ilə bağlıdır. Kindyakov soyadı 1496-cı ildən Oneqa boyunda, 1556-cı ildə Kaşirada məlumdur. Ehtimal olunur ki, soyadı *kundak* sözündəndir

*Веселовский, 140; Поспелов, 280*

**Kipçak**ovo **(**Кипчаково) – Ryazan vilayətində (Korablinski ray. daxildir) kənd. Kipçak, Kipçaqov (1506) Türk əsilli Rus familiyasıdır.

*Веселовский, 140*

**Kirim**ovo (Киримово) – Moskva vilayətində (S.Posad ray.) kənd; ad Kerim~Kirim şəxs adı ilə əlaqədardır. Kirimovla bərabər Keren bey və ya Kirin bey (Tverli Kirim İvanoviç Epişev (1540); Keren İlik Durasov (1545) məlumdur.

*Веселовский, 140; Поспелов, 281*

**Kirpiçn**aya (Кирпичная) – Moskvanın şərqində Sokolinaya qora (Şahin dağı) ərazisində caddə və küçələr

**Kirpiçn**ı 1-2-3 küçələr (Кирпичний пер.) – Moskvanın şərqində Sokolinaya qora istiqamətində küçələr; vaxtilə ərazisindəki Kərpic zavoduna görə adlanmış.





**Kirpiçn**ıe Vıemki küçəsi (Кирпичные Выемки) – Moskvanın cənub qismində Çertanovo ərazilərindədir.

Türk dillərində *kirpiç, kirpic, kərpiç* sözündəndir (-nıy,-naya rus dili şəkilçisi). Kirpic Türk sözü Rus dilində 14-cü əsrdən istifadə olunur. Oryolda kənd

*Радлов, 2. 1365, 1107;*
*Фасмер, 2. 238; Шипова, 183*

**Kitayqorod** **(**Китайгород) metro st. Mockvada Kaluqa – Riqa xətti üzrə (1971) Basman və Tver küçələrinin sərhədindədir.

Kitayqorod 1535-ci ildə müdafiə məqsədilə meydana gəlmişdi. Bir çoxları onu kitay “orta şəhər, qala” sözü ilə bağlayırlar; yəni Kreml ilə Ağ şəhərin ortası demək idi. Vaxtilə şəhərin bu məhəlləsi qala divarları ilə əhatələnmişdi. Tarixçi Karamzin “gözlər önünə Kitay qorodda (daha doğrusu, tatar dilində Orta şəhərdə) Rusiyanın böyük və zəngin Qostiniy Dvoru gəlir” Kitay sözü rus dilinə monqol dilindən keçmişdi.

*Баскаков, 30; Сытин, 28, 149*

**Kiyas**ovo **(**Киясово) – Moskva vilayətində (Stupin ray.) kənd Çox güman ki, kənd mülkədarın- knyaz Vasili Kiyas Meşerskinin adı ilə (Kiyas~kıyasTürk>ərəb. “müqayisə, bənzətmə; dəyər, ləyaqət”) adlanmışdır. Udmurtiyada kənd.

*Веселовский, 142; Баскаков, 32; Поспелов, 281*

**Klobuk**ovo (Клобуково) – Moskva vilayətində (Vora çayı üzərində) kənd. 1585-ci ildən Fedor Klobukovun iri torpaq sahələri olmuşdur. Kolpak~klobuk~kalabuk baş geyimi; adətən konusvari və ya girdə ucluqlu olurdu. Rus dilində əski Türk alınmalardandır (1193) Klobuk Rus dilində kolpak (Rus ağızlarında kaplak) sözündən törəmişdir. Kirov vil. kənd.

*Веселовский, 143; Радлов, 2. 467,979;*
*Срезн., 1.1258; Даль, 2.119; Фасмер, 2. 252;*
*Шипова,192*

**Kobelevo** (Кобелево) – Şatura ray. kənd. Arxangelsk, Tver vil. eyniadlı kənd.

**Kobıla** dərəsi (Кобылый овраг) – Moskvanın qərb qismində, Kutuzov metrosu yaxınlığında yerləşir

**Kobılino** (Кобылино) – Moskvaaltı kənd; Şaxovsk ray. daxildir. Boyar Andrey Kobıladan (16 əsr) gələn Kobılinlərlə bağlıdır. Soyadı Kobel (əsli: at cinsi) adından yaranmışdır; Kobel Aqlamazov 16-cı əsrdə; Nikifor Kobılev – III İvanın dyakı (dəftərxana rəisi) 15-ci əsrdə məlumdur. Məşhur Suxovo-Kobılinlər bu soydandır. Voloqda, İvanov, Tula, Kaluqa, Ryazan, Smolensk, Nijeqorod, Yaroslav vıl. kənd.

*Веселовский, 145; Баскаков, 248; Поспелов, 286, 287; Долгоруков, 83*

**Kobılye** (Кобылье) Moskvaaltı (Zaraysk rayonunda) kənd

**Kobyakovo** (Кобяково) – Moskva vilayətində kənd (Odintsov ray. ərazisi) Kənd çar Boris Qodunova mənsub olmuşdur.

**Kobyakovo** (Кобяково) – Moskva vilayətində kənd (Naro-Fominsk ray. ərazisi)

**Kobyakovo** hərbi qəsəbə Moskva vilayətində (Odintsov ray.) yerləşir.

**Kobyakovo** (Кобяково) – Moskvaaltı: Mojaysk, Ozersk, Odintsov, Naro- Fominsk ray. ərazisində kəndlər.

Kobyak, ardinca Kobyakov (1500 y.) soyadları məlumdur. Türkcə köpək "kobyak" tatarlar arasında şəxs adı sözündəndir. Poloves hakimi xan Kobyak Karlı oğlunun adı. Soyadı əvvəl kobyak: İvan Fillipoviç Kobyak Böyük kn. dyakı (dəftərxana rəisi) (1500), Mixail Dmitriyeviç Kobyakov (XVI) Ryazanlı boyar; Kobyak Klementyeviç Linov (1571) şəklində məlumdur.





Ryazan, Orlov, Voloqda, Lipetsk, Tver, Tula, Yaroslav vilayətlərində, habelə Tatarıstanda yaşayış məntəqə adları.

*Поспелов, 287; Веселовский, 145; Баскаков, 63*

**Koçergino** (Кочергино) – Moskva vilayətində (Dmitr. ray.) kənd Koçerqa adı (ləqəbi) ilə bağlıdır; Zaporojye kazakı Qriqori Koçerqa (1673); Yakov Koçergin 1447) məlumdur. Ləqəbin əsasında rus dilindəki *koçerqa-* ucu qarmaq şəkilli dəmir şiş; rus ağızlarında çəlimsiz ayaq - türk sözü durur: noqaylarda köşerge, qazaxlarda köşer, tatarca kuçər. Vladimir, İvanov, Tver, Nijeqorod, Krasnoyar vilayətlərində eyni adlı yaşayış məntəqələri.

*Дм., 44; Даль, 2.180; Фасмер, 2. 358; Шипова,199; Поспелов, 303*

**Koçetovka** (Кочетовка) – Moskva vilayətində (Ramen. ray.) kənd. QK-da 1577-ci ilə aid məlumatlarda görünür; Koçet (1646), Koçetov (1654) soyadları ilə bağlıdır. Miçurinsk şəhərində dəmiryolu stansiyası.

*Поспелов, 303; Веселовский, 161; Баскаков 118-119*

**Koçkarevo** (Кочкарево) – Moskva vilayətində (Stupin ray. daxildir) kənd. 1577-ci ildə QK-da rast gəlinir; Çerniqovlu boyar Koçkar (1180), Voloqdalı Andrey Koçkarov (1518) soyadları ilə başlayır. Kaçkar, Kuçkar, Kaşkar – tatarlar arasında şəxs adlarıdır. Türk dillərində koçkar~qoşqar qoç, toğlu, döyüşkən qoç "*igid, cəsur*" Kaşkarov, Koçkarov soyadları buradandır.

*Веселовский, 137, 162; Баскаков, 38; Поспелов, 303*

**Koçnovski** (Кочновский переул.) – Moskvada küçə. Əsasında Türk sözü koçan~koçen olan (türkcə feil əsası kucaklamak; kuca; çaqatayca qoca~qoca sözündən düzələn qocaq~qucaq "topa, koma") Koçnov, Koçenovcki soyadı ilə bağlıdır.

*Баскаков, ТНМУ, 24; МЭ,155*

**Koçubinski** (ул. Кочубинского) – Moskvada küçə, mülk sahibinin adı ilə adlanmış. Küçü~kücü "*balaca, bala*" *bəy (ki*çik bəy) mürəkkəb Türk titulundan əmələ gələn Koçubinski (şivələrdə Коцубинский "коцу+бий" şəklindən yaranmışdır) soyadındandır.

*Даль, 4. 604; Баскаков, ТНМУ, 24; Шипова, 391; ТƏR, 271-76*

**Koçugino** (Кочугино) – Moskva vilayətində (Solneçn. ray.) kənd; Koçuqa adı ilə bağlıdır; 1562-ci ildə Koçukin adına rast gəlinir

*Веселовский, 161; Поспелов, 303*

**Kojuxov** (Кожухов) – Moskvanın cənub qismində 5 caddə, xiyaban və küçələri, keçid və döngələr, göl, habelə metrostansiyası qədim Kojuxovo kəndi ərazisində salınmışdır. Kəndin adına 17-ci əsrdən rast gəlinir. Dyak Kojux (1482) məlumdur. 1923-cü ildən Moskvaya birləşmişdir.

**Kojuxovo** (Кожухово) – Moskva vilayətində (Mojaysk ray.) kənd.

Kəndin adı Kojux, Kojuxov (1505; 1557) soyadları ilə bağlıdır. Kənd isə şübhəsiz, Voloklamlı İvan Alekseyeviç Kojuxova (1505) məxsus olmuşdur. Kojux geyim adı; dərinin xəz hissəsi içəridə olur. Aşılanmış dəridən tikilən və üstü daş-qaşla bəzədilmiş yüksək rütbəli məmur geyimi; padşahın qış geyimi. Soyadı şübhəsiz, bu mənalar üzərində yaranan ləqəbdən





formalaşmışdır. Bryansk, Voloqda, Lipetsk, Kostroma, Tula, Tver, Ryazan, Novqorod vil. kənd.

*Веселовский, 147; Сытин, 150; Поспелов, 287; 580*

**Koksin** məhəlləsi (Коксин двор) indiki "İnqilab Meydanı" metrosu əraziləri. Bu 1422-ci ildə adı çəkilən türk bahadırı Koqçanın mülk torpaqları idi. Koksin türk əsilli rus familiyası. Koksin adlı yaşayış məntəqələri Altay və Belorusda rast gəlinir.

*Lelevkin, 18*

**Koktebel** (Коктебель) caddəsi (1991). Küçə Moskvanın cənubunda Simferopol şosesi səmtində yerləşir; Kırımın kurort şəhəri xatirəsinə adlandırılmışdır. Botanika bağını əhatə etməklə Feodosiya (Kafa) küçəsi ilə bərabər uzanır və bir Kırım mənzərəsi yaradır.

**Kolbasino** (Колбасино) – Moskva vilayətində (Toldom ray.) kənd. Kolbasin soyadı ilə bağlıdır. Altay ölkəsində və Tver vil. kənd.

**Kolbasnaya** (ул. Колбасная) – Moskvada küçə. Məşğuliyyətlə bağlı ad; doğranıb əzilmiş ət ilə doldurulmuş mal bağırsağı; desert yemək növü. Rus dilindəki qədim türkizmlərdəndir (1280) Özünün adında yeməyin hazırlanma prosesi ifadə olunub: kol+basa (kol "qol", basa " *basmaq, təpmək, doldurmaq*") Tver vil, Altay ölkəsi, Ukrayna və Belorusiyada kənd adı.

*Срезн., 1.1249; Радлов, 2. 1479; Поспелов, 288; Т. Москвы, 33; Шипова,191*

**Kolçuqa** (Колчуга) – Moskva vilayətində (Odintsov ray.) Vaxtilə Kolçuqa çayı adlanan Medvenka çayı üstündə kənd.

Qeyd: Vladimir vil. Kolçuqino qəsəbəsi vardır. Kolçuqa kol+çuq "*bazubənd, qolçaq*" sözündəndir.

*Срезн., 2.1262; Даль, 2.145; Фасмер, 2. 299; Поспелов, 274; 580; ТК, 174-176*

**Koledin**ovo (Колединово) – Moskva vilayətində (Stup. ray.) kənd. QK-da 1577-ci ildə adı çəkilir. Daha əvvəl yaşamış sahibkarın adı ilə ilə Kaşirdəki Bulqak Koledinin adındandır. Smolensk, Tula vil. və Belorusiyada kənd.

*Веселовский, 149; Поспелов, 288*

**Kolıçevo** (Колычево) – Moskva vilayətində (Domodedovo ray.) kənd; Zamoskvareçyeyə yaxın. Öz adını 15-ci əsrdə yaşamış boyar Kolıç Elkin Kobılindən almışdır.

**Kolıçevo** (Колычево) – Moskva vilayətində iki kənd (Mojaysk ray.)

**Kolıçevo** (Колычево) – Moskva vilayətində iki kənd (Stupin ray.)

**Kolıçevo** (Колычево) – Moskva vilayətində (Yeqorevsk ray.) kənd

**Kolıçevo (böyük)** (Большое Колычево) – Moskva vilayətində (Kolomna ray.) kənd.

**Kolıçevo**-Boyarskoe (Колычево) – Moskva vilayətində (Yeqorevsk ray.) kənd

**Kolıçevo** (Колычево) – Kolıçevo Paxra sahilində kənd; ilk dəfə böyük knyz Vasilinin 1406-cı il fərmanında adı çəkilir. Qroznı hakimiyyəti illərində kənd boyar Nikita Kolıçevə məxsus idi. Kazan altında ölən (20 oktyabr 1552, 20 oktyabr) Kolıçevin nəsil babası Fyodr Kolıç 14-cü əsrdə yaşamış və kənd də onun adına olmuşdur. Çarların meşə yaylağı idi. Tarixən eyniadlı – Kolıçev qəzasında yerləşirdi. II Yekaterinanın inzibati





islahatlarından sonra şəhərə çevrilərkən Nikitsk adlanmışdır. 1797-ci ildə Kolıçevo qəzası ləğv olunur və ərazisinin böyük hissəsi Podolsk qəzasına verilmişdir. Soyadının kolıç (*kılıç"qılınc*") sözü ilə əlaqədar olduğu göstərilir. Boyar Kolıçevlərə məxsus olmuşdur. Bryansk, Kemerovo, Vladimir, Kursk, Orenburq, Ryazan, Smolensk, Nijeqorod vilayətlərində yaşayış məntəqələri.

*Баскаков, 40, 82, 84, 91, 248; Веселовский, 151; Поспелов, 293; МЭ, 266*

**Kolımaj**naya (Колымажная ул.) – Moskvanın mərkəzində küçə; Pokrovkadan Xoxlovckayadək uzanır.

**Kolımaj**naya bürcü (Колымажная башня) – Bürc 1495-ci ildə tikilmiş; saray kolımaqası həyəti ərazisində olduğu üçün belə adlanmışdı. Kolımaqa böyük səfər arabası; qədim Rusda hərb səfərlərində istifadə olunmuşdu (14 əsr). Odur ki, ilk mənası hərbi düşərgə 19-cu əsrdə qalanın komendantın evi bürcə yaxın olduğuna görə bu tarixdən Komendant bürcü adlanırdı. 1898-ci ildə kolımaqa həyətində İncəsənət muzeyi aşıldı. 21-ci əsrin ilk çağlarından əski adı-Kolımajnaya bərpa olundu.

*Срезн., 2.1252, 1253; Даль, 2,144; Шипова,193*

**Kolomna** (Коломна) – Kaşira ray. kənd. 1578-ci ildə QD-də Kolmenka çayı və Kolmnen bataqlığı yaxınlığında kənd adları. Moskvaaltı şəhər. *Kollama* (türk) "*mühafizə, qarovul*" sözü ilə bağlı ola bilər. Vaxtilə burada qarovul dəstəsi dururdu.

*Веселовский, 150; Поспелов, 289, 290*

**Kolonta**ev gölməçəsi (Колонтаев prud) – Noginsk ray. daxildir.

**Kolonta**evo (Колонтаево) – Moskva vilayətində (Noginsk ray. daxidir) kənd.

**Kolontaevo** (ст. Колонтаево) – Moskvaaltı dəmiryolu stansiyası

**Kolontaevo** (Колонтаево) – Orlov vilayətində Volxovski ray. daxildir.

**Kolontaevka** (Колонтаевский лес) Moskvanın qərb istiqamətində meşə

**Kollontay** soyadı türk *kuluntay* (*kulun"qulun, dayça*"+tay"day~tay "at") Qızıl Ordalı Kalantay (1343), zadəgan Fedor Kolontaev (1508) məlumdur. Mərkəzi Rus arazisi kimi Ukraynada da Kuluntaevka// Kalantaevka yaşayış məskəni (həmçinin çay və göl) adları, Uyğur ölkəsində Kuluntay kəndi, Çita vil. Kuluntay qəsəbəsi (Aksa ray.). hazırda Türküstan ölkələrində Karatay, Aktay adları ilə yanaşı Kuluntay şəxs adları da işlənilir. Türk mənşəli rus soyadları içərisində Karataev, Kolontay, Kuluntayev, Kulunçakov, də vardır; soyadın tərkibində tay "day" dayça, daylaq ibarətdir. Xarkov vil. (Ukrayna) kənd.

*Веселовский, 150; Баскаков, ТСПИ, 74,75,77,91; Поспелов, 290; TƏR, 266-270*

**Kolpaçnıy** (Колпачный переулок) – Küçə Moskvanın mərkəzində tarixi Basman ərazilərində – Pokrovka və Xoxlov küçələrinin arasında yerləşir. Küçənin adı XVII əsrə qədər mövcud olmuş baş geyimləri hazırlayan ustaların yaşadığı Kolpaçnaya slabodası adındandır. Türk sözü *kalpak* rus dilində qədim alınmadır.

*Радлов, 2. 234; Фасмер, 2.297; Даль, 2.142; Срезн., 1. 1258; RTS, 28, 147-148*

**Koltışevo** (Колтышево) – Moskvaaltında (Solneçnq. ray.) kənd. Yaşayış yeri adı türk sözü kultışka~koltışka <kultıqa "*çolaq, şikəst, kəsik*"; *qolun* (*ayağın*) salamat hissəsi; "axsaq" ləqəbli soyadından və ya yerin relyev biçimi özəlliyi ilə əlaqədar qoltuq "qolaltı, qoltuqaltı yer" sözündən ola bilər.

*Радлов, 2.1122,1476; Фасмер, 2. 413; Шипова, 205; RTS, 109*

**Koltuxovka** (река Колтуховка) – Voja çayı hövzəsində; Zaraysk ərazilərindən axır. Rus dilində türk sözü kultık, kultışka "*koltuk*" çayın qolları arasında və yolayrıcında yer; "qoltuq".

*Bax: Koltışevo məq.*

**Kolupanovo** (Колупаново) – Moskva vilayətində (Stup. ray.) kənd; 1556-cı ildə Nazar Kulpanova məxsus idi. Rus soyadı sırasında oxşar soyadları var: Kolupay, Kolupaevlər: Kolupay Mixayloviç Priklonski (1506), Moskvalı Andrey Kolupaev (1572). Tver vil. eyniadlı kənd.

*Веселовский, 151; Поспелов, 293*

**Konakovo** (Конаково) – Moskva vilayətində (Podolsk ray.) kənd; Paxra çayı üstündə yerləşir.

**Konakovskiy keçid** (Конаковский проезд) – Moskvada küçə; şəhərin Şimal səmtində Pulkovo və Flot küçələri arasında yerləşir

**Konakovskiy** (Конаковский Мох)–Moskvaaltında kənd; Paxra çayının sol sahilində yerləşir. Şişkin qəsəbəsi ilə həmsərhəddir.

**Konakov, Konakovskiy** (Конаков, Кунаковский) soyadı və məntəqə adları rus dilində işlənən türk sözü *konak, kunak* "dost, "tanış, müsafir, qonaq" sözü ilə əlaqədardır. Ryazanlı Konakovlar (1606) və tüfəngçi İvaşko Konakov (1678) məlumdur. Kalinin, Tver, Ryazan vilayətində Konakovo şəhəri vardır.

*Веселовский, 152; Баскаков, 216; Поспелов, 294; Т. Москвы, 60.*

**Konçak**ovo (Кончаково) – Moskvaaltında Luxovitski və Zarayskda kənd. Vergi Kitabında adı çəkilir (1595-07). Konçak adına "İqor alayı haqqında dastan"da rastlaşırıq. Qıpçaq xanı Konçak adının mənası "*zireh, dizlik ;qoncaq*" deməkdir.

*Баскаков, 17, 92; Поспелов, 295*

**Konçeevo** (Кончеево) Moskva vilayətində kənd; Voskesensk ray. daxildir. Tarixi Konçey adından əmələ gəlmişdir; *kiçik, yavru*; türk dillərində *kenze, sonbeşik, balaca uşaq*. Bu soy 1556-cı ildən zadəgandırlar. Türk əsilli Kançeyev Voin Kutlukov Kaşira ətrafında, övladları isə bundan başqa Ryazan bölgəsində də torpaqlara sahib idi.

*Веселовский, 133; Баскаков, 29; Lelev.19; Halikov, 56*

**Konçura** (Кончурá) – Moskva vilayətində çay; Torqoş çayının sağ qolu. Sergiyev Posaddan axıb onu ikiyə bölür. Uzunluğu 12 km.; şəhərin içində onun eni 3 metrə çatır. Kon+çura kon "*kan, xan*", çura~çora~çoro titul "*igid, qəhrəman; xan oğlu*" deməkdir.

*Веселовский, 133, 354; Баскаков, 229*

**Konev Bor** (Конев Бор) Moskvaaltında kənd (Kolomna ray.). 1784-cü ilə aid sənədlərdə Kanev Bor adlanmışdır və bor "*şam meşəliyinin*" Kan "xan" adlı zadəgana məxsus olduğuğu göstərilir. Kanev~Xanev Ukraynada da şəhər adı.

*Поспелов, 294; TK, 110-111*

**Konobeev** (ст. Конобеево) – Moskva Kazan dəmiryolunda vağzal stansiyası.

**Konobeevo** (Конобеево) – Moskvaaltında kənd Voskresensk ray. daxildir. Konobey adındandır; Mixail Semeneviç





Konobeev (1621) məlumdur. Kan+bey sözlərindən ibarətdir. Ryazan və Smolensk ərazilərində yaşayış məntəqələri.

*Веселовский, 153; Вагнер, 88; Поспелов, 294*

**Konşevo** (Коншево) – Moskva vilayətində (Yeqorev. ray.) kənd. 16-18-ci əsrlərdə Konışevo adlanırdı. Konçevo-Kanışevo, tarixi qeydlərə görə Kanışevlər torpaq sahıbləridir (1614). Konşevo – Vladimir, Kostoma, Pskov vil. kənd.

*Веселовский, 153; Баскаков, 29; Поспелов, 295*

**Kopan** (Копан) – indi Kolomenka. Moskvada çay; Nişenka çayının sol qolu.

**Kopan** (Копан) – Moskvaaltında (Zveniqorodda) kənd. Kopan~kapan sözündən Kapankin soyadı da vardır (XV əsr). Türkiyədə, Ukraynada, Kırımda, habelə Kapanlı (Şəmkir r.) Azərbaycanda və tarixən Azərb. Bağlı Kafan yaşayış məskənləri vardır.

*Bax: Yuxarıda Kapan məqaləsinə*

**Kopılevo** (Копылово) – Moskva vilayətində Dmitriev. və Klin ray. bağlı eyni adda iki kənd. Pskov posadniki (naibi) Yuri Kopıl (1510), Kaşiralı Boris Kopılev (1556) adı ilə bağlıdır. Kopıl türkcə qop (*qopmaq, qalxmaq, tərpənmək* feli və -ıl,-il sözdüzəldici şəkilçidən) ibarətdir. Təsadüfi deyil ki, Kopılevlərin ailə gerbində yataqan qılıncı rəsm edilmişdir. Voronejdə və Tomskda eyniadlı yaşayış məntəqəsi.

*Веселовский, 154; Баскаков, 134-135; Поспелов, 296*

**Korçag**in caddəsi (ул. Корчагина) – Moskvanın şimalında yerləşir. Türk mənşəli rus soyadı Korçagin (Kaşiralı Korçagin İqnat Semyonoviç (1556). Soyadının əsasındakı korçaqa "*təsərrüfat işlərində istifadə edilən boğazı dar böyük çuğun*

*qazan* (qədim Rusdakı türk sözlərindəndir (997); maye üçün qab; su qabı, şərab və s. ölçü meyarı qab" (1146), habelə Rus xalq ağızlarında bayquş, bəzi bölgələrdə "*çuxur, çökək yer*" mənasını da bildirir.[51] Vladimir, Tula, Yaroslav, Voloqda, Kalininqrad vil. kənd.

*Веселовский, 158; Срезн., 1. 1411-12; Даль, 2. 170; Фасмер, 2. 341*

**Korçman**ovo (Корчманово) – Moskvaaltı kənd; Ruzsk ray. daxildir. Kaşinli Korçoma Vasilyeviç Yatski (1571),Vasili Korçmin (1653), Moskvalı çar süfrəçisi Korçmin (1700) məlumdur. Qorçman adı ilə bağlı ola bilər. Söz kökü korç rus dilinə keçən türk (əsli ərəb "xarc") sözlərindəndir, müasir ruscada xarç, xarçevnya; korçma böyük yolüstü duraq, yemək yeri.

*Веселовский, 158; Баскаков, 30; Поспелов, 300*

**Koroban**ovo (Коробаново) – Moskvaaltı kənd. Karabanovo – Karvan sözünün əski şəkli); Korobanov Qriqori İvanoviç (XVI).

*Веселовский, 156; Баскаков, 105.*
*Bax: Karabanovo məq.*

**Korsak**ovo (Корсаково) — İstra ray. daxilində Moskvaaltı kənd. Korsak adı ilə əlaqədardır; Petr Korsak (1577); Qorbuşa Korsakov (1480) məlumdur. *Korsakov* soyadı qorsaq~qarsaq "*çöl tülküsü; kobud, qorxunc, lovğa*" mənalı ləqəbdən yaranmaqla kəndin adını da ifadə etmişdir. Kaluqa, Tula, Orel, Nijeqorod, Krasnoyar, Xabarovsk, Buryatiyada kənd.

*Радлов, 2.759; Даль, 2.170; Баскаков, 72,73; Фасмер, 2. 338; Поспелов, 300; Шипова, 195*

---

[51] Карамзин Н. М. Записка Московскич достопамятностях – Наше Наследия VI/1991, с.43; [51] Сагитова А.Г. Тюркизмы в названиях предметов домашнего обихода – Автореф. Канд. Фил. Наук. Казан 1992, с.13





**Koşel**evka (Кошелевка) – Moskva vilayətində (Stupin ray. daxildir) kənd. Orlov, Penza, Samara, Tulada, habelə Ulyanov, Astarxan, Başqırdıstanda kənd. Ukraynada 3 kənd.

**Koşel**ovo (Кошелово) – Moskva vilayətində (Toldom. ray.) kənd. 1577-ci ildə adı çəkilir; Koşel (1495), Moskvalı votçinnik Koşelev (1542) soyadları ilə bağlıdır. Koşelevka, Koşelovo – koş "*düşərgə, ordugah*" sözündən yaranmaqla meydana çıxmışdır. Vladimir, Voloqda, İvanov, Kaluqa, Kirov, Kostroma, Orlov, Nijeqorod (3), Tver (7), Smolensk (5), Yaroslav (3), habelə Pskov (4), Kalininqrad vil. kənd.

*Веселовский, 162; Поспелов, 303*

**Koşer**ovo (Кошерово) – Moskva vilayətində (Ramenki ray.) kənd. 1646- cı ildə adı çəkilir. Kəndin adı Kaşira, ağızlarda Koşera deyilişi ilə bağlı yaranmışdı.

**Koşe**vov **Stan** (Кошевой стан) və ya Boxov Stan Koşevoy – "düşərgə, ordugah" sözündən yaranmaqla (-evoy rus dili şəkilçisi) vəzifə rütbə adı, eləcə də soyadı bildirir. Yer, məkan, duracaq, iqamətgah mənalarını bildirən *stan* sözü rus dilində həm də ayrıca (inzibati ərazi, hissə, nahiyə) işlənə bilir.

*Радлов, 2. 635, 1107; Веселовский, 162; Баскаков, ТЛ С , 104, 157-158; Фасмер, 2. 359; Поспелов, 303, 304*

**Koşey**kovo (Кошейково) – Moskva vilayətində (Puşkin ray.) kənd. Koşey adı ilə bağlıdır (1459); Kaşeev (1624); İvan Koşeev (15.əsr) məlumdur. Koşey koşçu~qoşçu "plebey, nökər, əsir, yoxsul" deməkdir. Koşeevo – Vladimir, Voloqda (4), İvanov (4), Tver, Yaroslav (2), Tula vilayətində kənd.

**Kovıl**inskiy (Ковылинский пер.) küçəsi– Moskvanın Şərq səmtində, Preobrejensk ərazilərindədir. Tacir Kovılinskinin mülkü ilə əlaqədardır; Türk əsilli familiyadan soyadı əsasında

kovu~ qovu "həyəcanlanmaq"+şəkilçi – >qovul~qomul "tərəddüd edən", ya da kögil~kövil "yaşıltəhər" sözü durur.

*Баскаков, ТНМУ, 24; RTS, 112*

**Kovıl**ino (Ковылино) – Moskvaaltı (Klin. ray. ) kənd. Əsli Kobılino; 1667-1669-cu illərdə Kobılino kimi qeyd olunmuşdur. Kovıla Semyon Fedoroviç (14 y.); Tuladan İvan Stepanoviç Kovıla İvaşkin (1625). Kovıla, kovıl "*yovşanabənzər çöl otu*"; kobılin<kobıla "*dişi at, madyan*" Kobıla Belqorod vil. kənd, Karpat silsiləsində (Ukrayna) dağ, Komidə çay adı.

*Веселовский, 146; Баскаков,ТЛС, 105, 108,109*

**Kovrig**ino (Ковригино) – Moskvaaltı 3 kənd; Naro-Fom., Pavlov-Posad, Dmitriyev ray. daxildir.

Kəndlər Kovrigin soyadından yaranmışdır (1629). Kaşinli Osman Kovrigin məlumdur(1536). Soyadının əsasında kovriqa "*kövrək, nazik çörək; kökə*" sözü durur. Voloqda, Kostroma, Nijeqorod, Tver, habelə Krasnoyar ölkəsində kənd.

*Срезн., 1. 1242; Веселовский, 146; Шипова, 189; Поспелов, 287*

**Kovr**ovo (Коврово) – Moskva vilayətində (S.Posad və Eqoryevsk ray.) 2 kənd

**Kovrov** küçəsi (ул. Коврова) – Moskvanın mərkəzi küçələrindəndir; Taqanka ərazisindədir.

Kover adı (1566) ilə əlaqədardır. Soyadı əvvəl ləqəb kimi işlənən məişət əşyası kover "*xalı*" ilə bağlıdır. Etimoloq Fasmer sözün mənbəyinin bulqar (qədim çuvaş) sözü kavər olduğunu zənn edir) Kover ləqəbi istifadəçiyə ya məşğuliyyətinə görə, ya da xarakter keyfiyyətlərinə görə verilə bilərdi. Bu sözdən knyaz Kovrovların, Kovernevlərin familiyaları doğulmuşdur. Knyaz Vasili Andreyeviç Kover III İvanın və onun





oğlu Vasilinin (1492-1521) voevodası idi. Kovrovo – Kaluqa, Nijeqorod, Kaliningrad, Kırım vil. kənd.

*Срезн., 1. 1242; Веселовский,146; Баскаков, 39; Поспелов, 287; Фасмер, 2. 270*

**Koydak** (Койдак) – Smolensk vilayətində qəsəbə. Koydaklıq və ya koydak XI - XVII əsrlərdə qullanılan ox çeşidləri olmuşdur. Rusçaya keçən Türk əsillı əsgəri sözlərdən biridir. Dnepropetrovskinin (Ukrayna) ilk adı olmuş, hazırda yaxınlığında eyniadlı iki kənd mövcuddur[52].

*TK, 169-170*

**Kozlov** caddəsi (ул. Козлова) Moskvada küçə; Aminyev və Verasayev küçələrilə paralellik təşkil edir. Moskva vilayətində eyni adda 5 kənd vardır. Soyadın əsasında qozu~quzu sözü duran Kozlov familiyasındandır. Qozu ~yeni uyğur sözü qoza rus adapdasiyasında koza şəklini almışdır. Kozlovo –Voloqda (14), Vladimir, İvanov, Bryansk, Kaluqa, Kirov, Tver (19), Tula, Smolensk, Orlov, Kostroma (5), habelə Pskov (11), Kemerovo, Astarxan, İrkut vil. kənd

*Радлов, 2.1171, 1019; Срезн., 1. 1246; Баскаков, ТНМУ, 24*

Krasnıy **Stan** (Красный Стан) — Moskvada tarixi kənd (Mojaysk ray); Moskva çayı sahilində yerləşir. Ərazisində qədim kurqan vardir (XI-XIII). 1784-cü ildə adı çəkilir. Stan "*dayanacaq, yolüstü düşərgə*" mənasını bildirir.

*Шипова, 321; Поспелов, 308; RTS, 182-183*

[52] Никонов В.А. Краткий топонимический словарь, М.,Мысль, 1966; Одинцов Г.Ф. Из истории древнерусских названий стрел. В кн.: Этимология 1983; М., 1985, с.124

**Kremençuk** küçəsi (ул. Кременчукская) — Fili-Davvıdkovo ərazilərində Kutuzov və Aminov şessesi arasından keçir. Müasir Ukraynada tarixi Kermencik şəhərinin xatirəsinə adlandırılmışdır (1963). Bununla bərabər Moskvada Kremençuk sahil küçəsi (Кременчукская набережная); Kremençuk səddi (Кременчукскский вал); Kremençuk meydanı (Кременчукский площад); Kremençuk dalanı (Кременчукский тупик); Kremençuk keçidi (Кременчукский проезд) adlarında yaşadılır.

**Kremençuq** (Кременчук) – Kermencik əski türkcə (bulqarca) "kiçik qala, qalaça" adının rus dilində tələffüz təhrifi ilə əmələ gəlmişdir. Moskvanın əski Davıdovka səmtində Setun çayının sol sahilindəki bu küçənin adı Ukraynanın Kremençuk şəhərinin (əski Türk qalası Kermencik – 1764-cü ildən rusların idarəsinə keçmişdir) xatirəsinə qoyulmuşdur

*ТК, 19,93; МЭ, 229*

**Kuban**ovka (Кубановка ) – Oryol vil. kənd; Verxovski ray. daxildir.

**Kuban**skaya (Кубанская улица) – Küçə Moskvanın Lublino rayonu ərazisindədir. Küçə tarixi Kuban vilayəti və çay adındandır. Kuban~kuman poloveslərin ümumiləşdirici adı. Müasir Krasnodar(Karasun) və Stavropol(Taşlı) diyarlarını əhatə edirdi. 19-cu əsrin 70-ci illərindən Rusiyaya ilhaq edilmişdir.

*Веселовский, 171; Баскаков, ТЛС 86,123,127;*
*Т. Москвы, 57; ТК, 153-154,265*

**Kubar**evka (Кубаревка) – Moskva vilayətində (Mojaysk ray.) kənd. Koloça çayı sahilindədir. Kubar (1590), Kubarov (1609) adlı torpaq sahibləri qeyd olunmuşdur. Novqorod və Sum vil. (Ukrayna) kənd.

*Поспелов, 314*





**Kubas**ovo (Кубасово) – Moskvaaltı (Stupin ray.) kənd. Kəndin adının kökündə kubas "buy, işarə, mayak" mənaları duran Kubasov soyadından yaranmışdır (1551). Tver, Pskov, Saratov vil. kənd adı.

*Радлов, 2.1036; Веселовский, 167;*
*Даль, 2. 209*

**Kubin**ka (Кубинка) – Moskvaaltı kənd; 16-cı əsrdən məlumdur. Sahibinin familiyası ilə əlaqədardır; knyaz Kubinskinin(Kubanskinin) mülkü idi. 1961- ci ildən şəhərə qarışmış, Kubinka caddə adında qalmaqdadır. Mojaysk şosesi ərazilərindədir.

**Kubinka** (Кубинка) – eyniadlı kənddən azca aralıda dəmiryolu stansiyası. Kubanski soyadının digər variantı.

*Вагнер, 86*
*Bax: Kubanov*

**Kuçki** (Кучки) – Moskva vilayətində (Sergiev-Posad ray.) kənd; Boyar Kuçka (12-ci əsr) adı ilə onun torpaqlarında knyaz Dolqoruki Moskva qalasını tikmişdi.

*Веселовский, 175; Halıkov,66;*
*Поспелов, 324*

**Kuçk**ovo pole (Кучково поле) – Rus salnamələrində Kuçkadan, xüsusən onun övladlarından geniş bəhs olunur. 1117-ci ilə aid İpatov salnaməsində Kuçkovo çayının, yəni Moskva çayının adı çəkilir. Moskvanın sinəsində Kuckovo pole adı bu nəslin xatirəsini yaşatmaqdadır. Tədqiqatçılar güman edir ki, məhz Seretenkada ilk Moskva boyarı Kuçkanın mülkü yerləşirdi. Kuça-Novqorodlu Kuça İqnateviç Roman (15-ci y.) adı.

*Веселовский, 175; МЭ, 356*

**Kuda**evo (Кудаево) – Moskvaaltı (Çexov ray.) kənd. Kuday, Novqorodlu Kuday Zaxareviç Lupandin (1545), Ryazanlı Kudaev (1530) mülkədar Pyotr Vnukov Kudaev (1624) qeyd edilir. Vitebskdə kənd.

*Веселовский, 167; Halıkov,66*

**Kulakov** (ул. Кулакова) küçəsi– Moskvanın şimal səmtində Mir prospekti ilə Mıtışi caddələri arasında yerləşir. Kulakovka kəndinə görə adlandırılmışdır. (XX əsrin əvvəli)

**Kulak**ovka (пр.. Кулаковка) – Kulakovka caddəsi Moskvanın şimal-qərb səmtində İsakovski küçəsindən başlayıb Marşal Katukov küçəsiylə kəsişir.

**Kulak**ovka (Кулаковка) – Moskva vilayətində kənd (Şatura ray.). 18-ci əsrdə meydana gəlmiş; 1862-ci ilədək Kulakovskaya işlənmiş, çox güman ki, sahibinin soyadı ilə adlanmışdır.

**Kulak**ovo (Кулаково) – Moskva vilayətində (Çexov və Ramensk ray.) 2 kənd

**Kulak**ovskiy (Кулаковский переулок) – Küçə ev sahibinin adı ilə adlanmışdır. Kulak, Kulakov (ilk dəfə 1545) çox geniş yayılmış Türk əsilli Rus familiyasıdır; kulak "*qol*"; kiçiltmə forması kulak "*yumruq*" sözü ilə bağlıdır.
Voloqda (3), Tver (2), Ryazan (2), Nijeqorod, Yaroslav, Tümen, Novqorod (3), Pskov, Peterburq, Krasnoyar (2), Kemerovo vil. kənd.

*Веселовский, 169; Баскаков, ТНМУ, 24; Фасмер, 2. 408; Поспелов, 319; Сытин,163*

**Kulçukovo** (Кульчуково) – Ryazan vilayətində (Kasimov ray.) kənd.

*Bax: Kolçuqa məq.*

**Kulikovo** (Куликово) – Moskva vilayətində (Dmitrov və Voloklamskiy ray.) kənd. Kulik adı ilə bağlıdır; Kulik Sanarin (15-ci əsr), mülkədar Kulikovlar (15-ci əsr) məlumdur





**Kulik**ovskaya (Куликовская ул.) – Moskvada, şimal ərazisində böyük caddə, prospekt.

**Kulik**ovskiy (Куликовский пер.) – Moskvada mərkəzi qədim küçə. Eyniadlı coğrafi adlar Tver, Voloqda, Lipetsk, Nijeqorod, İvanov, Kaluqa, Kirov, Kostroma, Yaroslav və habelə Kalininqrad, Kurqan, Omsk, vil. vardır.

*Веселовский, 170;*
*Поспелов, 319*

**Kunçak**ovo (Кунчаково) – Ryazan vil. (Korablinski ray. bağlı) kənd.

*Bax: Konçakovo məq.*

**Kunqur** caddəsi. (пр. Кунгур) – Kunqur şəhəri (Xivə şəhəri yaxınlığında) adındandır. Kunqur < qunğur~qonğur~qunur~ qonur hərfən: *tünd boz, qaraşın*; *Kunqur* Türk tayfası adı. Perm vilayətinə aid şəhər, çay, tarix və təbiət abidəsi – buzlu mağara adı. Kunqurovka (Kurqan vil), Kunqurovo (Altay ölkəsi) kənd.

*Баскаков, ТНМУ, 29; ТК,75*

**Kurak**ino (Куракино) – Moskva vilayətində (Mojaysk) kənd. Knyaz Kurakinlərə məxsus olmuşdur.

**Kurak**ino (Куракино) – Moskvaaltı (Borodino k. ətrafında) massiv

Knyaz Kurakinlərin Rus hakimliyində təmsil olunan ulu babaları Bulqakın törəmələri bir neçə xətlə: Bulqakov, Qolitsın və Kurakin familiyalari ilə məşhur oldu. Andrey Kuraka çar III İvanın yanında boyar idi. Kuraqa ləqəbi ona qaraqabaq, dinməz, xəsis keyfiyyətlərinə görə verilmişdir. Kurakinlər Rusiyanın məşhur ailələrindən olmuşdu. Mari və Mordva ölkəsində, Novqorodda, Pskov, Mərkəzi Rusiya regionunda – Penza,

Voloqda (3), Tver, Orlov, Nijeqorod, Tula, Yaroslav, Smolensk, İvanov, Kaluqa vil. kənd.

*Радлов, 2. 921; Веселовский, 171; Баскаков, 42-44, 47-49*

**Kural**gino//Kuraldino (Куралгино//Куралдино) – Moskva vilayətində (Dmitrievsk ray.) aid kənd; indi Круглино. Kənd 15-ci əsrin birinci yarisinda Kuralgino və ya Kuraldino adlanırmış (kural~qural~xural "qanun, qayda" sözündən), Qizil Ordadan çıxmış və xaçlanmış Çergizova mənsub idi. Hər halda hər iki ad qeyri-rus (çox şübhəsiz, tatar kökənli olub burada Çergizovlar tərəfindən salınmışdır) mənşəlidir. artıq 18-ci əsrdən Kruqlino adlanır; bu dəftərxana məmurlarının yer bölgüsü və Qeydiyyat kitablarındakı buraxdıqları yanlışlıq nəticəsində olmuşdur.

*Веселовский С.Б. Труды., с.194*

**Kuran**ovo (Кураново) – Moskva vilayətində iki kənd (Naro Fominsk və Taldom ray. daxildir). Türk mənşəli rus soyadlarındandır; Kuran Speşnev (16-cı əsr), Kurbat Kuranov (1545) məlumdur. Soyadı *kurmak, tikmək* sözü ilə bağlıdır.

*Радлов, 2. 551; Веселовский, 172; Шипова, 195; Поспелов, 321*

*Bax: Kurmışov və Kurqan məq.*

**Kurbat**ixa (Курбатиха) – Moskva vilayətində (Yeqorevsk ray. dax.) kənd; 16-cı əsrdən məlumdur. Kurbat (1498), Kurbatov (1546) soyadı ilə bağlıdır.

*Веселовский, 172; Поспелов, 322*

**Kurbat**ovski (Курбатовский переулок) – Moskvada küçə; ev sahibinin adı ilə adlanmışdır. Mərkəzi Moskvada – Presnenski rayonu ərazisində yerləşmişdir.

*Баскаков, 251; Сытин, 169*





**Kurbat**ovo (Курбатово) Moskva vilayətində (Serebryano-Prudskiy ray.) kənd

**Kurbat**ovo (Курбатово) Moskva vilayətində (Volokolamski ray.) kənd. Kiçik Sestra çayı sahilindədir.

Kurbat, ardınca Kurbatov soyadı 1559-cu ildə qeyd edilmişdir. Kurbat türkcə qürbət, karabat "yaxınlıq, qohumluq (rus ağızlarında kurbatıy"qısa, gödəkboy") işlənir. Mərkəzi Rusiya coğrafiyasında – Vladimir, Voronej, İvanov, Kaluqa, Ryazan, Tula, Yaroslav,və Smolensk, Krasnoyar vilayətlərinə bağlı yer adları var.

*Веселовский, 172; Баскаков, 251; Поспелов, 322; Фасмер, 2. 423; Ведина, 454*

**Kurkino** (Куркино) – Moskva vilayətində (Şaxovsk ray. daxildir) kənd. Bundan başqa hazırda ərazisi Moskvaya qatılmış Kurkino kəndi də olmuşdur. Kurka adı ilə əlaqədardır; Kurka Murza Kurkin məlumdur(1579). Nəsil Orda xanı Bulqakdan, onun törəməsi Andrey Kurakdan başlayır. Kurkino kəndləri Voloqda (2), Kaluqa, Kursk, Ryazan, Smolensk, Tver və Pskov, Krasnoyarsk vilayətlərində vardır.

*Фасмер, 2. 430; Поспелов, 322*

**Kurqan** (Курган) – Moskvaaltı (İstra ray.) kənd. İndi adı Krasnovidovo olaraq dəyişdirilmişdir.

**Kurqan** küçəsi (Курган переулки) – indi Bolniçniy pereulok adlanır. Əvvəl Yekaterina xəstəxanası yerləşdiyinə görə adı dəyişdirilmiş. İndi burada Moskva elmi-tədqiqat klinik institutu yerləşir. Kurqanov bu ünvanda ev sahibi olub.

**Kurqan**skaya (Курганская) caddəsi Moskvanın şərqində Qolyanovo rayonu ərazilərndə yerləşir; Ural caddəsindən başlayır. Ural şəhəri Kurqanın şərəfinə adlanmışdır (1989).

**Kurqan Yaşil** (Зеленый Курган) – Moskva vilayətində (İstra ray.) kənd. Ərazilərindəki kurqanlarla əlaqədar adlanmışdır.

**Kurqan** (Курганье) – Moskva vilayətində (Domodedovo ray.) kənd; Yusubovo kəndinin cənubunda yerləşir. Ərazilərindəki kurqanlarla əlaqədar adlanmışdır.

**Kurqan** qədim türk dillərində *kurqan, korğan qala, istehkam, təpə;* qədim rus dilində kurqan (1224-cü ildən) *qala, hühdür torpaq sədd, məzar təpəsi,* sonralar mənaca dolğunlaşaraq *gözətçi kurqanı, istehkam* mənalarında da rastlanır. *Kurqan, Kurqanov* rus soyadı olaraq 15-ci əsrdən işlənilir. Kurqan Tırıdanov (1544), Kurqan Kladoviç Qlebov (1586). Qraf Saltık həm də Kurqan ləqəbi daşıyırdı və Moskvaaltında torpaq sahibi idi.

Kurqan – Smolensk, Tver, Kaluqa, Bryansk və Yekaterinburq, Belorusiyada – Qomel, Minsk, Mogilyev vil. kənd adı.

*Радлов, 2. 940, 570; Веселовский, 172;*
*Баскаков, 86-87; Фасмер, 2. 359;*
*Поспелов, 306; Сытин, 78*

**Kurmış** (Курмыш) – Ryazana bağlı (Korablinski ray. aiddir) kənd. Kurmuş Türk əsilli Rus soyadlarındandır (1577). Tatar ağızlarında kurmuş - küçənin ətrafında ev sırasını bildirir.

*Веселовский,173; Даль, 2. 223; Шипова,214*

**Kursak**ovo (Курсаково) Moskva vilayətində İstra ray qəsəbə. Kursakovo~Korsakovo saray əyanina məxsus Rus familiyası kimi 1480-ci ildə qeyd edilmişdir.

**Kursak**ovskaya (Курсаковская) dəmiryolu Moskva – Riqa dəmiryolu qovşağında Volokolamsk ərazisində stansiya; Yaxınlığındakı kəndin adı ilə adlanmışdır.

*Bax: Korsakov məq.*

**Kurskiy** vağzal (Курский вокзал) adı ilə bağlı prospekt, küçə və döngələr, kanava (arx)vardır. Kursk şəhəri ilə bağlandığı üçün Kursk vağzalı adlanmışdır. Kursk şəhəri Kür çayının





iki yerə ayırdığı təpələrdə yerləşir və öz adını həmin çaydan almışdır. Kursk 1508-ci ildən Rusiya dövlətinə daxil edilmişdir. Kur poloves dilindən keçən " *torpaq sədd, həyət, hasar*" ("İqor alayı"nda işlənən türkizmlərdəndir) 1095-ci ildə ondan Xəzər dövləti şəhəri kimi bəhs olunur.

*Веселовский, 171; Баскаков,*
*ТЛС, 159-160; Сытин, 170; ТК, 187-188*

**Kustanay** (пр. Кустанайский) caddəsi Moskvanın cənubşərqində procpekt. Qazaxıstanın Kustanay (Kostanay) şəhərinin xatirəsinə adlanmışdır (1977). Şəhər qazax bahadırı Kostan (Koştan~Kuştan "koş, birlik rəisi") batırın adı ilə əlaqədar meydana çıxmışdır.

**Kutafya bürcü** (Кутафья башня) – Kreml qüllələrindəndir. Kutafya bürcü *barbakan* vəzifəsini icra edirdi; *barbakan* hərb termini mənaca darvaza və ya körpünü müşahidə altında saxlayan qapıüstü gözətçi bürcü demək idi. Kutafya mənşəcə – geyim adı bidirən türk sözüdür. Bu qalın üst geyimi məcazi mənada *alçaqboy, kök arvad* mənasını verirdi. Bürcün belə adlanması onun quruluşca enli, yastı görünüşü ilə əlaqədardır.

*МЭ, 355*

**Kutuk**ov (Кутуков) kəndi Moskva vilayətində – Ryazan yolundadır. Kutuk adından formalaşmışdır. 16-17-cı əsrlərdə Ryazandan çıxma Kutukovlar məşhur idi. *Kutkin* kimi *Kutka, Kutukov* soyadı Murza Kutka adı ilə bağlıdır. Türk dünyasında geniş yayılmış Qutlu~Kuttu və ya Qutluğ~ Quttuq "*xoşbəxt*" sözü ilə əlaqəlidir. Bu soyadının Rus dilinə adaptasiyası quttu~qutta > Qutukov~Kutukov meydana çıxmışdır. Mərkəzi Rusiyanın Tula, Vladimir, Lipetsk, Ryazan vil. kənd adları.

*Веселовский, 174; Баскаков, 232*

**Kutuz**ov (Кутузовское шоссе) şosesi – Moskvanın qərbində magistral yol; Yeni Arbatın davamı olaraq başlayır, Mojaysk

yoluna qədər davam edir. 1957-ci ildə şose 1812-ci il müharibəsi baş komandanı general Mixail Kutuzov adını almışdır.

**Kutuz**ov (ул. Кутузовская) küç. Moskvanın Kuntsevo ərazisində küçə

**Kutuz**ov (ул. Кутузовская) – Kutuzov prospekti civarında keçid və küçə

**Kutuz**ov (пр. Кутузовский) caddəsi Moskvanın qərbində yerləşir.

**Kutuz**ov (Кутузовский проезд) keçidi. Şəhərin Doroqomilov səmtində yerləşir

Kutuzov caddə və küçələri adları *Kutuzov slabodasına* görədir. Ümumiyyətlə keçmiş Moskva qəzasında Kutuzov adlı 7 kənd olmuşdur.

Xüsusən Volqa və Oka çayları arasında çoxlu sayda *Kutuzovo* kəndlərinin olması həmin kəndlərin sahiblərinin adlarının geniş yayıldığından xəbər verir.

**Kutuz**ov (Кутузов) Moskvaaltı kənd. Demodedovo rayonuna aid kənd 16-cı əsrdən məlumdur. Fedor Kutuz (14-cü əsr), boyar Kutuzov ların əlində olmuşdur (1447).

**Kutuz**ovo (Кутузово) keçmiş kənd 1987- ci ildən Moskvaya qatılmışdır. QK-nın 1573-cü ilə aid qeydlərdə Boris Kutuzovdan Kanbulat oğlu Çerkasskiyə keçdiyi göstərilir.

Kutuzov Moskvaaltında Moskva çayı üstündəki Peçatnikovo əvvəl Kutuzov adlanırdı. Şübhəsiz, məntəqələr daha çox bu söyun nümayəndələri arasında zənginliyi ilə fərqlənən Novqorod boyarı Prokşa Andreyeviç Kutuzovun nəvəsi 14-cü əsrdə yaşamış və çox varlı adam sayılan Fyodr Kutuzova məxsus idi.

Türk əsilli Kutuzovlar soyunun kökündə kutuz "qudurmuş, quduz dəymiş) məcazi mənada *dəli, cəsur, igid* Türk sözü durur. Kutuzovlar soyadı Kutuz Fedor Aleksandroviçdən (XIV) başlayır. Kutuzovo –Tver, Nijeqorod, Orlov,





habelə Pskov, Samara, Omsk, Kalininqrad, Yekaterinburq, Xabarovsk vil. kənd adı..

*Веселовский, 174; Баскаков, 12, 35, 92; Сытин,170; Поспелов, 324,583; Подмосковье, 530-531*

**Kuzyaevo** (Кузяево) kəndı – Ramensk ray. aiddir. Bu adda Moskva vilayətində altı kənd vardır. Kuzyay soyadı 1470 və 1498- ci ildə, Kuzyayevlər isə 1568-ci ildə qeyd edilmişdir. Kuzovlevlər kimi Kuzyaylar soyadının əsasında *quzu* (bürc adı) durur. Vladimir (2), İvanov, Kostroma, Yaroslav vil. kənd.

*Веселовский, 169; Баскаков, 42, 237, 255*

**Qaqino** (Гагино) – Moskva vilayətində (S.Posad ray.) kənd. 1462-ci ildə çar Vasili Temnінin vəsiyyətnaməsində kəndin adı çəkilir. Qaqa və Qaqinlər soylarına mənsub olmuşdur. 15-ci əsrdə Qaqa soyadından – knyaz Vasili Andreyeviç Qaqa Şastunov-Yaroslavskidən knyaz Qaqinlər əmələ gəldi. Mərkəzi Rusiyada: Nijeqorod, Lipetsk, Ryazan vil. kənd.

*Веселовский, 76; Поспелов, 205*

**Qarbuz**ovo (Гарбузово) – Smolensk və Belqorod vil. kənd. Qarbuz – Rus dilində arbuz "bostan məhsulu" kimi sabitləşən bu sözün Rus şıvələrində qarbuz, xarbuz kimi variantları vardır.

*Радлов, 1547; Даль, 1. 344; Фасмер, 1.83*

**Qaydar küçəsi** (ул. Гайдара) – Moskvada küçə; yazıçı Arkadi Qaydarın xatirəsinə belə adlanmış. Təxəllüs Qaydar~Aydar <Heydər "şir, aslan", məcazi mənada cəsur, igid, alp bahadır; peyğəmbərin damadı həzrəti Əlinin ləqəbi əsasında yaranmışdır. 1430-cu ildə Ruslarla müttəfiq olan Bulqar Orda knyazı Aydardandırlar. Dövlət adamlarından Aydarov Uraz 1578-ci ildən zadəgandırlar. Kolomnada mülk torpaqları olmuşdur. Moskvada

Qaydar Teatr-studiyası da fəaliyyət göstərir. İvanovo, Voronej, Pskov, Tula vilayətindəki Aydarovo, Qaydarovo yaşayış məskənləri Aydarlar soyu ilə bağlıdır.

*Веселовский, 10; Баскаков, ТНМУ,23; МЭ, 198; Halıkov 27-28; Türk İ., 68*

**Qlin**skiy (Глинский переулок) – Moskvanın mərkəzində küçə. Orda hakimi Mamayın oğlu Mansur Kiyatın törəmələri xristianlığı qəbul etdikdən sonra bu soyadını qəbul etdilər. Bu ad onların müasir Ukraynadakı Sula çayı (Dnepr hövzəsi) üstündəki Qlin (gil sözündən) ərazilərinin adıyla əlaqədardır. Ukraynada Poltava, Suma vil. bağlı kəndlər.

*Сытин, 101; Т. Москвы, 28; Halıkov, 48; RTS, 42,44,52,108*

**Qlin**istıy (Глинистый переулок) – Küçə Moskva şəhəri Meşşan ərazisindədir. 19-cu əsrdə küçənin gilli torpaqlı olması səbəbi ilə əlaqədar meydana gəlmişdi.

**Qlin**kovo (Глинково) – Moskva altında kənd; Ruzsk ray. daxildir.

*Bax: Qlinskiy məqaləsinə*

**Qoqol** caddəsi **(ул. Гоголя)** – Moskvanın mərkəzində bu adda 4 küçə və Qoqol bulvarı vardır. Qoqol familiyası türkcə, qırğızca kögöl "yaşılbaş ördək", şor dilində bülbül, saka dilində balaca kəkilli ördək adıdır. Qoqolevo – Tver vil. kənd.

*Радлов, 2. 1232; Баскаков, ТНМУ,23; ТСЛ, 105,108; Halıkov, 48; Ведина, 225*

**Qonçar**ovo (Гончарово) – Moskvaltı kənd (Dmitriev ray.)

**Qonçar** sahili (Гончарная набережная) – Şəhərin mərkəzində yerləşir; Moskva çayının sol sahil küçəsi. 16-cı əsrdə Taqan təpəsində məhəllələr salmış Qonçar slabodası yerindədir. Burada Qonçar kilsəsi də tikilmişdir..

**Qonçar**ov caddəsi (ул. Гончарова) – Şəhərin mərkəzində – Moskva çayı sahillərindən başlayıb Taqan meydanınadək uzanır.





**Qonçar**ov küçəsi və keçid (Гончаровский переулок и переезд) – Moskvanın mərkəzində yerləşir. Aşağı Radişşev küçəsindən başlayır.

**Qonçar**ov gölü (Гончаровский пруд) – Moskvanın şimal-şərqində göl

**Qonçar**ov caddəsi (Гончаровская ул.) – Moskvada caddə və ona qovuşuq 2 küçə yazıçı Qonçarov İvan Aleksandroviç (1812-1891) şərəfinə adlanmışdır (1958). Qonçarovo Rusiyada (Pskov, Smolensk, Tver, Yaroslav, Voronej vil. və Kalininqrad, Kirov, Peterburq) coğrafi obyekt adı.

*Долгоруков, 83; МЭ, 209-210*

**Quzey**ev dərəsi (Гузеев овраг) – Moskvanın cənubunda uzunluğu 1, 3 km.lik dərə. Qozu~quzu "qoyun quzusu"; bürc adı. Bu bürc altında doğulmuş adam. Şübhəsiz, soyadı ilə əlaqədardır.

*Баскаков, ТСЛ, 85*

**Labaz**naya (ул. Лабазная) küçəsi; indi Repin meydanı. Əski Moskvada bu yerdə meyvə-tərəvəz bazarı olduğuna görə belə adlanırdı. Labaz, lapas "çardaq; meyvə tərəvəz", labaznik "*baqqal*" rus dilində geniş dairələrdə işlənilirdi. Maqadan vil. çay və şəhər adı.

*МЭ, ст. 542; Сытин, 172; RTS, 53, 58*

**Lapş**inka (Лапшинка) –Moskva vilayətində (Odintsov rayonu) kənd.

**Lapş**inka (Лапшинка) – Moskvaaltı (Lenin rayonunda) kənd. Lapşa, Lapşin adı ilı əlaqədardır. İvan Lapşa (1562), Dmitri Lapşin (1536) məlumdur. Soyadının əsasında türk sözü lapşa, lakca "*əriştə*" sözü durur; +in+ka rus dili şəkilçiləri

*Радлов, 3.729; Веселовский, 177; Фасмер, 2. 460; Поспелов, 327; Lelevk., 19*

**Lebed**evskiy küçəsi (ул. Лебедевская ) – Moskvada küçə; ev sahibinin soyadı ilə adlanmış.

**Lebed**inoe göl. (Лебединое озеро) – Kazan dəmiryolu üstündə, Moskva çayı boyundadır.

**Lebed**yan caddəsi (Лебедянский пр.) – Moskvanın cənubunda Biryulevo səmtindədir. Lipetsk vilayətindəki Lebedyan şəhəri naminə qoyulmuşdur (1973).

Türk əsilli Lebed, Lebedev Rus soyadları XV-XVI əsrlərdən qeyd olunur. Türk dilində labada "*at ispanağı*"; Tatar dilində həm də lebeda, alabota qida kimi istifadə edilən ot; Altayda boylarında boylarinda Türk xalqı Lebedlər yaşayan Lebed çayı axır.

Lebed Türk xalqlarında "*səadət quşu*"; xoşbəxtlik totemi olmuşdur. Altayda Pazırık kurqanları (b. er. əv. V-III əsr) məzarlıqında məxmərdən hazırlanmış lebed fiqurları tapılmışdır. Bu onu göstərir ki, lebed kultu çox qədim, yayılma miqyası isə çox geniş olmuşdur. Ural dağlarında da ilk insan düşərgələrindən qazıntılar zamanı er. əvvəl III-II əsrlərə aid nümunələrüstü lebed şəkilli qablar aşkar edilmişdir.

*Радлов, 1. 351, 367; 4. 1713; Веселовский, 178; Баскаков, 38; Вагнер, 80; Сытин, 173*

**Levaş**ovo (Левашово) –Moskva vilayətində (Mojaysk rayonuna daxildir) kənd. Levaş, Levaşov türk mənşəli rus familiyalarındandır (XVI əsrin əvvəlləri) Tver, Yaroslav, Vladimir, Nijeqorod, habelə Pskov, Rostov, Peterburq vil. kənd adı.

*Веселовский, 179; Баскаков, 36; Ведина, 464*

**Los** (Лось) – İçka çayının qolu Los və Losevlər rus soyadıdır; Los (1495). İri torpaq sahibləri Losevlər 17-ci əsrdən qeydə alınmışlar.

*Веселовский, 184-185; МЭ, 191*





**Lıç**evo (Лычево) –Moskvaaltı (Sergiyev Posad ray.) kənd. Ruscadakı məhəlli dairədə işlənən və ədəbi dildə sabitləşən *lıça~alıça* türkizmindən – giləmeyvə adından formalaşıb>Alçalı. Mərkəzi Rusiyada – Bryansk, Vladimir, Voloqda, İvanov (2), Kaluqa, Tver, Yaroslav və Pskov vil. kənd adları.

*Фасмер, 2. 542; Даль, 2. 277; RTS, 44, 112*

**Maqazin**nıy tupik (Магазинный тупик) – Moskvanın cənub-şərq istiqamətində, Lefortovo ray. dalan. Ərəb mənşəli Türk sözü maqazin rus dilində "*alış-veriş yeri; anbar, odlu silahda güllə yeri; cəbbəxana*" mənaları daşıyır.

*Радлов, 4. 2001; Шипова, 225; Сытин, 185; RTS, 111,116*

**Mamırı** (Мамыри) kəndi –Moskva vilayətində Lenin və Naro-Fominsk rayonu daxilində iki kənd: İkincisinin ərazisi Aprelovka şəhərinin genişləndirilməsi ilə əlaqədar olaraq onun ərazisinə qatılmışdır (1961). Mamır rus familiyası Böyük knyaz III İvanın dyakı (dəftərxana rəisi) Mamırev Danilo Kipiyanov məlumdur. Kəndin adı sahibinin familiyası ilə bağlıdır. İrkutsk vilayətində də Mamır kəndi (Bratsk ray.) Mamır kəndi və iki körfəz – Böyük və Kiçik Mamır körfəzləri var. Mamır "*bataqlıq yer*" mənasından "*çətin, adamayovuşmaz*" kimi əlavə mənalarda xarakter xüsusiyyətləri bildirməklə şəxs adına da keçə bilmişdir.

*Веселовский,193; Поспелов, 87; Lелев., 19*

**Mamon**ovo (Мамоново) – Moskva vilayətində (Leninsk, Lotoşin ray.) 2 kənd. Mamon Sutırin (1624), İvan Mamonov ilə (1516) bağlıdır.

**Mamon**ovo (Мамоново) – Moskva vilayətində (Lenin ray.) göl

**Mamon**ovo qorodişe (Мамоново городище) – Lujniki çəmənliyinin qarşısında Moskva çayının səfalı sahillərində yerləşir.

**Mamon**ov (Мамоновский переул.) – Moskvanın mərkəzində, Tverskoy ərazisində küçə. Qraf Mamonovların buradakı evinə görə. Mamonovlar 1825-ci ildə öz saraylarını göz xəstəxanasına bağışladılar.

**Mamon**ovo (Мамоново) – Ryazanda kənd; Pronski ray. bağlıdır.

**Mamon**ovo (Мамоново) – Moskva vilayətində (Odintsov ray.) kənd. Mamonovo Moskvaya çox yaxın olması səbəbindən yaylaq kəndidir. Kəndin adı *Mamonovlar* soyu ilə bağlıdır; bu soy XV əsr görkəmli dövlət xadimi Böyük kn. III İvanin müşaviri Kazanlı Abdulla Mamondan - Qriqori Andreyeviç Mamondan başlayır[53].

Mamon "mömin, salih, itaətkar, sakit" deməkdir. Mamonovların ailə gerbində iki səkkizguşəli ulduz, aypara və ox nəqş olunmuşdur. Mamon – Voronejdə, Mamonovo Kalininqrad vil. şəhər.

*Веселовский, 193; Баскаков, 54-55; Поспелов, 352*
*Сытин, 266; Halıkov,72;*
*TƏR, 133-139*

**Mamont**ovka (Мамонтовка) –Moskva vilayətində (Puşkin ray. dax.) kənd Mamontovlara məxsus yaylaq kəndi; 2003-cü ildən Puşkin qəsəbəsinə birləşmişdir.

**Mamont**ovka (Мамонтовка) – Moskva vilayətində kənd (Noginsk r.)

**Mamont**ovka stansiyası (ст.Мамонтовка) əraziləri şimal-qərbdən Akulovo, qərbdən isə Uça meşəsi həmsərhəddir. Dəmiryolu Mamontovlara məxsus torpaq mülkündə çəkildiyinə görə belə adlanmışdır. Qızıl Ordalı Mamant adı ilə bağlıdır.

*Баскаков, 54-55; Поспелов, 352; Ведина,510*

---

[53] Архитектурные памятники Москвы и Подмосковья. М., 1954. С.10.





**Mamstürük** (переулок Мамстрюк) –İvan Qroznının xanımı Balkar xanının qızı olan Küçənəkin qardaşı Temiryük xanı "Çar qaynı" Mamstürük Çerkasskinin evinə və torpağına görə Mamstürük adlanmış. İndi Merzlyakov küçəsi adi ilə əvəz olunmuşdur.

*Сытин, 198; TK, 274-275; TƏR, 286-291*

**Mansur**ovo (Мансурово) – Moskva vilayətində (Domodedovo və İstra ray.) kənd Moskvalı elçi Fedot Mansurov (1475), Mansur Plyuskov (1551) məlumdur. Mansurovlar öz adlarını Fedot Mansurovdan almışlar(1475).

**Mansur**ovskiy (Мансуровский переулок) – Moskvanın mərkəzində - Xamovnikidə küçə. Ev sahibinin adı ilə adlanmışdır.

Mansurov soyadı "*qalib, müzəffər*" mənalı mənsur sözündən yaranmışdır. Mansurov soyadı Türk mənşəli Rus familiyalarındandır. Bu ailənin xristian şəcərəsi İvan Kalita zamanı Qızıl Ordadan Rus dövlətinə köçüb gələn Mansur oğlu Alivtey Şigildiyevlə (Şahgeldıyevlə) başlayır. Kaluqa, Kursk, Orenburq, Kurqan vil. kənd.

*Баскаков, 59-60; Веселовский, 193; Halıkov, 72-73;*
*Сытин, 186; Т. Москвы, 57; Поспелов, 353*

**Manuk**ov (Манукова переулок (indi Krivonikolskoe) – Arbata çıxan küçə. Suvorov bu evdə anadan olmuşdur. Böyük Ordalı F.S.Manukov Suvorovun anasının atası idi; 1728-də bu evi qızına cehiz vermişdir. Manukovo – Pskov, Tver vil. kənd.

*Сытин, 165, 271*

**Matıra** (Матыра) – Moskva vilayətində (Luxovitsk ray) kənd; XVI əsrdən məlumdur. Rus dilində ləqəb kimi işlənən matıra (əsli matır~batır "igid, pəhləvan" sözündən) "fədai,dəli-dolu, çılğın, öcəşkən" deməkdir

**Matır**ka (Матырка) çay; Okanın qolu çayın xarakterinə

görə adlanmış. Matır~batır "bahadır, alp, qəhrəman" sözü ilə bağlıdır. Voronej, Tambov və Lipetsk vil. çay və kənd adı.

*Радлов, 4. 1511; 1514; Фасмер, 1. 135; Шипова, 68; Вагнер, 94*

**Maydan**ovo (Майданово) – Moskva vilayətində kənd; Klin ray. daxildir. Maydan "bazar meydanı, cəmiyyət toplaşan yer, açıqlıq" rus dilində sözün arqo məqamı ortaya çıxmışdır: maydan "qumar masası", maydanşik "*qumarxana saxlayan*"; *maydanit* "*meydançılıq etmək*". Türk dillərində *düzənlik, hamar yer; kütləvi yer, döyüş meydanı, arena.*

*Радлов, 4.1990; Фасмер, 2. 559; Подмосковье, 99; Шипова, 226-227*

**Mazut**nıy keçidi (Мазутный роезд) – Moskvada keçid.

Mazut rus dilindəki Türk (əsli ərəb) sözündəndir; makhzulat "tullantı", neft emalından sonra yağlı qalıq. Vaxtilə ərazidə Mazut Aksioner cəmiyyəti yerləşdiyindən belə adlanmış.

*Фасмер, 2, 558; Сытин, 186; Шипова, 226; RTS, 83*

**Meşerı** (Мешеры) – Moskva vilayətində kənd; Ramensk ray. daxildir. Kəndin adı Meşer xalq adının soyadına, ondan da kəndin adına çevrilməsi ilə yaranmışdır: Meşerov, Meşerin, Meşeryak (15-16-cı əsrlər)

Oka sahillərində yaşayan yerli xalqın adından; onlar meşerlər və ya Kasimov tatarları adlanırdı.

**Meşerı** qəsəbə (Мешерсkое) – Moskvaaltı kənd; Çexov ray. daxildir.

**Meşer** Yaylağı (Мешерина дача) – knyaz Meşerskiyə mənsub idi; 1984-cü ildən Moskvaya daxil edilmiş 6 xiyaban adında yaşamaqdadır.

**Meşerı**no (Мешерино) kəndi; Ramensk ray. daxildir.





Rəsmi sənədlərdə ilk dəfə 1676-cı ildə rast gəlinir

**Meşer** çökəkliyi (Мешерская низменность) – Moskva ərazilərinin şərq qismini əhatə edir və əski sakinlərindən xəbər verir. 16-cı əsrədək burada yalnız meşerlər yaşayırdı.

**Meşer**ski bor (Мешерский бор) – Moskvaaltı (Şatura ray.) qəsəbə

Meşera coğrafi ərazi; çökəklik. Beş çayarası Klyazma, Moskva, Oka, Sudoqda, Kolp arası XVI əsrədək bu yerlərin köklü əhalisi olan xalq.

**Meşer**ino (Мешерино) – Moskvaaltı (Leninsk və Stupin ray.) kənd

**Meşera** gölləri (Мешерские озера) – Moskvanın qərb qismində eyni adda üç göl

**Meşer**skoe (Мешерское) –Moskvaaltı (Çexov ray.) kənd. Bulat Meşerskiyə məxsus olmuşdur. Knyaz Meşerskilərin Rus dövlətindəki tarixi 1298-ci ildə Böyük Ordadan ayrılıb gələn Şirin nəslindən Baxmet Useyin oğlundan saylır. Meşerskilər də Meşerinlər kimi meşerlər~mişarlar tayfa adlarından formalaşmışdır. Meşera adlı Tula, Penza, Vladimir, Ryazan, Nijeqorod vil. kəndlər var.

Веселовский, 1 97; Баскаков, 79-80, 80, 122; Поспелов, 353, 587, 362; Вагнер, 97; Halıkov, 74

**Meşkovo** (Мешково) – Moskvaaltı (Len. ray.daxildir) kənd. İvan Kalitanın silahdaşı olan İvan Kalitanın mirzəsi olmuş Okatinin (Akat) nəvəsi, Dmitri Donckoyun əyanı Qriqori Meşka Valuyevə məxsus olmuşdur. Akat İvan Kalitanın göstərişi ilə Zveniqorod slabodasını abadlaşdırıb məmur etmişdir. Mərkəzi Rusiya regionunda – Tver, Ryazan, Orlov, Yaroslav, Nijeqorod, Kursk, Kostrama, Kaluqa, İvanov vilayətlərində kənd.

Баскаков, 79-81; Поспелов, 362, 587; Lелеv.,21; Подмосковье, 369

**Miçur**in gölü (оз. Мичуринское) – Moskvanın qərb qismində Miçurin prospektinə yaxın yerləşir.

**Miçurin** (Мичуринский пос.) –Moskvaaltı (Lenin ray. daxildir) qəsəbə.

**Miçur**insk platforması (Мичуринская платформа) – Moskvaalı dəmiryolu stansiyası.

**Miçur**insk (проспект Мичуринск) – Kutuzov və Vürnadski prospektləri arasında böyük caddə, xiyaban.

Miçura, Miçurin (əsli: Baçurin) – 1430-cu ildən Uqliçdə iri torpaq sahibi olaraq Miçura qeyd olundu. Miçurin soyadı isə 1510-cu ildən qeyd edilmişdir.

Soyadının əsas Bayçura – bay "*zəngin, adlı-sanlı*"; çura~çora "*bahadır oğlu, yeniyetmə xanzadə, naib*". Rus adaptasiyasında Baçurin~Biçurin əsasında formalaşan fonetik variantı Miçurin familiyası ilə bağlıdır. Familiya Bayçurin şəklini b~m səs uyğunluğu əsasında dəyişməklə Biçurin~Miçurin şəklinə düşmüşdür. Baçurinlər (Miçurinlər) iri torpaq sahibləri olmuşlar(1685)

Mərkəzi Rusiyada – Tambov, Ryazan, Kostroma, Bryansk, Vladimir, Tula, Voloqda, eləcə də Kalininqrad, Orenburq, Perm, Tümen, Çelyabinskdə yaşayış məntəqə adları.

*Веселовский, 197; Поспелов, 362; Баскаков, ТНМУ, 25; Halıkov, 74-75*

**Min**ino (Минино) – Moskva vilayətində 5 kənd (Şatura, Klin, Ramen, Orexovo-Zuy., S.-Posad ray.) Qıpçaq – Ordu qəbiləsi olan Min qəbiləsindən çıxan tanınmış soylardan biri Mininlərdir. Orda xanı Moskva "*daruğası*" Min-Bulat məlumdur. Smolensk (4), Voloqda (6), Kalininqrad, Kostroma, Nijeqorod, Novqorod, Krasnoyar (2), Perm, Pskov (3), Novosibirsk, Tula, Tümen, Tver (5), Yaroslav (3) kənd.

Halıkov, 75; Ведина, 533





**Mişen**skoe (Мишенское) – Tula vilayəti Belev və Odoevski ray. kənd. Mişen qədim rus alınmasıdır "möhür" (1351) Mişen - əlamət, fərq; hədəf, işarə, nişan.

*Срезн., 1. 155-56; Фасмер, 2. 630; Шипова, 236; Даль, 2. 330*

**Monetçik** küçələri (Монетчиковский переулок) – Moskvanın mərkəzində Moskva çayı ətrafında küçələr (6 küçə) 19-cu əsrdə Kadaşevdəki monetçiklər yaşayan Monet məhəlləsinə görə adlanmış.

**Monet.** Staro **Monet** (ул. Монетная) küçəsi. Tarixən Moskvada pulkəsən ustaların (monetçiklərin) öz slabodası var idi. Denejniy Dvor adlanan həmin yerdən Eski (Staro) Monet küçəsi adı xatirə qalıb. Monet (*sikkə*) bu gün Azərbaycanda və Türkmənistanda pul vahidi manat adında saxlanılır.

*Горбаневский, 37; RTS, 121-122*

**Mordvin**ovo (Мордвиново) – Moskva vilayətində (Mojaysk ray. daxildir) kənd. Mordva etnos adı Ryazanda, N. Novqorodda bir çox soyadlarının yaranmasında rol oynamışdır: Mordvin Muravyov (1500); Yurak Bulqakov Mordvinov (XVI əsr). Məşhur Mordvinovun nəsil başçısı Murad isə xristianlığı qəbul etdikdən sonra (1546) mühüm dövlət içlərində çalışmışdır. Admiral Mordvinov bu soydandır. Mordvinovo – Vladimir (2), İvanov, Kaluqa, Ryazan (2), Yaroslav vil. kənd adı.

*Веселовский, 203; Поспелов, 368;*

**Muxan**ovo (Муханово) – Moskva vilayətində (Sergiyev-Posad ray.) kənd. Şanlı ailələrdən olan Muxanovlar Kazan və Astarxanın Rus idarəsinə keçməsilə Moskvada xidmətə girmişlər. Halıkov Muxan~mukan əsli ərəbcə muhan "*zəhmətkeş, əziyyət çəkən*; *məzlum*" soyadının əsasında durduğunu desə də, bizcə, Mukan soyundan və ya Ordalı Mukan ~

Muğan xandan gəlir. Muxanovo – Nijeqorod, Orlov, Samara vilayətlərində kənd.

*Веселовский, 209; Баскаков, 106,107; Halıkov, 76; Ведина, 556*

**Muranovo** (Мураново) – Moskva vilayətində kənd (Puşkin ray. daxildir). Muran~Buran adı ilə bağlıdır. Moskvalı saray mirzəsi Qavrilo Muranov məlumdur (1545). Türk mənşəli rus Muranov-Buranovlar soyadı XVI yüzillikdə qeyd olunmuşlar.

*Веселовский, 208; Поспелов, 368*

**Muratovo** (Муратово) – Orlov vil. (Livenskiy ray.) kənd. Murat, Muratovlar və ya Amuratovlar 1551-ci il qeydiyyatındadır. Vladimir, Kaluqa, Orlov(3), Ryazan vilayətində, habelə Kemerova, Krasnoyar, Novqorod, Peterburqda kənd.

*Веселовский, 208*

**Murzino** (Мурзино) – Moskva vilayətində (Stupin ray. daxildir) kənd. QK-da 1577-ci ildə qeyd olunmuşdur. Murza "*şahzadə*" adı ilə bağlıdır. Kaşirli Murza Kasatkin (1543); Moskvalı Murzin (1555) məlumdur. Soyadı Türk sözü murza "*əsilzadə, əmiroğlu*" (hərfən) titulu ilə əlaqədardır. Rus familiyası içərisində Murzin, Murziç soyadlarına rast gəlinir. Murzino – Kaluqa, Pskov, Tver, Yaroslav, Nijeqorod vil. və Başqırdıstan, Buryatiyada kəndlər.

*Веселовский, 208; Баскаков, 246; Поспелов, 368; Halıkov, 77*

**Musa Cəlil küçəsi** (ул.Муса Джалила) –Sovet İttifaqı qəhrəmanı, Tatar şairi Musa Cəlilin xatirəsinə (1976) küçə; Moskvanın cənub səmtində yerləşir.

**Musino** (Мусино) – Moskva vilayətində kənd (Volokolam. ray. daxildir) – Musa adından əmələ gəlmişdir; XV əsrdə





Musa Peşkov-Saburov; Musa Puşkin, ondan 1695-ci ildə Musin-Puşkinlər törəmişdir. Orenburq vil. və Başqırdıstanda eyniadlı kəndlər vardır.

*Веселовский, 208; Баскаков, 143, 144; Поспелов, 373; Halıkov, 77*

**Myaçkovo** (Aşağı) (дер. Нижнее Мячково) – Moskva vilayətində kənd (Luxovitsk. ray.) daxildir. Myaçkovo XIV əsrdə Myaçkovların ailə başçısı Myaçkaya aid olmuşdur. Myaçkovların ulu babaları Albuqa Tabriz dövlətindən müttəfiqi Dm. Donskoya xidmətə gəldi. Myaçkovlar Albuqanın~Olbuqanın nəvəsi Maçkadan başlanır. Maça, Maçak (əzizlənmə forması) pişik; özbəkcə isə "dişi heyvan" deməkdir. Məlum münasibətlərdə Türk gəncinə heyvan adı vermək ənənəsi vardı. Myaçkovo – Nijeqorod, Novqorod, Pskov vil. kənd.

*Веселовский, 210; Баскаков, 146; Поспелов, 376, 390; Halıkov, 76*

**Nabat bürcü** (Набатная башня) – Kreml bürclərindəndir (1490). Bu zəng asılmış bürcdə keşikçi dəstəsi durur və ətrafı müşahidə edirdi. Təhlükəli zaman həyəcan nabatı çalmalı idi.[54]

Nabat Türk sözü (kilsə zəngləri və ya qoşunda iri barabanlarla verilən həyəcan siqnalı) qədim türklərdə, xüsusən, Səlcuqlular zamanı xan və ya seçmə əyanların sarayları qarşısında növbə dəyişməsi zamanı çalınan baraban, kərənay, siqnal; Türk dilləri vasitəsilə yayılmışdır.

Başnya qədim Rus ədəbi dilində başnya "*bürc, türmə, zindan*" mənasında işlənirdi Nikon salnaməsində *başta* (qalanın taran edilməsində divarlara yaxınlıqda hərəkətə keçən döyüşçülərin təhlükəsizlik məqsədilə başları üzərindəki müdafiə qurğusu) işlənmiş, Türk sözü **baş** Rus dilində tam anlaşıqlı və istər müstəqil,

[54] Шанский Н.М. В мире слов - Москва: Просвещение, 1971 ,s. 97

istərsə də derivatları ilə birgə işlənən söz idi: **baş** "*qızıl balığın başı*", "*baş na baş*" (başabaş dəyişmək) **başlık** "rəis, ataman".

*Веселовский, 211; Фасмер, 3. 34; Шипова, 242; СРЯ, 11-17 вв,с.83*

**Naqat**ino (Ногатино) – Moskvanın böyüməsilə 1960-cı ildən şəhərə birləşdirilmişdir. Rusca noqota "nəqd" sözündəndir – qədim Rusda gümüş dirhəmlər belə adlanırdı. Naqatkin. Naqatin, Noqot, Noqtevı (1350), habelə Nagayevlər Türk mənşəli rus familiyalarıdır. Boyar titulu daşımışlar (15-ci y.). Kostroma vil. kənd.

*Веселовский, 211, 222; Halıkov, 77*

**Nariman**ov caddəsi. (Наримановская улица) –Moskvanın Şərq səmtində yerləşir. Familiya nər~nar "*erkək dəvə*", məcazi mənada nəri "*nər kimi, güclü, möhkəm*"; man "kişi, adam" Sovet dövlət xadimi Nəriman Nərimanovun xatirəsinə adlandırılmışdır. (1925)

*Баскаков, 258; ТНМУ, 25*

**Narış**kin **xiyabanı** (Нарышкина аллея) – Moskvanın Şimal səmtində, aeroport hissəsində yerləşir: burada ilk ev sahibi boyar Narışkinin adı ilə adlanmışdır.

**Narış**kin keçidi (Нарышкин проезд) – Moskvanın mərkəzində, Tverskoy ərazisində keçid; küçə. Ev sahibinə görə adlanmışdır.

Rus imperatoru Pyotrun ana nəsli olan Narışkinlər ailəsi Rus dövlətinə xidmətdən əvvəl Narış (nər "*erkək dəvə; güclü, mərd*; -ış "əzizləmə şəkilçisi") ləqəbilə tanınırdı. Semyon və Muraz Yanışev Narışkin soyadı ilə III İvanın xidmətində idilər (1463) Narışkino – Rusiyanın Orlov, Nijeqorod, Tula, Lipetsk, Tambov vil. kənd.

*Веселовский, 213; Баскаков, 101-103; Сытин, 203; Halıkov, 78; TƏR, 297-301; Ведина, 572.*





**Nazar**yevo (Назарьево) – Moskva vilayətində (Odintsov ray.) kənd. Vyazemka çayının sağ sahilində yerləşir. 1631-ci ildə QK-da qeyd olunmuşdur.

**Nazar**yevo (Назарьево) –Moskva vilayətində 8 kənd (Klin, İstra, Dmitrievsk, Zarayski, Şaxovski, Stupin, Yeqoryevsk, S. Posad ray. daxildir). Monastır mülkiyyətinə keçənədək (1425-ci ilədək) Nazaryevlərin kəndi olub

**Nazar**yevka çayı (река Назаровка) – Moskvaaltı Zelenoqrad rayonu ərazisindən axır.

Rusiyanın Vladimir (3), Voloqda (3), İvanov, Kostroma, Ryazan, Yaroslav (5), Pskov, Çelyabinsk, İrkutsk, Tümen vilayətlərində kənd

*Поспелов, 377; Ведина,566*

**Nazim**ixa (Назимиха) – Moskvaaltı kənd Şelkovski ray. 1585-ci ildə "Pustoş Nazimova" deyə adı çəkilir. 1623-cü ildə Nazimov kəndi, 1852-ci ildən Nazimixa adlanır. Sənədlər üzrə məlumdur ki, mülkədar Nazimovlar XV əsrdən məlumdur; 1564-cü ildə kəndin sahibi olaraq Nazim Kareyev adı çəkilir.

*Веселовский, 212; Баскаков, 258; Поспелов, 378*

**Nosırevo** (Носырево) Moskvaaltı (Pavlo Posad ray. daxildir) kənd. Nosır~Nasir adı ilə əlaqədardır; Nosır Velyaminov (XVI əsr) və posad (canişinlik) nəfəri Gerasim Nosırev (1636) məlumdur

*Веселовский, 222; Поспелов, 377, 397*

**Oçak**ov (шоссе Очаково) –Moskvaaltı şose yolu

**Oçak**ov gölü (оз. Очаково) – Moskvanın qərbində yerləşir

**Oçak**ov (рай. Очаково) –Moskva vilayətində inzibati rayon adı

**Oçak**ov (ул. Очаково) şəhər küçələri (5 küçə); **Oçakov**

keçidi (проезд Очакова) adları.

**Oçak**ovka (река Очаковка) çayı– Ramenka çayının sol qolu (uz. (9,6 km.) Moskva şəhəri ərazisindən keçir; oz başlanğıcını Oçakovka kəndi ərazisindən götürür.

**Oçak**ovo (ст. Очаково) – Moskvada metro stansiyası

**Oçak**ovo (Очаков) – Moskvanın cənub-qərbində kənd; eyniadlı çayın sol sahilində, Moskva-Klin dəmiryolu stansiyasından azca aralıda yerləşir. 1491-ci ildən yazılı qaynaqlarda adı çəkilir. Qədim xəritələrdə Açakovo deyə qeyd olunmuşdur. Yaylaq yeri idi; Fedor Oçakov (1675) məlumdur. 1960-cı illərdən Moskva şəhəri ərazisinə daxil edilmişdir. Olimpiya kəndi Oçakovo k. ərazisində salınmışdır. Ad **Oçakov** şossesi, küçə və keçid adlarında saxlanılmışdır. Oçak, ocaq məcazi mənada "*məskən, yurd, ailə*" deməkdir.

*Подмосковье, 383; МЭ, 482;*
*Т. Москвы,164; Поспелов, 587*

**Oqar**kovo (Огарево) –Moskvaaltı kənd (İstra ray. daxildir) kənd. Oqarok adı ilə bağlıdır. Kəndin sahibi kimi ehtimal olunan Oqarok Çertkov (XVI əsr), Oqarkov Kaşa (1536) məlumdur. Şəcərə 1397-cü ildə Qızıl Ordadan Böyük kn. Vasiliyə müttəfiq olan Lev Oqardan başlayır. Qaynaqlar onun "soylu" və "savaşçı" olduğunu xəbər verməkdədir. Orlovda və Voronejdə Aqarkovo kəndi.

**Oqar**yevo (ул. Огарева) – Moskvanın mərkəzi hissəsində caddə. Türk dillərinə aid oqar~oğar "yüksək, nəhəng" sözündən formalaşmış Oqaryov familiyasına mənsubdur. Oqaryovlar öz adlarını Oqar ləqəbli nəsil başçılarından almışlar.

Rusiyanın Kaluqa, Lipetsk, Tula, Yaroslav vilayətində kənd.

*Баскаков, ТНМУ, 25; Поспелов 400;*
*Halıkov, 79*





**Oka** (ст. Ока) dəmiryol stansiyası (1867) və küçə (Serpuxov ray. daxildir) Moskvanın cənub-şərqində yerləşir; Volqa bulvarı ilə Volqaqrad xiyabanı arasından keçir. Küçə Oka çayı xatirəsinə adlandırılmışdır (1964)

**Oka çayı** 1113-cü ilə aid qeydlər vardır. Oka çayı Ryazan QK-da Aka "çay" adı ilə bağlıdır. Çayin adı yerli danışıqda "a" səslərinin "o" şəklində xarakterik tələffüzü ilə əmələ gəldi: Aka~Oka.

*Поспелов, 402*

**Oranje**reyevo gölü (оз. Оранжерейево) – Moskvanın cənubunda, Sarıtsino parkında yerləşir. Ərazidəki əski oranjereya bağları ilə bağlı adlanmışdır. Oranjereya narınc meyvəsi ("apelsin") adıyla bağlı meydana çıxmışdır. Rus dilində ilk vaxtlar naranza şəklində qeydə alınmışdır (1370). Sonralar ondan rus sözü oranjevıy "narıncı" və oranjereya "ekzotik bitkilərin yetişdirildiyi yer, bağça" sözləri yarandı. Dilimizdə qədim çağlardan həm rəng adı, həm də meyvə adı olaraq istifadədə qaldığına görə onun Ruslara Azərbaycan mühitindən keçdiyi düşünülür.[55]

*RTS, 240-241*

**Ordınka** böyük (ул. Большая Ордынка)–Kremldən başlayan, Moskva çayı üzərindən keçməklə uzanan tarixi yol. Bu yol daha əvvəl isə Uluq Sakman, indi Bolşaya Ordınka adlanır; vaxtilə Qızıl Orda iqamətgahına gedirdi, sonralar yolun kənarında evlər tikilir və beləliklə onu küçəyə çevirmişdir.[56] Həmin küçə Moskva qaydasınca Ordınka adlandı. Yolun solunda Tatar Slabodası, sağ tərəfində Tolmaçov Slabodası yerləşirdi.

[55] Жарымбетов А. Тюркизмы в русских названиях фруктовых деревьев и кустарников – Советская тюркология, 1974, с.39

[56] Мурзаев Э. М. Тюркские географические названия. – М.: Восточная литература. 1996. с. 28

**Ordınka** kiçik (ул. Малая Ордынка ) – Böyük Ordınka küçəsi ilə yaxınlıqda yerləşir və ona paralel davam edir.

*МЭ, 476; Т. Москвы, 25; Баскаков, ТНМУ, 28*

**Ordınski** (ул. Ордынские) küçəsi – Kiçik Moskvaçay körpüsündən başlayaraq Serpuxov meydanına qədər uzanır; şəhərin mərkəzi küçələrindəndir.

**Ordınskiy** (Ордынский тупик) – Dalan şəhərin mərkəzində yerləşir, Böyük Orda prospektinə bağlanır.

**Ordıntsı** (Ордынцы) – Moskva vilayətində (Podolsk, Domodedovo və Çexov ray.) üç kənd. Knyaz Aleksandr Ordinetsə (1389) məxsus olmuşdur. Ordıntsevlərin soyadları onların Ordadan çıxdıqlarını göstərir. 1562- ci ildə Kostromalı Ordintsev, 1582-ci ildə dyak İnay Ordintsev qeyd olunur.

Orda~ordu müasir Rus torpaqlarına daxil olan Qızıl Orda adından; Orda türk tayfalar ittifaqı. İlk mənası xan iqamətgahı bulunan yer. Türk dilində saray, sultan çadırı, xan qərargahı, müasir Türk dillərində *qoşun birlikləri, ordu.*

Tverdə, Novocibirskdə Orda çayı və qəsəbəsi, Buryatiyada Ordaqay (Ordın) şəhəri.

*Радлов, 1. 1072, 1073; Поспелов, 518; Halıkov, 80; Подмосковье, 31, 32; Сытин, 22, 93, 225*

**Orta Kalitnikov** caddəsi (Средняя Калитниковская) Moskvanın mərkəzində – Moskvanın mərkəzində – Taqanka ərazisində caddə və keçid. Kalitenka çayı və ərazisi (1688), Kalitnik qəbristanlığı (1771) adı ilə bağlıdır. Tarixən Kalitniklər (çantaçı, heybəçilər) slabodası yerində salınmışdır.

*Радлов, 2. 258; Веселовский, 132, 172; Срезн., 1. 1183; Halıkov, 55; Фасмер, 2.168; Сытин, 212*

**Osanovo** stansiyası qəsəbəsi (Осаново) – Moskva vilayətində (Şatur ray.) qəsəbə.





**Osanovo**-Dubovoe (Осаново – Дубовое) – Moskvaaltı (Şatur ray.) kənd yerləşir. Osanovların (Türk Asanovların) soyadları (1590) onların Ordadan çıxdıqlarını göstərir (Asan~Xasan~Ossan~Hasan<ərəb. hasan "*gözəl*" + rus-ovo şəkilçisi>Osanovo). Moskva altında ərazi adı olmuş, XVII əsrdən yaşayış məntəqəsi kimi adı çəkilməyə başlamış. Dubovoe (Palıdlı) yaxındakı bataqlığın adı olub Osanovo yer adına təyinedici kimi qoşulmuşdur.[57] Arxangelsk, Voloqda, Tula, Kirov vıl. eyniadlı kəndlər.

*Веселовский, 16, 233; Баскаков, 256*

**Ostankino** (Останкино) –Moskvanın şimalında Televiziya Mərkəzi ) və mehmanxanası

**Ostankino** (Останкино) gölü 17-ci əsrdə salınmışdır.

**Ostankino** caddələri (2 caddə) ул. Останкино və **Ostankino küçələri** (6 küçə) (ул.Останкины)

Ново**ostankino** (Ново**останкино**) xiyabanı. Moskvanın şimalında yer. Ad keçmiş kənd və malikanə adından qalmışdır. Stan "*düşərgə*" sözündən meydana gəlmiş Ostankinoda Atıcı karaulu dururdu və bu yer Ostankino adlanmağa başladı. Ostankino sənədlərdə şəxsi mülk olaraq 1558-ci ildən adı çəkilr. Çar İvan Qroznının qayınları olan Çerkasskilərin mülkü idi (Onlara qədər isə dyak (Dövlət Duması sədri) tatar Vasili Şevkalova məxsus idi). 1743-cü ildə Şeremetyevlər ailəsilə qohum olduqda kəndi qızına cehiz vermiş, o zamandan sovet quruculuğunadək Şeremetyevlərdə olmuşdur. Ostankino XIX əsrin sonlarında şəhər ərazisinə daxil olmuş, 1939-cu ildə Şeremetyevlərin böyük bağı ərazisində XTNS açilmiş, 1945-ci ildə Baş Botanika bağı yaradılmışdır.

*Веселовский, 376; МЭ, 479; Сытин, 37; Подмосковье, 201-212; Поспелов, 587; Ведина, 629*

[57] Поспелов Е.М. Географические названия Московской области: топонимический словарь, 2008, с. 406.

**Ovrajki** (Овражки) – Moskva vilayətində kənd və Moskvaaltı eyniadlı dəmiryol stansiyası

**Ovrajki** (Овражки) – Moskva vilayətində kənd; Ramensk ray. daxildir. 1955-ci ildən adi Rodniki

Ovraq (vraq) yağış sularının açdığı şırım, yarğan; dərə. çuvaş dilində varak "çökəklik, sel sularını ovub açdığı dərə, ağac koğuşu"; Rus dilindəki Türk sözlərindəndir.

*Радлов, 1. 1164; Даль, 2.642; Фасмер, 3. 115; Т. Москвы, 29; Шипова, 248; Поспелов, 399*

**Paxra çayı** (река Пахра) – Москва vilayətində çay; Moskva çayının sağ qolu.

**Paxra** (Пахра) kəndi eyniadlı çayın üstündə yerləşir; XVI əsrdən qeyd ounmuş. İndiki adı Podolsk şəhəri. Rusiyanın dövlət arxivi burada yerləşir. Paxra~Bakra çay yatağını rəngi (bakır~paxır; qırmızımtıl rəng) ilə əlaqədardır.

*Подмосковье, 31; Поспелов, 413; RTS, 53, 54*

**Palaş bazarı** (Палашевский рынок) – Moskvada Tuşinsk metro-stansiyasına yaxın bazar. Silah ustaları yaşayan slabodanın yerində salınmışdır. Palaş düz və enli ağzı olan iki üzlü qılınc.

**Palaş küçələri** (Палашевские переулки) – Moskvanın mərkəzi küçələri - keçmiş Silahdarlar slabodasının yerində salınmışdır. Kaluqa vilayətinə bağlı Palaşevo kəndi var.

*Радлов, 4. 1162, 1170; Даль, 3.11; Фасмер, 3. 191*

**Papuşevo** (Папушево) – Moskvaaltı kənd; Odintsov ray. Vyazemka çayının sağ sahilində Papışevo şəklində 1697-ci ildən rast gəlinir. Çox ehtimal ki, Papuşev familiyası ilə əlaqədardır. Mülkədar Papış Mikiforov və Papışev (1495) məlumdur. Papuş~babuşa "yüngül ev ayaqqabısı, məst" Rus dilindəki Türk sözlərindəndir.

*Радлов, 4.1209, 1210; Даль, 3.102; Фасмер, 3. 203*





**Paşk**ovo (Пашково) – Moskvaaltı kənd (Volokolamsk ray.); XVI əsrə aid sənədlərdə Poşkovo, 1784-dən isə Paşkovo məlumdur. Paşa adındandır. Paşkovlar soyu (16-cı y.) zadəgandır. Rusiyanın Bryansk (2), Smolensk (2), Tula (4), Tver (3), Yaroslav və Kemerovo, Perm (2), Penza, Pskov (4) vil. kənd.

*Веселовский, 240; Поспелов, 413-414; Halıkov, 81*

**Piroq**ovo (Пирогово) – Moskvaaltı qəsəbə; Piroq ləqəbindən formalaşan soyadı ilə bağlıdır; Vasili Piroq Velyaminov, Piroq Oladin və İvan Piroqov (16 əsr) məlumdur.

**Piroq**ovskiy (Пироговский) – Moskva vilayətində kənd (Mıtişi ray. daxildir) 16-cı əsrdən məlumdur. Soyadının əsasında piroq Türk sözü durur; Türk dillərində börek~bürək ~pörek~pürək >ruscada piroq. Rusiyanın Vladimir, Voloqda (6), Voroney, İvanov (2), Kostroma, Kaluqa, Tver (2), Tula (2), Yaroslav (3), Smolensk, Belqorod və Pskov, Sverdlovsk, Arxangelsk, Perm, vilayətində kənd adları

*Веселовский, 245; Баскаков, 40, 247; Фасмер, 3. 255; Поспелов, 420; Ведина, 658*

**Polivanovo** (Поливаново) – Moskva vilayətində (Podol ray.) kənd. Polivanovlar – Qızıl Orda əsilzadələrindən – İvan Kalitanın saray adamı boyar Koçevlərin törəməsi Bulat Andreeviç Polivanov məlumdur(XVI y.). Polivan>pəhlivan "bahadır, qəhrəman (müqayisə et: tatarca *pəhlivan,* uyğ. *palvan*) Türk dillərində geniş yayılmışdı. Türk əsilli Polivanovların ailə gerbində ay-ulduz nəqş olunmuşdur. Rusiyanın Kaluqa, Orlov, Ryazan, Ulyanov vilayətlərində kənd

*Веселовский, 252; Баскаков, 119; Halıkov, 81*

**Raxmanovo** (Рахманово) – Moskva vilayətinə daxil olan Solneçnoqorsk, Yeqoryevsk, Puşkin, Pavlo-.Posad rayonlarına bağlı 6 kənd vardır.

**Raxmanovo** (Рахманово) –Oryol vilayətinə daxil olan Krasnozorsk ray. bağlı 2 kənd.

**Raxmanovo** (Рахманово) – Moskvaaltı kənd; Volokolam ray. 1532-ci ildə adı çəkilir. Moskvalı Raxman Jitkov (1566), Dmitri Raxmanov (1612) məlumdur. Tverdə kənd.

**Raxmanovski** küçəsi (Рахмановский переулок) – Moskvanın mərkəzində yerləşir. 18-ci əsrdə meydana gəlib; mülk sahibi general Raxmanovun adından.

Yerin adı rəhman "*şəfqətli, rəhimli*" (Allahın epitetli adlarından)+ov+o rus dilində familiya və məntəqə adları formalaşdıran şəkilçilər vasitəsilə düzəlmişdir. Rusa gəlmiş türk-tatar soyundan Raxman, Raxmanov, Raxmanin familiyası geniş yayılmışdır. Raxmanov (1495), Raxmanin (16-cı y.) qeyd edilir

*Веселовский, 266-267;*
*Баскаков, 169-170; Halıkov, 83;*
*Поспелов, 455;*
*Долгоруков, 84; Сытин, 254*

**Ramensk** (бол.Раменское) bataqliq adi (Şatura ray. daxildir) Moskvanın qərbində yerləşir.

**Ramenka çayı** (река Раменка) – İstra çayının sağ qolu; Nazarovo kəndində birləşirlər.

**Ramenka çayı.** (река Раменка) – Moskvanın cənub-qərbində çay; Setun çayının sağ qolu.

**Ramenka çayı.** (река Раменка) Ustın çayının sağ qolu. Kolomensk, Yeqoryevsk ray. ərazilərindən axır.

**Ramenka çayı.** (река Раменка) Yauza çayının sağ qolu. Klin rayonu ərazisindən keçir.

**Ramenka** (Раменка) Moskvada mikrorayon; əvvəlki Ramenka kəndinin ərazisindədir. Ramenka həmin mikrorayonda *1,2,3,4-cü Ramenka küçə adlarında* saxlanılır. Setun çayının sağ qolu Ramenka bu ərazidən axır. Kənd əvvəl Moskva altında ayrıca kənd olmuş 19-cu əsrdən yaylaq yeri, 1956-cı ildən





fəhlə qəsəbəsi tikilmiş, şəhər ərazisinə qatılmışdır. Sıx meşəlik ərazidə yerləşir.

**Ramenki** (Раменки) – Moskva vilayətində (Yeqoryevsk ray.) kənd; adına ilk dəfə 16-cı əsrdə rast gəlinir.

**Ramenskoe** (Раменское) şəhər. Moskva vilayətində ray. mərkəzi. İvan Kalitanın 1336-cı il fərmanında adı çəkilir.

Ramenye Moskvaaltı (Lot. Şaxovsk və Dmitrov ray. daxildir) kəndlər. QD-də 1506-cı və 1562-ci ilə aid qeydlər vardır.

**Ramenskoe** Раменское kənd ray. 1958-ci ildən Moskva şəhəri ərazisinə qarışmışdır.

**Zaramenye** (Заременье) – Moskvaaltında (Dmitriev. ray.) kənd. Ramen>Orman adı ilə bağlıdır. Zaremenye meşə (orman) arxası

Bütün bu adlar 16-cı əsrə aid sənədlərdə Moskvadan cənub-şərqə doğru Moskva çayının sahillərilə uzanan ərazilərin adı olan Ramenyedən əmələ gəlmişdir. Ramenka sözü orman (rus dilində sözbaşında sait səs düşməklə indi unudulmuş ramen~orman "*meşə*"və -ki kiçiltmə şək.) türk sözündəndir. [58]

Rus dilindəki türk sözlərdən olan orman~ramen "sıx meşə, meşə zolağı, meşəlik" rus toponimiyasında da təkrarlanan sözlərdəndir. Вдали, над темной Черно**рамен**ского леса, поднялась тяжелая тича и гасила звезд (Городок Окуров) Rus xalq deyimlərində "медведь **раменский**" (**meşə ayısı**) istifadə olunmuşdur.

*МЭ 537; Вагнер, 119,158; Т. Москвы,165;*
*Поспелов, 452, 590; Ведина,700*

**Rastunovo** (Растуново) – Moskva vilayətində (Domodedovoda kənd); köhnə Kaşira yolu üstündə Şebantsevo kəndindən 5 km. cənubda yerləşir. Arastun adından formalaşdığı

[58] Мурзаев Э. Географические термины в топонимии Москвы. В кн.: Географические название в Москве, М., Мысль, 1985 с.56

şübhəsizdir. Rus dili tələffüzündə alaçuq~laçuqa, arslan~ruslan, qayda ~ayda, alça~ lıça karpuz ~arbuz və b.k. örneklər qəlibində qəbul etmək lazım gəlir.

*RTS, 41-48*

**Romadonov məhəlləsi** (Ромадановская слабода) – Moskvada Baraşevski və Basmannaya slabodalarının arasında yerləşmişdiş Slabodanın adı ilk dəfə 1504-cü ildə III İvanın fərmanlarında rast gəlinir. Bu ərazilərin knyaz Romadanovskinin mülkü olduğu məlumdur. Soyadı ən möhtəşəm bayram ayının romadan~ ramazan adı ilə əlaqədardır. Türk ailəsi Romadonovskilərin ulu babalarının 1375-ci ildə Rusa yaxınlaşdıqları məlumdur.

*Веселовский, 208, 271; Баскаков, 140; Halıkov, 85*

**Rusanov** (пр. Русанова) caddəsi; Moskvanın şimalında küçə; Türkmənşəli Rusanov rus soyadı ilə bağlıdır.

**Rusanovskaya** (Русановскaya) – Moskvaaltı kənd; (Şatura ray. aid) kənd. Rusan (Urusan "uruşan~vuruşan") adı ilə əlaqədardır. Knyaz Rusan Plaksuç (1388), Semen Rusanov (1596) məlumdur. Voloqda, Voronej (2), Ryazan, Pskov (2), Kirov, Lipetsk, Smolensk (3), Tver (2) vil. Rusanovo kəndləri.

*Веселовский, 273; Поспелов, 463; Т. Москвы, 46; Ведина, 729*

**Ruslan** Ticarət Mərkəzi (Торг. Центр Руслан) – Moskvanın mərkəzində Smolensk metrosu yaxınlığındadır.

Ruslan adı Arslan (rus adaptasiyasında Aslon<türkcə arslan, kazaxca arstan) adından söz başındakı saitin düşməsi ilə doğmuşdur. Aslan (şir) adının Rus bılina, nağıl və salnamələrində Arslan, Eruslan, Ruslan və ya Aslam, Oslam və s. kimi variantları vardır.

*МЭ, 548; Баскаков, 101, 231; Türk İ., 131*





**Ruza** çayı (река Руза) – Uzunluğu 145 km; Moskva çayının böyük qollarındandır.

**Ruza dərəsi** (Рузаев овраг) Moskvanın cənub-qərbində dərə

**Ruza küçəsi** (ул. Рузская) – Moskvanın qərbində Tropar-Nikulin qismində yerləşir

**Ruza şəhəri** (Руза) eyniadlı çayın üstündədir. Sənədlərdə 14-cü əsrin əvvəllərindən adı çəkilir. Qədim çağlarda Zveniqorod knyazlığına daxil idi.

Ruza~ Urazay adından, rus dili tələffüzündə dəyişdirilmiş və bu tərzdə rəsmiləşdirilmişdir. Mordvadakı müasir Ruzaevka şəhərinin adı əslində Urazay (Orazay) olmuşdur.

*Подмосковье, 161; Nikonov, 360; TK, 296; Ведина,727*

**Ryazan** (Рязань) – Moskva çayı üstündə kənd Odintsov ray. Odintsov 1592-ci ildə QK-da müşahidə edilmişdir. Ruslar bu torpaqlarda məskunlaşana kimi Mordva tatarlarından Erzanların yurdu idi və onların adı ilə adlanmışdı

**Ryazanovo** (Рязановo) – Moskva vilayətində (Podolsk ray.) kənd

**Ryazanovskiy** (Рязановский) Moskva vilayətində (Şatura ray.) kənd

**Ryazantsı** (Рязанцы) – Moskva vilayətində Moskvaaltı (Sergiyev Posad ray.) kənd

Ryazan erzan-tatar nəsli və şəhər adı ilə əlaqədar soyadıdır. Kazandan çıxma olduqları söylənilir və nəsil başçıları Kırım və Noqaya göndərilən elçibaşı adlı-sanlı Ryazanov Dövlət-Huocadır. Qardaşı Saban Ryazanov Sibirə elçi heyəti başı olaraq göndərilmişdir. Kənd kimi Moskvanın cənub-şərq səmtində vaxtilə işlək olan şose yol da Ryazan adı daşıyırdı.

Mərkəzi Rusiyanın Tver (3),Tula (2), Vladimir, Yaroslav, Voloqda (2), Kostroma, Nijeqorod, Smolensk (5), Pskov

vilayətlərində kənd. Bununla bərabər Udmurtiya, Tümen, Arxangelsk, Tatarıstanda yaşayış məntəqəsi.

*Веселовский, 275; Поспелов, 420; TK, 235-236; Halıkov, 85*

**Sabanino** (Сабанино) – Moskva vilayətində (Yeqorev ray.) kənd. Türk dillərində (arxaik) saban "iki təkərli xış, cüt, kotan", -in soyad şəkilçisi. Saban Ryazanovun mülkü ola bilər.

*Радлов, 4. 414,404; Баскаков, 133; Фасмер, 3. 560; Halıkov, 85*

**Sablino** (Саблино) – Moskva vilayətində Zaraysk ray. kənd. Veselovskinin göstərdiyi kimi, 1679-cu il qeydiyyatlı Sablya, Tixon Sablya, 1539- cu il qeydiyyatlı Sablin familiyası mövcud idi. Soyadı qədim Türk sözü sablya "qılınc" sözü ilə bağlıdır. Söz monqollaraqədərki alınmalardan olub[59] Rus dili mənbələrində 968-1086-cu ildə qeydə alınmışdır) Saplı "dəstəkli" qılınc; bəzi araşdırmaçılarsa onu "sapla, vur" sözü ilə əlaqələndirirlər. Peterburq vilayətinə bağlı Sablino adıyla bağlı kənd, tarixi mağara, çay adları vardır.

*Веселовский, 276; Фасмер, 3. 541; Даль, 4. 126; Поспелов, 420; Шипова, 268*

**Saburovo** (Сабурово) – Moskva vilayətində (Sergiyev-Posad ray.) kənd

**Saburovo** (Сабурово) – Moskva çayının sağ sahilində 14-cü əsrdən məlum olan böyük Saburovo kəndi yerləşirdi. Hazırda kəndin 16-cı əsrə aid kilsəsi durmaqdadır. 1960-cı ildən Moskva şəhərinə qarışan kənd indi Saburov caddəsi adında qalmaqdadır. 1330-cu ildə Rusa gəlmiş knyaz Çətrəkin (Rus mənbələrində Çeta) törəməsi Türkəsilli Saburovlarla – boyar Saburun nəsli ilə

[59] Одинцов Г.Ф. Из истории тюркизмов в русской оружейной терминологии – Советская тюркология, 5, 1983. с.14





- Sabur Fedor İvanoviç Sabur Zernov (14-cü y.), Fomiç Solovyov (15-ci y.) Sabur İvanoviç Melikov (1545) bağlıdır. Volqa və Oka çayları arasında bir sıra Saburovo kənd adlarının varlığı göstərir ki, bu adlar həmin kəndlərin sahiblərinin adıdır.

*МЭ, 551; Подмосковье, 40; Веселовский, 276; Баскаков, 56-59*

**Saburovo** (Сабурово) – Moskva vilayətində kənd; Şelkovsk ray. daxildir. 1689-cu ildən onun sahibi Timofey Saburov idi.

**Saburovo** (Сабурово) – Moskva vilayətində kənd; Voskresensk ray. daxildir. 15-ci əsrdə Peşek Saburovun mülkü olmuşdur və Saburovo adlandırılmışdır.

**Saburovo** (Сабурово) – Moskva vilayətində kənd; Krasnoqorsk ray. daxildir Sabur adı ilə bağlıdır: Boyar Fedor Sabur Zernov 14-cü əsr, boyar Mixail Saburov (1447) mülkü olmuşdur.

**Saburov** (ул.Сабурова) – küçəsi 1793-cü ildə ev sahibinin adı ilə adlanmış, sonra Skaryatinski adıyla əvəzlənmişdi.

Saburovlar soyunun (1330) başçısının Sabur adı "əzvay" (aloe bitkisi və məlhəm); acı, *zəhərli acı* " Rus xalq ağızlarında həmin mənadadır – ilə başlayır. Mərkəzi Rusiyanın Smolensk, Bryansk, Vladimir, İvanov, Kaluqa, Kostroma, Orlov, Ryazan, Tver, Tula, Yaroslav vil. kənd adları.

*Веселовский, 276; Баскаков, 56-59; Halıkov, 81; Шипова, 268-69; Сытин, 275; Поспелов, 466, 591*

**Safarino,** Sofrino (Сафарино, Софрино) – Dəmiryolu vağzalı; bu ərazilər XVI əsrdə varlı Kırımlı tacir Safarinin *(soyadı safar "səyahət, dəfə, kərə; müsəlman təqvimində ay"* ) mülkü idi; get-gedə Saforin, 19-cu əsrin sonundan isə Sofrin şəklinə düşmüş.

*Веселовский, 280, 281; Баскаков, 42; ƏFL, 561; TK, 237-238*

**Safarino** (Сафарино) – Moskva vilayətində (Puşkin ray. daxildir). Şəhər və dəmiryoli stansiyasının adı. Hər biri bir çayın – Vora və Talitsa çayları üstündə yerləşir. Safarinlər soyu 15-16-ci əsrlərdə adlı-sanlı adam olan İvan Safarindən (1482) başlayır.[60] Kəndlər *Safarino, Saforino, Soforino*, 1862- ci ildən isə *Sofrino* yazılmaqdadır. Ryazandakı *Safarino* kəndi də onların adındandır

Bu yolüstü kənddə gözəl saray yerləşir. Səfərə çıxan rus çarları bu sarayda dayanırdılar. Kənd sonrakı əsrlərdə Saltıkovlara keçir, türk əsilli ailələrdən olan qocaman Saltıkovlar çar ailəsi ilə qohum sayılırdı, lakin Pyotrun vaxtında malikanə onlardan çarın yaxın adamı Yaqujinskiyə keçir.

*Веселовский, 281; Баскаков, 42; Подмосковье, 256, 279, 386; МЭ,481; Вагнер, 129; Поспелов, 489*

**Salam Adil** (ул. Салям Адиля) caddəsi. Moskvanın qərb səmtində, Karamış sahili kənarında yerləşir. Türk aləmində geniş istifadə edilən addır. Salam "sülh, barış" və adil "ədalətli" sözlərindən ibarətdir. Küçə İraq kommunist partiyası siyasətçisi Salam Adilin (1924-1963) adına adlanmışdır (1963).

*Баскаков, ТНМУ, 25; МЭ,554*

**Salarevo.** (ул. Сaларьево) – Moskvada küçə. Vaxtilə şəhərə yaxın ərazidə mövcud olmuş və şəhərə qarışmış kəndin xatirəsinə saxlanan ad.

**Salarevo** (Саларево) – kənd Lenin ray. daxildir; Moskva yaxınlğında onun cənub-qərbində Salarevo adında iki kənd vardır: Setun çayı üstündə Podolsk şəhərindən 23 km. aralıda yerləşən Salarevo və Zveniqorod yaxınlğındakı digər tarixi Salarevo kəndi (indi Soloslovo). Bu kəndlər Moskva böyük knyazı Dmitri Donskoya yaxın olan Türk Salarov qardaşlarının

[60] Никонов В. А. Краткий топономический словарь, с. 391





mülkü olmuşdur. Onların adına "Mamaevo poboişe" (*Mamay döyüşü*) salnamə-povestində rast gəlinir. Xristianlığı qəbul edib (1380) Mixail və Dementi Salarov adını almışdılar. Moskvalı boyar Qavrila Salarev də məlumdur (1481)

Kəndlərin yaxınlığında **Salarevo metro-stansiyası** və **Salarevo** adını daşıyan **qəbristanlığı** vardır.

Mənbələr XVI-XVII əsrlərdə hələ də Salarevlərə mənsub olduğu məlum olur. Salarov soy adı qədim türkcə *salar, salur, solar* (məs.:Salur Qazan); "*bahadır, qəhrəman*" Salari-milli "*milli qəhrəman*" mənası ilə yaxınlara kimi işlənilidi.

*Веселовский, 277; Подмосковье, 386; Т.Москвы,46; Поспелов, 468; ТК, 236-237*

**Salmanovo~Solmanovo** (Солманово) – Moskva vilayətində kənd (mərkəzdən 30 km. aralı); Odintsov ray. daxildir. 1627-ci ilə aid QK-da kənd haqqında ilk yazılı məlumatda ərazilərin və mülkün Sarıç Salmanov (1568) Sarıç Kudıkin Kıpçakovlar (1550) nəslindən çıxmış Pavel və Yakov Salmanov qardaşlarına mənsub olması göstərilir. Kəndin adı Sovet illərinədək Salmanovo olaraq işlənmiş, sonra XX əsrdən rus canlı tələffüzünə uyğun şəkildə Solmanovo olaraq sənədlərdə qeyd edilməkdədir.

*Веселовский, 277; Поспелов, 487*

**Saltıkovka** (ст. Салтыковка) dəmiryolu stansiyası. Nijeqorod istiqamətində vağzal. Qraf Saltıkovun ərazisində salındığından Saltıkovka adlandı.

**Saltıkovka** (Салтыковка) – Moskvaaltı yaylaq kəndi(1863); knyaz Saltıkovun torpaqları idi. Hazırda Balaşixanın mikrorayonudur.

**Saltıkov** körpüsü (Салтыковский мост) – Moskvada Yauza üstündə körpü. Çay ətrafındakı bu yerlər 17-ci əsrdə boyar Saltıkovun mülkü olmuşdur; ad onun şərəfinə qoyulmuşdur

**Saltıkov** dərəsi (Салтыковский овраг) – Москvanin cənub qisminndə dərə 1,5 km. dərinlikdədir.

**Saltıkov** meşə parkı (Салтыковский лесо парк) ormanları Moskvaaltı meşə-park; 1623-cü ildən adı çəkilir. Moskva – N. Novqorod dəmir yolu xəttində Saltıkovka stansiyası adındandır.

**Saltıkovo** (Салтыково) – Moskva vilayətində (Ramensk ray.) kənd. QK-da 1577-ci ilə aid qeydlər var. İvan Saltıkova məxsus olmuşdur.

**Saltıkov** (ул. Салтыкова) küçəsi və sahili; Moskvanın Şərq səmtində yerləşir. 18-cı əsdə burada Saltıkovun evi (Çar Pyotrun qardaşı çar İvanınn arvadı çariçə Praskovya Saltıkovanın atasına məxsus idi.) yerləşdiyinə görə belə adlanmişdı. İndi Dmitrov küçəsi.

Türkəsilli Qraf Saltıkovların soyadının əsasında saltık~saltuk "tərz, yön, dünyagörüş, nümunə, məcaz" sözü durur. Bu nəslin ilk məşhuru Saltık Mixail olmuşdu; onun oğlu Terenti Saltık Aleksandr Nevskinin şöhrətli boyarlarından idi (1240). Onun nəticəsi İvan Saltıkov "Moroz" ləqəbi ilə tanınırdı. Rusiyanın varlı Morozov soyu Saltıkovların bir qoludur.

Mərkəzi Rusiyada – Orlov, Ryazan, Tver, vil., həmçinin Penza, Saratov, Pskov, Kalininqrad, Belqrad, Permdə kənd adları.

*Веселовский, 278; Баскаков, 85-86; TƏR, 100-107; Поспелов, 468; Вагнер, 122; Сытин, 114, 260*

**Samara** gölü (Самарин пруд) – Samarka çayından yaranmış göl; Predelkinoda yerləşir.

**Samarinka** çayı (Самаринка река) – Moskva vilayətində çay; Setun çayına qovuşur

**Samara** caddəsi (пр. Самарина) 19-cu əsrdə ərazidə olan məşhur Samar hamamı adı ilə bağlıdır

**Samarin küçələri** (улицы Самарина) 1-ci və 2-ci Samarin küçələri, döngə və dalanlar. Ev sahibi Samarinin adından (1902).





Samarinlər – Samara çayı və şəhər adı (Volqa hövzəsində) Soyadı ilk olaraq Samara Stepan Rodionoviç Kvaşnindən başlayır (XV y. əvvəli) adından ola bilər. Samar rus dili dialektlərində "*çörək, qara çörək*" (başqırt dilində *çörək*), samara isə "*uzunətək don, balaxon*" və daha fərqli səmər "*palan*"; *böyük qab, tabaq, teşt* mənalarında işlənilir. Mərkəzi Rusiya coğrafiyasında – Moskva vilayəti ilə bərabər Vladimir, Ryazan, Yaroslav, Lipetsk və eləcə də Başqırdıstan, Belqorod, vilay. kənd.

*Радлов, 4. 508; Веселовский, 278; Даль, 4. 131; Баскаков, 144; Сытин, 266*

**Samarkand** bulvarı (Самаркандский бульвар) – Özbəkistanın qədim şəhəri adından (1968); Moskvada Ryazan və Volqoqrad prospektini birləşdirən bulvar

*Баскаков, ТНМУ, 28*

**Samar** dalanı, keçidi (Самарский тупик) – Orta Volqa şəhəri olan Samara (Rusiya) adıyla əlaqədardır.

*Баскаков, ТНМУ, 28*

**Səməd Vurğun** küçəsi (ул.Самеда Вургуна) – Moskvanın şimalında, Aeroport səmtində yerləşir. Şair Səməd Vurğunun (1906-1956) xatirəsinə qoyulmuşdur (1976)

**Sanaev** caddəsi (Санаева ул.) – Moskva çayının sol sahilində Xoroşev ərazisindəki caddə; Vətəndaş müharibəsi qəhrəmanı Sanayevin xatirəsinə qoyulmuşdur.

*МЭ, 653; Ведина, 743*

**Sandarovo** (Сандарово) – Moskva vilayətində (Çexov ray.) kənd

**Sandarovo** (ст. Сандарово) Moskvaaltı (Çexov ray.) ərazidə) dəmiryolu stansiyası

**Sandarov** soyadından sandar "*adlı-sanlı, seçkin*" müasir Qazax şəxs adları arasında da özünə yer tutub Bir vaxt

müstəqil olan bu söz hazırda ad-san (adlı-sanlı) birləşməsinin tərkibində və canlı danışıq dilinə məxsus sanamaq (saymaq) felində saxlanılmışdır. San şöhrət, nüfuz mənalarını daşıyan söz olmuş, rus dilindəki (rus dilinin XI əsrə aid yazılı mənbələrində qeydə alınıb) Türk sözləri içərisində rast gəlinməkdədir. Ruscada bu söz ***sanovnik, sanovitıy, sanovnost, sanovniçestvo, sanovniçnıy, osanka*** və s kimi bir sıra yeni söz yaradılmasına xidmət etmişdir. Dilimizdə müstəqilliyini tam saxlamasa da göründüyü üzrə rus dilində istər mülki, istər dini sferada yüksək rütbə, vəzifə mənaları daşıyır.

*ДТС, 483; Баскаков, 21,23; Фасмер, 3. 555; Шипова, 275*

**Sandunov küçəsi** (ул.Сандунова) – Sandunov soyadı imperator teatrının rus aktyoru Sandukovların (sunduk “sandık”<sənduqə) sonra az dəyişikliklə qəbul etdikləri yeni soyadları ilə bağlı meydana çıxmışdır. Küçə ərazidəki hamamlarına görə adlandırılmışdır (19-cu əsr)

*ЭС, т.82.*

**Sanino** (Санино) – Moskva vilayətində kənd. Naro-Fominsk rayon, indisə Kokoşkin tərkibindədir. Sanino adlı yaşayış məntəqələri Suzdal və Peterburqda, Mərkəzi Rusiyanın Vladimir, Tula, Yaroslav vilayətlərində vardır.

*Срезн., 3. 260; Баскаков, 21, 23; Фасмер, 3. 555; Шипова, 275; Лелёв., 6*

*Bax: Sandarov məq.*

**San**nikov küçəsi (ул. Санникова) – Moskvanın şimalında Otradnoe səmtində yerləşir. Türk mənşəli Sannikov soyadı ilə əlaqədardır.

*Bax: Sandarov məq.*





**Sapojok** (оз. Сапожок) – Moskvanın şərq səmtində Yauzanın sol sahilində göl; sapoqa oxşar formasına görə belə adlanmışdır. Sapoq Türk dillərində çəkmə, çizmə; uzunboğaz ayaqqabı; sap+oq “dəstək, qulp, qəbzə” sözündən və rus dili şəkilçilərindən düzəlmişdir. Sapoq mənşəcə qədim qıpçaq (sapuq, sapaq) alınmalarındandır.

*ДТС, 485; Фасмер, 3. 559; Шипова, 271*

**Saranskaya** (ул.Саранская) – Caddə Mordoviyanın paytaxtı Saranskın şərəfinə adlandırılmışdır. Şəhərin cənub-şərqində yerləşir.

**Saratov** I və II keçid (Первый и Второй Саратовский проезд )Eyniadlı caddəyə birləşir

**Saratov** caddəsi (Саратовская ул.) – Moskvanın cənub-şərq ərazilərində yerləşir; Saratov şəhəri şərəfinə adlandırılmışdır (1964)

**Saratov** meydanı (Саратовская плошадь) – İndi Lenin meydanı. Vaxtı ilə burada Saratov vağzalı yerləşirdi.

Volqaboyu Saratov şəhəri 1590-cı ildən rus idarəsinə keçmişdir. Saratov>sarı tau “sarı dağ”.[61]

*Баскаков, ТНМУ,29; ТК, 243-244; Сытин, 175*

**Saray** (река Сарай) Moskva çayının sol qolu. Bu ərazilərdə XIII əsrin sonlarında Saray məhəllələri yerləşirdi. XV əsrin sonlarından Saraydan köçüb gəlmiş əyanlar yaşayırdılar.

Maloe **Saraevo** (Малое Сараево) Moskva vilayətində (Ramenki ray.) kənd.

**Saraevo** (böyük) (Большое Сараево) Moskva vilayətində (Odintsov ray.) kənd.

[61] Улицы Москвы. Старые и новые названия. М., 2003. С. 260.

**Saray** keçidi (Сараевский переезд) Moskvanın Balçuq səmtində keçid-küçə

**Saray** (Сараево) – Ryazan vilayətində qəsəbə. Saray sözü Türk, eləcə də Fars dilində *iqamətgah, malikanə* mənaları daşımaqla həm də mərkəzi şəhərlərə verilən addır.

*Радлов, 4. 457, 458; Даль, 4.138; Фасмер, 3. 560; Поспелов, 351; ТК,245*

**Sarov** çayı (Саровский Овраг) Moskvanın cənub səmtində kiçik çay. Sarı "*kiçik, balaca; gənc*" sözündən.

**Sarıbevo** (Сарыбьево) Moskva vilayətində (Luxovitski ray. daxildir) kənd. Sarıbey adından (Sarıbeovo)

**Sarinskiy** (Саринский проезд) keçid – Moskvanın mərkəzində, Taqan ərazisində, Krasnoxolm sahil küçəsinə bağlanır.

**Saritsın** (Царицин луг и озеро) Moskvaaltında Saritsın gölü və çəmənliyi. Sarıtsin Türk dillərində Sarısin – Xəzər imperiyası şəhərlərindən olmuşdur. Şəhər Sarı Su çayının Volqaya töküldüyü yerdə yaranan adada yerləşir. Həm bu adanın, həm də şəhərin adı kiçik bir çay olan Sarı Su çayı adından (rus adaptasiyasında) yaranmışdır.

Sonra keçən bir çox zaman ərzində bu qədim türk adını (rus tələffüzündə Tsaritsın) çar sözüylə bağlamışlar. Lakin Tsaritsinin çarlara aidiyyəti yoxdur, o Türk Sarı Su adının, yəni "sarı su" bulanıq su adının ruslaşdırılmış formasıdır.[62]

*Долгоруков, 84; ТК, 158*
*Баскаков, ТЛС, 19*

**Satıevka** (Сатыевка) – Orlov vil. bağlı kənd; Mtsensk ray. daxildir.

[62] Наш край Хроника истории Волгограда и области, Волгоград, 1973, с. 6; Водолагин М. А. Очерки истории Волгограда, М., 1968, с.74; Суперанская А. В. Имя через века и страны, с.124





**Satino**-Tatarskoe (Сатино-Татарское) – Moskva vilayətində (Podolsk ray.) kənd. Xaçlanmış Türk Boqdan Esençurin Baykişi oğluna mənsub olmuşdur. Satinlər (əsli: Satı) 15-ci əsrdən məlumdur. Mərkəzi Rusiyanın Kaluqa, Ryazan, Tambov, Tver vilayətlərində və Permdə kənd.

*Веселовский, 280; Поспелов, 234, 470*

**Saurovo** (Саурово) Moskva vilayətində Pavlo-.Pos. ray. kənd. Saur ~Savur adı ilə əlaqədardır Saur Boborıkov (16 əsr). Savurovlar (Savurko) Saur~Savur nəslindən başlayır.

**Saur** Türk dillərində ilk mənası "yük, ağırlıq". Kəndin adı Saurov familiyasından doğmuşdur. Taqanroq diyarında Saur Mezar kurqanı var. Saurovo – Nijeqorod, Pskov, Tver vil. kənd adı.

*Радлов, 4. 423; Веселовский, 276, 280; Фасмер, 3. 561; Поспелов, 470*

**Savrasovo** (Саврасово) – Moskva vilayətində (Voskresensk ray. ərazisində) göl

Böyük **Savrosovo** (Саврасово) (Ramen ray.) – Kaşira yolunda, Paxra çayı üstündə kənd

Savrasov (Саврасов) caddəsi(1956) – Moskvanın şimalında küçə.

Savras "sarımtıl rəng"; bu rəngdə at cinsi. Kəndin Savras ləqəbilə əlaqədar olan Savrasov familiyasından yarandığı və Türk mənşəli Savras (1564), Savrasov (1596) soyadları məlumdur. Mordoviyada, Nijeqorod, Tver vil. kənd.

*Радлов, 4. 276; Веселовский, 276; Поспелов, 351; Даль, 4. 127; Фасмер, 3. 542; Шипова, 269*

**Sayan** (ул. Саянская) caddəsi – Moskvanın şərq qismində memorial ad. Sayan dağları və ölkə adı xatirəsinə adlandırılmışdır

(1972). 2. Türk dillərində sayan həm də *zərxaradan tikilmiş qadın ətəyi, tuman.*

*Топонимия Москвы,с.53*

**Sayqat**ovo (Сайгатово) – Moskva vilayətində (Stupin ray.) kənd; 1578-ci ildə QK-da öz əksini tapıb; Sayqatov soyadı əsasında sayqat "*hərbi qənimət, trofeya*" söz olaraq rus dilində türk dillərindən qədim alınmalardan hesab edilir. 1174-cü ildə rus yazılı qaynaqlarında təsadüf edilir. Türk dillərindəki (qədim qıpçaq) sovqat "*hədiyyə, pay, bəxşiş*" əlaqədardır. Mordoviyada və Nijeqorod, Tver vilayətlərində kənd.

*Срезн., 3, 244; Поспелов, 468; Шипова, 271*

**Sekir**ino (Секирино) – Moskva vilayətində (Nar-Fom. ray dax.) kənd

**Sekir**ino (Секирино) Moskva vilayətində (Stupin ray dax.) kənd. Sekira "döyüş baltası" Familiya Türk sözü Sekira ləqəbindən yaranmışdır (XV)

*Баскаков, 39; RTS, 112*

**Selix**ovo (Селихово) – Moskva vilayətində (Sergiev Posad ray.) kənd

**Selixov~Selexov** (Селихов Селехов) soyadlari Tver və Oryolda qeyd edilmişdir(XV). Selexovskilər knyaz titulu daşımışlar. Selixovo – Tver, Orlov vil. kənd.

*Веселовский, 284; Баскаков, 217*

**Serpuxov** (Серпухов) – Moskva vilayətində şəhər. Öz adını üzərində salındığı Serpeyka çayı adından almışdır. Sərt yamaclı uçurumlu dərin dərə ilə axdığına görə sarp, sərp "sıldırım, yarğan" sözü ilə bağlı Serpey (ka) adlanan çay öz yüksək





sahilində yerləşəm şəhərə adını vermişdir.[63]

Serpuxov caddəsi (Серпуховская улица) – Moskvadan Serpuxov şəhərinə çıxan tarixi yol, sonralar şəhər böyüdükcə küçə funksiyası daşımaqdadır.

*МЭ, 563*

**Sıqan**ka çayı (река Цыганка) – Moskvanın cənub-qərbində çay; Sosenka çayının sol qolu

**Sıqan**ovo (Цыганово) Moskva vilayətində (Ruzsk ray.) Kəndin adını qaraçılarla (rusca tsıqan) əlaqəsi yoxdur. Türk dillərində (Altın Orda hakimiyyəti çağı) əyan "qaraçılar"dan fərqli olaraq aşağı təbəqə sayılan sıqan-jiqan~cıqan sinfi, *dəli-dolu, coğqun, dəlisov, özbaşına* kimi sözün əlavə mənaları əsasında yaranan familiyadır.

Sıqan çayı – Ukraynada (Dnestr hövzəsin), Tümen vilayətində (İrtış hövzəsi).

*RTS, 38*

**Sibir** (Сибирь) caddəsi və keçidi. Moskvanın mərkəzində – Taqankada yerləşir. Sibir ölkəsi – 1600-cü ildən Rusiyanın idarəsindədir – xatirəsinə qoyulmuşdur (1922).

**Sivaş** caddəsi (Сивашская ул.) – Moskvanın cənub-qərb səmtində yerləşir; öz adını Azov (Azak) dənizindəki Sivaş körfəzi adından almışdır. Türk dənizi Azak (Azov) 1696-cı ildən Rusiya idarəsinə alınmışdı. Vətəndaş müharibəsi illərində Sivaş körfəzi hərbi əməliyyat mövqeyi daşımışdır. (1985).

**Sivçev Vrajek (Сивцев Вражек)** – Moskvada Qoqol bulvarında küçə (XVII y.). Küçə dibi ilə Sivka çayının axdığı dərə (ovraq) adından - "vrajka" (vraq<ovraq) və siv~suv "su, çay" adından yaranmışdır. Sivka kiçicik bir çay adından (Siv;

[63] Гарин Г. Ф., Савоскул С. С., Шилов В. В. Серпухов. – М.: Московский рабочий, 1989. с.48

suv"su"+-ka rus dili şəkilçisi) və ovraq "*dərə*" sözü ilə bağlıdır. XIV əsrdən məlumdur

*МЭ, 564; Даль, 2. 642; Фасмер, 3. 115; Шипова, 248, 439*

Slavyanskiy **Bazar** (Славянский базар) – Mehmanxana və restoran belə adlanır. Nikol küçəsində yerləşir. 1966- cı ildən təkrar həmin adla fəaliyyətə başladı.

Bazar (Türk dillərindən) Rus dilində "xeyriyyə tədbirləri keçirilən yer", alış-veriş yeri, şənlik; qədim rus dilində 1499-cu ildən qeyd olunmuşdur.

*Радлов, 4.1193; Веселовский, 19; Фасмер, 1. 106; МЭ, 567*

**Sofrino** (Софрино) – Moskva vilayətində (Puşkin ray. daxildir) kənd.

Bax: *Safarino məq.*

**Som**ova (Сомова) – Orlov vil. kənd; Bolxovski ray. Som Türk dillərində iribaş balıq adıdır. Türkiyə türkcəsində Somunçu baba "çörəkçi baba"; somın altun "külçə qızıl". Qərbi Azərbaycan şivələrində som çörəyi yumru-yuvarlaq çörəyə, kömbəyə deyirlər. 1472-1496cı illərdə soyadı Som olaraq qeyd edilmişdir. Ryazanlı mülkədar Tutay Somov məlumdur(1594). Somovo kəndləri Voronej vil. vardır.

*Веселовский, 296; Баскаков, 38;RTS, 113*

**Stanovoe** (Становое) – Moskva vilayətində (Ramen ray.) kənd. QK-da 1577-ci ilə dair qeydlər vardır. Türk sözü *stan* Rus dilində də qədim alınmalar. XI əsrdən yazılı qaynaqlarda işlənmişdir. 20-ci əsrə qədər Rusiyada inzibati bölmə; Rus dilindəki ***stan**ovitsa, **stan**ovişe, pri**stan**işe, **stan**ovişe, **stan**ovişe* kimi vahidləri əmələ gətirir.

**Stan**ovişe (Становище) – Moskva vilayətində (Volokolamsk. ray. daxildir) kənd. 1784-cü ilə aid sənədlərdə adı





şəkilir. Stan Rus dilində "*tabor, dayanacaq, düşərgə; poçt stansiyası, meşədə ovçu daxması, sığınacaq yeri*" kimi zəngin məna yükü daşıyır.

*Веселовский, 299; Поспелов,494; Шипова, 321*

**Sudak**ov caddəsi (ул. Судакова) Moskvada cənub-şərq səmtində Lublino bölgəsində küçə.Türk mənşəli Sudakov soyadı ilə bağlıdır

**Sudak**ovo (Судаково) – Moskva vilayətində kənd; Mojaysk və ray. daxildir.

**Sudak**ovo (Судаково) – Moskva vilayətində, Kaşir yolu üzərində kənd. Domodedovo ray. daxildir.

Kəndin və küçənin adı Sudakov (1334) soyadı ilə bağlıdır. Soyadı əvvəlcə Sudak, sonra Sudakov olmuşdur Mojayskda sərkərdə İvan Sudak, Moskvalı zadəgan Sudakov (1572) məlumdur. Familiya Türk sözü sudaq~sudak balıq adı və ya Bu sözdən yaranan ləqəb əsasında yaranmışdır. Peterburq və Mərkəzi Rusiya regionundakı Voloqda, Smolensk, Tula, Yaroslav vilayətlərinə bağlı kənd.

*Веселовский, 304; Баскаков, 38; Поспелов 502*

**Suxan**ovo (Суханово) – Moskva vilayətində (Lenin ray. daxildir) kənd.

**Suxan**ovo (Суханово) Moskva vilayətində Kaşir ray. Suxanovların mülkü olmuşdur. Arzamaslı Suxan (1586), podyaçi Suxanov (1515) məlumdur. Sü-xan "qoşun, ordu" və xan "qoşun rəisi" mənasını daşımışdır.

*Веселовский, 308; Баскаков, 39*

**Sukman**ixa (Сукманиха) – Moskva vilayətində (Şelkovsk ray.) kənd. Sukman Toporkova (1460) məxsus olmuşdur. Rusiyada Türk əsilli Sukmanov soyadı ondan və övladlarından başlayır. (1460). Vora çayı üzərindəki Sukmanixa

şəhəri vaxtilə bu ailəyə məxsus olmuşdur. Soyadı Türk sözü sukman "evdə hazırlanmış mahuddan tikilmiş kaftan"dan yaranmışdır. Sukman mahud kaftan; Türk dillərində sukman, çekmen, çikmən, sekmen; mahud paltar. Moskva vilayəti ilə bərabər Vladimirdə kənd.

*Веселовский, 330, 304; Шипова, 290; Поспелов, 502*

**Sulat** (Сулать) – Moskva vilayətinin şimal qismində çay – Dubna çayını qolu. Sulanqa, Sulas, Sulozero və s. hidronimlərin tərkibində asanca görünən "su" sözünün iştirkı ilə yaranmışdır.

*Вагнер, 132;RTS, 76, 109; TK, 144, 257*

**Sumer** (Сумер) çayı; Moskva vilayətində Sofrino (Safarino) kəndi yaxınlığından axır. Veselovskinin qeydlərinə görə bu çay qədim Aktlarda da rus dilindən tamam uzaq bir tərzdə (Sumer adlanır) səslənirdi.

*Веселовский, Труды.,194*

**Sundum** (река Сундум) – Moskva vilayətində çay; Sestra çayının sağ qolu.Tez-tez rast gəlinən Fin-Uqor mənşəli *Sundoma, Sunduqa, Sundır, Sundoqa* və s. adları ilə bənzərlik təşkil edir

*Вагнер, 133; TK, 144, 256, 257*

**Supen**ovo (Супеново) – Moskva vilayətində (Şelkovsk və Odintsov ray.) 2 kənd 1495-ci ildən adı çəkilir. 1527-ci ildən voevoda Fyodor Vasilyeviz Supenovun mülkü 1782-ci ildən kənd olmuşdur) Mozjinka çayı yaxınlığında Soyadı əsasında supen<sübhan sözü durur.

*Веселовский, 306; Поспелов, 503; TK, 152*

**Surmino** (Сурмино) Moskva vilayətində Dmitriev və Odintsov ray. kənd. Hər iki kənd Surminlərə məxsus olmuşdur; Boyar Surma İvan İliç (1422) məlumdur; 1504-cü ildən





Surmin formalaşıb; Soyadının sür feil əsası "*sürmək, davam etmək, yaşamaq*" üzərində sürmə "*yaşam, davamiyyət*" ismindən düzəldiyi məlumdur. Moskva vil. ilə bərabər Penzada kənd.

*Веселовский, 307; Баскаков, 216-217; Поспелов, 503*

**Suvor**ov (площадь Суворова) – Moskvanın mərkəzində, Meşşan səmtində meydan

**Suvor**ov (переулок Суворова) Suvorov küçəsi Moskvanın Şərqində yerləşir. Mülk sahibinin adı ilə adlanmışdır.

**Suvor**ovo (Суворов) – Moskva vilayətində (Volokolam ray.) kənd. Subar İqnayev (15 əsr), Qoryain Suvorov (1482) məlumdur. Bu məşhur soyadı Subar (Suvar, Sabir – Hunlarda böyük nəsil) adından formalaşmış, ilk dövrlər də Subar şəklində işlənmiş, sonra Subarov~Suvarov~Suvorov şəklini almışdır.

*Веселовский, 303; Баскаков, 84-85;*
*Поспелов, 501; Ведина,782*

**Şaban**ovo (Шабаново) – Moskva vilayətində (Dmitriev ray.) kənd; Şaban adı ilə əlaqədardır İvaşko Şaban, Zaxarko Şaban (1495)məlumdur. Rus dilindəki Türk mənşəli familiyalardan bir tipi ay adlarını bildirir: ***Baratınski***, ***Safarov***, ***Romadanovski***, *Şevelyev*, ***Şaban**ov*... və s. Mərkəzi Rusiyada – Vladimir, Voloqda, Kaluqa, Smolensk ilə yanaşı Rusiyanın Pskov, Tümen, Novqorod, Kemerovo, Arxangelsk vil. coğrafi ad.

*Веселовский, 358; Баскаков, 42;*
*Поспелов, 552; Ведина, 965*

**Şabol**ovo (Шаболово) – Moskva vilayətində kənd; Çeremuşki kəndi yaxınlığında yerləşirdi və Buturinlərə məxsus idi. Buturinlər. Rus familiyası *Şabalin Şapalov, Şabala* "*qaşıq, kəfkir*" sözündən, ehtimal ki, həmin mənada ləqəbdən formalaşan addandır (1637)

*Радлов, 4. 987, 988, 1018; Веселовский, 358;*
*Даль, 4. 617; МЭ, 661*

**Şax**lovo (Верхне Шахлово, Нижни Шахлово – Moskva vilayətində (Çexov ray.) kənd.

Şax (Şah) adı ilə əlaqədardır. Fedor Şax 1610-cu ildə qeydə alınmışdır.

*Баскаков, 30, 88, 89; Поспелов, 186*

**Şaxmat**ovo (Шахматьево) – Moskva vilayətində (Solneçnoq. ray. daxildir) kənd; Şax Axmet (ovo) adının rus dilində təhrifə uğramış forması. Kənd XIII-XIV əsrlərdə Şax və ya Şeyx Axmata mənsub olmuşdur. Şax Axmatın babası Kinbar Şirinski Ordadan müttəfiqi çar İoann Vasilyeviçə xidmətə gəlmiş, artıq 1596-cı ildə Şax Axmet yerinə Şaxmat adı ilə işlənilir və knyaz Fedor Şaxmatov adı çəkilir. Şaxmatovo – Kurqan, Çelyabinsk vil. kənd adı.

*Веселовский, 363; Вагнер, 147;*
*Баскаков, 235;*
*Поспелов, 553*

**Şax**ovo (Шахово) – Əsli Şaxovo-Çislyaki. Moskva vilayətində (Domodedovo ray.) kənd

**Şax**ovo (Шахово) – Moskva vilayətində (Dmitrov və Podolsk ray) kənd.

Şax İvan Vasilyeviç (XVI əsr) və podyaçı (dəftərdar) Pyotr Şaxov (1570) məlumdur..

**Şax**ovo (Шахово) – Moskvada küçə adı; ev sahibinin adı ilə adlanmışdır. Rus familiyası Şax, Şaxov, Şaxovski eyni dərəcədə istifadə edilən Türk mənşəli familiyalardır.

Mərkəzi Rusiyada - Belqorod, Kostroma, Kaluqa, Kursk, Nijeqorod, Ryazan, Tver, Orlov, Kursk, Yaroslav ilə yanaşı Novqorod, Pskov, Omsk vil. kənd.

**Şax**ovskaya (Шаховская) – Moskva-Riqa dəmiryolunda stansiya və qəsəbə adı (1901). Knyaz Şaxovskilərə məxsus





kənd. Konstantin Qleboviç Şax (XIV y.), onun oğlu Andrey Şaxovski soyadını işlətmişdir.

*Радлов, 4. 941, 925; Веселовский, 362-363;*
*Вагнер, 147; Баскаков, 30, 41,79;*
*Поспелов, 554; Сытин, 329;*
*Подмосковье, 32*

**Şaqan**ino (Шаганино) – Moskva vilayətində Podolsk ray. kənd. Nijni Novqorodlu Şaqan Vasili Priklonski (1506); posad xadimi İvan Şaqin (1585). Şaqan~Çaqan adındamdır.

*Баскаков,177-178; Веселовский, 359*
*Bax:Çagin məq.*

**Şam**inski keçidi (Шаминский проезд) – Moskvanın mərkəzində, Taqanka ərazisində keçid; Yerusəlim prospektinə bağlanır. Türk mənşəli Şamin familiyası < türkcə şam "*işıq, çıraq; qüvvə*" ilə əlaqədardır. -in şəkilçi>Şamin

*Радлов 3, 1937; Баскаков, 138; ТНМУ, 27;*
*Фасмер, 4. 401; Ведина, 967*

**Şapk**ino (Шапкино) – Moskva vilayətində Kolomna, Naro-Fominsk, Solneçnoqor. və Mojaysk ray. olmaqla 4 kənd vardır. Şapka Dmitri (15-ci əsr), ondan Şapkinlər törəmişlər: Moskvalı hakim Mixaylo Şapkin (1556) məlumdur. Əski bulqarcadan Rus dilinə keçən və qədim Türk sözü çabak~şabak~şabak, şapka bu dildə geniş yayılmaqla bərabər Şapkin, Şapoşnikov, Şapoçkin kimi Rus familiyalarını da əmələ gətirmişdir. Kəndin adı ləqəbdən doğan soyadı ilə bağlıdır. Mərkəzi Rusiya coğrafiyasında: Bryansk, Voloqda, İvanov, Nijeqorod, Tambov, Smolensk, Tver, Yaroslavda, bununla bərabər Krasnoyar, Mordoviya, Novqorod, Pskov, Çuvaşıstan, Tatarıstanda kənd.

*Веселовский, 361; Баскаков, 39;*
*Поспелов, 553; RTS, 153-155*

**Şapkovo** (Шапково) İstra rayonunda kənd 1473-cü ilə aid fərmanda kəndin adına ilk dəfə rast gəlinir. Şapka soyadı ilə bağlıdır.

*Поспелов, 553*
*Bax: Şapkino*

**Şarapovka** (река Шараповка) çayı. – Moskva vilayətində Vyazemka çayına tökülür.

**Şarapovo** (Шарапово) – Odintsov ray. Шараповка çayının Vyazemka çayına qovuşduğu sahədə kənd. Yazılı sənədlərdə adına ilk dəfə 1558-ci ildə rast gəlinir; boyar Şarapovlar nəslinə mənsub idi. Kızıl baş, Tulunbek Şarapovlar məlumdur. Şarap (şarap "*şərəf, san*", +-ov ruscada familiya şəkilçisi

**Şarapovo** (Шарапово) – Sergiyev-Posad ray. kənd; dəmiryolu stansiyası adı 14-cü əsrin sonunda İvan Şarapova mənsub idi; ad buradandır. QK-dakı 1592-ci ilə dair qeydlərdə Şarapovo işlənmiş.

**Şarapovo** (Шарапово) – Moskva vilayətində Naro-Fominsk, Podolsk Çexov (2 kənd), Şatura, Zaraysk rayonlarındakı kəndlər Şarapov soyadı ilə bağlıdır. Moskvalı elçi Şarap Lodıgin (1572); Ryazanlı mülkədar Klinıka Şarapov (1616) məlumdur.

**Şarapovo** (Шарапово) – Moskva vilayətində Serpuxov ray. kənd. Göstərilən ərazilərdə Şarapov adı ilə bir sıra müəssisə də adlandırılmışdır. Bu kəndlər knyaz Şarapova mənsub idi. Rusiyanın mərkəzi regionlarında – Moskva vilayətində 8 yaşayış məntəqəsi olmaqla Voloqda, İvanov, Kaliqa, Kostroma, Nijeqorod (2), Ryazan, Smolensk (3), Tver (5), Yaroslavda, habelə Pskov, Perm, Omsk diyarında kəndlər.

*Веселовский, 361; Баскаков, 35;*
*Поспелов, 553; Лелёвкин, 27; Ведина, 970*

**Şatura** (Шатура) – Moskvaaltı (Yeqoryevsk ray. daxildir) kənd 1406-1572-ci illərdə knyaz fərmanında adı *Şatur* şəklində çəkilir





**Şatura** Moskva vilayətində şəhər. Sənədlərdə 17 əsrdə xatırlanır. Öz adını böyük Şatura çay və bataqlığından almışdır. Şatır Rus dilindəki türkizmlər arasında mühüm yer tutan şater (çadır, Qıpçaqlarda şatır~şater ) sözü ilə bağlıdır.

*Радлов, 3. 1898; Фасмер, 4. 413; Вагнер, 147;*
*Поспелов, 553; Türk İ., 180; Ведина, 971*

**Şaytanovskiy** (Шайтановский проезд) ev sahibinə görə 18-ci əsrdən belə adlanmışdır. Şeytanov- şeytan "iblis"; Türk dillərində köçürmə mənalarda "mərdimazar, fitnəkar, fırıldaqçı, xəbərçi"+ov rus dili şəkilçisi vasitəsilə düzəlmişdir. Şaytan sonralar büt, heykəl kimi tapınaqlara verilən ümumiləşdirici addır. Böyük ehtimalla soyadının əsasında sözün "büt, balbal, heykəl" mənaları durur.

*Радлов, 4. 928, 996; Сытин, 278;*
*Шипова, 406; Фасмер, 4.395*

**Şebanovo** (Шебаново) – Moskva vilayətində Volokolam, İstra, Pavlo-Posad rayonunda kənd. Şebanovo kəndi

Şeban~Şaban adı ilə – İvaşka Şaban (1495), Şiban (1629) məlumdur. Şeban adı<şaban qəməri təqvimin 8-ci ayının adıdır.

*Bax; Şabanov Баскаков, 211;*
*Поспелов, 555; Ведина, 965*

**Şebantsevo** (Шебанцево) – Moskva vilayətində Domodedovo və Serpuxov rayonunda kəndlər **Şebantsevo** kəndi 17-ci əsrə aid sənədlərdə Şibançevo adlanırdı. 20-ci əsrin əvvəllərindən isə Şebantsev şəklində istifadə olunur.

*Поспелов, 556*

**Şebaşevskiy** (Шебашевский) küçəsi və keçidi. Moskvanın şimal qismində yerləşir. Ev sahibinin soyadı ilə adlanmış.

Türk əsilli Rus familiyası Şebaşevski~Çebaşevski Rus dilindəki qədim çebak~çepak; şapak~şepak "*papaq, şapka*" sözündən formalaşmışdır.

*Сытин, 330; RTS, 153-155; Агеева, 139*

**Şelbut**ovo (Шелбутово) kəndi. Moskvadan 20 km-lik məsafədə Akatovo kəndi yaxınlığında yerləşir. Şelbutovo kəndi də Valuyevlərin mülk torpaqlarına aid idi

*Весел., Труды..., 198*

**Şemet**ovo (Шеметово) – Moskvaaltı (Serebryano-prudskiy ray.) kənd. Şemet (Şeremet) Qriqoryeviç Motyakin (1551). Şemet Yuryeviç Voekov (Voekovlar 1550), onun oğlu Şemetov Nelyub (1583). Məşhur Şeremetev soyadının dəyişdirilmiş variantı.

*Веселовский, 365; Баскаков, 33.*

**Şemil**ovo (дер. Шемилово) – Moskva vilayətində (Noginsk ray.) kənd; Türk əsilli Rus familiyası Şemilov, Şamilov ilə bağlıdır.

**Şeremet**evskaya (Шереметьевская) prospekti; Şeremetyevlərə məxsus böyük əraziləri əhatə edən küçə. Burada qraf Şeremetyevin bir neçə evi yerləşirdi.

**Şeremet**ev **şosesi** (Шереметьевское шоссе) – Moskvanın şimalında Şeremetyevo hava limanını Peterburq yolu ilə birləşdirən avtoyol.

**Şeremet**evskaya (Шереметьевская) – Beynəlxalq hava limanı; **Şeremetev** (Шереметьевская) xəstəxanası 1810-cu ildə açılmışdır; **Şeremetev sarayı** (Шереметьевская) – Moskvanin mərkəzində Tverskoy küçəsində Şeremetyev sarayı (1790)

**Şeremet**ev (дер. Шереметьево) – Moskva vilayətində (Kaşirada və Kolomnada) kənd

**Şeremet**ev (Шереметьевская пос.) – qəsəbə (18-ci əsr) Ximki qəsəbəsindən 12 km. məsafədə yerləşir.





**Şeremet**ev (Шереметьевская ст.) dəmiryolu vağzalı (1901). Qraf Şeremetyevin ərazilərindən keçdiyinə görə belə adlanmışdır. Türk əsilli Şeremetyevlər Türk ocağından çıxma böyük nəsillər olan Kolıçevlər və Yapançalarla eyni ailədənirlər. Baskakovun göstərdiyi kimi, Şeremet adı (onlar öz familiyalarını əvvəl elə beləcə Rus dili şəkilçisi qoşulmadan işlədirdilər) *Şir Muxammet* adından götürülmüşdü.

*Баскаков, 33, 82-84, 91, 248;*
*Вагнер, 147; МЭ, 663; Поспелов, 556;*
*Веселовский, 366;*
*Сытин, 106, 135*

**Şibayev** (Шибаев) – Moskvada küçə, ev sahibi. Bakı neft sahibkarı Şibayevlərin adı ilə adlanmışdır.

**Şibayevlər** malikanəsi Moskvada Basmannaya küçəsində Bakı neft sahibkarı Şibayevin evi

Şibayev familiyası Altaydan çıxma tatarlar arasında yayqındır. Altay ölkəsində Şibayev gölü və Kaluqada kənd adında da rast gəlinir. Şibay~şubay "*subay*" döyüşçü, hərbiçi; bu mənada xalq adilində" *savaşqan, davakar, qolu zorba*"; rus dilli mühitdə hörmətli, nüfuzlu adam. Rus familiyası (1535)

*Веселовский, 367, 373*

**Şixovo** (Шихово) – Moskva altında (Volokolam. və Dmitriev ray.) kənd. Dmitri Şix, Mixail Şix soyadları 1572-ci ildə qeyd olunmuşlar. Kn. Şixov Vasili İvanoviç (1526-da ölm.)

Novo**şixovo** (Ново**шихово**) – Moskva altında (Odintsov ray.) kənd və **Şixovo** (Шихово) Moskva çayının sağ sahilində kənd; ilk dəfə Savvina-Storojevski monastır mülkiyyət torpaqları kimi adı çəkilir (1558). Məntəqənin adı şeyx, şeyk, şıx~şix "ruhani dərəcəsi; tayfa başçısı; hörmətli adam, qoca" >Şix və ya Şixov familiyasından formalaşmışdır

*Радлов, 4. 995; Веселовский, 370;*
*Даль, 4. 626; Поспелов, 557*

Şitovo – **Ordın**sevo (Шитово-Ордынцево) – Moskvaaltı kənd; Moçe çayı üstündə yerləşir.

Orda~Ordu müasir Rus torpaqlarına daxil olan Qızıl Orda adından Orda Türk tayfalar ittifaqı. İlk mənası xan iqamətgahı bulunan yer. Türk dilində *saray, sultan çadırı, xan qərargahı*, müasir Türk dilində *qoşun, ordu*.

*Радлов, 1. 1072, 1073; Баскаков 232; Подмосковье, 32*

**Şiş**kovo (Шишково) – Moskva vilayətində (Volokolamsk ray.) və Smolensk vil.kənd

**Şiş**ovskoe (Шишковское оз.) – Moskva vilayətində (Noginsk ray. daxildir) göl.

**Şiş**ovka (Шишовка) – Moskva vilayətində (Solneçnoqor. ray.) kənd Şişovka çayı (река Шишовка) üzərindədir.

**Şiş**kin caddəsi (Шишкин) – Moskvanın Sokolniki qəsəbəsində küçə; Mənzərə rəssamı Şişkinin şərəfinə verilmişdir (1928).

**Böyük Şiş**kin (Шишкин) – Moskva vilayətində (Podolsk ray.) kənd

**Şiş**kin kiçik (Шишкин) – Moskva vilayətində (Podolsk ray.) kənd Paxra çayı üstündə yerləşir.

**Şiş**kino (Шишкино) Volokolamsk və Dmitriev. ray.) kənd. Şişka adı ilə bağlıdır; Mojayskda boyar Şişka Fedor (1472), Novqorodlu mülkədar Şişka Vasilyeviç Çertovskiyə 1550-ci ildə Moskva altında torpaqlar verilmiş, (1570) İvan Fedoroviç Şişkin Olqov (1563)

Şişkin şiş "qabar, şiş, suluq" hər hansı bir predmetin ucu, təpəsi; şişka qədim rus dilində "*palıd qozası*" +kin; -ov familiya yaradam şək. Voloqda (2), İvanov (2), Smolensk, Tula, Kaluqa (2), Kirov (2), Kostroma, Lipetsk3, Nijeqorod (7), Orlov,





Ryazan, Tambov, Tver, Yaroslav (5) vil. kənd. Bundan başqa Altay, Perm, Arxangelsk, Pskov, Ukraynada eyniadlı məntəqə.

*Радлов, 4.1082, 1083; Веселовский, 370;Поспелов, 558; Фасмер, 4. 444; МЭ, 665; Шипова, 420-421; Баскаков, 33; ТНМУ, 27; Ведина, 985*

**Şlı**kovo (Шлыково) Tula vilayətində kənd; Şlık familiyası qeydiyyatı 1552, 1600-cü illərə aiddir. Familiyanın əsasında Türk sözü şlık "şapka, kalpak" sözü dayanır. Şlık adlı kəndılər: Permdə çay və yaşayış məntəqəsi, Kostroma, Kirov, Tambov, Tver,Vitebsk (Belorusiya)

*Веселовский,367; Даль, 4. 640; Фасмер, 4. 455; Шипова, 422*

**Şubino** (Шубино) – Moskva vilayətində (Naro-Fominsk ray.) kənd.

**Şubino** (Шубино) – Moskva vilayətində (Sergiyev-Posad ray.) kənd.

**Şubin** keçidi (Щубина переезд) – Moskvanın şimal-şərq qismində keçid adı.

Kənd və küçə adının əsasında duran Şubin familiyası şüba, cübbə sözündəndir. Şuba üst geyimi, tarixən cübbələr isti üst geyiminin altından geyilmişdir. *Şuba, Şubin*: boyar Akinf Fedoroviç Şuba (1368); Zveniqorodlu Aleksandr Şubin (1404) qeyd olmuşlar.

*Веселовский, 373; Баскаков, 218-219; Фасмер, 4.482; Долгоруков, 84; Ведина,995*

**Şuqar**ovo (Шугарово) – Paveletsk istiqamətində Moskva dəmiryolu stansiyası

**Şuqar**ovo (Шугарово) – Kaşira çayı sahillərində 15-ci əsrdən Şuqarovskaya pustoş adı çəkilir, 1577-ci ildən kəndə çevrilmişdir

Suqar (Suqor): Dmitri Vladimiroviç Suqar (16-cı y.) Suqarev: Qridin Suqarev (15-ci y.), Suqur Korotnev (16-cı y.) Əski türkcədə (bulqar qatında) şuqar~şuqar bitki, qamış növü, bataqlıq bitkisi.[64]

*Веселовский, 373.*

**Şulgino** (Шульгино) – Moskva vilayətində (Odintsov, Dmitrov, Volokolam, Noginsk ray.) kənd; adı ilk dəfə 1472-ci ildə çəkilir. Məntəqənin adı şulqa "*solaxay, sol əl*" və bu məna ilə bağlı olan familiya ilə əlaqədardır. Şulqa Monastırev (15-ci əsr), Ondan Şuygin, sonralarsa Şulginlər törəmişdir.

Mərkəzi Rusiya regionunda – Voloqda (5), İvanov (3), Kirov, Kostroma, Ryazan, Smolensk, Tver (3), Tula, Tambov, Nijeqorod, Vladimir, Yaroslav (3), habelə Novqorod, Peterburq, Pskov, Perm vilayətlərində kənd adı.

*Веселовский, 373; Баскаков, 37, 254; Поспелов, 200*

**Şuşen**skoe küçəsi. (ул. Шушенская) – Moskvanın şimal-şərqində Anadır və İzumrud küçələri arasında yerləşir. Krasnoyar diyarındakı Şuşenskoe kəndi şərəfinə adlandırılmışdır (1964). Şuşenskoye (əsli Şuş) kəndi öz adını üzərində yerləşdiyi Yeniseyin qolu olan Şuş çayından almışdı. Kənd 1797-ci ildən Şuşenskoye olaraq tanınmış. Şuş digər yerli adlar kimi Türk mənşəlidir: şiş, dümdüz, itiuclu (Rus sözü ştık "süngü də bu sözdəndir "şiştik") Rus soyadları *Şuşerin, Şuşniq, Şuşnin* adlarının əsasında həmin söz vardır.

*Веселовский, 375; Баскаков, 37, 200,201*

**Tabol**ovo (Таболово) – Moskva vilayətində (Lenin və Volkolam. ray.) 2 kənd 1504-cü ildə iri torpaq sahibi Tabal

[64] Добродомов Сов. Тюркология, 1971, №2, с.85





Vasilinin – Zveniqorodda adı ilə bağlıdır. 1649-cu ildə dövlət qulluqçusu Afanasi Tabol qeydə alınmışdır. 1592- ci ildə Tobol kəndinin sahibi olaraq Boqdan Tabolun adı çəkilir. Sonralar Tabolin soyadı da meydana çıxır. Tabal "*çanta, bel çantası, heybə*" deməkdir; soyadı bu ləqəb əsasında yaranmışdır.

**Tabl**ovo (Таблово) Moskva vilayətində (Ruzsk ray.) kənd. QK-da 1624-26-cı illərdə Tabolovo, 1926-cı ildə Tablovo deyə keçir. 1504-cü ildə kəndin sahibi boyar Tabalov göstərilir.

*Веселовский, 311, 318; Поспелов, 506*

**Taborovo** (Таборово) – Smolensk vilayətində kənd. Türk dillərində öncə hərbi düşərgə, daha sonra əsgəri birlik mənalarını bildirir.

*Даль, 4. 384; Радлов, 3. 978; RTS, 175-176*

**Taqan** dalanı (Таганский тупик) – Aşağı və Yuxarı Taqan dalanları. Moskvanın mərkəzində, tarixi Taqan meydanı ərazisində yerləşir.

**Taqan**ka (плошадь Таганка) – Taqan meydanı 1963-cü ildək Yüxarı və Aşağı Taqan meydanı sonra vahid meydan halına gəlmişdir.

Mərkəzi Moskvanın cənub-şərq istiqamətində Moskva və Yauza çayları arasındakı tarixi ərazidə yerləşir. XVI əsrdə burada Taqan slabodası yerləşirdi. XVII əsrdən isə bu yerlər şəhərin iri ticarət ocaqlarına çevrilmişdir. Moskvanin türk adları sırasında qeyd olunur. Taqanka meydanına çıxır

**Taqan**skaya (ул. Таганская) caddəsi – Moskvanın tarixi mərkəzi küçəsi

**Taqan**kovo (Таганково) – Moskva vilayətində (Odintsov ray.), Slezna çayı sol sahilndə kənd. 1504-cü ildə bir fərmanda adı çəkilir.

**Taqanovo** (Таганово) – Moskva vilayətində (Ruzsk ray. daxildir) kənd.

Rus soyadları içərisində *Taqanov, Taqantsev, Taqanski, Taqanitsin* (1504) var. Familiyanın, habelə coğrafi məntəqələrin adlarının törədiyi taqan *"ocaqda qazanı oturtmağa dəmir həlqələr"*; taqan Türk dillərində *üçayaq*, ocaqda qazanın yerləşdirildiyi dəmir, geniş anlamda *qab-qacaq* hazırlanıb satılan yer. İndi Moskvada bu adlar sırasında meydan, metro, küçə, maqazin və s. – **Taqanskiy** (Таганский магазин) – kitab maqazini, **Taqanskaya** (ст. Таганская) metrostansiyası (1950), **Taqanka** (торг. Центр Таганка) Mockvada ticarət mərkəzi, **Taqanskaya** (Таганская тюрьма) – 1804-də bu ərazidə tikilmiş həbsxana, **Taqan təpəsi** (Таганская гора) – Yauza çayi ağzında dağ. və s. qeyd alınır.

*Даль, 4. 412; 3.795; 1305; Баскаков, 21, 253; ТНМУ, 21; Вагнер, 131, 137; Поспелов, 506; МЭ, 210, 589-590; Сытин, 138, 295; Горбаневский, 27*

**Taqanroq** (ул. Таганрогская) küçəsi. Moskvanın Cənubşərq səmtində yerləşir Azov dənizi limanı Taqanroqun (Tağanrağ) adına qoyulmuşdur (1964)

*Радлов,3. 1305; Фасмер, 3.9; Шипова,300-301; ТК, 268-269*

**Talaevo** (Талаево) – Moskvaaltında (Solneçnoqor. ray. daxildir) Tal~dal *budaq, sax*; *söyüd kolu* və onun şivləri. Rus dilində tal *"cavan ağac, çubuq; söyüd kolluğu*; krasnotal isə "qırmızı çubuqlu söyüd kolu" Budaqov soyadına müvafiq olan Talayev(Tal+ay adından) familiyalı şəxs kəndin sahibi olmuşdur. Axmed Talaev məlumdur (1564).

*Радлов,3. 857; Срезн., 3, 921; Веселовский, 311; Даль,4. 389; Фасмер, 3.13*





**Talalıxin** (ул. Талалихина) caddəsi türk mənşəli Talalıxin soyadı Talalıka "pəltək" ləqəbi əsasında yaranmışdır. Ləqəbin əsasında "*tili lal*" söz birləşməsi və rus dili şəkilçisi – ıka > tililalıka dayanır.[65]

*Баскаков, ТНМУ, 21*

**Talızino** (Талызино) – Moskvaaltında (Naro-Fom. ray daxildir) kənd. Kəndin adı Talza adı ilə bağlıdır. 1565-ci ildə Moskvalı boyar Roxman Talızin məlumdur. Türk əsilli Rus Talızin familiyasının Eldizin soyadı əsasında düzəldiyi göstərilir.

Talızinlərin nəsil başçısı Tatar əsilzadəsi Taqay-Eldizin Ulu Məhəmməd xanın silahdaşı idi. Onunla birlikdə müttəfiq olduqları Vasili Temniyə yaxınlaşdı (1436). Taqay-Eldizinin babaları Küçük Murza olsa da öz adını soyadı götürdü. Xaçlanarkən Yakov adını seçdi.

*Баскаков, 43, 44, 62, 63; Поспелов, 508; Ведина,792*

**Taman** caddəsi (Таман) – Marşal Jukov caddəsinin davamı olaraq çəkilmişdir (1963). Moskva çayı sahili ilə uzanır. Taman yarımadası və limanı (Azov dənizi) xatirəsinə qoyulmuşdur. Taman qədim türkcədə titul, rütbə bildirən söz.

*Фасмер, 4. 24; МЭ, 640*

**Tamojennıy** (Таможенный проезд) keçidi. Moskvanın şərqində, Lefortovo ərazilərindədir. 19-cu əsrdən buradakı gömrük anbarlarına görə adlanmışdır. Tamojnaya sözünün tamqa Türk sözündən yarandığını irəli sürən Dmitriyevin yazdığı kimi Rus dilində rüsum tətbiq edilən və bununla bağlı

[65] Təkəli Minaxanım. **Türk sözlərinin rus dilində mövqeyi: Xalq şivələrində türkcədən keçmiş sözlər-** Pedaqoji Universitetin Xəbərləri (Humanitar və Təbiət elmləri ser.), Bakı, 2011, №1; s. 166-172.

əmtəəyə tamqa qoyan xüsusi *tamğaçı vəzifəsi olan* Qızıl Orda dövründən işlənməyə başlamışdı.

*Срезн., 3. 923, 924; Дм., 545; Фасмер, 4.18*

**Taptık**ovo (Таптыково) – Kaşiradan 20 km. aralıda kənd (1624); İ.P. Taptıkovun mülkü idi. 1578-ci ildə kəndi Savka Taptıqovun idarə etdiyi xəbər verilir. 1531-ci ildə Kazan altında öldürülmüş Taptıkov Qriqori məlumdur. Bu sülalədən Ryazanlı və Kaşiralı zadəgan Taptıqovlar da məşhur idilər. Onların soyadları Kara Kadim Taptıkdan başlayır. Bəzi nümayəndələri Kadımov soyadını işlədirlər. Ryazan vil. və Başqırdıstanda kənd.

*Веселовский, 134, 312; Баскаков,189*

**Tarakan**ovka (река Таракановка) – Moskvanın şimal-qərb istiqamətində çay; Moskva çayının sol qolu. Mənbələrdə bu günkü adı ilə qeyd edilmişdir. (1398)

**Tarakan**ovka (роща Таракановка) – meşəlik Andrianovka kəndi yaxınlığında

Tarakanov küçə və döngələrin adları Tarakanovka çayı sahilində yerləşdiyindən belə adlanmış.

**Tarakan**ovo (Тараканово) – Moskva vilayətində (Yeqorevsk ray. daxildir) kənd

**Tarakan**ovka (Таракановка) Moskva vilayətində (Solneçnoqorsk ray. daxildir) kənd

Mülkədar Nikita Torokan (1495); Moskva boyarı Sava Torokanov (1609) məlumdur. 1627-ci ildə Tarakanovların öz torpaqlarını idarə etdiyi göstərilir. Çarın Kırımdakı elçisi də Tarakanovdur (1682).

**Tarakan** Sözün ilk mənası isə Türk dillərindəki tarqa~tara "sürünmək. yayılmaq", Çuvaş dilindəki tarağan isə qaçqın, qaçaq deməkdir. Sözün həşərat adı olaraq türkcə taraqan (ev təsərrüfatına ziyan vuran həşərat) geniş yayılması səbəbi də bununla bağldır. Azərbaycan türkcəsində *daraşmaq, daranmaq*





(yayılmaq)la bağlıdır. Tarakan Türk sözü *dara~taraqan* "qaçan", "iti axan" çay adı da buradandır. Bu adda toponimlər şübhəsiz, Türk mənşəli Rus soyadı Tarakandan törəmişdir. Mərkəzi Rusiyada: Ryazan, İvanovka, Voloqda, Yaroslav (2), Tver (2) vilayətlərində və Arxangelsk, Mari El, Perm, Udmurtiya, Tümen, Kirovda yaşayış obyekt adrları.

*Веселовский, 312; Баскаков, 225-226; Фасмер, 4. 20,21; Шипова, 308; Сытин, 296; Поспелов, 508; МЭ, 590*

**Taran**ovka (ст. Тарановка ) – Moskva altında dəmiryolu stansiyası. Soyadının əsasında duran taran Türk sözü hərbi termin olmaqla ilk əski mənasına görə divardeşəm metal ucluqlu *tir, qurğu* demək idi. İlk dəfə İpatov salnaməsində görünür (1237). Yer adlarının yaranmsında bu sözdən yaranan Türk mənşəli Rus *Taranov* soyadının rolu olmuşdur. Dnepropetrovsk (Ukrayna), Mogilyov vil. (Belorusiya); Rusiyada Moskva vilayəti ilə bərabər Vladimirdə kənd adları.

*Срезн., 3. 925; Фасмер, 4. 20, 21; Шипова, 307; RTS, 179-180*

**Tarbeevo** (оз. Тарбеево) – Moskva vilayətində (Sergiev Posad ray. ərazisində) göl.

**Tarbeevo** (Тарбеево) – Moskva vilayətində (Sergiev Posad, Stupin və Lüberetsk ray.) üç kənd. Kəndlər və göl öz adını 1340-cı ildə Tatar murzası Böyük Moskva knyazı Simeon Qordıya müttəfiq olan mirzə Tarbeydən almışdır. Ailənin nəsil başçısı Qızıl Ordalı Mir Dövlet bey Murza Tarbeevin Rus xidmətinə 1340- cı ildə keçdiyi göstərilir. İri torpaq sahibi Tarbey (1492), Alferi Juk Tarbeev (15-ci y.), Bucuq Tarbeyev (1527) qeyd olunmuşdur. Mordoviya, Penza, Tomsk, Tambovda və Kaluqa, Smolensk vilayətlərində Torbeevo kəndləri var.

*Веселовский, 59, 312; Баскаков, 60-62; Вагнер, 136; Поспелов, 509*

**Tarbuş**evo (Тарбушево) – Moskva vilayətində (Ozersk ray.) kənd; Oka çayının sol sahilində yerləşir; 1577-ci ildə QK-da Tarbışevo deyə qeyd olunur. Tarbış adındandır

*Поспелов, 509*

**Tarıç**evo (Тарычево) – Moskva vilayətində (Lenin ray.) kənd. 17-ci əsrdən məlumdur.

**Tarxan** (Тархан) – Ryazan vilayətində kənd; Sasovski rayonuna daxildir.

**Tarxan** kanalı (Тархановский канал). – Moskva vilayətində kanal; Şatura gölünə axır.

**Tarxan**ovka (Тархановка) – Moskva altı (Şatura ray.) qəsəbə.

**Tarxan**skaya caddə (Ул.Тарханская) – Moskvada, cənub- şərq səmtində caddə.

**Tarxan**skaya (Тарханская) – Moskvaaltı kənd (Şatura ray.) "Qeydiyyat Kitabı"nda 1637 və 1648-ci ilə aid məlumat var; Fedor Şeremetyevə mənsub idi. Arzamaslı Torxan(1586), Moskvalı Tarxanov (1573) qeyd olunmuşdur.

Ad **tarxan** (monqolca darxan) "*yüksək imtiyazlı feodal, boyar*" titulundan və ya ruslara əsir düşən (1468) Kazan əsilzadələrindən Tarxanın oğullarından, o cümlədən xristianlığı qəbul etdikdən sonra bu soyadını daşıyan çar əyanı Petr Tarxanov (1573) Kazak İvaşka Tarxan (1620) familiyasından formalaşa bilər. Finlandiya və Rusiyadan axan çayın adı, Ryazanda, Kırımda, Tatarıstanda kənd.

*Веселовский, 313; Радлов, 3. 851; Фасмер, 4.25; Шипова, 310-311; Поспелов, 509*

**Taşir**ovo (Таширово) – Moskva vilayətində (Naro-Fominsk ray.) kənd. Taşirovo yaşayış məntəqəsi Taşir adı ilə bağlıdır. Kənd torpaq sahibi Taşir Medvedevə (1560) məxsus olmuşdur

*Веселовский, 313; Поспелов, 510; Ведина,798*





**Taşkent** caddəsi (Ташкентский просп.) – Moskvanın Cənub-şərq hissəsində prospekt. Ryazan prospekti ilə Çuqun Darvaza küçələrinin arasında yerləşir.

**Taşkend** küçəsi (ул. Ташкентская) – Eyniadlı prospekt ilə Səmərqənd bulvarı arasında yerləşir. Küçə və prospekt əsasında Taş+kent sözləri olan Özbəkistanın Taşkend şəhərinin (daha əski adı Minkənd) şərəfinə belə adlandırılmış (1968)

*Баскаков, ТНМУ, 29*

Böyük **Tatar** caddəsi (Большая Татарская) 1960-cı ildən Moskvaya qatılmışdır. Tatarovo kəndinin xatirəsinə adlanmışdır. Tatarovo 1417- ci ildə Böyük kn. Vasili Dmitriyeviçin fərmanında adı çəkilir. Qərbi Moskva ərazilərində və Moskva çayının sol sahilində yerləşirdi. Kəndin ərazisində 5 caddə kəndin adını daşımaqdadır

**Tatar** təpələri (Татаровские высоты) – Moskvanın qərb istiqamətində, Moskva çayının sağ sahilində yüksəklik; hünd. 220 m.

**Tatarin**ovo (Татариново) – Moskva vilayətində kəndlər. (Domodedovoda, Stupin və Mojaysk ray.). Rusiyada yayqın olan Tula və Meşeradan çıxmış Tatarinov soyadı ilə bağlıdır. Mülkədar Ondreyko Tatarin (1495), kəndli Levonko Tatarinov (1539) qeydə alınmışdır. Tatarin, Tatarinov, Tatarintsov etnonim əsasında yaranmış familiya olaraq geniş yayılmışdır. Voloqda (2), Kostroma (2), Orlov, Tver, Yaroslav vil. kənd.

**Tatar**inki (Татаринки) – Moskva vilayətində (Şaxovsk ray. daxildir) kənd. Ruza çayının üztündə yerləşir.

**Tatar**intsevo (Татаринцево) – Moskva Vilayətində (Ramensk ray. daxildir) kənd. 1626-cı ildə adı çəkilir; QK-da və xəritələrdə bu günkü adı ilə qeyd olunmuşdur.

**Tatarki** (Татарки) – Moskvaaltı (Odintsov və Lotoş. ray.)kənd. 1592-ci il sənədlərində göstərilmişdir. Smolensk yolunda, Ostrovna çayı sahilində tüfəngçi Tatarka Ustinov qeyd edilmişdir (1614).

**Tatar**skoe (Татарское) – Moskvaaltı (Domodedovoda) kənd Tatar etnonimi ilə bağlıdır. 17-ci əsrdə kənd tatar əsilzadəsi tatar Baykişev Esençurinə mənsub olmuşdur.

Mərkəzi Rusiyada – Voloqda, Kostroma, Kaluqa, Nijeqorod, Tula, Smolensk, Yaroslav və həmçinin Perm, Mordoviya, Udmurtiyada kənd.

Bu xalq adına ilk dəfə Orxon-Yenisey kitabələrində rast gəlinir. Tatarovlar (Tatarinovlar) əsasən Kazan və Meşer (əsli meşçer-burtasların daha sonrakı, yeni nəsli) tatarların içindən çıxmışdırlar. Yer adları Tatar etnonimi – Türk xalqlarının ümumiləşdirici adı ilə bağlıdır.

*Веселовский, 313; Баскаков, 122-123; Halıkov, 96; МЭ, 595; Поспелов, 509, 591*

**Tatiş**evo (Татишево) – Moskva vilayətində (Volokolam ray.) kənd; 1769-cu il sənədlərində adı çəkilir.

**Tatiş**evo (Татишево) Moskva vilayətində (Dmitriev, İstra, Naro-Fominsk, Solneqor. ray.) 4 kənd

Kəndlər Tatişe adı ilə əlaqədardır. 1495-ci ildə mülkədar Aleksandr Tatişe, yenə həmin ildə kəndli Timoxo Tatişev məlumdur. Tatişevlər vaxtı ilə Ordadan Rus dövlətinə gəlmiş məşhur Şah oğlu Saleh Amir və Yedigen qardaşları şəcərəsinə aiddirlər. Belə ki, Salaxmir (Saleh Əmir) 1357-ci ildə xaçlanmış və Tatişev (tat~tatar)soyadını götürmüşdür.

*Баскаков, 64, 65; МЭ, 591; Поспелов, 509, 591, 510; Ведина, 798*

**Tayqa** caddəsi (ул. Таежная) – Moskvada küçə; şəhərin şimal-şərq istiqamətində yerləşir. Türkcə (altayca) tayğa "*meşə ilə örtülü dağ*" sözündən. Çoğrafi ərazi adı olan Şimali Sibirdə Tayqa ilə bağlıdır.

*Радлов, 3. 497, 767; Фасмер, 4.11; Баскаков, ТНМУ,28*





**Taydak**ovo (Тайдаково) – Ryazan vilayətində kənd; Şatski ray. daxildir. Taydakovlar soyu 1587-ci ildə Tulada qeyd olunmuşlar.

*Веселовский, 311*

**Tefan**ovo/ **Tufan**ovo (Тефаново/Туфаново) – Moskva vilayətində (Dmitrievsk ray. daxildir) kənd; tefan~tufan "*tufan*" sözündəndir. Tufanov, Tefanov Türk əsilli Rus familiyalarındandır. Qrişka Tefan (1495) qeydə alınmış. Voloqda vil. kənd və dəmiryolu stans., Tver, Yaroslav vil. kənd adı.

*Поспелов, 513*

**Telegino** (Телегино) – Moskva vilayətində (Volokolam ray.) kənd. Teleqa adı ilə bağlıdır. Soyadı 15-ci əsrdə Teleqa Zaytsevdən başlayır, topçu Ovdaşko Telegin (1673), Dmitri Mişin Telegin (1569) məlumdur. Rus familiyası Telegin öz əsasında mənşəcə türk-monqol – teleqa "telegen<tegelen+in şəkilçisi" saxlayır. Penza, İvanov, Kostroma, Kursk, Lipetsk, Orlov, Pskov, Yaroslav vil. kənd.

*Радлов, 3. 1017, 1031; Веселовский, 314; Баскаков, 129; Фасмер, 4.38; Поспелов, 510*

**Teleş**ovo (kiçik və böyük) (Телешово) – Moskva vilayətində (Dmitrev ray.) 2 kənd; 1626-cı ildə Teleşovo qeyd olunub Teleş adından yaranmışdır. Uqliçli Teleş Mixaylov (15 y.) Böyük kn. Sarayında Dyak İvan Teleşov (1502) məlumdur. Teleş~tilaş "istək. arzu" və ya tili "sərsəri, axmaq". Familiya tiliş "əzizləmək" və - ov şəkilçisindən düzəlmişdir.

**Teleş**ovo (Телешово) – Moskva vilayətində (Lotoş., Naro- Fominsk) 2 kənd

**Teleş**ovo (Телешово) Moskva vilayətində (Solneçnoqorsk ray.) kənd. Mərkəzi Rusiya regionunda – Smolensk, Tver, Pskov vilayətlərində kənd.

*Веселовский, 314; Баскаков, 255; Поспелов, 511*

**Temirovo** (Темирово) – Ryazanda kənd; Novoderevenski ray. daxildir.

*Bax: Timirovo məq.*

**Temnikovo** (Темниково) – Moskva vilayətində (Şaxovski ray. daxildir) кənd. Terenti Temnik qeydə alınmışdır(1215).

**Temnikovo** (Темниково) – Moskva vilayətində (Volokolamsk ray.) кənd. 15-16-cı əsrlərdə abad kənd olmuşdur. Qədim Türk sözü temnik "*hərbi rəis, sərkərdə*" ruscada *temniçi* qədim alınmadır (1237) Türk mənşəli Rus soyadları arasında *Temnik, Temnikov* soyadı vardır. Mordoviyada qədim şəhər; Moskva vilayəti ilə bərabər Voloqda da kənd.

*Срезн., 3.1083-85; Фасмер, 4.40; Даль, 4. 398; Шипова, 318*

Teplıy **Stan (ул.** Теплый Стан) caddəsi (2 caddə) – Şərqdən qərbə doğru istiqamət götürən küçələr eyniadlı metrostansiyadan başlarlar.

Teplıy **Stan** (Теплый Стан) rayonu. Moskva şəhəri daxilində – cənub-qərb hissəsində administrativ bölgü.

Teplıy **Stan** yüksəkliyi. (Теплая Станская возвышенность) və eyniadlı qoruq, metrostansiyası, stansiyası

Teplıy **Stan** (Теплый Стан) türk sözü stan "*düşərgə, dayanacaq, cəbhə*"; qədim Rusda stan hərbi düşərgə, möhkəmləndirilmiş strateji dayanacaq, düşərgə XI əsrdən məlumdur. *Stan*+itsa, *stan*+ovoy, stan+ovişe, pri+*stan*+işe, *stan*+siya kimi vahidlərin əmələ gəlməsində rol oynamışdır. Moskvanın cənub qərbində tarixi yer Serpuxov yolunun qarovul-mühafizəsi təmin olunmuş qarovulxana; əvvəllər Yuxarı və Aşağı Teplıy Stan adları mövcud idi (1628) Yuxarı Teplıy Stanın sahibi məşhur Darya Saltıkova olmuşdur. Moskvadan Kaluqaya gedən yolda ilk poçt stansiyası idi. 1960-cı ildən şəhərə qatılmışdır. Voloqda (3), İvanov (2),





Tver (4), Smolensk (6), Samarada kənd.

*Веселовский, 299; Шипова 321; Поспелов, 594; МЭ,600*

**Termenovo** (Терменово) – Moskva altı kəndi. İndiki Termenovo kəndinin yerində vaxtilə Termen Omutu (nohur) var idi. Sənədlərdə XV əsrdə knyaz Petr Dmitrovskinin Troitsk monastırına Vora və Termen omutunda balıq ovuna və samur tutulmasına dair icazə verildiyi göstərilirdi. Termen çox şübhəsiz, Rus ağızlarındakı Türk sözü dəyirman~ tegirman sözü ilə bağlıdır. Türk mənşəli Rus soyadları sırasında Termenov soyadı da vardır. Nikolayev vil. Termen yaşayış məntəqə adı.

**Teşilovo** (Тешилово) – Sergiev Posad ray. aid Moskvaaltı kənd. Teşilo adı ilə bağlıdır (XII əsr)

**Teşilovo** (Тешилово) – Serpuxov ray. aid Moskvaaltı kənd. Moskva Rusu təşkil olunduqdan sonra Spas-Teşilovo şəklində işlənir. Yaroslav və Tver vil. kənd adı. Taşlıyev~Teşliyev soyadının təhrif forması.

*Подмосковье, 22; Поспелов, 513*

**Timur** caddəsi (ул. Тимура) – Moskvanın Cənub səmtində caddə. Luqansk və Bakı küçələri arası ilə uzanır. Qaydarın məşhur "Timur və onun komandası" kitabının qəhrəmanı şərəfinə qoyulmuşdur. (1940)

**Timirovo** (Тимурово) – Kolomna ray. bağlı Moskvaaltı kənd. Temir; Moskvalı dyak Temir Mişurin (1585), Temirev oğlu Yuri Ondreev (1556) qeyd olunur.

*Веселовский, 299; Баскаков, 223; Поспелов, 513; Halıkov, 97*

**Timiryazev** platforması (Тмирязевская платформа) – Yaxınlıqdakı Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasına görə adlandırılmışdır.

**Timiryazevo** (Тимирязево) – Moskvaaltı (Kaşir ray.) kənd. Ordali Timiryaz İbrahimin 1408-ci ildə xaçlanması ilə hazirki soyadı işlənir. Temiryazevo kəndi Kaşir qəzasındakı torpaq sahibi mülkədar Temiryazevlərin adları ilə bağlıdır(1578). Kaşiralı Temiryazev Duvan Semeneviç (1556), Kaşira və Kolomnada Başuk Şamayık Temiryazevlər (XVI-XVII). Timir "*dəmir*"+yazı~qazi "*döyüşçü*" dəmir döyüşçü

*Веселовский, 315; Баскаков, 42,214; Поспелов, 513*

**Tiyunsevo** (Тийунцево) – Mojaysk ray. aid Moskvaaltı kənd. Tiun məmurluq rütbə "*naib, vəkil, canişin*" adı ilə bağlıdır. Tiun soyadına 1500-cü il, Saray dyakı Tiunov Pyotr (1585), Tiuntsev soyadına isə 1611-ci ildə rast gəlinir

*Веселовский, 317; Поспелов, 514*

**Tokay** (Токай) – Voronej (əski Kazar) vilayətində çay.

Tokay, tukay, tuqay, toğay, toğaylıq Türk dillərində "meşəlik sahə, çay kənarı meşəlik; kol-meşə " mənasındadır. Tokay Penzada çay adı; Xopra hövzəsinə daxildir.

*Радлов, 3. 1158, 1159; Шипова, 323*

**Tokmakov** küçəsi (ул. Токмакова) – Moskvanın mərkəzində tarixi Basman ərazisindədir. Küçə 18-ci əsrdən buradakı mülk sahibi Türk əsilli Tokmakov familiyası ilə bağlıdır. Ailə 15-ci əsdə Tokmak soyadı daşıyırdı. Onun davamçıları 1538-ci ildə knyaz Tokmakov adı ilə qeyd edilir. Türkcə tokmak~toxmaq "*gürz, dəyənək, zopa*"mənası ilə bağlıdır. Ryazanda (Ermiş ray.)kənd adı.

*Веселовский, 318; Баскаков, 40; ТНМУ, 26*

**Tolbugino** (Толбугино) – Moskva altı (Podolsk ray.) kənd





Tolbugino adi 16-ci əsrə aid sənədlərdə çəkilir; kənddən azca aralida Böyük Tolbugino adlı arxeoloji sahə - şəhər xarabalıqları yerləşir. İndi Tolbino kimi tələffüz edilməkdədir. Knyaz Tolbuğa İvan Fyodoroviç (1401) Moskva Böyük kn. Vasilinin qoşun sərkərdəsi olmuş, ondan Tolbuzin və Tolbuginlər soyu yaranmışdı. Tol "*mükəmməl, sağlam, dolğun, güclü*"+buğa "*güclü buğa*" Yaroslav və Kostoma vilayətində kənd adı.

**Tolbino (Толбино)** – Moskvaaltı (Stupin ray. dax.) kənd. 1709-cu ildə qeyd olunub

**Tolbino** böyük və Tolbino kiçik (Толбино) – Moskvaaltı (Podol ray.) kənd.

Tolbugino adı ilə əlaqədardır.

*Веселовский, 319; Баскаков, 206; Поспелов, 514,516*

**Tolmaçevski** (Толмачевский) – Moskvada kilsə. Qədim Tolmaç kilsəsi; 1625-ci ildən fəaliyyət göstərir.

**Tolmaçevo** (Толмачево) – Moskva vilayətində (Ramensk ray.) kənd. 1577-ci ildə QK-da Tolmaç adı ilə – boyar İvan Tolmaç (1614), mülkədar Ondrey Tolmaçev (1500) məlumdur.

Starıy **Tolmaçevski** (Толмачевский) – Moskvada Qızıl Orda hakimiyyəti dövründən qalmış Tolmaç slabodası adı ilə bağlıdır. Tatar slabodasından azca aralıqda Tolmaçevskaya slaboda yerləşirdi. Slabodada 15-17-ci əsrlərdə Moskvanın Tatar və Rus dilləri üzrə tolmaçları sakin idilər. Slaboda bu günkü Novokuznetskaya metrosu ərazisində mövcud olub. Tverdə, Peterburq altında da Tolmaçevo kəndi var. Tolmaç tol til~dil~dul~tul "dil"və mac<manc (sözdüzəldici şəkilçi).

*Баскаков, 244; Даль, 4. 412; Горбаневский, 38; Шипова, 324-325; Фасмер, 4. 72; Долгоруков, 84; Поспелов, 514*

**Toloçan**ovo (Толочаново) – Moskva vilayətində (Stupin ray. daxildir) kənd. QK-da 1577-ci ildə qeyd olunub. Tolocan adı ilə - boyar oğlu İvan Tolocanov (1533); Nikita və Matvey Boqdanoviç Toloçanov 1578-ci ildə Kolomnada qeyd edilib.

*Веселовский 319; Поспелов, 514*

*Bax: Tolbugino məq.*

**Topkan**ovo stansiya adı (Топканово станция) – Moskva vilayətində elektrik qatar stansiyası. Topkanovo (Топканово) Kaşira QK (16 əsr) Tapkonovo şəklində adı keçir. Həmişə Kaşira və digər qəzalarda torpaq sahibi mülkədar Topkanovlara (Tapkanov şəkli də məlumdur) məxsus olub

**Topkan**ovskoe (Топкановское) – Moskva altında (Kaşir ray.) kənd

*Поспелов, 515*

*Bax: Tarkanovo məqaləsinə*

**Topor**kovo (Топорково) – Moskva vilayətində (Sergiev Posad ray.) kənd

**Topor**kovo (Топорково) – Moskva vilayətində (Şelkovsk ray.) kənd. Torpaq sahibi Sukman Toporkovun adı ilə adlanmış (1460), Toporkov Fyodor Klobuk iri torpaq sahibi (15-ci y.)

**Topor**ovo (Топорово) – Moskva vilayətində (Ramen, Mojaysk ray.) kənd Topor adı ilə bağlıdır (1539). Topor, dəpər "*balta*" təpər~dəbər balta, döyüş baltası; qədim döyüş silah; KDQ- da dəpər. Yekaterinburq və Novqorodda kənd.

*Веселовский, 304, 320;*

*Баскаков, 23; Фасмер, 4.79*

**Toptık**ovo~**Taptık**ovo (Топтыково ~Таптыково) – Kaşirada 1578-ci ilə aid QK-da rast gəlinmiş. Kaşiralı boyar oğlu İvan Taptıkov (1565); Ryazanlı mülkədar Ofonasi Taptıkov (1610) məlumdur.

*Поспелов, 515*

*Bax: Taptıkov məq.*





**Torbeevo** (Торбеево) – Moskva vilayətində (Lüberetsk, Stupin, S. Posad ray.) kəndlər

Torbeevo 1543- cü ildə kənd adı olaraq rast gəlinir. Boyar Mosolov Matvey Tarbeyə məxsus olmuşdur. Kənddəki Spas-Preobrejenie kilsəsinə görə sonralar Spas Torbeevo adlandı.

**Torbeyev** gölü (Торбеево озеро) Sergiyev – Posad qəsəbəsi yaxınlığındadır.

Mordoviyada Tarbey şəhəri, Tomsk, Smolensk, Penza vilayətində kənd.

*Веселовский, 312; Баскаков, 244;*

*Поспелов, 492; Ətraflı bax: Tarbeev*

**Tovariş**evo (Товарищево) – Moskva vilayətində Podolsk ray. Tovariş Esipov (15-ci əsr) məlumdur. Kəndin adına QK-da 1627-ci ilə aid rast gəlinir. Türk sözü tovariş ortaq, iştirakçı, şərik, tərəfdar, əməkdaş, kolleqa mənaları daşıyır. Tovar "*mal-mülk, mal-qara, davar*"+eş "*yoldaş, dost*". Tovarişlər soyu 1549-cu ildə Kazan altında öldürülən İvan Tovarişevdən başlar. Soyadı türkcə 2 sözdən – tovar "*mal-mülk* (əvvəl iribuynuzlu mal-heyvan) +eş "*yoldaş, ortaq*" ibarətdir. Əvvəl tacir ortaqlığını özündə birləşdirən söz olmuş, sonra mənaca daha da genişlənmişdir.

*Радлов, 3. 966; Веселовский, 318; Фасмер, 4. 79*

**Tovar**kovo (Товарково) – Moskva vilayətində (Ruzsk ray.) kənd. 15-ci əsrin sonlarında Böyük kn. Vasili Temninin sarayında boyar Tovarko Fedor Puşkinə məxsus olmuşdur. Kənd onun adı ilə adlanmışdır. Tovarkov soyadı da ondan əmələ gəlmişdir. Tovar Türk dillərində mal-mülk; ev heyvanları, ruscada qədim mənada: iribuynuzlu mal, naxır; yük karvanı (992) daha sonralar alış-satış predmeti; tovarko "*tovariş*". Kaluqa, Tula vilayətlərində kənd.

*Радлов, 3. 966, 985, 1341; Срезн., 3. 969-71;*

*Веселовский, 318; Поспелов, 514; Фасмер, 4.68*

**Tuçk**ovo (Тучково) – Moskva vilayətində (Ruzsk ray.) kənd. 1812-ci il müharibəsi qəhrəmanı general Tuçkov qardaşları şərəfinə adlanmışdır (1904); Tuçkovlar soyu (16-cı y.) Tuçka Vasili və İvan Borisoviç Morozovdan başlayır. Nəsil başçısı Al. Nevskinin müttəfiqi olan tatar xanı idi.

*Веселовский, 327; Баскаков, 37; Поспелов, 522*

**Tuqan**oviçi (Тугановичи) – Tver vilayətində (Boloqov ray.) kənd. Tuqanov, Tuqanin Türk əsilli Rus soyadı (1515) Novqorodda Tuqanovo, Belorusyada (Brest vil.) Karçevo şəhərinin əsil adı Tuqanoviçi olmuşdur. Peterburq altında (Qatçina ray.) iki Tuqanitsı kəndi vardır. Türk sözü tuqan~toğan "şahin"; Türk dillərində tuğan, toğan, toğana, doğan. Türk əsilli Rus soyadları Tuqanov, Tuqanoviç coğrafi adların yaranmasında rol oynamışdır.

*Веселовский, 324; Баскаков, 168*

Böyük **Tula** caddəsi (Большая Тульская ул.) – Moskvadan Tulaya istiqamət alan tarixi Tula yolu (18-ci əsrdən küçə). Tula, Tuluy, Tolu, Tulubay, Tulak və b.k. adlar Türk onomastikasında möhkəm yer tutur: Çingiz xanın oğlu, imperiyanı bir il idarə etmiş Tolu(Tuluy), Batı xanın nəticəsi Qızıl Orda xanı Tula Buğa xan (Ryazanda əmir Noqayla döyüşdə öldürülmüş), Tola Orxon çayının qolu, Başqırdlarda qəbilə və şəxs, Tatarıstanda yer adı: Tulubay, Özbəklərdə şəxs adı: Tula və s.

*ТЭС,537; ТК, 283-285; Поспелов, 518*

**Trufan**ovka (Труфановка) – Moskva vilayətində (Odintsov ray. daxildir) Polqa çayı üstündə kənd. 1558-ci ildən haqqında məlumat var (Əsli: Turufan). Kaşir ray. aid də Trufan kəndi vardır.

**Tuxaç**evski küçəsi (Тухачевского ул.) – Moskvada küçə. Eyniadlı kənddən yadigardır. Bu kənd Böyük kn. Vasili Vasil-





yeviçin ona mülk olaraq verdiyi mülkiyyətdəndir. Türk (çağatay) əsaslı familiyanın kökündə tuğaçı "bayraqdar, qasid, ayaqçı" sözü (tuğ "bayraq, buncuq, xoruqv"+ çu, çi şəkilçisi) durur. Bu soyadı onun ilk daşıyıcısı olan İdris Tuxaçevskidəndir.

*Баскаков, ТНМУ 26;*
*Баскаков, 201-202*

**Tufan**ka (Тюфанка) – Moskva vilayətində (Çexov ray.) kənd.

*Bax: Tefanovo/ Tufanovo*

**Tulçino** (Тулчино) – Moskva vilayətində (Serpuxov ray.) kənd; sənədlərdə ilk qeydlər 1578-ci ilə aiddir. Tulçino kəndi adı Tulu xanla bağlıdır; Tulu (1231-ci ildə ölmüş) Çingiz xanın ən sevimli oğlunun adıdır. Məngu qaan, Xubilay qaan, Hülakü xan onun oğullarıdır. Türk mənşəli rus soyadları sırasında Tulçin familiyası da var.

*Поспелов, 521; Баскаков, 191-192; Atalay, 59*

Bax: Tula məq.

**Tuman**ovo (Туманово) – Smolensk vilatətində iki kənd. Familiyanın əsasında tuman, duman Türk sözü durur.

*Радлов, 3. 1518;*
*Даль, 4. 442; RTS, 40, 51, 53*

**Tumen**skoe **(Туменское)** – Moskva altında (Kolomna ray.) kənd.

Soyadının kökündə tuman "*tümen, tumen*" on min, "*çox sayda, hədsiz*" (qoşun) -skoe rus dili şəkilçisidir. Toxtamış xan (Tuktomış) nəsli sonralar Tumanski soyadı götürmüşlər. Qərbi Sibirdə mövcud olmuş Tümen xanlığı (14-16-cı əsrlər)

*Радлов, 3. 1518; Веселовский, 325;*
*Halıkov, 99; Фасмер, 4.119*

**Tura**bevo (Турабьево) – Moskva vilayətində ayrıca kənd olmuş, hazırda Şelkovo şəhərinə qarışmışdır. Tura bəy adındandır. Tura – orta əsr türkcəsində xan oğullarının titullarındandır. Bu mənada kənd şəxs adından (məs., Kolomnalı Tura bey Sumarokov 1553) və ya Turabev familiyasından Kaşiralı Afanasi Turabev (1556) Kaşirada qeyd olunur. Klyazma üzərindəki bu kəndin adına 1472-ci ildə ilk dəfə dövlət aktında rast gəlinir. Tura~töre "cənab, ağa"+bay "zəngin, varlı, bəy" orta çağ Türk dillərində *xan oğulları*, xüsusən *vəliəhd, murza* adı kimi titul hesab olunur. Vladimir, Kostroma vil. kənd.

*Веселовский, 323; Баскаков, 244; Atalay, 94*

**Tura**evskoe şose (Тураевское шоссе) – Moskvadan çıxış şosesi. Tura adindandir Orta çağ Türk dillərində sonralar işlənən murza sözündən əvvəl xan oğullarının titulu olaraq töre~tura sözünə rast gelinir. Tver, Voronej vil. də kənd adı.

*Баскаков, 244*

*Bax: Turabevo məqaləsinə*

**Turak**ovo (Тураково) – Moskva vilayətində (S.Posad ray.) kənd. 1578-ci ildə QK-də qeyd olunub. Əsli Durakovo 15-ci əsrdə İvan İqnateviç Durak Morozov və Fedor Durak Kemski durak~turak (Yaşar, Dayandur, Durmuş, Dursun tipli) "həmişə yaşar" ən uğurlu şəxs adlarındandır. Tver, Vladimir vil. də kənd adı.

*Поспелов, 521; Atalay, 95*

**Turçanin**ov (Турчанинов) – Moskvanın mərkəzində yerləşir; küçə ev sahibinin familiyası ilə adlanmışdır. Turçanin Türk adından. Türk və -çanin (Datçanin, qreçanin, bryançanin) qəlibində düzəldilmişdir. Türk xalqının Ruscadakı arxaik adı olan Turkov, Turçaninov həm də Türk mənşəli rus zadəgan familiyasıdır.

*Баскаков, 41, 75-76; Сытин, 305*





**Turey**ka (Турейка) – Moskvaaltında (Naro Fominsk ray.) kənd Tureyka çayı adından.

**Turey**ka (Турейка) – Moskva vil. çay (Berezinka çayının qolu). Serebryanıy prud ərazisindən keçir

**Turey**ka çayı Rus canlı danışıq dilində turek, turkiy "*iti*, sürətli; güclü" Türk mənşəli türgen "iti, sürətli, coşqun"> Turikov, Turgenev. Orlov vil. kənd, Pskov vil. çay (Sitni çayının qolu), Kirov vil. çay (Mamokşa çayının qolu), Bryanskda Usı çayını qolu,

*Баскаков, 33; Поспелов, 521; Вагнер, 137*

**Turgen**ev küçəsi (Тургеньева переулок) və **Turgenev keçidi** (Тургеньевский проезд ) – şəhər mərkəzində yerləşir. Ad – Rus yazıçısı İvan Turgenevin xatirəsinə verilmişdi.

**Turgen**ev meydanı (Тургеньевская площадь) – 1885-də Rus yazıçısı İvan Turgenevin xatirəsinə adlandırılmışdı. Moskvanın mərkəzində (Krasnoselski ray.) Meydanda açılan metro stansiyası adı Turgenevin şərəfinə qoyulmuşdur (1972).

**Turgen**ovo (Тургеньево) – Meşer çökəkliyində kənd (Domodedovo ray. daxildir) Türk adı Turgenlə bağlıdır; elçi Vasili Turgen (1471), torpaq sahibi Aleksandr Mixayloviç Turgenev (1500), Fedor Turgenev (1539) məlumdur. Turgenev soyaının kökündə Türk mənşəli söz olan turgen "*cəld, sürətli, iti*"; əlavə mənada "*qızğın, kükrəyən, əsəbi, savaşqan*" durur. Turgenevlər nəslinin banisi Qızıl Orda şahzadəsi (murza) Arslan Turgenevdir. 1440-cı ildə Böyük knyaz Vasili Temniyə müttəfiq olaraq qoşulmuş və xaçlanmışdır.

*Веселовский, 326; Баскаков, 155-156; МЭ, 612;*
*Поспелов, 521; Halıkov, 100; TƏR, 119-126*

**Turıg**ino (Турыгино) – Moskva vilayətində (Ramensk ray.) kənd. 1646-cı ildə Qeydiyyat Kitabında adi beləcə çəkilir. Turiqa adından və ya Turıgin familiyasından yarana bilər.

Qridya Turıqa (1498), Moskvalı podyaçi (dəftərdar) Fedor Turıqa (1616) Mərkəzi Rusiya coğrafiyasında – Moskva, Vladimir, Voloqda, Tver, Yaroslav olmaqla Peterburq vil. də yer adı.

*Веселовский, 327; Поспелов, 522*

**Turki (Турки)** – Smolenskdə (Monastırşin, Xislaviçskiy ray.), Bobruysk ray. (Belorusya) kəndlər. Türk xalq adından.

**Turkino** (Туркино) – Tver bölgəsində və Krasnodarda Baloğlu ray. aid kənd(Turkinski).

**Turkmen** (Туркмен) – Moskva altında (Klin ray.) şəhərtipli qəsəbə. Moskva vilayətinin Tver ilə sərhədində yerləşmişdir. 1968-ci ilə qədər Konakov rayonu tərkibində olub. Sənaye ocağı kimi tanınan qəsəbə öz adını ərazisindəki Turkmanufaktura toxuculuq fabrikinə görə qazanmışdır.

**Turkmen küçəsi** (Туркменский проезд) – Türkmən etnonimi ilə bağlıdır. Şəhərin şimal-qərb səmtində, Strogino ərazisindədir.

*Баскаков ТНМУ, 21; Поспелов, 52*

**Turovo** (Турово) – Moskva vilayətində (Serpuxov, Lotoşin və İctra ray.) 3 kənd; 1380-ci ildə qeyd olunmuşdur. Moskvalı podyaçi (dəftərdar) Turovski Fedor İvanov (1556) qeyd edilmişdir.

Yaşayış məntəqəsi, düşərgə mənasında olan dur~tur kökü əsasında yaradılmışdır. Mərkəzi Rusiyada – Vladimir (2), Voloqda (2), Voronej, Smolensk (3), Yaroslav (2), Ryazan və Pskov (2), Peterburq (2), Krasnoyarsk, Novqorod, Arxangelskdə, habelə Belorusiya və Polşada kənd adları.

*Веселовский, 326; Atalay, 94*

**Tutukino** (Тутыкино) – Moskva vilayətində (Stupin ray.) kənd; 1525 və 1578-ci illərdə ilk dəfə qeyd olunan kəndin adı





*Tutuk~Tutıx* adı ilə bağlanır. 1519-cu ilə aid qeydlərdə adı çəkilən voevoda İvan Tutıxa Kobılin ilə əlaqədardır.

*Веселовский, 327; Поспелов, 516*

**Tuşin** körpüsü (Тушина мост) – Körpü Ximki çayı üstündə salınmışdır.

**Tuşino** (Тушино) – Moskvaaltı böyük kənd; 1960-cı ildən şəhər ərazisinə daxil olmuş. Kənd 1380-ci ildə baoyar Vasili İvanoviç Tuşa Kvaşninə mənsub olmuşdur. Bu sonra onun soyadına çevrilir. Artıq sənədlərdə 1536-cı ildə voyevoda Tuşinə məxsus olduğu qeyd edilir. İndi Moskvada meydan, metro stansiyası, 3 keçid adında saxlanmaqdadır. Tuşino kəndi tarixdə Yalançı Dmitrinin burada düşərgə salması ilə məşhurlaşmışdır.

Tuşa türk dillərində tuş, töş~döş (sinə, köks, döş) sözündən yaranmış və məna inkişafında irəliləyərək: iri cəmdək, leş, heyvan cəmdəyi – tuşa, tuşka mənasında işlənməyə başlamışdır.

**Tuşkovo** (Тушково) – Moskva altında kənd; Mojaysk ray. daxildir Böyük knyaz Dmitrinin fərmanı (1386) qeyd olunmuşdu.

Tuşa "kök, ağır çəkili adam" ləqəbindən soyadı, Tuşa soyadından da kəndin adı doğmuşdur.

*Радлов, 2. 1268; Веселовский, 327; Шипова, 338; Долгор., 96; МЭ, 613*

**Tümen** küçəsi və keçidi (Тумен) – Moskvanın şərq səmtində yerləşir. Küçə və keçid öz adını Yermakın 1581-ci ildə işğal etdiyi Sibirdə ilk rus şəhəri Tümən (əvvəlki adı: Çingi-Tura şərəfinə qoyulmuşdur (1985)

*Bax: Tumen məq.*

**Tyukovo**(Тюково) – Mərkəzi Rusiya regionunda Orlov vilayətində kənd. Ryazan vil. və Tatarıstanda da eyniadlı kəndıər var. Tyukov soyadının əsasında tyuk~tük (тюк) Türk sözü

"tay, yük, bağlama" dayanır; Rus dilində bu sözdən yaranan тюковщик "yükvuran, qablaşdıran" işçi sözü də vardır. Tyukovka (Тюковка) Voronejdə kənd

*Даль, 4.451; Фасмер, 4.134;Шипова, 340*

**Uça** (река Уча) – Moskva vilayətində çay; Klyazma çayının sol qolu. Dmitrovsk, Puşkin, Şelkovsk rayonu ərazilərindən keçir.

**Uça** caddəsi **Uça** – Уча su anbarı ilə əlaqədar adlandırılmışdır (1964). Uça çayı Ayqur (Stavropol) və Obnor (Voloqda), Şii (Tatarıstan) nəhrləri hövzəsində çay. Uça (Uçan) adətən sürətli axan çay, şəlalə adlarıdır.

*Фасмер, 4.179; Топонимия Москвы, 57*

**Uqlın** (Углынь) – Moskva vilayətinə bağlı kənd; Ruzsk rayonuna daxildir. Kənd uqlin~uqlan, *oğlan, şahzadə* – Ulan Şaxovski, podyaçi (dəftərdar) Ulan Ayqustov (1571), Mixail Matveeviç Ulan, Arçaksin Ulan Semyonoviç Molostvov (1615) – adıyla bağlıdır.

*Радлов, 1.1681; Веселовский, 331;*
*Срезн., 3,1194; Даль, 4.487; Фасмер, 4. 158*

**Uqryum**ovo (Угрюмово) – Moskva vilayətində (Domodedovo və Odintsov ray.) 2 kənd. Uqrim Zabolotski (XV y.), knyaz Vasili Vasilyeviç Uqrim Zveniqorodskiy (1615) Dyak Putilo Uqrumov (1550) *uqur~uğur* türk tayfa adı; Mengesin qeydlərinə görə bu xalq adı tərkibində -qurı,-qiri hissəcikləriniin təbiətini nəzərə almaq lazım gəlir. Mərkəzi Rusiya regionunda – Voloqda, Kaluqa, Tver, Yaroslav vil. kənd.

*Веселовский, 330; Менгес, 40;*
*Баскаков, ТЛС, 36, 128;*
*Ведина, 837*





**Ulan**ov (ул. Уланова) küçəsi. Burada 1737-ci ildə çar müşaviri Ulanova mənsub ev olduğuna görə küçə Ulanov adlanmışdır.

Ulan~uvlan~oğlan "*oğlan*", "*gənc*", "*xan oğlü*" Türk sözü ilə bağlıdır; sonralar oğlan dedikdə "*xan mühafizəçiləri*" nəzərdə tutulurdu. Oğlan sözü türklərdə olduğu kimi slavyanlarda da get-gedə hərbi terminə çevrilir, nəhayət zabit rütbəsi adı olaraq Rus dilinə keçmişdir. Ulanov ruslardakı Türk əsilli soyadlarındandır. Mərkəzi Rusiya regionunda – Voloqda, Kaluqa, Orlov, Tver, Yaroslav, Ryazan vil. Ulanovo kəndləri ulan sözü ilə bağlıdır.

*Радлов, 1. 1681; Веселовский, 99, 331;*
*Halıkov, 100; Фасмер, 4.158;*
*Сытин, 307; Ведина, 839*

**Ulıbış**evo kəndi (Улыбышево) indi 2006-cı ildən Moskvanın Zelenoqrad inzibati dairəsinə daxil olmuş və küçə adında sabitləşmişdir. Ulıbışevlər soyadı Vladimirdə ilk dəfə 1473-cü ildə qeyd olunmuşdur. Ulubaşev soyadının ruscaya adaptəsi ilə: Ulıbışev.

*Веселовский, 332*
*Bax: Alabışev məqaləsinə*

**Ulyan**ino (Улянино) – Moskvanın Ramensk rayonuna daxildir. QK-da 1577-ci il qeyd olmuş, kəndin ilk sahibinin adı ilə əlaqədar olduğu görünür.

**Ulyan**kovo (Улянково) – Moskva vilayətinə bağlı (Mıtışi ray.) kənd və meşə

**Ulyan**ovka (Уляновка) – Orlov vil. 3 kənd; Korsakovka, Doljon və Kromski ray. daxildir.

Mordva tatarlarında, çuvaşlarda bu soyadı, habelə bu familiya əsası ilə eynilik təşkil edən Ulyanov, Ulyanin, Ulyankin, Ulyaniçev, Ulyançik, Ulyanovski və s. tatarlarda Ulyan "*böyük, ulu,*

*qədim*" sözündəndir. Tula (3), Voronej, Voloqda, Kursk, Lipetsk, Nijeqorod, Orlov, Ryazan, Tver, Tümen, Penza vil. kənd

*Веселовский, 25; Поспелов, 525; TƏR, 247-253; Лелёв., 27; Halıkov, 100*

**Umşar** (Умшарь) – Moskva vilayətinə bağlı kənd; Domodedovo şəhəri ərazisinə qatılmışdır (2007). Umşar həm də Mari El ölkəsində şəhər adıdır. Umşar~Amşar~Amsar yer adları Türk coğrafiyasında müəyyən sayda rast gəlinir. Türk sözü (əsli ərəbcə) umşar, amşar "*böyük kənd, diyar*" deməkdir.[66] Amsar – Quba ray. aid kənd, Amşarovo – Smolenskdə kənd adı.

**Ural** küçəsi (Урал) – Moskvanın şərq səmtində Baykal-Altay küçələrinin kəsişdiyi yerdə yerləşir. Öz adını Ural dağları adından almışdır (1965)

**Urus**ovo (Урусово) – Moskva vil. Lotoşinski ray. kənd. Mülkədar Urus Potresov (1610) voevoda İvan Urusov (1622) Kaşində Mixail və Qriqori Evstafyeviç Urusovlar (1540) məlumdur. Urus~uruz "*vuruş, savaş*" adına KDQ-da rast gəlinir. Urusovlar nəsli Noqay xanı Urusdan başlayır. Urus xan (Urustan) sonuncu Noqay xanı İsmayıl və Yusupun atasıdır. Yusup knyaz Yusupov, İsmayil xanın oğlu isə knyaz Urusov soyadını götürdülər.

*Веселовский, 333; Баскаков, 187-189; Halıkov, 101*

**"Uryuk"** kafesi (Урюк) – Moskvanın şimal-qərbində marşal Katukov prospektində yerləşir. Türk dillərində örük, ərək, eruk, ərik, erik "qaysı" giləmeyvə; çərəz adından.

*Радлов, 1. 1223; Фасмер, 4.169; Даль, 4. 509*

**Uslon** (Услонь) – Moskva vilayətinə bağlı Domodedovo rayonunda kənd;

[66] Azərbaycan Toponimlərinin Ensiklopedik Lüğəti. Azərbaycan Milli Elmlər Akademiyası. Nəsimi adına Dilçilik İnstitutu. 1 c., Şərq-Qərb Bakı, 2007. səh.427.





**Uslon** (Услонь) – Moskva vilayətinə bağlı Podolsk ray. kənd

Uslon~slon~aslan "*şir, aslan*", yırtıcı heyvan; şəxs adı (16-cı əsr) Orlov vil. kənd; Tatarıstan ərazisində də Uslon (Yuxarı Uslon) şəhəri vardır.

*Веселовский, 16; Баскаков, 101, 231*

**Uşak**ovo (Ушаково) – Moskva altında Kaşir, Lotoşinsk, İstra (2 kənd) ray. kəndlər Uşak adı ilə bağlıdır. İvan Matveyeviç Uşak (1500) ondan da Uşakovlar soyadı meydana gəlmişdi. Moskva Dyakı Uşak Ortemyev 1510, mülkədar Foma Uşakov 1495-ci ildə qeyd edilmişdir.

**Uşak**ovskiy (Ушаковский переулок) küçəsi indi Afanasevski. XVIII əsrə qədər Uşakov pereulok adlanmışdır. Həmin zaman burada Afanasi və Kirill kilsəsi tikildikdən sonra adı dəyişdirilmişdir. Uşak adındandır; Uşak (1495), Uşakov (1483) soyadları Türk mənşəli Rus familiyasıdır.

Mərkəzi Rusiya regionunda – Voloqda (7), Tver (5), İvanov (2), Kaluqa, Kostroma, Kursk, Orlov (5), Nijeqorod, Ryazan, Smolensk, Tula (3), Belqorod, Yaroslav (7) və digər regionlarda – Arxangelsk, Tümen, Pskov, Omsk, Kemerovo, Peterburq, Kaliningrad və s. kənd adı.

Uşakov soyadının əsasında Türk dillərinə məxsus "*uşak*" balaca, cahil, təcrübəsiz; gənc xidmətçi, qulam; Rus dili ağızlarında "*ögey oğul*" sözü durur. Uşakov Türk əsilli Rus familiyasıdır. Bu soydan böyük şəxsiyyətlər dövlət və hərb xadimləri çıxmışlar.

*Радлов, 1. 1773; Веселовский, 334; Баскаков, 70-71; Баскаков, ТНМУ, 27; Halıkov, 101; Сытин, 307, 316; Поспелов, 168, 528; Ведина, 854*

**Uvar**ovka (Уваровка) – Moskva vilayətinə bağlı Naro-Fominsk ray. 2 kənd

**Uvar**ovka (Уваровка) – Moskva altında qəsəbə (Kolomna Domodedovo, Stupin ray. daxildir).

**Uvar**ovka (Уваровка) – Moskva-Minsk dəmiryolu stansiyası (1870); qəsəbə (Mojaysk ray.dax.) qraf Uvarovlara mənsub olmuşdur.

**Uvar**ovskaya küçə (ул. Уваровская) Moskvanın qərb qismində yerləşir (1998). Vaxtilə buradakı Uvarovo kəndi adı ilə əlaqədardır.

**Uvar**ovo (Уварово) – Moskva vilayətində (Ozersk şəhəri ətrafı) kənd.

Uvar adından; İvan və Çernış Uvarovlar olmuş (1482) *Uvarov* qraf və zadəgan nəsli. Böyük knyaz Vasili Dmitrieviçin müttəfiqi Böyük Orda əyanı Murza Munçak Kosaeviçdən başlayır. Murza Munçaq xaçlanıb Semyon adını aldı onun oğli Uvar Semyonoviç Uvarovlar soyadının banisi oldu. Boyar Nikita Uvarov qeyd olmuşdur (1571).

Uvarovo adlı kəndlər Mərkəzi Rusiya regionunda – Voloqda, Mojaysk, Lipetsk, Tambov, Smolensk, Kaluqa, Vladimir, Kostroma, Yaroslav, Tula, həmçinin Ulyanovsk, Samara, Saratov, Penza, Omskda vardır.

*Веселовский, 333; Баскаков, 12,13, 17; Вагнер, 138; Поспелов, 164, 524, 351; Halıkov, 102; Ведина, 834*

**Uzun**ovo (Узуново) – Stansiya. Paveletsk istiqamətində Moskva dəmiryolu xəttində stansiya.

**Uzun**ovo (Узуново) – Moskva vilayətində (Serebr. Prud ray.) kənd; QK-da 16-cı əsrə aiddir Oradaca Ryazanlı torpaq sahibləri Uzunovların adı çəkilir. Uzunovo və Uzunixa adlı kəndlər Tver vil. (Bejetski ray.) də vardır.

*Поспелов, 525*





**Valuy**evo (Валуево) – Moskva vilayətinə bağlı (Voskresensk rayonu) kənd. Dmitri Vasilyeviç Valuy böyük Moskva knyazı Dmitri Donskoyun voevodası idi. Kulikovo döyüşündə ölmüşdü (1380). Valuyevlər soyu ondan başlayır. Moskvaaltı kənd ona məxsus idi. Onun babası Valuy Akatin 14-cü əsrin birinci rübündə yaşamışdı; İvan Kalitanın boyarı idi. Kənd onların adını əks edir.

*Веселовский, 61; Лелёв., 13; Подмосковье, 369*

**Velyamin**skaya (гора Веляминская) – Moskvada Şahin dağı (Sokolinskaya гора) ərazisində caddə. Küçə 14-cü əsrdə Velyaminovlara məxsus kəndin Moskvaya qatılmasından sonra həmin mülk ərazisində salınmışdır.

**Aşağı və Yuxarı Velyamin**ovo (Веляминово) – Moskva vilayətinə bağlı (Zaraysk ray.) kəndlər.

**Velyamin**ovo (Веляминово) Moskva vilayətində (İstra, Voskresensk və Domodedovo ray.) kəndlər.

Velyaminlər ilk dəfə adı Vasili Temninin fərmanında adı çəkilir. Kəndin əsasını qoyan boyar Veliaminovlardan İvan Vasilyeviç Velyaminov və Nikolay Vasilyeviç Velyaminov Dmitri Donskoy saray xadimi idi. Kəndlərin əmələ gəlmə tarixi buna görə də 1380-85 ola bilər.

*Баскаков, 89-90; Поспелов, 390; МЭ, 174; Halıkov, 102; Сытин, 36, 88; Долгор., 45; Подмосковье, 370-71*

**Vraj**skiy küçəsi 1 və 2 küçə. (Первый и Второй Вражский переулок) 1 Vrajesk Moskvanın mərkəzində Xamovnikidə Plyuşixa və Rostov sahil küçələri arasında yerləşir. 2. Vrajesk Moskva çayı boyunca Rostov sahili və Savva sahil küçələri boyunca uzanır.

**Vraj**skoe (Вражское) – Moskvaaltı (Ruzsk ray.) kənd. Küçələrin adı vraq"*düşmən*" deyil, *vraq~ovraq* "dərə" sözü ilə bağlıdır. **Vraq~ovraq** "dərə, qobu" Türk sözü və Rus dili şəkilçisi ilə düzəldilən yer adı. Rus dilindəki Türk mənşəli ovraq sözü tələffüz zamanı sözbaşındakı "o" səsi düşdüyündən vraq kimi sabitləşmişdir. Küçənin keçdiyi ərazilərin relyefini əks etdirir.

**Yakuş**kino keçid (переезд Якушкино) – Yakuşkin Tretyak Qriqoryeviç Pskovda (1550), Yakuşkin İvan Daniloviç (1577) Kolomnada qeyd olunmuşdur. Kəndin adında yakış, yakşı "*yaxşı, müsbət*" sözündən düzəlmiş soyadı durur.

*Радлов, 3. 35; Веселовский, 380;*
*Фасмер, 4. 553*

**Yakşi**lovo (Якшилово) – İndi Moskva altındakı məşhur Qorka kəndi əvvəl xəritələrdə Yakşilovo adı ilə qeyd olunurdu. Moskva altında dini mülk torpaqları olan Mitropolit Evi təsərrüfatına Eldeginlər, Şibrinlər, Çertovlar kimi Yakşilovlar da xidmətdə olan familiyalardan idilər. Mitropolit Evi torpaq mülkləri qədim Türk əsilzadələrinin torpaqlarından alınan vergilərə sahib idi. Yakşı "*yaxşı, müsbət*" sözündən (rus dilində **yakşatsya** "*razılaşmaq, uyuşmaq, dil tapmaq*") sözündəndir.

*Веселовский, 381;*
*Даль, 4. 676;*
*Фасмер, 4. 553*

**Yakşi**no (Якшино) – Moskva vilayətinə bağlı Zaraysk, Çexov, Odintsov, Ozersk, Puşkin, Serpuxov, Şaxovski və Volokolamsk rayonlarında 8 qəsəbənin adı. Yakşa "yaxşı, uyğun, məqbul" adından və ya Yakşin soyadından əmələ gəlmişdir. Tarixən Qızıl Ordalı Yakuşa ilə bağlıdır. Əsil Kazanlı olan və sonradan xristianlığı qəbul edən Yakuşin Tretyak qeyd olunur (1568). Yakşino Tula, Orlov, Smolensk vil. kənd.





**Yakuş**eviçi (Якушевичи) – Moskva vilayətində (Şatura ray.) kənd

*Поспелов, 563; Веселовский, 381;*
*Halıkov, 103*

**Yalti**nskaya caddəsi (ул. Яалтинская) – Ялтинская Moskvanin Cənub səmtində Çonqar bulvarı ərazisindədir. Yalta dəniz limanı və kurortu şərəfinə adlandırılmışdır (1965)

Şəhərin öncə adı Yalı Tau (yal "sahil"; tau "dağ") olub "*dağlı sahil*" mənasını ifadə edir. Kırımda həmin məna ilə səsləşən Yalı Maynak (indi Zaozernoe) kəndi də olmuşdur. Türkiyədəki Yalova kurort şəhərinin də adındakı yal "*sahil, yamac*"; ova isə "*ovalıq*" deməkdir. Mari El ölkəsindəki Şındı**ryal** yaşayış məntəqəsi Şındır çayı üzərindədir. Yalta adının yazılı qaynaqlarda 1145-ci ildən çəkildiyi məlumdur; Ərəb tarixçisi, səyyah Əl-İdrisi Yalta şəhərindən Qara dəniz sahilində Kuman şəhəri olaraq bəhs edir.[67]

*TK, 298-299*

**Yamişevo** (Ямишово) – Moskvanın Odintsov rayonunda Neznayka çayının sahilində 1678-də Yamişi adı ilə qeyd olunmuşdur. Çox ehtimal ki, Yam "*yol xidməti*" və çoxluq bildirən +işe şəkilçinin vasitəsilə yaranmışdır.

*Радлов, 3. 298; Фасмер, 4. 555; МЭ, 682*

Nikola **Yam** sahili (Николаямская набережная) – Moskvanın mərkəzində (Taqan ərazilərində); Yauza çayının sol sahilində (1916).

Nikola **Yamskie** (ул Ямская) – caddəsi (indi Ulyanov) bu kücədə Nikola v **Yam**ax kilsəsi olduğuna görə belə adlanmışdır. Moskvanin mərkəzi qədim küçəsi; Taqan ərazisindədir.

[67] Материалы и исследования по Археологии СССР, № 17,с.37)

**Tverskie Yamskie** (Ямские) küçələri və keçidləri– Moskvanın mərkəzi qədim küçələri (XVI)

**Yamkino** (Ямкино) – Noginsk. ray. (Moskva vilayətinə bağlı) adı saxlayan Yamkino kəndi vardır.

**Yam** (Ям) – Paxra çayı üstündə kənd; Domodedovo ray. daxildir; General Kutuzova məxsus olmuşdur.

**Yamskaya** (Ямская) – Moskva vilayətinə bağlı (Mojaysk ray.) Borodino yaxınlarında kənd; XV-XVI əsrlərin kəsiyində meydana gəlmişdir.

**Yamskaya** (Ямская) Moskva vilayətinə bağlı kənd: Domodedovo hava limanı yolu üzərindədir.

**Yamskaya** (Ямская) – Hələ 1506-cı ildə böyük kənd olduğu məlum olur; Moskvadan şərqə Roqoji çayının üstündə (Klyazmanın qolu) yerləşirdi. 1781-də Boqorodsk adıyla əvəzlənmiş, indi isə Noginsk adı daşıyır.

**Yamskaya** (Ямская) – Orlov vil. iki kənd; Livenski ray. bağlıdır.

**Yam** meşələri (Ямские лесы) ərazisi Noginsk şəhərinə qatılmış (2004)

**Yamskoe** pole (Ямское поле) "Yam çölü" küçəsi indi "Pravda" prospekti; Moskvada küçə.

**Yamşina** (Ямщина) – Moskva vilayətində (Odintsov ray.) kənd. Böyük və Kiçik Vyazma çayları arasında keçmiş yam stansiyasının yerində yerləşmişdir.

**Yamuqa** (Ямуга) – Moskva vilayətinə bağlı qəsəbə; Klin rayonuna daxildir. Öz adını eyniadlı çaydan almış; 1784-cü il xəritələrində əks olunmuşdur; 1964-cü ildən eyniadlı dəmiryolu stansiyası işə başlamış

**Yamuqa** çayı (река Ямуга) – Sestra çayının qolu, Klin ray.ərazindən axır.

**Yam** (Ямь) – Tarixən Yam nəqliyyat və rabitə məntəqəsi mənasında işlədilmişdir; Rus dili yazılı sənədlərində ilk dəfə 13-cü yüzillikdə qeydə alınıb; "postxana" elçilərin, səfirlərin,





vergi topalayanların və digər məmurların bir məntəqədən digərinə gedib gəlməsini təmin etmək üçün böyük dövlət yollarında hər 3-4 fərsənk məsafədə xüsusi dayanacaq *yam;* onlara nəzarət edən məmur isə *yamcı* (yamşik) adlanıdı. Ris dilində işlədilən, hazırda tarixi söz olan yamşik "arabaçı" sözü də buradandır.1. Moskvada Yamskaya caddə adları vaxtilə bu əraziləri əhatə edən Yamskaya slabodadan xatirədir.

Eyniadlı yaşayış yerləri Rusiyanın Voloqda, İvanov, Tver, Yaroslav, Smolensk, Pskov, Novqorod, Peterburq, Krasnoyar, Mordoviyada və s. rast gəlinir.

*Радлов, 3. 298; Фасмер, 4. 555; Подмосковье, 162; МЭ, 315; Поспелов, 563; Горбаневский, 39; Сытин, 136,208, 296*

**Yarıgino** (Ярыгино) – Moskva vilayətinə bağlı Sergiyev Posad ray. kənd. Yarıqa soyadı – Yarıqa Daşkov (1566), Yarıqa Dmitriyev (1568), sonralar Yarigin soyadına çevrilmiş; torpaq sahibi Mixaylo Yarıgin (16 əsr) məlumdur. Yarıqa əski türk sözü yarğı~yarğu olmaqla rus dilində qanun *keşikçisi, həm də əyyaş, dələduz, fırıldaqçı; dalaşqan, inadkar* mənalarını qazanmışdır.

Moskva vilayəti daxil olmaqla Mərkəzi Rusiya regionunda Voloqda (4), Kursk, Orlov, Ryazan, Smolensk, Yaroslavda və Permdə kəndlər.

*Веселовский, 382; Даль, 4.679; Поспелов, 570; Шипова, 44*

**Yarıjki**(Ярыжки) – Smolensk vilayətində kənd.

*Bax: Yarıgino*

**Yarlıkovo** (Ярлыково) – Moskva vilayətinə bağlı Domodedovo şəhəri ərazisində kənd. Yarlık adı ilə - böyük dyak Andrey Yarlık (15-ci əsr), Kostromada Afanasi Yarlıkov (1537) əlaqədardır. Soyadı əsasında yarlıq "*yazılı əmr, sərəncam, xan fərmanı, buyruq*", sonralar malın üzrə əmtəə nişanı" sözü durur.

Yarlıkovo kəndləri Moskva vilayəti ilə bərabər İvanov, Kaluqa, Krasnoyarskda vardır.

*Радлов, 3.142, 143; Веселовский, 381; Фасмер, 4, 561; Поспелов, 568*

**Yar**tsevo (Ярцево) – Moskva vilayətində (Stupin, Dmitriyev, Podolsk ray. ) kəndlər QK-da 1577-ci ilə aid qeydlərdə adı çəkilir. Yartsevlərə məxsus olmuşdur. Yarets Ofonasi (1539), Qridya Yartsevo (1410) rast gəlinir. Mərkəzi Rusiya regionunda Moskva vilayətində bir neçəsi olmaqla Kostroma, Kaluqa, Tula, Voloqda, Kirov, Ryazan, Smolensk, Yaroslavda və Krasnoyarsk, Novqorodda kəndlər.

*Радлов, 3. 99, 100; Фасмер, 4. 359; Шипова, 438; Т. Москвы, 161; Поспелов, 568*

**Yar** (ресторан Яр) – Moskvada qədim restoran. Yar Rus dilindəki Türk mənşəli söz: "yar, yarıq, yarğan; uçurum, yalçın qaya, sahil"; feli əsası yar "yarmaq, bölmək, parçalamaq"

*Bax: Yartsev məqaləsinə*

**Yasak**ovski (Ясаковский) – Ryazan vilayətində kənd; Şatski ray. daxildir.

Yasak soyadına Yaroslavda (1568), Ryazanda (1595) rast gəlinir. Qədim Türk dilindən keçən sözlərdəndir. Yasak "qanun, sərəncam, əmr" Qızıl Orda dövründən Türk xalqlarına və Ruslara keçmişdir.

*Радлов, 3. 216; Срезн., 3. 1665; Фасмер, 4. 564; Шипова, 441*

**Yasen**ev (Ясенов) – Moskvanın cənub-qərbində inzibati rayon. Qəsəbə olaraq adı 14-cü əsrdə İvan Kalitaya mənsub kənd olaraq adı çəkilir. İki malikanəsi ilə məşhurdur: Uzkoe,





Yasenove. Eyniadlı metrostansiyası var. Yasenovada bir çox filmlər, habelə "Moskva slezam ne verit" filmi çəkilmişdir.

**Yasen**ov dərəsi (Ясенов овраг) – Moskvanın cənubunda dərə; Türk əsilli Rus soyadı Yasenov familiyasından düzəldilmişdir.

**Yasen**ov gölü (Ясеново озера) Moskvanın şimal-şərqində göl.

Yasenov adı əsən~esen "sağlamlıq, sağlıq" sözü ilə bağlıdır. Bolqarıstanda (Burqas ray.) Tula, Voronej vil. Ukraynada, Serbiya, Slovakiyada, Ukraynada yaşayış məntəqələri.

*Радлов, 1.1893; Дм., 564-565; Малов, 316*

**Yasırka** (Ясырка) – Voronej vil. Bityuq çayının üstündə 3 kənd. Yasır, yasırka Rus dilindəki əski tükizmlərdəndir. Türk dillərində esir, yesir, yasır, casır, yəsir. Belqorod, Perm vil. kəndadı. Yasırev, Yasırkin Türk mənşəli Rus soyadı.

*Радлов, 3.377; Даль, 4. 681; Шипова, 442*

**Yasmin**skiy bulvar (Ясминский бульвар) – Moskvada bulvar; təbiət muzeyi sayılan İsmayılovo kəndindən xarüqə yadigarlardandır. Bulvar vaxtilə yasəmən şitilliyi olan yerdə salındığından belə adlanır.

*Т. Москвы, 161; Фасмер, 4. 565*

**Yaşer**ovo (Яшерово) – Moskva vilayəti (Serpuxov ray.) iki kənd. Yaşerin, Yaşerov rus familiyası kimi 1624- cü ildə qeyd olunub. Soyadının tərkibindəki yaş qədim çağ türk dillərində sulu, nəm "gənc, cavan" (ər~ar "kişi, adam") deməkdir.[68] Novqorodda, Tula vilayətində qədim kənd.

*Радлов, 3. 247, 381; Поспелов, 570; Веселовский, 382; Фасмер, 4. 572*

---

[68] Саттаров Г.Ф. Ойкономические термины со значением "город" и "село" в истории татарского языка и топонимии, Советская Тюркология-1988,№ 1 с.47

**Yauz** (Яуза) – Moskvada caddə, meydan, xəstəxana adları.
**Yauz** bulvarı (Яуза) – **Yauz** çayı adındandır. Yauz,Yavuz türkcə kinli, qəddar, tündxasiyyət, qorxunc mənaları daşıyır.

*Баскаков, ТНМУ, 28;*
*МЭ, 684*

**Yeni Arbat** caddəsi. Нов. Арбат – Moskvanın mərkəzində tarixi yer.

*Bax: Arbat məqaləsinə*

**Yeni Basman** (Нов. Басманная) – Moskvanın mərkəzində caddə. Küçənin tarixi 1640-cı ildən başlayır.

*Bax: Basman məqaləsinə*

**Yeni Başilovka** caddəsi (Новая Башиловка) – Moskvanın şimal qismində 19 əsrdə Başilov xiyabanı adı ilə meydana gəlmişdir.

*Bax: Başilovka məqaləsinə*

**Yeni Gireyevskaya** (Новогиреевская ул.) caddəsi və şosesi (1964). Moskvanın Şərq hissəsində yerləşir.
**Yeni Gireyevskaya** (Новогиреевская) – Moskvaaltı yaylaq kəndi.

Girey~Geraylar sülaləsi ilə bağlı addır; Qızıl Orda xanı Toxtamışın nəsli olan Gəraylardan başlayır. Xristianlığı qəbul etmiş Gireyevlər Moskva zadəganları olaraq yazılı sənədlərdə 1526-cı ildən qeyd olunur. Moskva altındakı Gireyevo-Qubkino və Yeni Gireyevo kəndləri onlara məxsus olmuşdur. Soyadları Türklərin (tatarların) nəsli girey ~kirey (Kireyev) "*qara quzu*" mənasına dayanır.

*Веселовский, 78;*
*Баскаков, 245;*
*Halıkov, 48*





**Yeni İpatovka** caddəsi (ул. Ипатовка) – Moskvanın Şimal hissəsində Koptevo səmtində yerləşir; 1920-ci ilədək burada mövcud olan İpatovo kəndinin adını saxlayır.

*Bax: İpatov məqaləsinə*

**Yeni Kaşir (Нов. Каширск)** – Moskva vilayətinə bağlı qəsəbə; indi Kaşiraya birləşmişdir

Bax: Kaşira məqaləsinə

**Yeni Kırım** keçidi. (Нов. Крым) – Moskvanın mərkəzində Xamovnikidə Preçistenka ilə Ostejenko arasında Kırım körpüsünə görə adlandırılmışdır (1956).

*Bax: Kırım məqaləsinə*

**Yenisey caddəsi** (ул. Енисей) – Moskvanın şimal-şərq hissəsində Babuşkin səmtindən keçir; Sibir çayı Yeniseyin xatirəsinə qoyulmuşdur (1964)
**Yumat**ovo (Юматово) – Moskva vilayətində kənd (Naro-Fominsk ray. daxildir). Soyadının əsasında Rus dialektlərindəki Türk sözü umaç~umaş "*undan hazırlanan yemək*", məcazi mənada asta, ağır hərəkətli uşaq sözü durur. 14-16-cı əsrlərə aid yazılı qeydlərdə Rus zadəganları içərisində bu soyadına rast gəlinir.[69] Tambovda, Pskovda (2), habelə Başqırdıstan və Tatarıstanda kənd adları.

*Веселовский, 80, 378; Баскаков, 2 55;*
*Ведина, 1029*

**Yusup**ovo (Юсупово) – Moskva vilayətinə bağlı (Ramensk və Domodedovo ray.) kənd
Köhnə **Yusup**ovo (Ст. Юсупово) – Moskvaaltı kənd (Voskresensk rayonu). Sovet hakimiyyəti illərində Volodarski

[69] (Источник: http://names.neolove.ru/last_names/27/jum/jumatov.html © NeoLove.ru)

adlandırılmışdır. Rus knyaz Yusupovlar nəsli Noqay xanı Yusup murzadan (1554-də ölmüş) başlayır. Yusup xanın oğulları ataları öldükdən sonra Moskvada qulluğa keçirilir. İlmurza və İbrahim murza Yusupov soyadını qəbul edir.

*Баскаков, 42, 107, 114;*
*TƏR, 177-182*

**Yuş**kov (ул. Юшкова) – Moskvada küçə; indi Vladimirov döngəsi; ad ev sahibinin general Yuşkovun adı ilə əlaqədardır. 1762-ci ildə şəhərin polismeyestri vəzifəsində adı rast gəlinir.

**Yuş**kovo (Юшково) Moskva vil. kənd. Naro-Fominsk ray. daxildir. Dmitri Donskoyla ittifaqa girib Stefani adını götürən Qızıl Orda hakimi Zevşin oğlu Yuşkadandır. Türk əsilli Rus Yuşkov familiyası < yuşa,yuş~yaş "nəm, sulu, islanmış"; məcazi mənada "*ağlağan, iradəsiz, mağmun*" mənası daşıyan ləqəb soyadını əmələ gətirmişdir. Udmurtiya, Perm, Mari El, Çelyabinsk,Yekaterinburq, Tümen və Pskovda, Peterburq vilayətlərində, habelə Mərkəzi Rusiyada – Belqorod, Voloqda (6), İvanov (2), Orlov (3), Lipetsk, Smolensk (3), Tver, Tula (2), Yaroslavda kənd adları.

*Радлов, 3. 567; Даль, 4. 670;*
*Баскаков, 93, 94; ТНМУ, 27;*
*Фасмер, 4. 537;*
*Halıkov, 106; Сытин, 90*

**Yuş**manka~Eşmanka (Юшманка) – Moskva vilayətində kənd; indiki adı: Boqaçevo.

**Yuş**manka Rus dilində (1548) yuşman, yumşan "*cövşən*" sözündən (əsli farscadakı cövşən)"silah-əsləhə; zireh– hərbi tarixi termin.

*Срезн., 3. 1626; Даль, 4. 667;*
*Фасмер, 4. 530; Шипова, 429*





**Yuş**un caddəsi (ул.Юшунская) – Moskvada küçə; Azov caddəsindən başlayıb Odessa küçəsinədək davam edir. Kırımda Yuşun adlı yaşayış məntəqəsinə görə adlanmışdır.

*Bax: Yuşkov məqaləsinə*
*T. Москвы, 29. Долгор., 83*

**Zaray**sk (Зарайск) – Moskva vilayətində şəhər və inzibati rayon mərkəzi; ilk mənbələrdə Kızıl, 1146-cı ildən Saray şəhəri kimi məlumdur. 1531-ci ildə III Vasilinin fərmanı ilə adı dəyişdirilmiş, rus orfoqrafiyasına uyğun Zaraysk qoyulmuşdur. Tver vilayətinə bağlı Zaraysk kəndi.

*TƏR, 96; Подмосковье, 67, 70*

**Zendik**ovo (Зендиково) – Moskva vilayətində Kaşira ray. aid kənd; Kurgin qobusu kənarında yerləşir. 500-ə yaxın yaşı olduğuna dair qeydlər var. Kəndin adı onun ilk sahibi Zendik (Yendik) Timiryazevin adındandır. Kəndin kənarında Kunev meşəsi, Mıtışi və Kol dərələri vardır. Timiryazevlər Cuci ulusu xanlarından Temir Qazinin nəslindən gəlir; onun 1374-cü ildə artıq Rus knyazları ilə ittifaqda olduğu qeyd olunur. Edigeyin sərkərdəsi olan oğlu İbrahim Temiryazev 1408-ci ildə provaslığa keçdikdən sonra nəsil Orlov, Kaluqa, Kaşira zadəganları kimi qeyd olunur.

*Веселовский, 122; ЭС, 2 t.s. 238;*
*Баскаков, 214-215*

## ƏDƏBİYYAT


1. Abdulkadir Dönük. **Eski türk devletlerinde idari-askeri ünvan ve** terimler. İstanbul, 1988
2. Atalay Besim. **Türk böyükləri və ya Türk adları**, Bakı, 2004
3. **Azərbaycan Toponimlərinin Ensiklopedik Lüğəti**. Azərbaycan Milli Elmlər Akademiyası. Nəsimi adına Dilçilik İnstitutu. 1 c., Şərq-Qərb Bakı, 2007
4. Dəmircizadə Ə. M.50 Söz, Bakı, Gənclik yayınları, 1968
5. **Ərəb və Fars sözləri lüğəti,** Bakı, Yazıçı, 1985
6. Halıkov. **500 Türk-Tatar asıllı sülale**, İstanbul, TDAV, 1990
7. **İslam Ansiklopedisi,** İstanbul, 1988-2006
8. Qəzənfər Kazımov. **Sənət düşüncələri**, Bakı, Kitab palatası, 1997
9. Təkəli N. Minaxanım. **Rus dilində türk sözləri**, Bakı, Nurlar, 2010
10. Təkəli N.Minaxanım. **Türkəsilli ruslar**, Nurlar, Bakı, 2011
11. Təkəli N. Minaxanım. **Türk İmzası**, Nurlar, Bakı, 2007
12. Təkəli N. Minaxanım. **Türk Kitabı,** Nurlar, Bakı, 2009
13. Təkəli N. Minaxanım. **Türk sözlərinin rus dilində mövqeyi: Xalq şivələrində türkcədən keçmiş sözlər** – Pedaqoji Universitetin Xəbərləri (Humanitar və Təbiət elmləri ser.), Bakı, 2011, №1; s. 166-172.
14. Təkəli Nuriyeva M. Türk yer adlarından ibarət rus şəxsiyyətlərinin titulları"Hərbi bilik", Bakı, 2000,№ 1.s. 108

**Rus dilində**

15. Агеева Р.А. и др. **Имена Московских улиц: Топонимический словарь,** Москва,ОГИ, 2007
16. **Архитектурные памятники Москвы и Подмосковья,** М.., 1954







17. Арсланов Л.Ш. **К вопросу о каракашском языке,** - Советская тюркология, 1977, №4, s.70-78
18. Баев М.С. **Вторичное открытие села Гребнева,** Москва, 2002
19. Баскаков Н.А. **Русские фамилии тюркского происхождения,** Баку, Язычы, 1992
20. Баскаков Н.А.**Тюркизмы в названиях Московских улиц** – Советская Тюркология, 1979, №2, s.20-29.
21. Баскаков Н.А. **"Тюркская лексика в "Слове о полку Игореве",** Москва, Наука, 1985
22. **Большая Советская Энциклопедия,** (в 30-ти томах), Москва, изд. СЭ, 1968-1978; т.16
23. Вагнер Б.Б. **Топонимия Московского региона,** Москва, 2009
24. Вагнер Б. Б. **Реки и озёра Подмосковья.** — М.: Вече, 2006.
25. Ведина Т. **Энциклопедия русских фамилий. Тайны происхождения и значения:** Астрель, АСТ; Москва; 2008
26. Веселовский С.Б. **Ономастикон. Древнерусские имена, прозвища и фамилии,** Москва, Наука, 1974
27. Веселовский.С.Б. **Топонимика на служба у истории//** Исторические записки 1945.№17, с.24-52
28. Веселовский С.Б. **Труды по источниковедению и истории России периода феодализма,** Москва, Наука, 1978
29. Водолагин М. А. **Очерки истории Волгограда,** М., 1968
30. Гарин Г. Ф., Савоскул С. С., Шилов В. В. **Серпухов**– М.: Московский рабочий, 1989.
31. Горбаневский М.В. **В мире имен и названий** – Знания 1983. (с.184-185)
32. Даль В.И. **Толковый словарь живого великорусского языка** (в четырех томах), Москва, Гос.изд. Иностранных и национальных словарей, 1955.

33. Дмитриев Н.К. **Строй тюркских языков**, Москва, изд. Восточной Литературы, 1962.
34. Добродомов И.Г. **Тюркизмы славянских языков как источник сведений по исторической фонетике тюркских языков** – Советская Тюркология, 1971, №2 (с. 81-92)
35. Долгоруков В.Г. **Путеводитель по Москве и ее окрестнотям,** М., 1872
36. **Древнетюркский словарь**, Лен., Наука, 1969
37. **Древняя одежда народов Восточной Европы**, М., 1986,
38. Жарымбетов А. **Тюркизмы в русских названиях фруктовых деревьев и кустарников** – Советская Тюркология, 1974, №4 (с.32-44)
39. Фасмер Макс. **Етимологический словарь русского языка** (в четырех томах), Москва, Прогресс, 1986-1987.
40. Карамзин Н.М. **История Государство Российского** (XII томов, в 4-х книгах). Москва, "Рипол-кlассиk", 1998.
41. Карамзин Н. М. Записка Московскич достопамятностях – Наше Наследия VI/1991
42. Каратыгин П. **Иван Константинович Айвазовский и его художественная XVII-летняя деятельность.**— "Русская старина", 1878, т. 21, № 4.
43. Кауфман И. М. **Русские биографические и биобиблиографические словари.** / [Перераб. и расшир. изд.] М.: Гос. изд-во культурно-просвет. лит., 1955.
44. Качанова В.И. **О заселении Московского края в эпохи Дьяковской культуры.** В кн. Архитектурные памятники Москвы и Подмосковья, М., 1954.
45. Лелёвкин Дмитрий. **Топонимический словарь Новомосковского административного округа Москвы**, Москва, 2013
46. Любомиров П.Г. **Очерки истории Нижегородского ополчения**, Соцэкгиз,1939
47. Малов С. Е. **Памятники древнетюркской писменности,** М-Л, 1951





48. Мельхеев М.Н. **Географические имена**, М. Учпедгиз, 1961
49. Менгес К.Г. Восточные элементы в "Слове о полку Игореве" – Лен., Наука, 1979
50. **Москва-Энциклопедия**, Москва, изд.: Советская Энциклопедия, 1980
51. Мурзаев Э.М. **Географические названия – памятник событий** – «Знамя», 1991,№6 (ст. 233-236)
52. Мурзаев Э. М. **Тюркские географические названия.** М.: Восточная литература. 1996.
53. Мурзаев Э.М. **Географические термины в топонимии Москвы.** В кн.: Географические название в Москве, М., Мысль, 1985 (с.47-59)
54. **Наш край Хроника истории Волгограда и области,** Волгоград, 1973
55. Никонов В. А. **Краткий топономический словарь,** Москва, Мысль, 1966
56. Одинцов Г.Ф. Из истории древнерусских названий стрел. В кн.: Этимология 1983; М., 1985
57. Одинцов Г.Ф. Из **истории тюркизмов в русской оружейной терминологии** – Советская тюркология, № 5, 1983. (с.14-25)
58. **Подмосковье. Памятные места в истории русской культуры 14-19 веков**, М, Московский рабочий, 1955
59. Поспелов Е.М. **Географические названия Московской области: Топонимический словарь.** - М., Профиздат, 2008
60. Радлов, В.В. **Опыт словаря тюркских наречий,** (в 4-х томах), СПб. 1893-1911
61. Сагитова А.Г. **Тюркизмы в названиях предметов домашнего обихода** – Автореф. канд. фил. наук., Казан, 1992
62. Саттаров Г.Ф. **Ойкономические термины со значением "город" и "село" в истории татарского языка и топонимии**, Советская Тюркология -1988,№ 1 с.47-58

63. Сытин П.В. **Откуда произошли названия улиц Москвы**, Московский Рабочий, 1959.
64. Скрынников Р.Г. **Иван Грозный**. изд. Наука, М.,1983.
65. **Словарь Русского Языка XI-XVII вв., (в 6-ти выпусках),** Наука, Москва, 1975-1979
66. Смолицкая Г.П., Горбаневский М.В. **Топонимия Москвы,** Наука, Москва, 1982
67. Смолицкая Г.П., **Топонимеческий словарь Центральной России-**"Русская речь» 2001 №1
68. Срезневский, И.И. **Словарь древнерусского языка** (в трех томах), Москва, Книга, 1989.
69. Суперанская А. В. **Имя через века и страны**, М., Книга, 2010
70. Шанский Н.М. **В мире слов** - Москва: Просвещение, 1971
71. Шестернина Н.С. **Топонимическое путешествие:** От Красной площади до Марьина, М., Вече, 2007
72. Шипова Е.Н. **Словарь тюркизмов в русском языке**, Алма-Ата, Наука, 1976.
73. **Улицы Москвы. Старые и новые названия**. М., 2003
74. **Энциклопедический Словарь Брокгауза и Ефрона**: В 86 томах – СПб., 1890–1907.
75. Яновский А. Л. **Юрий Долгорукий**, изд. Моск. Раб., 1955,
76. Источник: http://names.neolove.ru/last_names/27/jum/jumatov.html © NeoLove.ru)






## Şərti ixtisarlar

**Агеева** – Агеева Р.А. и др. Имена Московских улиц: Топонимический словарь

**Atalay** – Besim Atalay -Türk böyükləri və ya Türk adları

**Баскаков** – Баскаков Н.А. Русские фамилии тюркского происхождения

**Баскаков ТНМУ** – Баскаков Н.А.Тюркизмы в названиях Московских улиц

**Баскаков ТЛС** – Баскаков Н.А. "Тюркская лексика в "Слове о полку Игореве"

**БСЭ** – Большая Советская Энциклопедия

**QK** – Qeydiyyat Kitabı

**Даль** – Даль В.И. Толковый словарь живого великорусского языка

**Дм.** – Дмитриев Н.К. **Строй тюркских языков**

**Долгоруков** – Долгоруков В.Г. **Путеводитель по Москве и ее окрестнотям**

**ДТС** – Древнетюркский словарь

**ƏFL** – Ərəb və Fars sözləri lüğəti

**Halıkov** – 500 Türk-Tatar asıllı sülale

**Фасмер** – Фасмер Макс. Етимологический словарь русского языка

**Лелёв.** – Лелёвкин Дмитрий. Топонимический словарь Новомосковского административного округа Москвы

**МЭ** – Москва-Энциклопедия

**Подмосковье** – Подмосковье. Памятные места в истории русской культуры 14-19 веков

**Поспелов** – Поспелов Е.М. Географические названия Московской области: Топонимический словарь

**Türk İ.** – Türk İmzası

**RTS** – Rus dilində türk sözləri

**TƏR** – Türkəsilli ruslar

**TK** – Türk Kitabı. Unudulan Tarix. Dəyişən adlar.
**Т. Москвы** – Топонимия Москвы

**Радлов** – Радлов В.В. Опыт словаря тюркских наречий

**СРЯ** – Словарь Русского Языка XI-XVII вв.
**Сытин** – Сытин П.В. Откуда произошли названия улиц Москвы
**Срезн.** – Срезневский, И.И. Словарь древнерусского языка

**Шипова** – Шипова Е.Н. Словарь тюркизмов в русском языке
**Вагнер** – Вагнер Б.Б. Топонимия Московского региона
**Ведина** – Ведина Т. Энциклопедия русских фамилий. Тайны происхождения и значения
**Веселовский** – Веселовский. Ономастикон. Древнерусские имена, прозвища и фамилии
**Веселовский Труды...,** – Веселовский С.Б. Труды по источниковедению и истории России периода феодализма

**ЭС** – Энциклопедический Словарь Брокгауза и Ефрона





## Mündəricat

*Nizami Cəfərov.* Tarix yaddaşdırsa, hər söz də bir tarixi abidədir. ........ 3
Oxucuya ........ 7
Moskvanın tarixi toponimləri ........ 10
Mərkəzi Rusiyanın Türk coğrafiyası ........ 27
Ədəbiyyat ........ 272
Şərti ixtisarlar ........ 277

**Minaxanım Təkəli N.**

# Mərkəzi Rusiyanın Türk coğrafiyası

**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Mətanət Əliqızı*

Çapa imzalanmışdır: 28.04.2018. Format: 60x90 1/16.
Həcmi: 17,5 ç.v. Sifariş № . Tiraj: 300

"Zərdabi LTD" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, mob.: (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru